AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## II kitab
## (İRAQ-TÜRKMAN CİLDİ)

Bakı 2009

**Kitab AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur**

**TƏRTİBÇİLƏR:** **F.e.d., prof. Qəzənfər PAŞAYEV,**

**Д-р Ябдцллятиф**

**REDAKTOR:**

**Ф.е.д., проф. Йашар ГАРАЙЕВ**

**.e.d., prof. Hüseyn İSMAYILOV**

**RƏYÇİLƏR:** **F.e.d., prof. Azad NƏBİYEV,**
**F.e.d., prof. İsrafil ABBASLI**

**NƏŞRİNƏ MƏSUL:** **F.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru antologiyası, II kitab (İraq-türkman cildi), Bakı, «Nurlan», 2009.   səh.**

AMEA Folklor İnstitutunun nəşr etdirdiyi «Azərbaycan folkloru antologiyası» silsiləsindən bu yeni cilddə İraq-türkman ellərində yaşayan soydaşlarımızın qədim və zəngin, təkrarsız və əlvan folklor örnəkləri —mərasimlər, ilkin şifahi söz inciləri, lirik və epik nümunələr, xoyrat, bayatı, atalar sözü, zərbül-məsəllər, nəğmələr... toplanmışdır.

**4702060105**
**A ---------------------- Qrifli nəşr**
**098-2009**

© «Ağrıdağ», 1999.
© Folklor İnstitutu, 2009.

## BİTİB-TÜKƏNMƏYƏN İNCİLƏR XƏZİNƏSİ...

Xalqın epik və etnik yaddaşı onun folklorudur. Epos - süzün həqiqi mənasında ana və beşik, etnosun üzüdür, milli «mən»in və genin uyuduğu əbədi «yurd yeri»dir, baba ruhunun, ata soyunun və ana dilinin yaşadığı ilahi, sakral bədii yuva və ərazidir, yalnız azəri, yalnız türk ünvanlı hikmətin və irfanın, istəyin və arzunun, təsəvvür və təfəkkürün, təkrarsız mənəvi aləmin bitib-tükənmədiyi xəzinədir. Hələ bu da azmış kimi, «Folklor Şərq müdriklərinə üz sərrastlığı və dəqiqliyi ilə sezilən elə bir hikmət bəxş etmişdir ki, eşidənlər bir yandan mat qalır, digər tərəfdən də onlara pərəstiş edirlər».[1]

Folkloru bilmədən millətin psixologiyasını, müstəqil, milli, fərdi mentalitetin sabit, əbədi daşıyıcısı kimi onun etnik «mən»ini, ümumbəşəri və qlobal yaddaşda məhz bu «mən»lə təmsil olunan bədii arxetipi, fəlsəfi-estetik kodu və geni arayıb-axtarmaq, tapıb, ayırıb incələmək qeyri-mümkündür.

Vaxtilə professor Yaşar Qarayevin dəqiq işlətdiyi obraz və ifadələrlə desək, vəhdətə aparan yol, ünvan və məskən kimi eşqin «can evi»nə /Füzuli/ hikmətdən, süzdən təməl və daş qoyan, əzəli, əbədi, vahid mənəvi məkanı hissin, şüurun stixiyasında, əsatirdə və bayatıda, nağılda və dastanda yaşadan, xalqın bütüvlüyünü, soyunu, əslini, zatını inamda, düşüncədə, mənəviyyatda yox olmağa, dağılmağa, tar-mar olmağa qoymayan — folklordur.

Nəzərə alsaq ki, müəyyən ictimai-siyasi səbəblər üzündən başqa xalqlar əhatəsində, «İraq şimalında Ərbil və Kərkük vilayətlərində bu gün iki milyon yarım türkmən-azəri yaşayır»[2] xatırlatdığımız bütün bu problemlər baxımından onların folklorunun toplanması, nəşri və tədqiqi xüsusilə büyük əhəmiyyət kəsb edir. Bu xalqın ruhunda və təbiətində, rübab, saz və süz xəzinəsinin hər qatında Azərbaycan folkloruna bir doğmalıq, məhrəmlik və əkizlik

---

1. В.П.Аникин. Народная мудрость. Пословицы и поговорки народов Востока. Из-во Восточная литература. М., 1961. ст. 18.
2. Cəlal Ərtuq. Türkiyədə və dünyada İhsan Doğramaçı fenomeni. Monoqrafiya, Ankara, 1996, s.8.

yaşayır. Nə yaxşı ki, tarix bu məhrəmliyi qoruyub saxlayıb. Nə yaxşı ki, şüurda, düşüncədə, mənəviyyatda xalq parzalanmayıb!... «Axı daşlar ovula-ovula ülür, qayalar sükülə-sükülə, bulaqlar quruya-quruya, zaylar zəkilə-zəkilə ülür, millət isə unuda-unuda, yaddaşdan təmizlənə-təmizlənə...».[3]

Lakin insana təsəlli verən gün kimi aydın bir həqiqət də vardır. Kərküklü İrmaq Səidin doğru qeyd etdiyi kimi, «Vətən torpağı kizilib-genişlənə bilər, sərhədləri tükənə bilər, tarixi təhrif edilə bilər; hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər» (4). Lakin dil və folklor adlandırılan iki varlıq vardır ki, həyat yaşadıqca yaşayır, xalqın kezmişi haqqında danışa bilən təkzibolunmaz tarixi sənədə zevrilir. İraq-Türkman folklorunun ədəbi-tarixi qiyməti, bizcə, hər şeydən əvvəl bundadır.

Azərbaycan folklor antologiyaları silsiləsindən oxuculara təqdim olunan «İraq-türkman folkloru» cildində xalq arasında yayılan bütün xalq yaradıcılığı nümunələri, doğma Füzuli yurdunda, «yaxın və uzaq» İraqda yaşayan soydaşların qədim və zəngin, təkrarsız və əlvan folklor irsinə xas bədii spesifika, forma, janr, poetika, üslub tipologiyası geniş əhatə olunur: mərasim folkloru, ilkin janrlar, şifahi lirik və epik poeziya, xoyrat, bayatı, atalar süzü, zərbülməsəllər, dua, alqış, qarğış və nəğmələr...

Bu janr və nüvlərin, demək olar ki, hamısı ilə bağlı olan Türkman uşaq folkloru kitabda ayrıca bülmədə verilib. «Kərkük dünyası» adlanan digər ayrıca bülmədə isə oxucu yalnız bülgəyə məxsus nadir nümunələrlə qarşılaşacaq. Kitabda nə verilibsə, hamısı İraq türkmanlarının üz dillərində, necə var, eləcə də verilib. Eyni dildə danışdığımıza gürə azərbaycanlı oxucu xoyratzı türkmanla elə ilk təmasda hez bir zətinliklə qarşılaşmayacaqdır. Müəyyən ləhcə xüsusiyyətlərinin olması da nəzərə alınmış, kitabın sonunda dialekt və şivə fərqlərini əhatə edən «lüğət» verilmişdir.

---

3. Yaşar Qarayev. Folklorumuzun tarixi. Bax: Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı» kitabı, Bakı, Yazıçı, 1990, s. 3-4.

4. «Qardaşlıq» jurnalı, Bağdad, 1962, №5.

Antologiya İraq-türkman folklorunda zox geniş yayılan janrlardan biri ilə —xalq mərasim və nəğmələri ilə başlayır: «Dini mərasim və nəğmələr; məişət mərasim və nəğmələri».

Xalq mərasim və nəğmələri xüsusilə geniş yayılıb və demək olar ki, insanı beşikdən qəbrədək müşayiət edir. Min illərdir ki, insan doğulur, nəsil artırır, nəhayət, həyatdan küzür. Bu üz mərhələnin üzü də folklorda doğum, toy, yas mərasimləri şəklində, onlarda oxunan nəğmələr şəklində nəsillərin yaddaşında əbədiləşdirilmişdir. Məqamına gürə bir qism mərasim nəğmələri qəm, qüssə, kədər, hüznlə bağlı yaranıb. Başqa bir qism nəğmələr arzu-dilək, şadlıq, sevinc əhval-ruhiyyəsini əks etdirir.

Müvsüm mərasimi ilə bağlı nəğmələrdə isə ayrı-ayrı təbiət hadisələrinə inam və etiqadlar üz əksini tapır. Burada yağışın yağması, küləyin əsməsi, oda, suya, küləyə və s. inamla və etiqadlarla əlaqədar motivlər üstünlük təşkil edir. Bu nəğmələrdə hər şeydən əvvəl diqqəti cəlb edən onların qədimliyidir. Məsələn, küləklə bağlı nəğmədə antropomorfik təsəvvürün izinə düşürük:

Heydər, Heydər asa gəl,
Xırmanları basa gəl.
Əmin qızı ülübdür,
Durmagınan yasa gəl.

Güründüyü kimi, taxılı xırmanda sovrulmamış qalan insan küləyi küməyə zağırır, onu insaniləşdirir və həm də deyərdik ki, eynilə Azərbaycan folklorunda olduğu kimi, ilahiləşdirir. Eyni zamanda süzün gücü ilə təbii hadisələrə təsir güstərməyə can atır.

Müvsüm mərasim və nəğmələri arasında daha zox yayılanlar yağışın yağması ilə əlaqədar olanlardır. Bu mərasimdə, demək olar ki, bütün məmləkət iştirak edərdi. Ulu tanrıya təsir üsulu və vasitəsi kimi «Kosa kəldi», «Qodu», yaxud da «Zəmzələ qız» mərasimi kezirilərdi.

Kosa, demək olar ki, eynilə Azərbaycanda olduğu kimi, üzünü qaralar, zılğı /kezi dərisi/ geyər, kezədən papaq, qulaq, buynuz, quyruq düzəldər, boynuna qanqavur /zınqırov/ taxar, üzünü tanınmaz və əcaib bir hala salardı. Kosa ev-ev gəzər, qapıları düyər,

atlanıb-düşər, cürbəcür oyunlar zıxarar, arxasınca gedənlər onu /Azərbaycanda «Kosa-Kosa» və «Yağışı zağır» mərasimlərində olduğu kimi/ ənənəvi mərasim nəğmələri ilə müşayiət edərdilər:

| | |
|---|---|
| Allah bir yağış elə | Azın anbar ağzını. |
| Dam-divarı yaş elə. | Verin yağış payını. |
| Əmim oğlu kezəndə | Verənlər xatın olsun, |
| Əlbəsəsin yaş elə. | Verməyən qatır olsun. |

Dini mərasimlər və nəğmələr daha zox dini bayramlarla əlaqədar olurdu: Qurban bayramı, Aşura, Peyğəmbərin ad günü, Ramazan bayramı və s. Bunların arasında ən zox yayılanı Ramazan bayramı ilə bağlı nəğmələrdir. Ramazan bayramını uşaqlar büyük səbirsizliklə güzləyir və nəğmələrlə qarşılayırdılar:

Bayrama qaldı bir həftə
Hilli, bibərli küftə.

Və ya:

Gənə gəldi Ramazan, mollalar oxur azan,
Barmaqların tükülsün yarı əsgərə yazan.

Eləcə də:

Ramazan, qarnı bir qazan
Əlində kəfkir, qapılar gəzən.

Və ya:

Gənə gəldi Ramazan, əlində kəfgir-qazan,
Hər gecə bir ev gəzər, hanı nemətim yazan.

Kərkük dolaylarında dini bayramların yaddaşlarda qalması üzün bir sıra düvlət tədbirlərinə də əl atılır. Təkcə onu demək kifayətdir ki, Ramazan və Qurban bayramlarının hər biri düvlət tərəfindən üz-dürd gün istirahət günü elan edilir.

İraq-türkman folklorunda məişətlə bağlı mərasim və nəğmələr də xalqın mənəvi həyatının ayrılmaz hissəsi kimi ən qədim düvrlərdən üzünü güstərir.

Xalqın əxlaq təcrübəsi, adət-ənənəsi, inam və etiqadları əsasında yaranan, insan ümrünün hər bir mərhələsini üzünəməxsus bir tərzdə əks etdirən məişət mərasim və nəğmələri, hər şeydən əvvəl, əcdadlarımızın həyatı ilə bağlı etnoqrafik informasiya ilə zəngin və

qiymətlidir. Bu baxımdan Azərbaycan folklorunda olduğu kimi, İraq-türkman folklorunda da məişət mərasim və nəğmələrində xalqın həm yas, həm də toy ənənəsində poetik təfəkkür və hissiyyat tərzinin təfərrüat və təfsilatı üzünü qabarıq şəkildə güstərir.

İraq-türkman folkloruna xas olan qədim ənənəvi mərasimlər arasında büyük intizarla güzlənilən və xalqa ən zox nəşə verən toy mərasim və nəğmələridir. Kitabda bütüvlükdə verilən «Evlənmə və toy adətləri» bülməsində də gürəcəyimiz kimi, bu mərasimdə oyun, musiqi və süz iştirak edir, gənclər zurna, nağara sədaları altında halay təpir, bəzən at zapır, qurşaq tutur, tüfəng, tapanca atır, nişan qurur, yarışlar kezirirlər. Bunlar, bir tərəfdən, toyu yaddanzıxmaz və maraqlı edir, digər tərəfdən də bunlarda qədim inam və etiqadlar güzlənilir. Məsələ burasındadır ki, Azərbaycanda olduğu kimi, İraq-türkman folklorunda da atəşpərəstliklə bağlı inanclar gərəyincədir. Təkcə onu demək kifayətdir ki, Aya, Günə, ocağa, zırağa and izirlər. Toy vaxtı zurna, nağara zalınır, sevinclə «lulululu» —deyə qışqırır, səs-küy salır, gəlinin ətrafında oynayır, tüfəng və tapanzadan atəş azırlar ki, şər qüvvələr gəlinə yaxın düşüb bir fənalıq türətməsinlər. Toy ərəfəsində və eləcə də toy vaxtı gəlinin yanında güzgü, yanar zıraq və ya şam olması, bəy evinə güzgü, zıraq və şam aparılması, gəlinin bəy evində də güzgü və şamlarla qarşılanması ona gürə edilir ki, gənclərin həyatları həm nurlu, işıqlı olsun, həm də şər qüvvələr oddan, parıltıdan, işıqdan, işığı əks etdirən vasitələrdən, silah və onun səsindən qorxub gəlinə yaxın düşməsin, ona xətər yetirə bilməsin. Toy mərasimlərinin müxtəlif məqamları ilə bağlı bir zox mahnılar da vardır. Bu nəğmələr İraq-türkman folklorunu yaradıb-yaşadanların bədii təfəkkürünü və rəngarəng adət-ənənələrini əhatəli əks etdirmək baxımından büyük əhəmiyyət kəsb edir. Toy mərasimlərini rüvnəqləndirən mahnılar İraq-Türkman folklorunun və eləcə də onun folklor musiqisinin tədqiqində əvəzsiz xəzinəyə zevrilir.

Yas mərasim və nəğmələri də üz zənginliyi ilə «Toy» mərasim folklorundan geridə qalmır və matəm vaxtı icra olunurlar. Bir evdə ülü düşəndə üz gün, üz gecə yas tuturlar. Bəzi bülgələrdə yas yeddi

gün davam edir. Qadınlar ailədə baş vermiş kədərlə bağlı sinələrini yırtır, sazlarını yolur, üzlərini cırır, «vay balam, vay» deyərək sızlamağa başlayırlar. Sızlamaqdan əvvəl rəhmətə gedənin yaşına, peşəsinə, həyatda tutduğu müvqeyinə, mənsəbinə, əxlaq və güzəlliyinə, boy-buxununa, qorxmazlığına, cəsarətinə, səxavətinə, şan-şührətinə, xeyirxahlığına uyğun süzlər sadalanır. Buna gürədir ki, sızlamaqlar /ağılar/ İraq-türkman folklorunda həm nəsr, həm də nəzm şəklində olur. Nəzm şəklində olanlar əksəriyyət təşkil edir.

Sızlamaq süzündən yaranan sızlamaqlar ailənin məruz qaldığı fəlakəti, az üncə sünən həyatı, ələm və azıları üzündə canlandırır.

Yas məclislərinə «sızlayan» adlanan peşəkar qadınlar dəvət olunurlar. Saysız-hesabsız ağı və sızlamaq bilən bu qadınlar yanıqlı səslə yasa yığılanların qəlbinə od salır, xalqın təskinlik tapdığı sızlama, xoyrat və laylalardan məharətlə, yerinə münasib istifadə edirlər.

Yas məclislərinə peşəkar «yuğcu» - «yığzı»ların dəvət olunması, onların dedikləri ağıların təsiri altında güz yaşı tüküb ağlamaq qədimdən qalma adətdir. Bununla əlaqədar qeyd etmək maraqlı və əhəmiyyətlidir ki, İraq-türkman folklorunda indinin üzündə belə «ağlamaq» süzünün yalnız qədim «yığlamaq» forması üzünü güstərir ki, «yuğzu» və ya «yığzı» da həmin süzdən yaranmışdır. Sazlamaqlar «Segah» və «Qarabağı» muğamından yaranıb. «Müxalif» xoyrat havasına da oxşayır. Odur ki, yas məclislərində qadınlar sazlamaqları «Segah», «Qarabağı» və «Muxalif» üstə oxuyurlar. Sızlamaqlar yas mərasimlərində qəm, qüssə, kədər və ağrını ifadə etmək üzün istifadə olunan, yalnız qadınların yaradıcılığının məhsulu olan bir janrdır. Sızlamaqlar sayza zox, məzmunca rəngarəngdir. Sızlamaqlar formaca xoyrat və manilərə oxşasalar da məzmunca, oxunuş tərzinə və icra yerinə gürə onlardan fərqlənirlər.

Yas mərasimlərində bəzən layla və oxşamalardan da istifadə edilir. Onlar da sızlamaqlara bənzəyirlər. Lakin bu bənzəyiş zahiridir. Məzmunca layla və oxşamalarda sevinc, şadlıq, arzu-dilək, ümid üstünlük təşkil etdiyi halda, sızlamaqlarda qəm - qüssə - kədər, dərin həsrət motivləri güclü olur.

Üz poetik tutumuna gürə, xoyrat, mani və laylalardan bir az sünük gürünsələr də, qəm, qüssə, kədər, güz yaşı, bədbinlik əhval-ruhiyyəsi bu janrda məqamına gürə zox təsirli olur. Məhz buna gürə də sızlamaqlar da İraq türkmanları arasında bayatılar, laylalar, oxşamalar kimi geniş yayılmışdır...

İnsanın təbiəti elədir ki, o müəyyən varlıqlara inanır. Bu baxımdan xalqın zox qədim yaradıcılıq məhsulu kimi, cəmiyyətin gərdişində üz yeri, sanbalı olan ilkin janrlar büyük dəyər kəsb edir. Buraya, əsasən, inanclar, yemindlər /andlar/, dualar /alqışlar/, bəddualar /qarğışlar/, fallar daxildir.

İnsanların real həyat hadisələrinə inam və etiqadlarının bədii əksi bu janrların əsas səciyyəvi xüsusiyyətlərini təşkil edir. Bunlar müşahidə, inam nəticəsində sınaq və təcrübədən kezirilərək qətiləşmiş, xalq yaradıcılığının ilkin janrlarına zevrilmişlər.

Azərbaycanda xalq arasında sınama, yozum, inam adları ilə tanınan inancların forma-məzmun xüsusiyyəti də, demək olar ki, tamamilə bir-birinin eynidir. İraq-türkman folklorunda da inancları «sınamalar nəticəsində qətiləşən hükmlərin bədii ifadəsi»[5] hesab etmək olar.

İnancları İraq-türkman folklorunda aşağıdakı kimi qruplaşdırmaq olar: məişət və mərasimlərlə, təbiət hadisələri, bitki və heyvanat aləmi ilə bağlı inanclar, astral təsəvvürlər və əsatiri gürüşlərlə bağlı inanclar.

Xalqın kezmişini, adət-ənənələrini, həyat tərzini üyrənməkdə büyük əhəmiyyəti olan janrlardan biri də yemindlərdir. Kərkük folklorunda bu janr gah «and», gah «yemind», gah da «qəsəm» kimi tanınır. Bunu «Arzu-Qəmbər» dastanından da gürmək olur: «Yox vallah, nənə, bunca and, bunca yemind, tez gəlləm».

Bununla belə, İraq-türkman folklorunda mənşəcə ərəb kəlməsi «yəmin»dən olan «yemind»lər istilahı daha zox işlənir.

Qeyd etmək lazımdır ki, andlar ilk düvrlərdən indiyə kimi müqəddəs sayılmış, andı pozan adama alzaq nəzərlə baxılmış, o,

---

5. Azad Nəbiyev. Azərbaycan folklorunun janrları. I hissə, Bakı, ADU nəşr., 1983, s.49.

yalanzı bir adam kimi tanınmış, belə adamların xalq arasında hürməti olmamışdır. Buna gürədir ki, xalq izində andı namus, qeyrət, şərəflə bərabər tutmuş, onu pozmağa cəsarət etməmişlər. Aşağıdakı misallar dediklərmizi təsdiqləyir: «Ülümüm gürəsən», «İki güzüm kor olsun», «Güzüm təpəmə zıxsın», «Gavur türbəsində yatım», «Toppuğum yerə dəymiş olsun» - yəni, yalan desəm, ülüm. «Əsgər qazağı olum» - yəni yalan desəm, züllərə düşüm, ümrüm boyu qorxu, əzab-əziyyət izində yaşayım.

Deмək lazımdır ki, İraq-türkman folklorunda da andların ən qədim olanları zərdüştlüklə və ondan əvvəlki düvrlərin təsəvvürlərilə bağlı yarananlardır. İnsan Aya, Günəşə, oda, suya, güyə, yerə müqəddəs varlıqlar kimi baxmış və nəticədə andlar meydana gəlmişdir: «Bu Günəş haqqiyzi», «Bu Günəşə kor baxım», «Ocaq haqqiyzi», «Pirə yemind edirəm» və s.

İkinci qism yemindlər islam dini ilə əlaqədar yaranmışlar: «Allah haqqiyzi», «Peyğəmbərin başıyzi», «Quran haqqıyzi», «İmam - haqqıyzi», «Dinimdə», «İmanımda» və s.

Sonrakı qism yemindlər bərəkət və qüdsiyyətə rəğmən yaranmışlar: «Duz-əkmək haqqiyzi», «Nemət haqqiyzi», «Bərəkət haqqiyzi».

Nisbətən sonralar isə insan təsəvvürləri dəyişdikcə kühnə andlarla bərabər, yeniləri də meydana gəlməyə başlayır. Bunların arasında ata-ana, qardaş-bacı, üvlad, əmi, dayı, xala, bibi kimi əziz və yaxın adamlarla, namus, qeyrət, şərəf anlamları ilə bağlı andlar daha zoxdur: «Mərd başıyzin», «Namusumda», «Şərəfimdə», «Zanıva yemind olsun», «Adıva qəsəm olsun», «Babamın canıyzin», «Qardaşımın canıyzin» və s.

Güründüyü kimi, İraq-türkman folklorunda xalq ədəbiyyatının ilkin janrlarından olan yemindlər qədim zamanlardan müqəddəs, sonralar isə qismən müqəddəs və əziz sayılan insan və varlıqlarla əlaqəli yaranmışdır.

Dualar və bəddualar İraq-türkman folklorunda ilkin janrların ən geniş yayılanlarıdır. Belə ki, indinin üzündə belə, onları hər an xalq arasında danışıq əsnasında eşitmək olur. Ta qədim zamanlar-

dan dua /alqış/ və bəddualar /qarğış/ xalqın həyatında müəyyən rol oynamış, onların büyük əxlaqi və psixoloji mənası olmuşdur. Şübhəsiz, buna gürədir ki, dua və bəddualar folklorun bayatı, nağıl, dastan, oxşama, sızlamaq /ağı/ və s. kimi janrlarında geniş yer almışdır. İnsanlarda belə bir inam yaranmışdır ki, qarğış adamı tutur, onun başına pis hadisə gəlməsinə səbəb olur. Bu baxımdan, hal-hazırda da qarğışlardan zəkinərək pis əməllərə yol verməməyə zalışırlar. Xeyirxah işlərə can atırlar ki, onlara dua etsinlər.

Kərkük dolaylarında indinin üzündə belə xalq pisə nifrətini, yaxşıya rəğbətini ifadə etmək üzün alqış və qarğışlardan geniş istifadə edir. Başqa süzlə desək, insanlar alqış və qarğışlarda süzün əfsunkar qüvvəsinin təsiri ilə istəklərinə nail olmağa can atırlar.

Bu baxımdan psixoloji ovqat və funksional vəziyyət etibarilə dualar da alqışlar kimi, xeyir-dua vermək, alqışlamaq, uğur arzulamaq məramı ilə bağlı yaranmış, ayrı-ayrı erkən pozitiv inamları ifadə etmişlər. Duanın əsasında dayanan alqışda başlıca cəhət yaxşılıq və uğur diləməkdir.

Ümumiyyətlə, insana yaxşı keyfiyyətlər aşılamaq, onu xeyirə və xeyirxah işlərə süvq etmək, pis əməllərdən zəkindirməkdə alqış və qarğışların əhəmiyyəti büyükdür. İndinin üzündə belə, insan ağır bir işdən, bəladan, faciədən qurtaranda inanır ki, hər hansı bir xeyirxah əməlinə gürəsə bu bəladan qurtardı. Odur ki, kiminsə duasının müstəcəb olduğunu güz ününə gətirir. Bundan başqa, xeyir-dua insanlar arasında müəyyən psixoloji münasibətlərin yaranmasında, ovqat və əhvalların durulmasında müsbət rol oynayır. Xeyir-dua demək olar ki, İraq-türkmanlarının danışıqlarının bəzəyidir. Hər hansı iş üzün birinin yanına gedən qadının danışığında təqribən aşağıdakı süzləri eşitmək olar:

Qurbanın olum, başına dolanım,
Güzünə heyran, boyuna qurban.
Allah, sağ olasan,
Dünya durduqca durasan.
Qadanı alım, ünündə ülüm.
Qan etdim, qapına gəldim.

Büyüyümsən, ağamsan.
Məni əliboş qaytarma.

İlk baxışda adi gürünən «Qurbanın olum», «Başına dolanım», «Ünündə ülüm», «Büyüyümsən, ağamsan» və eləcə də «Sənə fəda olum», «Ayağının altında ülüm, ağamsan» ifadələrinin hər birinin arxasında xalqın əsrlər boyu milli-etnik və sosial-psixoloji tərzümeyi-hal kimi yaşatdığı tarixi təcrübənin əxlaqi yekunları, müdrik hikməti və ibrət dərsləri durur.

Elə ona gürə də xalqın kezmişinin zox dərin qatları ilə sıxı bağlı olan bu ifadələrin məna tutumu adamı heyrətə gətirir. «Qurbanın olum» ifadəsi xəstələnən adamın, xüsusən də uşağın başına qurbanlıq heyvan dolandırıb kəsməklə, bununla da şər qüvvəyə əvəz verdiklərinə, uşağın sağalacağına, qada-balanın, ağrı-acının qurban deyilən heyvana kezməsinə inamla əlaqədar yaranmışdır. İndinin üzündə belə, Azərbaycanda olduğu kimi, İraqda da üvlad-uşaqla bağlı müəyyən arzu-diləyin yerinə yetirilməsi ilə əlaqədar olaraq qurban deyilmiş toğlunu və ya qozu kəsərkən mütləq uşağın başına dolandırıb kəsirlər. İraqlı tədqiqatzı İbrahim Daquqi bu münasibətlə yazmışdır: «Türkmanlar cocuq xəstələndiyi zaman və ya başına başqa bir hadisə gəldiyi zaman ortaya əti yeyilən bir heyvan qoyurlar. Uşağın ətrafında dolandırıb kəsirlər. Sonra ətini fəqir-füqəraya, qonşulara paylayırlar. Beləliklə, xəstə şəfa tapır».[6]

Azərbaycandakı kimi, Kərkük dolaylarında da bir adam xəstənin başına dolansa, xəstənin sağalacağına, onun isə üləcəyinə, kiməsə qurban və ya fəda olacağına inanırlarmış. Beləliklə, «Başına dolanım», «Qurbanın olum», «Sənə fəda olum» və s. mənasında dua anlamı olan ifadələrin ilkin mərhələdə müəyyən inanc və etiqadlarla əlaqədar yarandığı aydın olur.

O ki qaldı «Ayağının altında ülüm, ağamsan», «Ünündə ülüm, büyüyümsən, ağamsan» - dualarına, qeyd etmək lazımdır ki, onlar daha qədim zamanlarda üzünü güstərən mərasimlərlə əlaqədar yaranmışlar. Təəssüf ki, son əsrdə müəyən tarixi-ictimai-siyasi səbəb-

6. İbrahim Dauqi. İraq türkmənləri. Dilləri, tarixləri, ədəbiyyatları. Ankara, 1970, s. 81.

lər üzündən Azərbaycanda bu dualara xüsusi məna verən «ağamsan», «büyüyümsən» süzləri dualardan atılmış, nəticədə duaların ilkin yaranışının araşdırılmasında müəyyən zətinliklərə gətirib zıxarmışdır. Məsələ burasındadır ki, dua mənasında işlənən bu ifadələr, «ağa», «büyük», «başzı» süzləri ilə sıxı əlaqədə yaranmışdır.

Şifahi bədii ənənədən və klassik yazılı ədəbiyyatdan gürünür ki, qədimlərdə əşirət başzısı və ya zox mütəbər bir şəxs vəfat etdikdə qul və xidmətzilərindən üldürüb onun ayaq ucunda basdırarlarmış.

İraq-türkman folklorunda xoyrat və manilərin büyük bir qismi dualarla bağlı yaranmışdır:

| | |
|---|---|
| Qurbanam qaşına, yar! | Ocağın; |
| Qoy dünüm başına, yar! | Daim yansın ozağın! |
| Məni bu qəmdən qurtar, | Üvladın qeydinə qal, |
| Dolandır başına, yar! | Kor olmasın ocağın. və s. |

Təkcə elə bu fakt duaların xalq arasında nə qədər geniş yayıldığına dəlalət edir.

Maraqlıdır ki, bəddualar da inanc və dualar kimi İraq-türkman folklorunda mühkəm yer alan janrlardandır. Xalqın kezmiş həyat tərzini, adət-ənənəsini, etik və estetik gürüşlərini tədqiq etmək baxımından bəddualar xüsusi əhəmiyyət kəsb edirlər.

Kərkük dolaylarında təsadüf edilən bədduaları təxminən üz qrupa bülmək olar:

1. Dini təsəvvürlərin təsiri ilə yaranan bəddualar.
2. Mərasimlərlə bağlı yaranan bəddualar.
3. Məişətlə bağlı yaranan bəddualar.

İraq-türkman folklorunda məişətlə bağlı yaranan bəddualar daha zoxdur.

Bədduaların bir zoxu kezmişdə müvcud olmuş, artıq məişətdən zıxmış, yavaş-yavaş yaddaşdan da zıxmaqda olan xəstəlikləri xalqın hafizəsində saxlamaq baxımından maraq doğurur. «Belsarma olasan!" —Belin sınsın; «Qan qusasan", "Qırran-qırsın" - Taun tutsun! - "Kükünüz kəsilsin"; "Yaman sancı tutasan", "Güzünə qara su ensin", "Güzünə mil zəkilsin"; "Qudurasan", "Ələt

süpürsün!" — Taun /cuma/ aparsın; "Pərkəm tutasan!" - "Partlamaya düşəsən"; "Yaman yara cıxarasan" və s.

İnsanın həyat və məişətində geniş yer alan dua və bəddualar insan təfəkkürünün hələ kifayət qədər formalaşmadığı qədim zamanlardan qalma ibtidai təsəvvürlərlə, inam və etiqadlarla bağlı adət-ənənələrdə, mərasimlərdə mühafizə olunmuş, düvrümüzə qədər gəlib zıxmışlar.

İraq-türkman folklorunda fallar da həyatdan, məişətdən gələn janr kimi geniş yayılmışdır. Demək olar ki, xalq arasında müvcud olan inamlarla, su ilə, ulduzlarla, kitabla və s. fala baxmaya Kərkük dolaylarında da rast gəlinir. Bununla belə, İraq-türkman folklorunda ən zox üzünü güstərən inamlarla bağlı şəkildə fala baxmaqdır. Bu cür fala baxmanın başlıza xüsusiyyəti ondan ibarətdir ki, burada inamlar əsas gütürülür.

Professor M.H.Təhmasib qeyd edir ki, Azərbaycanda fallar əsasən iki şəkildə olmuşdur. Bunlardan daha zox ibtidaisi «güz falı», nisbətən daha sonrakı düvrlərə aid olanı isə «qulaq falı»dır.

Bu, İraq-türkman folklorunda da eynilə belədir.

Demək lazımdır ki, İraq-türkman folklorunda da fallarla bağlı materiallar bu fikri tamamilə təsdiqləyir. Burada da falların əksəriyyətini arzu və niyyət tutmaqla bağlı inam və etiqadlar təşkil edir. Məsələn, əski zağlarda bir ailə başzısı başqa bir məmləkətə səfərə zıxsa və dünüşü geciksə, arxasınca qara tüklü toyuq uzurmaqla niyyət tutulardı. Toyuq evin damından uzurulurdu. Əgər toyuq evin həyətinə və ya lap yaxınına düşərsə qürbətdə olan şəxsin yaxın zamanda dünəcəyinə inanırdılar. Şayət uzağa uzsa, səfərin uzanazağına inanırdılar.

Maraqlıdır ki, güz falı nümunəsi olan bu inam xoyrat və manilərdə də üz əksini tapmışdır.

Uzurtdum qara tavuq,
Qondu Ərbilə yavuq.
Hamı gedənlər dündü,
Dünmədi başı savuq.

Güründüyü kimi, güz falının əsas məğzi güzlə gürülənə inamla bağlıdır.

Güz falından fərqli olaraq qulaq falında tutulmuş niyyətin yerinə yetirilib-yetirilməyəcəyi eşidilən süzlə, onun təsir gücü ilə əlaqələndirilir.

Bu cəhətdən «Cümə daşı atmaq» falı qulaq falına ən yaxşı nümunə kimi səciyyəvidir. Məsələn: hər hansı bir qadın səfərə zıxmış bir yaxını barədə və ya bir xəstənin şəfa tapması barədə niyyət tutaraq cümə namazının azanı oxunarkən bir yol başında yolun hər iki tərəfinə daş atır və namaza gedənlərin danışdığı süzlərdən asılı olaraq tutduğu niyyətin yaxşı və ya pis olacağı barədə nəticə zıxarırdı.

Zərif, narın poetik bizimi, Füzulivari bir dərd və eşq fəlsəfəsi, ayrılıq-həsrət-nisgil ovqatı ilə Azərbaycan və İraq türklərinin üzlərini və ədəbiyyatlarını bir-birinə hamıdan zox qovuşduran və birləşdirən sənət-folklor mücüzəsi şübhəsiz, xoyratlar və manilərdir. Heyrətamiz poetik gücü və zənginliyi ilə sezilən xoyratlar və manilər İraq-türkman folklorunun lirik nüvünün kütləvilik cəhətdən ən geniş yayılmış, bədiilik cəhətdən ən kamil janrıdır. Təsadüfi deyildir ki, kərküklü folklorşünas Əta Tərzibaşı yazmışdır: «Kərkük anıldığı zaman xatirə ilk olaraq xoyrat gəlir və xoyrat adını duyduğumuz vaxt xəyalımızda Kərkük eli canlanır».[7]

O da maraqlıdır ki, Tərzibaşıdan zox əvvəl, hələ XX əsrin əvvələrində tədqiqatzı Haşim Nahid xoyratların İraq-türkman folklorunda geniş yayıldığının şahidi olmuşdur: «Dürd misradan ibarət olan bu şeirlər o qədər boldur ki, əgər toplatdırıb bir araya gətirsələr cildlər təşkil edər».[8]

Demək lazımdır ki, əsrin əvvəlində olduğu kimi, xoyrat və manilər İraqda üz müvqeyini bu gün də mühkəm saxlamışdır. Bunun səbəbini, hər şeydən əvvəl, onların xəlqiliyində, xalq dilindən cüvhərlənərək ürəklərə asanlıqla yol tapmasında, fikir zənginliyində, forma yığcamlığında, dil təbiiliyində, müvzu rəngarəngliyində, bulaq kimi süzülərək xalqın qəlbindən gəlməsində, vəznində və ritmində, ruhunda və musiqisində, əbədi bəşəri, insani dəyərlər daşımasında, xalqın etnik tarixini, milli mənini və didərgin,

7. Əta Tərzibaşı. Kərkük xoyratları. Bağdad, 1961, s.42

8. Haşim Nahid. İraq türkləri. Türk yurdu» dərkisi, Ankara 1919, s. 85.

pərişan ruhunu əks etdirməsində, onun bədii təfəkkürünü, nəcib insani hisslərini, ehtiras və qəlb zırpıntılarını təbii, aydın və səmimi şəkildə ifadə etməsində axtarmaq lazımdır.

Klassik fəlsəfə və sənət səviyyəsinə yüksələn xoyrat və manilər xalqın dünənini, bu gününü, adət-ənənəsini, həyat tərzini üyrənmək baxımından da əvəzsiz xəzinədir.

Xoyrat və manilər cinaslı və adi qafiyəli olmaqla iki yerə bülünürlər. Cinaslılar xoyrat, cinassızlar isə mani və ya maani adlanır. Xalq arasında «sağ sikkə», «xalis altun» kimi tanınan, Əta Tərzibaşının «künüllərdən fışqıran izli duyğuları min bir sədaqətlə əks etdirən parlaq güzgü» adlandırdığı xoyratlar da tam və naqis cinaslı olmaqla iki yerə bülünür. Tam cinaslı xoyratlarda cinaslar hərfi-hərfinə uyğun gəlir:

Necə dağlar;
Qarşıda necə dağlar.
Yetim yanağı bilir
Güz yaşı necə dağlar.

Naqis cinaslı xoyratlarda isə bəzən cinas əmələ gətirən süzə bir-iki hərf əlavə olunur, bəzən hərf düşür, bəzən hərf dəyişir, bəzən də hərf üzündən əvvəlki süzün sonuna və ya üzündən sonrakı süzün əvvəlinə əlavə edilir:

Durdu qəm;
Azdı yaram, durdu qəm,
Mən miskin olduğumzün
Üstumə qudurdu qəm.

Qanad ağlar;
Ox titrər, qanad ağlar,
Ovum yaralı getdi,
Boyandı qana dağlar.

İraq-türkman xoyratları Bakıda ilk dəfə zap olunanda bu bizimdə poetik formanın Azərbaycanda yerli, milli folklor ənənəsində işlənmədiyi və bu cəhətdən bayatıların xoyratlardan fərqləndiyi qeyd edilmişdi. Lakin sonrakı tədqiqatlar güstərdi ki, Azərbaycanın müxtəlif guşələrində folklorşünaslarımızın «xoyratvari», yaxud, «kəsik bayatılar» adlandırdıqları xoyratlar istənilən qədərdir.

Xalqın həyatının, ictimai mənəvi gerzəkliyin bütün sahələrinə sirayət edən, milli mənəviyyatı, dünyagürüşünü, bəşəri duyğuları, insani hiss və həyəcanları, şəxsi, fərdi sevinci və mühnəti, qəmi və

qüssəni, kədəri və ələmi, gərdişə münasibəti, sevgi-məhəbbəti və nifrəti, fitri-təbii ekoloji mühitə munasibəti, füvqəltəbii ilahi arzu və istəyi, yaşamaq eşqini və həvəsini, intizarı və həsrəti, daxili heysiyyəti, izzət-nəfsi, ləyaqəti, inam və etaqadı, el-oba qeyrətini, ar-namusu, hünəri və şücaəti, saf əməli və vicdanı, təbiət və torpağa münasibəti, əxlaqı, təmiz adı, zülmə-zorakılığa və haqsızlığa qarşı el mübarizəsini, ah-nalə, üzüntü-nigaranzılıq iztirabını, vəfa-sədaqət etibarını, sevgi və həsrət əzab-əziyyətini, vətənə, xalqa bağlılığı, vətənlə, torpaqla bağlı müqəddəsliyi, yurd-yuva hicran və fərağını, yad el-qürbət hisslərini, cəngavərliyi və igidliyi, şərə, xəyanətə, fitnəyə amansız qəzəbi və hiddəti, xalqın güzəranı, taleyi, sabahı ilə bağlı ümid və arzuları, əməyə-zəhmətə-torpağa üvlad münasibətini, sayıb-sayılmağı, dostdan umu-küsü və giley-güzarı, iftixar, məğrurluq, dostluq, iradə, nikbinlik hisslərini, təsəlli və niskili, ağrı-acıya, sıxıntıya, tənəyə, qaxınca, məzəmmətə və tühmətə üsyan və etirazı, ana üyüdünə, baba nəsihətinə, hikmətə və həyatın dərslərinə həssaslığı, ailədə, məişətdə saflığın və halallığın poeziyasını... sehrkar sənət və dil mücüzəsi ilə ifadə edən ülümsüz xoyrat və manilər İraq-türkman folklorunun zələngidir.

Güründüyü kimi, həyatın elə bir iz qatı, varlığın və birliyin elə bir hüsnü və mənası yoxdur ki, xoyratda üz əksini tapmasın.

Demək lazımdır ki, eposda və epik düşüncədə xalqın gerzək dilək və arzuları müəyyən həcmdə və səviyyədə əfsanəyə qaynayıb qarışdığı halda, lirikada, xüsusən də lirik bayatı, xoyrat və manilərdə konkret dilək və arzular tamamilə real məzmundan ibarət olur. Buradakı sevgi də, nifrət də, kədər də, ələm də həyatiliyi ilə sezilir.

Xoyratları fərqləndirən ən başlıca cəhət hər birində bir dünya fikir olan, hər misrasına bir dünya ürək düyüntüsü sığan, hər biri ayrı-ayrılıqda bitkin bədii əsər olan bu kizik parzalarda hissin, emosional yüklə bərabər, fəlsəfi fikrin, əxlaqi və ictimai sambalın dərinliyi və ağırlığıdır.

İraq-türkman folklorunun şifahi, ağız poeziyasının zirvəsi, onun şah əsəri hesab olunan xoyrat və manilər xalqın bədii-estetik səviyyəsində müstəsna rol oynayır, ülkə və millət miqyasında

mənəvi qidaya zevrilir. Təkcə onu demək kifayətdir ki, əsil ilham məhsulu olan bu incilərə münasibət indi də, bu gün də əsrlərlə üncə olduğu kimi qalır. Şeir yazmağa başlayan gəncin ilk qələm təcrübəsi xoyrat və mani olduğu kimi, yaşlı şairlər də fəlsəfi fikirlərini izhar etmək üzün bu janra müraciət edirlər.

Məmməd Cəfər Cəfərov təsadüfü yazmamışdır ki, istər klassik, istərsə də müasir şeirimizin ən yaxşı nümunələrinin sənətkarlıq baxımından hansı xəzinədən gəldiyini araşdırdıqda yenə gedib müdrik xalq yaradıcılığı xəzinəsinə zıxırıq.

Bütün əsrlərin və nəsillərin bədii züvqünü oxşayan, müdrikliklə və xalis kolorit ilə hopmuş poetika, təşbeh və məcazlarla ağızdan-ağıza, nəsildən-nəsilə kezərək yaşayan və onu yaradan milləti yaşadan, bu yığcam və müdrik miniatürlər elə sənət abidəsi, elə təfəkkür məhsuludur ki, zaman kezdikcə dəyəri və qiyməti daha da artacaq, xalq şairi Rəsul Rzanın təbirincə desək, «həssas qulaq onlarda qəlbimizə munis olan zox şey duyacaq, həssas ürək bu nadir inciləri yaradan xalqan dühasına dərin minnətdarlıq hissi ilə zırpınacaqdır».[9]

Həm musiqisi - vəzni, dil axar-baxarı, həm də məna - fikir hüsnü və zəkisi ilə xoyratlara yaxın folklor janrı - İraq-türkman xalq havaları və onların poetik mətnləridir. Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə yadigar qalan, kezmişdən gələcəyə əmanət olan, musiqi ilə xalq poeziyasının vəhdətindən yaranan, lirik nüvün aparıcı janrlarından olan xalq havaları İraq-türkman folklorunda xalqın mənəvi mədəniyyəti, həyat tərzi, məişəti, kezmişi, bu günü və eləcə də xalq dilinin qorunub saxlanması, zənginləşməsi, güzəlləşməsi yolunda əvəzsiz xəzinədir.

İraq-türkman xalq havaları forma, şəkil, müvzu, məzmun və ideya cəhətdən, konkret bədii xüsusiyyətləri baxımından Azərbaycanda Qəzənfər Paşayev tərəfindən tədqiq edilmişdir.

Kərkük dolaylarında bu sahədə tədqaqat aparan isə Əta Tərzibaşıdır. Folklorşünas alim Kərkük xalq havalarını toplayaraq

---

9. Rəsul Rza. Uzaq ellərin yaxın töhfələri. Bax: Kərkük bayatıları, Bakı, Azərnəşr, 1968, s.18.

ayrıca kitab kimi nəşr etdirmiş və kitaba yazdığı giriş məqaləsində Kərkük xalq havalarını «qırıq və ya qısa havalar» və «uzun havalar» adı altında vermişdir. Tədqiqatzı qısa havalar sırasına bəstə (xalq türküsü, tənzilə), dini türkü və şərqi (şərqi), marş (və bənzəri), halay və oyun havalarını daxil etmişdir. Uzun havalar sırasına isə muğamlar, xoyrat havaları, divanurfa, qəzəl, aşıq havaları, Kərəm havası, sızlama, laylalar daxil edilmişdir.

Güründüyü kimi, yuxarıda güstərilənlərin hamısını xalq havası kimi qəbul etmək doğru olmazdı. İraq-türkman xalq havalarında ən mükəmməli - xoyrat havalarıdır. Xoyratlarla - kəsik bayatılarla oxunduğuna gürə «xoyrat havaları» və ya «xoyrat» adı ilə tanınan yüngül, sadə və yığcam olan, musiqi ahənginə uyğun gələn, hamı tərəfindən sevilən, xoyrat havaları xalq arasında xüsusi ilə geniş yayılan lirik janrdır. Gürkəmli müğənnilər xoyrat havalarını dəyərinə, sambalına gürə yalnız muğamlarla müqayisə edir, onları yüksək qiymətləndirirlər.

Kərkük dolaylarında iyirmidən artıq xoyrat havası vardır: Bəşiri, Nobatzı, Müxalif, Muzala, Yetimi, Ümərqələ, Malalla, Şərifə, Yolzu, Əhməd dayı, Kəsük, Ağam-ağam, Qarabağı və ya Qarabağlı, Əydənə, İskəndəri, Bayat, Kürdü, Miskini, Dəlihəsəni, Mazan, Matar, Kəsük Matar, Atıcı və s.

Azərbaycanda bir zox aşıq havaları ayrı-ayrı aşıqların adı /məs. Dilqəmi, Qarazı, Urfani və s./ və eləcə də yer adları /məs. Cəlili, Naxzıvanı və s./ ilə bağlı olduğu kimi, xoyrat havaları da ayrı-ayrı xoyrat zağıranların /məs: İsgəndəri, Şərifə, Malalla, Muzala və s./ və yer adları /məs. Bəşiri, Qarabağı və s./ ilə bağlıdır.

Muğam sənətinin inkişafında müstəsna rol oynayan bu havaların mətnini xoyratlar - kəsik bayatılar təşkil etdiyinə gürə onlara xoyrat havaları deyirlər. Xoyrat üsullarını və eləcə də xalq havalırını oxuyarkən müğənniləri ən müxtəlif zeşiddə alətlər - zurna, zurnaba, meytər /davul/, qaşuq, zarpara, dəf, zilli dəf, zil, dumbulbas, ney, bəlul, saz, santur, ud, kaman və s. kimi xalq musiqisi alətləri ilə müşayiət edirlər.

İraq-türkman xalq mahnıları da xoyrat havaları kimi, şifahi xalq ədəbiyyatının həm musiqi, həm də poeziya janrı olmaq baxı-

mından zox geniş yayılmış lirik nüvüdür. Bədii estetik gücünə və tez qavranılmasına gürə burada xalqın gündəlik həyatını əks etdirmək, arzu-dilək, ümid, sevgi-məhəbbət, ayrılıq, şikayət, vüsal, intizar, qüssə-kədər, sevinc, şadlıq, pərişanlıq, güzəllik, saf duyğu, vətən həsrəti və s. kimi nəcib insani hisslərini ifadə etmək üzün büyük imkan, «dilsiz duyğuları» bəyan etmək üzün geniş meydan vardır. Xalq mahnıları son dərəcə rəngarəng və ürək oxşayandır. Bəziləri oynaq, şux, digərləri melodik və axıcıdırlar. Xalq arasında «bəstə», «mahnı», «Xalq türküsü» kimi tanınan havaların həm süzü, həm də havası xalqa mənsubdur. Odur ki, mahnılarının və bəstələrin əksəriyyətinin mətninin bayatılardan ibarət olması təəccüb doğurmur.

Zəkinmədən demək olar ki, həm Azərbaycanda, həm də İraq-türkman folklorunda şifahi janrın bayatı forması xalq mahnı yaradıcılığında müstəsna rol oynamış və bu funksiyanı indi də yerinə yetirməkdədir.

Xalq mahnı mətnlərini musiqidən ayırmaq asan deyil. Elə bil onlar musiqi ilə əkiz doğulmuşlar.

Həm musiqidə, həm də poeziyada ritmin olması onların güclü vəhdətinə gətirib zıxarmışdır və bu da bir daha təsdiq edir ki, mahnı üz-üzlüyündə poeziya və musiqinin birləşməsinin məhsuludur.

Xalqın milli xarakterini, sevinc və kədərini, ən gizli hisslərini üzündə əks etdirən İraq-türkman xalq mahnıları sonsuz rəngləri, zeşidli zalarları olan bir aləmdir.

Onu da deyək ki, Kərkük dolaylarında da, Azərbaycanda da eyni olan bir zox mahnılar vardır. Dündərməsi və ya bir-iki bəndi eyni mahnılar da zoxdur. Bu mahnılardan «O yana dündər məni», «Yar bizə qonaq gələcək», «Pəri», «Ay qara xal yar», «Ay qız, heyranın ollam», «Niyə gəlməz oldu», «Dam üstədir damımız», «Qalanın dibində bir daş olaydım», «Nərgizi dəstə bağladım», «Kətan küynək dizdən yar», «Evlərinin ünü yonca», «Bu gələn yar olaydı», «Yeri, yeri yeri küsmüşəm sənnən», «Bu xal nə xaldı», «Güzəllərdən üz güzəl var sevməli», «Samovar almışam, silənim yoxdur» və başqalarını güstərmək olar.

Azərbaycanda İraq-türkman xalq mahnılarına, eləcə də İraq-türkman folklorunun başqa janrlarına kükdən, gendən gələn fitri, təbii doğmalıq münasibəti üzünü güstərir. Bu təbiidir. Üz doğmasını sevməmək mümkün deyil. Azərbaycanda bəstəkarlar İraq-türkman xoyratlarına musiqi bəstələyir, müğənnilər onları və İraq-türkman mahnılarını büyük məhəbbətlə oxuyurlar: «Bayatılar», «Evlərinin ünü yonca», «Xalidə», «O yana dündər məni», «Kətan küynək diz-dən yar», «Altun üzük, yaşıl qaş», «Zaxmağı zax, zırağı yandırma-mışam» və s. Azərbaycan radio və televiziyasında tez-tez səslənir.

Kərkük dolaylarında da Azərbaycan mahnıları oxunur. Şairlə-rimizin süzlərinə musiqi bəstələyib oxuyur və kitablara daxil edir-lər. Məs: Əbdül Vahid Küzəzi oğlu Səməd Vurğunun «Gülə-Gülə» və Rəsul Rzanın «Beşik nəğməsi» şeirinə musiqi bəstələyib kita-bına daxil etmişdir.[10]

Kərküklü müğənni Siddiq Bəndə Qafur isə azərbaycanlı şair Əhməd Cavadın «Zırpınırdı Qara dəniz» şeirinə bəstələnmiş mah-nını ümumi bir münasibətdə oxuduğuna gürə başı bəlalar zəkmişdir.

Əhməd Cavadın şeirinin İraq-türkmanları arasında oxunması və eləcə də şairin onlara şeir qoşması, iraqlı tədqiqatzıların «Bu gələn yar olaydı», «Samovar almışam, silənim yoxdur», «Layla balam, a layla», «Ay qız mənə bax», «Vəfasız», «Bu xal nə xal-dır», «Qarabağı» və s. mahnıların Azərbaycan mahnıları olduğunu qeyd etməsi, bir-birindən uzaq düşmüş iki xalq, iki vətən eyni bir yaxınlığın, eyni doğmalığın büyük həqiqətlərindən süz azır.

Əslində manilər də, xoyratlar və xalq mahnıları da hamısı eyni ünvandan və mənşədən —beşik nəğmələrindən başlayır. Beşik nəğ-mələri də İraq-türkman folklorunda lirik nüvün geniş yayılan janrlarındandır. Buraya layla və oxşamalar daxildir. Onlar formaca xoyrat və manilərə, ağılara oxşasalar da, bu oxşayış zahiridir, məzmun və oxunuş tərzinə və eləcə də icra yerinə gürə fərqlə-nirlər. Deyək ki, ağılar hüznlə əlaqədar yaranıb, dərdli, ələmli gün-lərdə oxunduğu, daim kədərli olduğu halda, beşik nəğmələri

10. Əbdülvahid Közəçioğlu. Közəçioğlunun xoyrat və bəstələri. İraq, Kərkük, 1966, s.47, 52.

zərifliklə, istəklə, məhəbbətlə, incə saf hisslərlə əlaqədar yaranır, beşik başında oxunur.

Demək olar ki, ana ilə kürpə arasında əbədi məhəbbətin təməli layla və oxşamalarla qoyulur. Bizə qalırsa, insana ən incə, ən saf, ən ülvi, müqəddəs duyğular ana laylası və oxşamalarla aşılanır. Ana laylası ilə büyüməyən uşağın qəlbinə pis əməllər, şər qüvvələr daha tez nüfuz edər, onun qəlbində mərhəmət, şəfqət, məhəbbət, xeyirxahlıq hissələri zəif olar. Təəssüf ki, indi layla deyə bilən anaları barmaqla saymaq olar.

Türkiyədə «ninni» kimi tanınan laylalar, İraq-türkman folklorunda «layla» və «leyla» kimi məlumdur. Formaca xoyrat və manilərə oxşayan laylaların axırında «layla balam, layla» ilə bərabər, «leyla balam, leyla», «leyla güzüm, leyla», «leyla ümrüm, leyla» və ya «üllə balam, üllə», «üllə ruhum, üllə» kimi iki misralı dündərmələr /nəqaratlar/ yer alır. Məsələn:

| | |
|---|---|
| Oyaq qallam yatınca. | Leyla dilər, |
| Bəklərəm ay batınca. | Yatıpdı, leyla dilər. |
| Qolum yastıq edərəm | Vurğun yuxu salıpdı, |
| Sən hasilə zatınca. | Mənnən bir leyla dilər. |
| Leyla balam, leyla, | Leyla gülüm, leyla, |
| Leyla gülüm, leyla, | Üllə ruhum, üllə. |

Maraqlıdır ki, bu xüsusiyyətlər Azərbaycan folklorunda da eynilə belədir. Bununla belə, tədqaqatzıların zoxu nədənsə buna əhəmiyyət verməmiş, onları ağılar, oxşamalar, hətta holavar və sayazı süzlər kimi bayatı adı altında vermişlər. Halbuki ağılar, oxşamalar, laylalar, holavarlar və s. məzmun etibarilə bayatılardan fərqlənirlər.

Qeyd etmək lazımdır ki, layla və oxşamaları uşaq folkloru ilə qarışdırıb tədqiq edənlər də olmuşdur. Halbuki büyüklərin yaratdığı folklor uşaq folkloruna daxil edilməməlidir.

Biz uşaq folkloru dedikdə xalq yaradıcılığının o nümunələrini nəzərdə tuturuq ki, onların meydana zıxmasında uşaqlar fəal iştirak edərək, bu nümunələrin həm yaradıcısı, həm yaşadıcısı, həm də yayıcısı olur. Uşaqların qeyri-fəal iştirak etdikləri layla və oxşamalar onlara rəğmən yaransa da, büyüklər tərəfindən yaradılır. Həm də ana qəlbinin dərinliklərindən gələn izli duyğuları, arzu, istək və

niyyəti bəyan etmək üzün süz kifayət etmir. Müqəddəs ana hissləri, arzuları musiqiyə zevrilir. Süzün həqiqi mənasında laylaları qoşanlar da, onlara musiqi bəstələyənlər də, onları oxuyanlar da analar üzləri olmuşlar. Uşağa rəğmən süylənilən təsirli oxşamalar İraq-türkman folklorunda geniş yayılmışdır. Türkiyədə «sevmələr», Cənubi Azərbaycanda «nazlamalar» kimi tanınan bu şeir parzaları Quzey Azərbaycanın da, Kərkük dolaylarında da «Oxşamalar» adlanır.

Oxşamalar yalnız analar tərəfindən, deyil, nənələr, bibi və xalalar, başqa yaşlı qadınlar tərəfindən də deyilir. Kürpəsiz ev təsəvvür edilmədiyi kimi, oxşamasız da ev yoxdur. Oxşamaların geniş yayılmasının başlıca səbəbini hər şeydən əvvəl burada axtarmaq lazımdır. Oxşamaların zoxu laylalara bənzəsələr də, onlara zox yaxın olsalar da, bu bənzəyiş, bu yaxınlıq zahiridir. Onlar müxtəlif məqamlarda işlənir və müxtəlif funksiyalar daşıyırlar.

Oxşamalar forma əlamətlərinə gürə də laylalardan fərqlənirlər. Onlarda məqsəd əyləndirmə, əzizləmə, oxşama olduğu halda, əsasən uşaq yuxudan ayılandan sonra incə yumorla bağlı şən əhval-ruhiyyə əmələ gətirmək üzün oxunduğu halda, beşik başında oxunan laylalarda başlıca məqsəd kürpəni sakitləşdirmək, uyutmaq və yatırtmaqdır. Layla və oxşamalar məzmunca o qədər fərqlənməsələr də, oxşamaların poetik mətni vəzn cəhətdən, bəzən də heca cəhətdən üzünəməxsusdur.

Oxşamalar İraq-türkman folklorunda da iki və dürd misralı olmaqla, iki yerə bülünür və arzu-dilək, əzizləmə, əyləndirmə, oxşama məqamlarında işlənirlər. Məsələn:

Dama dirəkdi oğlum,
Xırmana kürəkdi oğlum

Vay nişi-nişi,
Zıxıbdı iki dişi.

Və ya:

Ataram-tuturam səni,
Şəkərə qataram səni.
Baban evə gələndə
Qucuna ataram səni.

Qızım qızlar izində,
Altun Hicil qızında.
Qızıma diləkzi gələr
Bu gün, yarın izində.

Oxşamalar büyük həsrət və intizarı ifadə etmək baxımından da diqqəti cəlb edir:

Üzərliksən, məzəsən,
Damar-damar güzə sən.
O günə qurban olum,
Evimizdə gəzəsən.

Qurbanam üzüm sənə,
Həkətim, süzüm sənə.
İşıqlı ulduz kimin
Tikmişəm güzüm sənə.

Layla və oxşamalarda bir yandan kürpənin gələcək taleyi üzün ananın kezirdiyi hiss-həyəcanı, narahatlığı, qorxu və təşvişi, başqa bir tərəfdən də kürpənin tez boya-başa zatması, sağlam büyuməsi, xəta-bəladan uzaq olması barədə ananın arzu-diləyi, istəyi, sevinci təkrarolunmaz boyalarla təsvir edilir.

Bayatı və sızlamaqlarda olduğu kimi, layla və oxşamaların da dili aydın, sadə, yığcam və zəngindir. Burada da ən dərin fikirlər qısa və obrazlı şəkildə ifadə olunur.

İstər Azərbaycan, istərsə də İraq-türkman folklorunda lirik nüvün «Beşik nəğmələri» janrı həyatımızın, tariximizin, şüur və təfəkkürümüzün ayrılmaz hissəsi kimi diqqəti cəlb edir.

İstər Azərbaycan, istərsə də İraq-türkman folklorunda tapmacaları başqa xalqların tapmacalarından fərqləndirən bir xüsusiyyət vardır. İraq-türkman folklorunda bayatılar təkcə oxşamaların yox, həm də tapmacaların formalaşa bildiyi ana janr olub. Burada bayatılarla yaranmış zoxlu tapmacalar vardır. Bu dürdlüklərdə poeziya qüvvətli, vəzn, qafiyə yerli yerindədir. Onları formaca bayatılardan fərqləndirmək olmur. Odur ki, onlar lirik nüvün ayrıca bir janrı kimi bu kitabda «Bayatı-tapmacalar» bülməsində verilmişdir.

Təbiət və cəmiyyət hadisələrinin zahirən bizdən gizli, sehirli, iz qatına nüfuz edən, mahiyyəti, daxili şairanə şəkildə əks etdirən, formaca bayatı və qafılbəndlərə oxşayan, lakin icra yerinə və tərzinə, poetik üslubuna, şeiriyyətinə, məcazi mənasına gürə onlardan fərqlənən «bayatı-tapmacalar» nə Azərbaycan folklorşünaslığında, nə də İraq-türkman folklor araşdırmalarında son zamanlara və tədqiqatlara qədər lirik nüvün ayrıca janrı kimi tədqiq olunmamışdı. Onlar gah «tapmaca», gah «bayatı», gah da «cinaslı tapmaca» adı altında tədqiq və nəşr edilmişlər. Azərbaycanda folklorşünasların

«bağlama-bayatı», «tapmaca-bağlama», «qafılbənd-bayatı» adlandırdıqları qafılbənd və bağlamalar da «bayatı-tapmacalar»dan fərqlənirlər. Zünki onların mətnində ilk üz sətrin irəli sürdüyü suallara cavablar olmur, prof. V.Vəliyevin doğru olaraq güstərdiyi kimi, şeirlə, bayatı şəklində verilən cavablara bunlarda rast gəlmirik.

Eynilə İraq-Türkman tapmacalarında da vəziyyət belədir. Şübhəsiz, qıfılbənd və bağlamaları «bayatı-tapmaca»lardan ayıran başlıca fərq qıfılbənd və bağlamalarda hər misranın ayrıca cavabının olmasıdır. Üzü də qıfılbəndin hər misrasının cavabının şeirlə olması, sualdakı qafiyə ilə eynilə qafiyədə olması tələb olunur.

Xəstə Qasımla Ləzgi Əhməd arasında yer alan qıfılbənddən verdiyimiz nümunə deyilənlərə əyani sübutdur:

**Ləzgi Əhməd**

O nədir ki, dayanıbdır dayaqsız?
O nədir ki, boyanıbdır boyaqsız?
O nədir ki, doğar əlsiz-ayaqsız?
Üz ay kezər, ayağı var, əli var?

**Xəstə Qasım**

Güy bir zadır, dayanıbdır dayaqsız.
Ayla Gündür, boyanıbdır boyaqsız.
Qurbağadır, doğar əlsiz-ayaqsız,
Üz ay kezər, ayağı var, əli var.

«Bayatı-tapmaca»larda isə tamamilə başqa bir mənzərənin şahidi oluruq. Burada dürdlüyün cavabı yalnız bir süzlə ifadə edilir: Məsələn:

Ya qanı,
Ver muradım, ya qanı.
Dəryadan bir quş uzdu,
Nə əti var, nə qanı.

Tapmacanın cavabını «Gəmi» süzü ifadə edir.

Bizimlə bəzən sadə, bəzən də yüksək poetik dildə danışan, təbiətin üz ruhu, üz ahəngi, xalqın üz dil və təfəkkürü stixiyası ilə hopmuş olan bu dürdlüklər ağlı, zəkanı, düşüncə və mühakiməni inkişaf etdirmək baxımından da xüsusi idraki qiymət, estetik dəyər

və əhəmiyyət kəsb edir, həm dinləyici /oxucu/, həm də tədqiqatçılar üzün əvəzsiz xəzinəyə zevrilirlər.

Lələm elin aşına,
El toplaşar başına.
Nə əli, nə ayağı,
/Və ya: Əli yox, ayağı yox/,
Gedər əkin başına. **/Su/**

Güzəl mənnən nar istər
Bağım yoxdu, bar istər.
Əkilməmiş bostannan
Toxumsuz xiyar istər.
**/Dombalan/**

Şirin süzünə qurban,
Boyaqzıda bəzənib,
Ala güzünə qurban.

Həlhələ verin gəlinə,
Dəstə gül berin əlinə.

Bağzalarda saz olur,
Gül azılır, yaz olur.
Mən yarıma gül deməm,
Gülün ümrü az olur.

Həlhələ verin gəlinə,
Dəstə gül verin əlinə.
Altun kəmər bağlasın,
Gəlin incə belinə.

Şərqilərin bəzisi deyişmə kimi oxunardı. "Hacı Fərəcin qızı" şərqisi beləlerindəndir.

**Oğlan:**

Hacı Fərəcin qızı məmən əmməli,
Güzlərin güstər mənə, mən alın səni.

**Qız:**

Get-get güzəl oğlan güzümü neynirsən,
Züllərdə bala ceyran hec gürməyibsən?

**Oğlan:**

Hacı Fərəcin qızı məmən əmməli,
Dodağın güstər mənə, mən alım səni.

**Qız:**

Get, get güzəl oğlan, dodağım neynirsən,
Dərzidə pəmbə qaytan hez gürməyibsən?

**Oğlan:**

Hacı Fərəcin qızı, məmən yeməli,
Məməni güstər mənə, mən alım səni.

**Qız:**

Get, get güzəl oğlan, məməmi neynirsən,
Bağzada təzə turunc hez gürməyibsən?

**Oğlan:**

Hacı Fərəcin qızı, məmən əmməli,
Gübəyin güstər mənə, mən alım səniş

**Qız:**

Get, get güzəl oğlan, gübəyimi neynirsən,
Ümründə qəhvə fincan hez gürməyibsən?

Axırda sezib daha coşqun mahnılar oxuyar və gecədən xeyli kezənə qədər oynayardılar.

Bu gələn yar olaydı,
Qoynunda nar olaydı.
Ikimiz bir küynəkdə
Yaxası dar olaydı.

Zülfün ucular məni,

Dünər qucular məni,
Xəyalın qoymaz yatım
Uzun gecələr məni.
Ah ninni, ninni, ninni,
Vah ninni, ninni, ninni.

Kərkükdə nar şirindi,
Gürməyə şal şirindi.
Yeddi qardaş, bir bacı,
Hamısından yar şirindi.
Ah ninni, ninni, ninni,
Vah ninni, ninni, ninni.

"Həsrət gecəsi"ndə nəsihətvari mahnılar da zox oxunardı:

Bu gəlin mayalıdı,
Yük-yükə dayalıdı.
Büylə dur, büylə otur,
Desinlər hayalıdı.

Və ya:

Ey güzəl mama, gəlin
Gedək imama, gəlin.
Əsbabın yırtılanda,
Sən üzün yama, gəlin.
Qonşudan aş gəldiysə,
Üncə sən yemə gəlin,
Qayınbaban ünündə,
Uzanıb yatma, gəlin
Qaynananın süzünə
Sən hez süz qatma, gəlin.
Kişivin süzlərinə,
Inadlıq etmə, gəlin.
Kişindən də xəbərsiz,
Evdən şey satma, gəlin.
Kişin səni vurduysa,
Nənənə getmə, gəlin.
Evinin sirlərini,

Kimsəyə satma, gəlin.
Iki qonşu dügüşsə,
Duvardan baxma, gəlin.
Hez kimsədən iznsiz,
Nənəvə getmə, gəlin.
Evinin işlərində
Tənbəllik etmə gəlin.
Qərib qonaq ünündə,
Yüngüllük etmə, gəlin.
Soqaqdan səs gəldiysə,
Qapıya getmə, gəlin.
Fitnə qonşu süzünə,
Hez qulaq tutma, gəlin.

Ər evinə gediləcək gün gəlin əyləncəsiz, səssizcə güzləyir. Bu vaxt bəy evində toy olur. Toydan bir-iki gün əvvəl toyun havadarı adlanan iki-üz gənc əllərində dəyənək qapı-qapı gəzərək “Filan gün, filan oğlu filanın toyuna dəvətlisiniz” süylərlər. Toylar ən zox bazar ertəsi və cümə günü olardı. Əvvəllər qonaqlar toya axşam gələrdilər. İndi xüsusi dəvətnamə ilə gündüz yeməyinə dəvət olunurlar. Qonaqlar adətən ev sahibinə pulla yardım edirlər. Verilən pul borc hesab edildiyi üzün siyahıya alınır. Buna “toy borcu” deyirlər. yaxın qohumlar və dostlar toyda pul salmaq əvəzinə zox vaxt toğlu, düyü, yağ, un, şəkər və s. gətirirlər.

Toyda halay təpilir, musiqi səslənir, bəzən at zapırlar, qurşaq tuturlar, nişan qurur, yarış kezirirlər. Toylarda “Qılınc-qalxan” oyunu da yer alır. Bu oyun biri əlində qılınc, o biri isə qalxan tutan iki kişi tərəfindən 15 dəqiqə oynanılır.

Eləcə də “Pambuğa girmə” və “Atlı qarınca” səhnəcikləri də oynanılır. Bunlar toyu yaddanzıxmaz və maraqlı edir.

Lakin halaytəpmə əsas yer tutur. Halay alayının baş tərəfində halaya baş zəkən olurdu. “Başzəkən adlanan bu erkək ən iyi halay bilənlərdən biri olurdu.

Zurnazı ara-sıra "şabaş" yığardı. "Şabaş" sırasında bu süzlər deyilirdi:

Şabaş, şabaş
Filan oğlu filan kisəsindən bu ğərtə.
Allah kisəsinə bin bərəkət versin.
Ümrü uzun olsun

Beləcə zurnazı para verənin adını və nə ğərtə verdigini elan edərdi.

Zurnazı birisindən məxsusi para-ərməğan dilədikdə ucadan oxurdu:

Bostanı su basmasın,
Yarıv sənnən küsməsin.
Di qoy əliv cibüvə
Haqq kisəvdən kəsməsin.

Gəlin evində də boş durmazlar. Axşama doğru gəlin evi dəvət olunmuş qadınlarla dolar. Gəlin "toyluq" əlbəsəsini geyər və bəzədilər. Halaylar qurular, şərbətlər izilər, gəlinin üzünə "duvaq" zəkilərkən "Gilavoğlu" gələr və gəlinə ügüd verərmiş:

Bu gəlin mama gəlin,
Gedər hamama gəlin.
Qayınbaban ünündə,
Dişin ağartma gəlin.
Qonşudan aş gələndə,
Ətin zıxartma, gəlin.
Al yaşıl tapmayanda,
Güg, qara yama, gəlin. və s.

Bəyin adamları gəlini aparmağa gələndə ağ gün gürmüş, oğullu-qızlı bir qadın gəlinə ağ baxt, altun taxt, qara xəlayiq, bəyaz əkməkzi, siyah gülə diləyər və sonra gəlini yola salardılar. Gəlin evdən zıxarkən arxasınca aydınlıq əlaməti sayılan su səpilirdi.

Bəyin yaxın qohum və dostları gəlini apararkən "yengə" adlanan bir qadın —qız evinin adamı da onlarla gedərdi. Əvvəllər

gəlini at üzərində və ya dəvə üzərində bəzədilmiş geca vədə gətirərdilər. İndi bəzəkli, duvaqlı gəlini şəhərdə gəzdirir, sonra musiqi sədaları altında, mahnı oxuya-oxuya maşınla bəy evinə gətirirlər. Gənclər onların yolunu iplə, ağacla kəsər, bir miqdar para alandan sonra "Xeyirli olsun" deyərək yolu azardılar. Gəlini bəyin adamları əllərində güzgü və şamla qarşılayırlar. Fərəhlə halay təpir, mahnı oxuyurlar. Gəlinin başına şəkər, pul və s. tükürlər. Sonra gəlini otağa aparırlar. Bir azdan sonra gəlinin əlini yengə qaldırıb bəyin əlinə verir. Və "Əl amanatı"deyir. Onlar əl verib gürüşürlər. Gürüş zamanı bəy gəlinin ayağını basır. Bu o deməkdir ki, kişi evin büyüyüdür. Bəy gəlinin duvağını qaldırır. Bu vaxt bəylə gəlini tək buraxaraq /yengə daxil olmaqla/ hamı otağı tərk edir. Kürəkən gəlinin duvağını üzündən azır.

İraq türkmanları arasında duvaq ya bəyaz, ya da qırmızı tüldən yapılmış başı və üzü qapayan ürtükdür. Xalq inanışına gürə duvaq gəlini güz-nəfəsdən və zilləli qadınlardan qorumaq üzün buraxılmışdır.

Gəlin olan ilk gün nəfəsə uğrarsa, uşağı olmazmış.

Kürəkən iki rükət "pərdə namazı" qıldıqdan sonra gəlinə yaxlaşır və evlənirlər.

Evlənməkdən sonra kürəkən otaqdan zıxar, ata və anasının əllərindən üpər.

Yengə ilə qaynana gəlinin yanına girərlər. Evlənmə izini "Bəkarət qanını" bəyaz qumaşda gürüncə həlhələ verərlər, gəlinin üzündən üpərlər, o da onların əllərindən üpər. Buna "üz ağlığı" deyərlər.

Kürəkənin evləndiyi bəlli olunca qurşunlar atılır, hələlər verilir. Və bundan sonra hər kəs kürəkənlə üpüşərək ayrılır.

Evlənmənin ikinci günü, sabahın erkən vaxtlarında yengə "üz ağlığını" alır, qızın anasına və yaxın əqrəbalarına güstərərək, pul toplayır. "Üz ağlığı" isə tarix boyunca türkmanlarda ən əhəmiyyətli bir şərəf məsələsi kimi gürünmüşdür. Bu qan ilə qızın hər türlü əskikliklərdən uzaq olduğu təsbit edilir.

Gəlin isə sabah erkəndən qalxar, üz itaətini bildirmək üzün qayınatası ilə qayınanasının əllərindən üpər. Sağdıclar da kürəkəni gəlib qayınatasının evinə gütürərlər. Kürəkən qayınatası ilə qayınanasının əllərindən üpdükdən sonra qayınanasının hazırladığı səhər yeməyini sağdıclarla bərabər orada yeyərlər.

Əskidə gəlin evə girərkən qayınana bir əlinə zümzə, bir əlinə kəvkir alıb:

Ev sənin, eşik sənin,
Dürdəki beşik sənin.

- deyərək gəlinin ünündə oynayırdı.

Bəzən bu vaxt kürəkən evdən uzaqlaşarmış. Buna Kərkükdə “Kürəkən küsdü” —deyirlər. Yası namazına qədər sağducları ilə bağza-bağda gəzər, bir yerdə vaxt kezirərdilər. Sonra mahnılar oxunar.

Bir tabur güyərzinim
Xırmandadı, xırmanda.
Hər kimin yarı yoxdu,
Dərd ondadı, qəm onda.

Bəzi kəndlərdə toy gününün sabahı kürəkəni arxadaşları iplə bir yerə bağlar və zarafatla onu vurarlarmış. Gəlin kürəkəni qurtarmaq üzün bir miqdar para gündərərmiş.

Kezmişdə gəlin ər evinə gedəndə bir gün hez kimlə danışmazmış. Bununla tərbiyəli, həyalı olduğunu isbat edərmiş. Bu adətlə əlaqədar bir əfsanə vardır. Bir gün güzəl bir gəlinə susuzluq üstün gəlir. Qayınanasına:

—Bibi, su - deyir.

Qayınanası zox zalımmış. Adəti pozan gəlininə acıqlansa da dillənmir. Gəlin bir nezə dəfə “Bibi su, bibi su” deyir və nəhayət: “Ey yeri-güyü yaradan, məni quş etsəydin, güllərdən bir udum su izərdim” —deyir. Duası qəbul olunur. O, bir quş olub züllərə uzur. Axşamlar sevgilisinin pəncərəsinə qonub oxuyur:

Bibi, su,
Su gəti,

Gün batdı,
El yatdı.

İndi Kərkük dolaylarında həm Bibi su, həm də Azərbaycanda da olduğu kimi qumru quşu kimi tanınan quş vardır. Əfsanə onunla bağlıdır.

Əskidə toydan sonra üz gün qız evindən yeməklərlə dolu "sini" göndərilərdi. Birinci gün gələn yeməklərin arasında duzlu yeməklər olmazdı. Toyun yeddinci günü eyş-dost, xısım-əqraba qadınları toplanardı. Yerə sərilən süslü bir namazlığın üstünə gətirdikləri ərməğanlar düzülərdi.

Gəlin ata evinə bir ay sonra gedərmiş. Buna "ayaqazdı" və ya "ayağı azıldı" deyirlər. Əgər qismətiysə bir il sonra gəlin beşik sallamağa başlar. Adətə gürə oğlan uşağının adını bir həftə Məhəmməd, qız uşağının adını Fatimə qoyardılar. Sonra isə istədikləri adı qoyardılar. Naxışlı taxta beşiklərin ipi zəkilərək laylalar oxunardı.

Layla edim yatasan,
Qünzə gülə batasan,
Qünzə gül daldan olsun,
Sən altında yatasan.

Leyla edərəm nazar,
Leyla dərd ügün azar.
Sən o gülə bənzərsən,
Həftədə bir gün azar.

Leylalar bəzən kədərli, bəzən də fərəhli süylənilirdi.

Qız idim, sultan idim,
Adaxlandım, budaxlandım.
Gəlin oldum, məlul oldum,
Beşik qurdum, zəlil oldum.

Gəlin qara günə düşmüş, aradığını tapmamış, qayınanasından kezinə bilmir. Qayınana gəlinindən razı deyil. Demək lazımdır ki, Kərkük folklorunda qayınana-gəlin münasibətləri üzünü qəribə bir tərzdə güstərir. Burada həm dərin yumor, həm də güzəl şeiriyyət vardır. Gəlin evə təzə gələndə:

Ev sənin, eşik sənin,
Dürdəki beşik sənin.

—deyən qayınana süz-sühbətə, dedi-qoduya başlar. Gəlin də tərbiyədən kasadsa, ondan geri qalmaz. "Qayınana pambıq iplik olsa, rəfdən düşsə gəlinin başını yarar". Qayınana hamilə olan gəlinə güzəştə gedər. Günlər kezər, evdə nəvə səsi eşidilər. Qayınana onu hamıdan zox istər.

Uşağı əzizlər və üz-üzünə oxuyar:

Samırsağım, soğanım,
Yad qızınnan doğanım,
Babana canım qurban,
Nənən olsun qurbanım.

Və ya:

Balam, balam balası,
Yarsı şəkər xurdası,
Yarsı ilan balası.

- deyər. Gəlin də üz nüvbəsində:

Qayınana ilandı,
Hər nə desə yalandı.
Gəlin züldə zizəkdi,
Hər dediyi gerzəkdi.

—deyə ağız qavğasına girər. Qayınana susmaz, həddini aşmış gəlini təhnizlər:

Afərin nazlı gəlin,
Gərdəni sazlı gəlin.
Top-tüfəngin doludu,
Barıdın azdı, gəlin.
Südün bənzər pendirə,
Başını təpərəm təndirə.

Gəlin darılar, yanıb-yıxılar:

Damdan düşəsən qayınanam,
Təpəyəcən şişəsən qayınanam
Oğlun gələnə qədər,
Dildən düşəsən qayınanam.

Lakin qayınana nə dildən düşər, nə də dili şişərdi. Axşam oğlu gələndə birə-min qatıb gəlinini kütüklədərdi. Qoca /baba/ qarısına qızardı:

Kirli pasax, pis pinti.
Arvadların qəhəti.

Ümrümdən bir gün də qalıbsa, vallah gərək üstünə arvad alım. Qayınananın dili şah arşını tək uzanar, kişisinə deyər:

Boyun boylardan uzun,
Nə dadın var, nə duzun.
Üzün dündər bir baxım,
Əzrail yumsun güzün.

Qız tərəfin adamları məsələdən halı olar. Qızın zavallı olduğuna işarə edərək "Nə gəlində dil var, nə də qayınanada iman" deyəllər. Oğlan tərəfin adamları da qayınananın günahsızlığına işarə ilə "Qayınana pambıq iplik olsa, rəfdən düşsə gəlinin başını yarar" deyəllər. Qayınana hamının yanında gəlini xar etmək üzün "Samırsağı gəlin ediblər, qırx gün qoxusu zıxmayıb" —deyir.

Kərkük dolaylarında bizdəkinin eyni olan qayınana-gəlin münasibətlərindən süz azan bir əfsanə də vardır. Tisinli kəndinin sakini Abdul Əmirin nəql etdiyi "Can oğul" əfsanəsi budur: "Mən Abdul Əmir Tisinli indi bir nənə süzü qonuşacağam. Bir gün oturmuşduq gecə vaxtı. Süzü nənəm qonuşdu bizimzin. Eyni zamanda bir xoyrat dedi:

Üz nənəm:
Qəlbi dolu güz nənəm.
Yad ağlar, yalan ağlar,
Qoy ağlasın üz nənəm.

Bir matal da dedi bunun üzərinə.

Biri varıymış, biri yoxuymuş, bir nənəydən bir oğlan varıymış. Oğlan nənəni zox sevərmiş. Oğlan hətta büyük olur. Nənə ha zor edər üzünə get arvad al, almamış. Bir gün nənə ağlar və oğluna zor edər: "Get, arvad al".

Oğlan məcbur qalır, arvad alır. Vaxt kezir, arvadın uşağı olmur. Oğlan uşaq istir. Arvad qorxur ki, nənə oğluna desin. O da bunu boşasın.

İstər qayinnənədən qurtar olmax. Bir hilə qurar kişizin. Diyər: "Mənə molla baxtı". Dedi: "Hez uşağın olmaz, illama nənəyin cigərin yemərsəy".

Kişi deyər:

—Necə olur belə şey.

Arvadı deyər:

—Gərək gətirəsən, ocax kor qalmasın, uşağın olmaz.

Oğlan inanan bir adammış. Arvadın süzünə inanır. Nənəsi ixtiyarmış. Bir gecə alır nənəsin ənsəsinə, aparar zay kənarına. Kəsər, cigərin zıxardar. Cigər əlində yeriyir. Yeridikcə güzün qan tutar yıxılar-qalxar, yıxılar, qalxar, hər yıxılanda bir "Oy nənə!" —deyər Cigərdən səda gələr: "Can oğul!"

Təbii ki, əfsanə olaraq qalır. Yuxarıda sühbət azdığımız qayınana —gəlin deyişməsi isə xalq yumorudur. Kərkük dolaylarında nigahın pozulmasına demək olar ki, təsadüf edilmir. Kişi arvadını sevər, qadın ərinə bağlı olar, qayınana üzünü saydırar.

Oğlunun qızını sevər, dizinin üstündə oxşar:

Qızdı, nazdı,
Bir lirəyə azdı.
Min də gətirin,
Onnan aparın.

Kişisi bir nezə gün belə evdən ayrılsa gəlin onun yolunu güzlər. Üz-üzünə mahnı oxuyar:

Sən gedəni il oldu,
Quru bağlar gül oldu.
Yoluna baxa-baxa
Ağ cigərim kül oldu.

Uşaq isə büyük nənəsindən sanamalar üyrənər:

Əvələmə, dəvələmə,
Ignə, ignə ucu dügmə,
Qoz ağacı, qotur kezi,

Yırıla yırtıla,
Su izə qurtula.

Büyük nənə uşağı əgləndirmək və yedirtmək üzün uşağın əlindən tutub deyir: bura bir quş qondu, —sonra uşağın barmaqlarını bir-bir yumur, —bu kəsdi, bu təmizlədi, bu bişirdi, bu yedi. Beşinci barmağı yumur. Lakin deyir:

—Bu dedi, bəs mənim payım hanı?

Nənə uşağın küksünü qıdıqlayaraq deyir: Paş, paş paş. Get, get, get. Budu burdadı. Uşaq əglənər və üzü də bilmədən yeyərdi.

Uşaq bir yaramazlıq etdiyi zaman nənə deyərdi —"Həsən Qurt, gəl bu oğlanı tut, ut".

Əfsanəyə gürə "Həsən Qurt" əcaib bir canlı olub, soqaqlarda yalqız dolaşan uşaqları qazıraraq cigərlərini zıxararmış. Adına "Cigər zıxaran" deyərlərmiş.

Uşaqları "Qayış baldır"la qorxuzardılar. "Qayış baldır" uzandıqca uzanan, başı buludlara dəyən qorxunc bir canlı olub. Deyilənlərə gürə "Cigər zıxaran" günorta şaqlamı hər kəs sıcaqdan evlərinə zəkildigi vaxt soqaqlarda gəzirmiş "Qayış baldır" —ta axşam azanından sonra gürülürmüş. Günorta istisində və axşam qaranlığında uşaqların küzəyə zıxmasının qarşısını beləcə alırlarmış.

Uşaqlar sabah sərinində və ikindi sərinində soqaq oyunları oynarlar. "Kağız quşu" uzururlar. Büyükzələri "Donuz təpmə", "Babuz qapma", "Zəlik-zubuq", "Güllə-güllə" oynayırlar. Daha kiziklər isə qız-oğlan qarışıq təkərləməli və şərqili oyunlar oynarlar. Məsələn:

Həclə-həclə buxava,
Atlandım, getdim ava və s.

Bayram ünü günlərdə uşaqlar sevinc izində olur. Bayramqabağı evlərdə bayram hazırlığına girişilir. Hər evdən külzə və qaurğa qoxusu gəlir. Külzə kərküklünün hər bayram, hər seyran aradığı və zox sevdigi izi cüyüzlü yeməkdir. Qaurğa isə qavrılmış qabaq, qarpız, qovun zərtdənəklərindən düzəlir.

Bayram sabahı erkən-erkən "Bayram aşı" bişirilərmiş. Bayram aşı quru qaysı ilə olan pilava /plov/ deyilir. Quru qaysı ilə bişirilən plova "lətgə" deyilir.

Bayram vaxtı uşaqlar axşamlar qapı-qapı gəzər, "Kosa gəldi" oyunu güstərər, paylarını istərlərmiş:

Ha dura-dura yorulduq,
Tütünüvüzdən boğulduq,
Verəni xanım olsun,
Vermiyən qatır olsun.

Kosa "Qoduq" da adlanırdı. Ərbil ətraflarında xalq buna "Kosa Baba" deyir. Kosa üzünü qaralar, cılğı /kezi dərisi/ geyər, kezədən qulaq yapar, başına buynuz buraxar, boynuna qanqavur /zınqırov/, arxasınca quyruq taxar, əcaib bir gürkəm alardı. Hamı kosanın geyiminə baxar, qoduq kimi atılıb düşməsindən həzz alar, pay verərdilər. Bayramın ilk günü hez bir iş gürülməz, uşaq-büyük erkəndən bayram yerinə seyrana zıxar. Sallanğuclara, zərxi-fələklərə, dolamalara minərlər. O bayram kezər, başqa bayramlar gələr. Kərküklü uşaq yenə də oyununu oynar. Ay dolanar, gün dolanar, yel dolanar, yağış olar, fəsillər dəyişər, illər-illəri əvəz edər, qızlar gəlin, gəlinlər ana, analar nənə olarlar. Nəsillər dəyişər. Kərkük dolaylarında dəyişməyən, daimi qalan kərküklülərin adət-ənənəsi, xoyratları olar.

## SEVGİ-MƏHƏBBƏT XOYRATLARI

Bulaq başı daş olur,
Daşın üstü yaş olur.
Bulağa gedən qızlar
Hamsı qələmqaş olur.

Bulaq başın kəsərəm,
Yellər kimin əsərəm.
Desələr yarın gəlir
Üzüm qurban kəsərəm.

Qalanın bucağında,
Od yanar ocağında.
Qoy məni üldürsünlər
Yarımın qucağında.

Qaşların mildi, güzəl,
Yanağın güldü, güzəl.
Demə gəlib-getmirəm
Künlümüz birdi, güzəl.

Qızılgül oyum-oyum,
Yara bərabər boyum.
Yağış yağar yer doymaz
Mən yardan necə doyum.

Dağlar başı saz eylər,
Şahinlər pərvaz eylər.
O yarın küləsiyəm
Sələşdikcə naz eylər.

Dama zıxma gürəllər,
İncə gülsən dərəllər.
Qonşular yaman olub
Gürmədiyin deyəllər.

Daş gələr daşa dəyər,
Tərpənmə başa dəyər.
Bir vəfalı yar olsa
Yüz min qardaşa dəyər.

Düngəm üzüm,
Düngəm, dəbəngəm üzüm.
Bəzədim yola saldım
Sağdışım, yengəm üzüm.

Ev süpürər, toz edər,
Qaş altından güz edər
Fəqir oğlan neynəsin
Hər nə edər qız edər.

Əlimdə saza yanım,
Etdiyin naza yanım.
Baş qoyum dizin üstə
Qış yatım, yaz oyanım.

Zülf uzun, üzə dəyər,
Əyilsə dizə dəyər.
Yanağında bir xal var
Beş min, beş yüzə dəyər.

Zülfün siyah zil kimin,
Yanaqların gül kimin.
Qarşında boyun əgdim
Alıb-satma qul kimin.
İnci səpdim havuşa,
Sərxoşam yerim düşə,

Yastığından gül qoxar,
Düşəgindən bənüvşə.

Yarımın üzü şirin,
Sələşər süzü şirin.
Qaşına xətt zəkibdi
Kiprigi, güzü şirin.

Kababzıyam, güzüm yox,
Şal satıram bezim yox.
Mən əxlaqın bəyəndim
Camalında güzüm yox.

Kərkükün yollarında,
Ziməydim güllərində.
Bir cüt qolbağ olaydım
Yarımın qollarında.

Kətan küynək, bədən var,
Məni qoyub gedən var.
Əvvəl belə degildin,
Səni bir ürgədən var.

Güz olar,
Atəş yanar, küz olar,
Hər kəs sevdaya düşsə,
Sinəsi güz-güz olar.

Gülə bəndəm,
Bülbüləm gülə bəndəm.
Mən burda dayanmazdım,
Bir şirin dilə bəndəm.
Güzəlim, asta yeri,
Baş barmaq üstə yeri.
Dabanın basma yerə,
Zıx sinəm üstə yeri.

Leyli sən, nə Leylisən,
Kimə saldın meyli sən,
Sən bəgəndin, sən sevdin,
Hələ də gileylisən.

Necə güzlər,
Necə qaş, necə güzlər,
Bir güz kirpik zalarsa,
Yar yolun necə güzlər.

Pəncərədən daş gələr,
Xumar güzdən yaş gələr.
Sevəni sevənə ver,
Allaha da xoş gələr.

Sona güldə bir üzdü,
Bir zalxandı, bir üzdü,
Üzün qoy üzüm üstə
Gürən desin bir üzdü.

Sən mənim mürşüdüm, yar.
Az qoynun üşüdüm yar.
Dərd süylə, - can deyim mən,
Bir səsin eşidim, yar.

Xanakin bizim olsun,
Ətrafı üzüm olsun.
O yar bizə gələndə
Gecələr uzun olsun.
Xurmatıda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qonşuda qız sevənin
Ürəgində yağ olmaz.

Xurmatıda üzüm var,
Gəl getmə qız, süzüm var.
Dünyanı güzəl alsa,
Mənim səndə güzüm var.

Zayır qısa bizilməz,
Su dərindi kezilməz.
Mənə derlər yerdən kez,
Yar şirindi kezilməz.

Ceyranam zül dəlisi,
Sonayam gül dəlisi,
Qınamayın qardaşlar,
Olmuşam gül dəlisi.

Coşğun necə coşmasın,
Qəm də həddin aşmasın.
Yarı güzəl olanın
Fikri necə zaşmasın.

Şirin səni,
Sevərəm, Şirin səni.
Sevməsəm canım zıxsın
Canımnan şirin səni.

Şirin-şirin,
Qar yağar şirin-şirin.
Baş qoyum dizin üstə
Can verim şirin-şirin.

## YAS MƏRASİMİ

İraq türkmanlarında bir evdə kimsə vəfat edəndə qadınlar fizəh /şivən/ qoparır, ağlamağa başlayırlar. Bu vaxt ülü yuyulur, kəfənlənir və pambıqla düşənmiş sandığa-tabuta qoyulur, tabutun qapağı mıxlanır. Sağlığında müqəddəs yerlərdən kəfənlik ağ və zəmzəm suyu gətiribsə, ülünü yuyarkən suya zəmzəm suyu qatılır və mərhumu həmin ağa büküb dəfn edirlər. Beləliklə onun cənnətlik olacağına inanırlar.

Axşam ülmüş kimsəni səhəri gün basdırırlar. Günün birinci yarısında rəhmətə gedəni həmin gün basdırırlar. Savab deyə məzar torpaqla dolanda hər kəs üz ovuc torpaq gütürüb məzar üstünə atır. Bu onunzün edilir ki, güzü dünyada qalmasın.

Üz gün, üz gecə yas tuturlar. Bəzi bülgələrdə yas yeddi gün davam edir. Ülənin əqrəbaları üz gün günəş zıxmazdan əvvəl və gün sarısı /gün batarkən/ onun qəbrini ziyarət edirlər. Yasın üzüncü günü xeyrat —ehsan verilir.

Mərhumun yaxın kişi qohumları yasa gələnləri hürmətlə qarşılayır, ehtiramla yola salırlar. Məclisi tərk edənlər təziyə sahiblərinə "Başıvız sağ olsun", "Qalanlar sağ olsun", "Allah əhv etsin" və s. kimi süzlərlə təsəlli verirlər.

Birinci cümə axşamı və mərhumun yedisi günü halva zalıb evdə və ya qəbristanda fəqirlərə paylarlar. Mərhumun qırxına kimi hər cümə axşamı aş bişirilir və bu xürəyə mərhumun adı anılaraq bir damcı duz atılır. Bişirilən aşı, əsasən yoxsullara paylayırlar. Qırxa kimi qəbrin üstü gütürülür. Mərhumun başdaşında adı, olum və ülüm tarixi, ümür yolu ilə bağlı şeir parzaları yazılır. Xeyrat-ehsan verilir.

Qırxında olduğu kimi, mərhumun ili tamam olanda da xeyrat verilir, bəlli yoxsullara isqat /zəkat/ deyilən bir miqdar pul yardım edilir.

Qadın yası təsirli olur. Cənazə evdən zıxmadan üncə qadınlar geysilərini-əlbisələrini dəgişib qərə girərlər /geyərlər/. Başlarını azıb sazlarını yolarlar. Başlarına zamur sürtərək zığlıqlar /şivən/ edərlər. Erkəklər məzarlıqdan dündükdən sonra qadınlar məzarlığa gedib qəbrin başında ağlaşıb fəryad qoparərlar. Ülənin ən yaxın

adamları bir araya toplanaraq baş azarlar, saz yolarlar. Ülənin eyşi, bacısı, qızı, nənəsi /anası/ sazlarından /qayzı/ ilə kəsərək biləklərinə bağlarlar. Biləkdəki sazlar yasın yeddinci günü bir qadın tərəfindən kəsilir.

Qadınlar ailəyə baş vermiş kədərlə bağlı sinələrini yırtır, sazlarını yolur, üzlərini cırır, "Vay balam, vay" deyərək sızlamağa başlayırlar. Sızlamaqdan əvvəl rəhmətə gedənin yaşına, peşəsinə, həyatda tutduğu müvqeyinə, mənsəbinə, əxlaq və güzəlliyinə, boy-buxununa, şücaətinə, səxavətinə, şan-şührətinə, xeyirxahlığına uyğun süzlər sadalanır, sonra sazlamaqlara kezilir.

Qadınlar tərəfindən düzənlənən yasda bir sazlayan /ağı deyən/ və ya yas başlayan peşəkar qadın bulunur. Yanıqlı səslə süzlər süyləyən, uzun illər boyunca bu işi başaran bu qadın fəryadla xalqın təskinlik tapdığı sazlamaq və xoyratla oxuyar, ara-sıra yasa qatılan qadınların ülülərinin adını xatırlayaraq haqlarında ən incə və ürək yaxıcı sazlamaqlar və xoyratlar deyər. Ülünün qadın əqrəbaları yasa gələnləri ayağa duraraq qarşılar, şivən qoparar, zığlıq atar, üzlərini əlləri ilə vurar, zox vaxt üzlərini cırarlar:

Oğlu ülən: "Vay balam, vay, mən üləydim..."
Atası ülən: "Vay babam, vay, mən üləydim..."
Anası ülən: "Vay nənəm, vay, mən üləydim..."
Qardaşı ülən: "Vay qardaş, vay, mən üləydim..."

Bundan başqa qadınlar ağladıqları sırada, ya da sazlayan qadının süzlərindən təsirlənərək diz və küksləriпə vurar və deyərlər: "Torpağıya qurban, güzüyə qurban" və s. yasın üzüncü və yeddinci gününə qədər yas saxlayan qadına ülənin yaxınları və əqrabaları bir miqdar para /pul/ verirlər. Buna "yasanaqlıq" deyirlər.

Rəhmətə gedənin məziyyətlərini sadalayıb ağı demək adəti Azərbaycanda da olmuş və indi də qalır. Məsələn: "Azılmayan tüfəngin, siyrilməyən xəncərin canına qurban. Ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın,

saydığına salam verdin, saymadığına yan verdin, düşməninə dirsək güstərdin, qəniminə qan uddurdun. Altının bədüv atına, ziyninin süzən tüfənginə, tərkinin dolu xurcununa, ağzının kəsərli süzünə anan qurban ay...”

Kərkük dolaylarında da buna bənzər təsirli süzlərdən sonra zəmanədən, gərdişdən, fələkdən, ictimai həyatdan, ayrılıqdan və s. bəhs edən, qəm üstə qəm gətirən, yasa yığılan qadınları haldan-hala salan, ürəklərinə od salıb dil-dil ağladan təsirli süzlər süyləyirlər.

Burda ülüb bir cavan,
Gəlsin cavanı yuyan,
Necə kəfən tikərlər?
Necə qəbrə qoyarlar?
Barmaqların tükülsün,
Cavan güzünü yuman.

Bundan sonra mütləq bir nezə yanıqlı xoyrat deyilir:

Bala vay,
Bal yemədim, bala vay,
Züp yığdım, yuva qurdum.
Uzurmadım bala, vay.

Verən sən,
Alan sənsən, verən sən.
Gah evlər bəzədirsən,
Gah edirsən veran sən.

Sazlamaq davam edir. Dünyadan küzmüş üvladın anasının dilindən təqribən belə süylənilir:

Musallanın /qəbristanın/ zim daşı,
Yandı ürəgim başı.
Bir yoldaşın gürəndə
Tükərəm güzüm yaşı.

Qənşərdə pütxana var
Ləli yaqutxana var.
Gedirsən işıq apar,

Orda zülmətxana var.

Yenə xoyratlar deyilir və dünyasını dəyişmiş gəncin arvadının adından sazlamaqlar deyilir:

Burda ülüb bir cavan,
Gəlsin cavanı yuyan,
Yetim balası qalan,
Doğuluşu heyrət olan,
Xanası bərbad olan,
Barmaqların tükülsün
Cavan güzünü yuman.

Ziriq qura bilmədim,
Qurub bura bilmədim,
Ayrılıq zox güclüymüş,
Qarşı dura bilmədim.

Vəfat etmiş gənc gəlinin anası dilindən süylənilən sazlamaqlar, əsasən belədir:

Dəvələr düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Balam baş aldı getdi,
Balası bizdə qaldı.

Düzülü yataqları,
Cehiz dolu boğzası,
Qiymətli əlbəsəsi,
Tərk etdi, bizdə qaldı.

Gəlin-gəlin olmadı.
Al-yaşılın soymadı (soyunmadı)
Bu necə gəlinlikdi,
Ili tamam olmadı.

Bəzən də sazlamaqlar həm ananın, həm də mərhumun dilindən deyilir:

Bağzamız heyva verdi,
Nar verdi, heyva verdi,

Sən mənnən itap etmə
Balanvı yetim edən,
Gənc ümrüvü kəm edən
Fələkdən itap elə
Bəlaları o verdi.
Bağzada barım qaldı,
Heyvayla narım qaldı.
Ey zalım, qəddar fələk
Mən sənə nə etmişdim?
Beşikdə kürpə balam
Yataqda yarım qaldı.

Kimsəsiz bir nəfər dünyadan gedəndə:

Al vala, yaşıl vala,
Salacam düşdü yola.
Nə anam var, nə bacım,
Ənsəmcə sazın yola.

Qazan ağlar;
Od yanar, qazan ağlar.
Burda bir qərib ülüb
Qəbrini qazan ağlar və s.

məzmunlu sazlamaqlara üstünlük verilir. Hələ evlənməmiş gənc dünyadan küzəndə onun taleyinə uyğun sazlamalar sezilir:

**Üz nənəm:**

Qarnı dolu güz nənəm,
El ağlar, yalan ağlar,
Qoy ağlasın üz nənəm.

Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan xeyr gürdüm,
Nə bir nişanam qaldı və s.

## SAZLAMAQLAR

Ağlaram ağlar kimin,
Dərdim var dağlar kimin,
Xəzəl ollam tüküllləm
Viranə bağlar kimin.

Ay zıxdı dalda durdu,
Gür nə xəyalda durdu.
İstəyirdim gürüşəm
Fələk arada durdu.

Alma yanı,
Al olu alma yanı
Necə qəbrə qoyallar
Muradın almayanı.

Bağzamız inci tutar,
Inci birinci tutar.
Yoldaşların gürəndə
Məni bir sancı tutar.

Bala dərdi,
Bal dərdi, bala dərdi.
Bütün dərdlər sağalar
Sağalmaz bala dərdi.

Bir gündə
Bir külgədə, bir gündə,
Illərcə bir dam tapdım,
Fələk yıxdı bir gündə.

Bu dağda məni,
Qovma bu dağda məni.
Üzün baş aldın getdin
Qoydun bu dağda məni.

Bu dağlar, ulu dağlar,
Ətrafı sulu dağlar.
Mən üz dərdimi azsam
Ay, Günəş, bulud ağlar.

Bu dağlar uca dağlar,
Başını duman bağlar.
Mən bir dərdə düşmüşəm,
Halımı gürən ağlar.

Bu dağın qarı mənəm,
Gün vursa əriмənəm,
Yüz il torpaqda qalsam,
Cavanam zürümənəm.

Budağ yanar,
Gül solar, budağ yanar.
Yetiməm ürəyimdə,
Ülüncə bu dağ yanar.

Burda yarın səsi var,
Qara geyib, yası var.
Gedin fələk yanına
Baxın bizdə nəsi var.

Vaya vaydan,
Kim gürüb saya vaydan.
Əkdim qəm, bizdim hicran,
Vurdum yüz taya vaydan.
Vay demədən,
Vay gəldi, vay demədən.

Qoy zıxsın dərdli canım
Qurtulsun vay demədən.

Vay dərdim,
Vay dərmanım, vay dərdim.
El vay əkdi, gül dərdi,
Mən gül əkdim, vay dərdim.

Qan atlansın,
Zal neştər, qan atlansın,
Əzrail insaf eylə
Qoy kürpəm qanatlansın.

Dağı dağdan,
Sel azar dağı, dağdan.
Fələyə neyləmişəm
Kəsməyir dağı dağdan.

Dağlara düşdü yolum,
Kimsəsizdi sağ-solum.
Kəsildi gəlib-gedən
Mən səni kimnən sorum.

Dağ üstündə dağ olmaz
Tək ağacdan bağ olmaz.
Hər kimin oğlu ülsə
Ürəyində yağ olmaz.

Dağ üstünə,
Qar yağar dağ üstünə,
Sinəmdə yer qalmadı,
Dağ gəldi dağ üstünə.
Dad fələk,
Bidad fələk, dada fələk,
Izirtdiyin şərbətdən
Bir üzün də dad fələk.

Dolu düşər,
Qar yağar, dolu düşər,
Qəbrim yol üstdə qazın
Bəlkə yar yolu düşər.

Durdu qəm,
Azdı yaram, durdu qəm.
Mən miskin olduğumzün
Üstümə qudurdu qəm.

Əkinim əkilirdi,
Sünbülüm tökülürdü.
Zülfündən bir tel gündər
Kəfənim tikilirdi.

Əhmədiyəm, ağam, mən,
Aləmə yığnağam mən.
Dürd divarı yıxılmış
Veranə bir bağam mən.

Yağlığım qaldı bağda,
Bağlar güg olan zağda,
Əkinim doldu vurdu
Hasilə yetən zağda.

Yaralandım, yatmadım,
Yaram tumar etmədim.
Zox niyyətlər tutmuşdum
Hez birinə yetmədim.
Yarı qaldı,
Izmədi yarı qaldı.
Üzü həsrətlə getdi,
Güz yaşlı yarı qaldı.

Yetimin səsi gəlməz,
Yığlar nəfəsi gəlməz.
Baş yastuğda, güz yolda
Bəklər, kimsəsi gəlməz.

Kamalım,
Aldın, əqlim, kamalım,
Rəqibin güzü zıxsın
Qoymaz sənnən kam alım.

Kabab güz etdiyimdi,
Sürmə güz yetdiyimdi.
Qoy canım belə zıxsın
Hamsı üz etdiyimdi.

Kim tutdu,
Kim yəxədi, kim tutdu.
Burda bir bikəs üldü,
Bilməm yası kim tutdu.

Kimə gedim,
Kimin var, kimə gedim.
Bu dərdi xudam verib
Dərmənə kimə gedim.

Gedirəm yolum yoxdu,
Qanadım qolum yoxdu,
Yüz il bir yerdə qalsam
Məni soranım yoxdu.

Gedirəm ügüm dağdı,
Gür nə səfalı bağdı,
Zəkəcəm dərdini
Nəğərtə canım sağdı.

Gül üzünə,
Səpərəm gül üzünə.
Yalvararam qarıncaya,
O güzəl güzlərinə,
O qaytan dodağına,
Uzun zinar boyuva,
Düşməsin gül üzüvə.

Mən neynim, üzüm neynim,
Bu dərdə düzüm neynim.
Od sənnən, odun sənnən.
Yandırım, üzüm neynim?

Musallanın düzləri,
Sel basıbdı bizləri.
Boynuma kəşkül salım,
Hardan tapım sizləri.

Necə sayım,
Dərdim zox, necə sayım.
Sənsiz kezən günləri
Ümürdən necə sayım.

Ürtməsin,
Güzəllər üz ürtməsin
Qızlar türbəmi qazsın,
Azıq qoysun ürtməsin.

Zağırdım əsmər, əsmər,
Ağ ciyərim qan bəslər.
Odu mən qoydum getdim
Kürpəm, səni kim bəslər?!

## YAĞIŞ-YAĞMUR VƏ BAŞQA HADİSƏLƏRLƏ BAĞLI ADƏTLƏR

Kərkük və ətrafında yağış zox yağmaz. Lakin bəzən elə yağışlar olardı ki, küzələri, evləri su basar, zaylar və arxlar daşar, kürpülər yıxılar, əkinlər məhv olar. Hər şey yerlə yeksan olardı. Belə olanda camaat "Allah afətdən saxlasın", "Ya Səttar, yardım et" –deyərlərdi. Kərkükdə belə afətlər hez yaddan zıxarılmazdı.

Bununla belə, burada əsasən quraqlıq kezərdi. Yayda və payızda quruyub bağrı zat-zat olmuş torpaq payızın sonu və qışın əvvəlində ilk yağışı səbirsizliklə güzləyər, güylülər güzlərini səmadan zəkməzdilər. Yağan yağış pələ adlandırılır. Burada vaxtına gürə bahar yağışı, zisə, səs, ziləmə, qoca bürgü, qəri muncuğu, at quyruğu, nəmnəm yağışları da olur.

Lakin yavaş-yavaş yağaraq torpağın canına hopan pələ ən xeyirli yağış hesab olunar. Güzəl bir pələ düşsə, üzlər gülər. "Pələ bərəkətli bir ilin elzisidi, pələ yağdiysə zürək ucuz olacaq" deyirdilər.

Yağmur gecikərsə, kezmiş qıtlıq illərini güz qabağına gətirərdilər. Əkin-bizinlə əlaqəsi olmayanlar belə, yağmurdan, əkindən süz salardılar. Torpaqdan ağaclara, quşlara, insanlara qədər yağış üzün büyük bir intizar olurdu. Güydə gürünən hər topa bulud, yalvaran baxışları üzünə zəkərdi. Bəzən günlərlə topa buludlar Kərkükün üstündən zəkilməz, yenə də yağmazdı. Güzlərdə parlayan işıq, ürəklərdə doğan ümid sünərdi. "Yox, yox, bu il də bildirki kimin əkin-bizin olmaz" –deyərdilər. Fəqir-füqəra pərişan olar, məmləkətin üstünə bir ümidsizlik zükərdi. Su ağzında bağzası olanlar arasında qavğa düşər, qanlar tükülərdi. Qıtlıq və aclıq olardı. Bahalıq kərküklərin güzlərini qırardı. Bir yağış arzusu ilə "Kosa gəldi", "Qodu", Qoduq" və ya "Zəmzələ qız"a hazırlıq gürülər, yağmur duaları oxunardı. Ehtiyac büyük olanda bütün məmləkət iştirak edərdi. Əhali üz gün oruc olardı. Son gün bazar qapanardı. Məmləkət əhli bəlli yerdə yığışardı. Qurbanlar kəsilərdi. Büyük qazanlar qurub, yağmur aşı yapardılar. Dua mərasimi yenidən başlardı. Sonra oruclarını "yağmur aşı" ilə iftar edərdilər. Hər kəs yüz xurda daş

gütürüb arxa atar və axşama yaxın evə dünərdi. “Kərkükdə son büyük “yağmur duası” 1952-ci ildə olub —Q. P/ axşam isə ulu Tanrıya qarşı “Kosa gəldi”, “Qodu” və “Zəmzələ qız” yapılardı. Onların arxasınca gedənlər oxuyardılar.

Allah bir yağış elə,
Dam divarı yaş elə
Paşa qızı kezəndə,
Babucını yaş elə.

Azın anbar ağzını,
Verin yağış payını.
Verəni xatun elə
Vermiyəni daş elə.

Allah bir yağış elə.
Dam-divarı yaş elə.
Əmim oğlu kezəndə
Əlbəsəsin yaş elə.

“Kosa”ya qapı azılar, ona para, yemək, yağ, pənir və digər nəsnələr verilərdi. Azılmayan qapıya dügər, “Kosa gəldi qapını qırdı” deyərlərdi. Hədiyyələr kecikəndə hay-küy salar:

Ha dura-dura yorulduq,
Tütünüvüzdən boğulduq.
Azın anbar ağzını,
Verin Allah borcunu.

—deyərdilər. Toplanan nəsnələr zox olanda ikinci gün məhəllədə büyük qazan qurular. “Yağmur aşı” asılar, yoldan kezənlər, fəqirlər və s. bu aşdan yeyər və dua oxuyardılar.

“Kosa gəldi” ilə bərabər “Zümzələ qız” da olurdu. Fərq odur ki, bir ağaca libas geydirib gəzdirər və mahnı oxuyarlardı:

Zümzələ qızım aş istiri,
Allahdan yağış istiri.
Hey zəmzələ-zəmzələ
Zəmzələm yağış istər
Hüseyni yağlamağa

Beşigi bağlamağa.
Verəndə Allah versin,
Vermiyənə də versin.
Oğlu kürəkən dursun,
Qızı həlhələ versin.
Ver Allahım ver,
Yağmurunnan sel,
Küpəkli xırman,
Qoy-qoyun qurban
Hey zəmzələ-zəmzələ,
Zəmzələm yağış istər
Dam-divarı yaş istər.

"Zəmzələ qız" bəzən də ağac yox, insan olurdu. Onun başı bezlə sarılır, boynunun ardında ağız, burun, qaş, güz düzəldilirdi. Boynuna bir ip salınır və ipdən tutub "Zəmzələ qızı" oynadırlardı. Üzləri isə mahnı oxuyarlardı:

Zümzələ gəldi eşigə,
Oğlanı qoydu beşigə,
Tanrı bir rəhmət versin,
Qoyunlara süt versin.

Ha dura-dura yorulduq,
Tütünüvüzdən boğulduq.
Azın anbar ağzını,
Verin Allah borcunu.

Və ya:

Zəmzələ qızım yağışdır,
Hər gələnə bağışdır.
Azın xəzinə qapısın,
Verin Allah borcunu.
Verənlər xatun olsun,
Vermiyən qatır olsun.

Sonra bir qab buğda, bir qab un, yumurta və s. Allah verən şeylər istərlərdi. Evlərdən dilənilən şeyləri bişirir və fəqirlərə

paylarlardı ki, onlar da dua oxusunlar. Yağış yağan da uşaqlar bir ağızdan təkrar-təkrar deyərdilər: "Yağış yağırı, qurd doğuru, zaqqal nənəsin boğuru".

Inanclara gürə bu, kütü insanların cinayət, zülm, işgəncələrinə Allahın cəzasıdır.

## RƏNGARƏNG ADƏTLƏR

Günahı və ya suzu olan şəxsin başını qırxar, üzünə qatıq sürtər, eşşəyə mindirib küzələri gəzdirərlərmiş. Indi də suz işlədən kimsəyə "Gürürəm eşşəyə tərsə mindirilmək istəyirsən" deyirlər.

Bəzən əhd edərdilər: "Bir oğlum olsun, yeddi qapı dilənərəm. Dilənəndə əba və zarşafa sarınardılar ki, qonşular tanımasın.

Digər bir adət də var. Ana əhd edər:

"Bir oğlum olsun, yeddi yaşına qədər əlbəsə almayım" deyərdilər. Yeddi yaşına qədər uşaq onun-bunun kühnə paltarını geyərdi.

İraq türkmanlarında kişi arvadına "Məhəmməd nənəsi" deyə müraciət edir. Arvad isə ərini "Məhəmməd balası" deyə zağırır. Kezmişdə ata-ana uşağı mollanın yanına aparıb deyərdilər: "Molla Əfəndi, oğlumuzu sənə təslim edirik. Tərbiyə və ədəb üzün. Əti sizə, sümügü bizə". Molla uşağı ügrədincə bir zox hədiyyələr alardı. Uşaq Quran oxurkən Molla istəginə əsasən süzlər düzər və hədiyyə istərdi.

Uşaq "ana kən suvab" ayətini oxuyunca Molla: "Bir qara tavuq suvab" deyir. Uşaq bir tavuq və ya para hədiyyə gətirərdi.

**Uşaq:**
—"Kəsf makul" deyincə molla,
—"Gəti bir zəngə pul" deyir.
**Uşaq:**
—Bimnəun əl maun.
**Molla:**

—Gəti bir qəlib sabun.

**Uşaq:**

—Əl-təra,

**Molla:**

—Gəti para, gətirməsən üzün qara və s.

Kərkükdə evin üstü tametlə ürtülür. Dürd yanına divar zəkilir. Bu divara "sitara" deyirlər. Yayda gün batarkən evin damı və sitara sulanır ki, sərin olsun. Bir azdan yataq düzəldilir. Karyolaların üstündə "zibinliklər" düzəldilir. Bu, Kərkükdə "ürtük zıxartma" adlanır. Güzəl qızlar, gəlinlər bu işlə məşğul olurlar. Bu, el şairinin nəzərindən qazmır.

Dama zıxdı bir güzəl,
Damın ətrafın gəzər.
Əlində bir dəstə gül,
Üzü gülünnən güzəl.

Yay müvsümünün sona yetib havaların sərinləşdiyini güstərmək üzün 14 Əylül gecəsi tonqallar yandırılır, bununla da damda yatmaq vaxtının kezdiyini güstərirlərmiş. Bu şənliyə "Saya" deyirlər. Uşaqlar arasında indi də yayılan "Sayadan, ilan zıxmaz qayadan" bununla əlaqədardır. "Manqalaydan dama zıx, yerpizəkdən damnan en" atalar süzü də bu adətə rəğmən yaranmışdır. Bu o deməkdir ki, havalar isinməyə başlayandan damda yatmağa başla, lakin soyuq düşməmiş damdan en, evdə yat. Bunun ziyanı olmaz.

Kərkük dolaylarında qonşular bir-birinə yardım edir, acxamra verir. Kim üncə təndür salırsa, yəni təndür qızdırırsa, digər qonşuları zağırırdı. Un ələklə ələnir, ələnən un incanəyə və s. tükülür, su qatılır, xamır edilir. Təndürdə bişirilən əkməkə lavaşa deyilir.

Sac əkməgi —yuxa da yapılır. Yuxa yapan üzərinə bir gündə yapılıb oxlov ilə ufqa azılır, sonra sac üzərində bişirilir. Əkməglər bunlardı: yuxa, mada və ya sac əkməgi, lavaşa, yağlı əkmək, su zürəgi. Təndürə əkmək yapandan sonra təndür boş buraxılmazdı.

Izinə noxud, bağla /qabaq, balqabaq/, kəllə, gümmə buraxılır, sonra yeyilirdi.

Kərkükdə gügərzin bəsləyən quşbazlar olardı. Quşlar üzərinə mərc edərdilər. Üz saatlıq məsafədən quşlar buraxılardı. Erkən olaşan quş qazanardı. Bu zeşid quşlara "igid mərc quşu" deyərdilər.

Əskidə bir kimsə başqasını üldürsə, onun da ülümünə fitva verilirdi. Cəllad xalqın güzü qarşısında bəlli yerdə onun boynunu vururdu. Əgər üldürülmüş adamın tərəfi arzu etsə, cəlladı onlardan biri əvəz edərmiş. Əta Tərzibaşının "Kərkük xoyrat və maaniləri" kitabında bu adətə rast gəlirik. Kərkükdə nadir səsə malik muğamat ustası /indi Kərkük muğamları arasında sezilən "Muzala" üsulu onun adı ilə bağlıdır /qısa şəkildə Muza, Muzala —Q.P./ Mustafanın başına gələn faciə bu adətdən sührbət azır. Bu, təqribən yüz il bundan üncə olmuşdur. Güzəl sənətkarın əlindən zıxan xətər nəticəsində Qafur ağanın gənc oğlu Zeynal ülür. Bu acı xəbər Zeynalın yenicə evlənmiş büyük qardaşı Hüseynə zatınca, onun da ürəyi partlayıb ülür. Bu ağır hadisə xalqa təsir edir. Indi də məşhur olan "Aman həcci qıyma mənə" xalq mahnısı yaranır:

Səhər oldu vardım bağa,
Dur yanımda Qafur ağa.
Qanım tükdülər qabağa,
Aman həcci qıyma mənə
Muzu qayıbdı bu cana.

Hamamnan zıxıb tərliyib,
Ağzı qurru su gürməyib.
Oğlan cahil evlənməyib,
Aman həcci qıyma mənə
Muzu qayıbdı bu cana.

Belini zaldı başıma,
Al qanı tükdü qarşıma.

Xəbər verin qardaşıma,
Aman həcci qıyma mənə
Muzu qayıbdı bu cana.

Məni bezdən bezətdilər,
Haqq yerimi düzəltdilər.
Musallada uzatdılar,
Aman həcci qıyma mənə
Muzu qayıbdı bu cana.

Ülümünə fitva verilən sənətkar boynu vurulacaq meydana gətirilərkən yanıqlı səslə oxuyur:

Saray ünündə durallar,
Firəngimi qırallar.
Düvlətdən fərman gəlib,
Indi boynum vurallar.

Edam fərmanı oxunduqda zox kədərli bir səslə:

Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan xer gürdüm
Nə bir nişanam qaldı.

—oxuyur və hamını ağladır.

Fərman oxunduqdan sonra məlum olur ki, cəlladı Zeynal ağanın xidmətzisi Şərif adında şəxs əvəz edəcəkdir. Bu, sənətkara ağır gəlir və aşağıdakı xoyratı oxuyur:

Bu alma dərd olaydı,
Qarnıma dərd olaydı.
Boynumu vuran cəllad,
Keşkə bir mərd olaydı.

Nəhayət, cəlladın "iki ağanın qanlısı hazır ol!" əmrinə o zox kədərli bir səslə:

Qalasız,
Kərkük olmaz qalasız.
Odu mən qoydum getdim,
Siz sağlıqla qalasız

—oxuyur. Toplaşanlar hünkür-hünkür ağlayırlar.

# ARXAİK JANRLAR

## İNANCLAR

Ovuc izi gidişirsə, ələ para gələcəyinə inanırdılar. Gidişən əl üz kərə üpülür və başa buraxılırdı.

Ay tutulursa, savaş olacağına inanırdılar. "Div ay nənəni tutub" deyərək soqaqlarda, evlərdə tənəkə zalaraq səs-küy salırdılar.

Axşam gün sarısında parza buludlar qızararsa yağmur olacağına inanırlar.

Aşura günü dünyaya gələnin büyüyəndə uşağı olmayacağına inanırlar.

Birinin günahını yumaq üzün başına qırx zanaq su tükərdilər. Onda günahından keziləcəyinə inanırdılar.

Boş yerə minqasın ağzını azıb yummaq uğursuz hesab olunurmuş. Düşmənin dilinin uzun olacağına inanırlar.

Qadının hamiləlik düvründə zarpayının birinin altına qayzı, o biri zarpayının altına bızaq qoyurlar. Qadın altında qayzı olan zarpayıya uzansa qız, bızaq olan zarpayıya uzansa isə oğlan uşağı olacağına inanırlar.

Qazılmaqda olan türbəyə yağmur yağarsa, o il yağmur az olacağına inanırlar. Odur ki, yağmur yağmayan vaxt inama gürə o məzarın üstünə bir sətl /vedrə/ su tükülərsə, yağmur yağacağına inanırlar.

Qırxlı uşaq olan evə ət gətirilsə, fənalıq olmasın deyə yerə qoyarlarmış, ana uşaqla ətin üstündən adlayarmış.

Qırxı zıxmamış uşağın anasının südünü uşağı olmayan qadının başına tükəndə uşağı olacağına inanırlar.

Qırxı zıxmamış kürpənin paltarının suyunda uşağa qalmayan qadın zimsə uşağı olacağına inanırlar.

Qulaq civildərsə qeybətinin edildiyinə inanırlar.

Quşlar qovğa qopararsa qonaq gələcəyinə inanırlar.

Diş ilə kəsilən loxmanı başqası yeməz, yeyərsə aralarında düşmənzilik olacağına inanırlar.

Dovşanın quyruğu yuxusuz uşağın başına bağlanarsa və ya yastığı altına qoyularsa onun yaxşı yatacağına inanırlar.

Dolu yağanda onun bir dənəsini bızaqla iki yerə bülsən dolunun kəsəcəyinə inanırlar.

Evin üzərindən uzan qarğa qarıldasa, yeni xəbər eşidəcəklərinə inanırlar. Bu xəbərin xeyirli olması üzün üz dəfə "xeyirli xəbər" deyə təkrar edir və deyirlər: "Xeyir isən gəl bəri, Şər isən dün geri".

Evin bağzasında sərzələr civildəşirlərsə, o evə yolzu /qonaq/ gələcəyinə inanırlar.

Evdə qurban kəsilərsə barmağın ucunda azca qan gütürüb uşağın ağzına qoyurlar. Bununla uşağın üstündə olan ağrılığın gütürüləcəyinə inanırlar.

Əgər bir qadın səfərə zıxmış bir yaxını haqqında xəbər tutmaq və ya bir xəstənin şəfa tapması barədə niyyət tutaraq, cümə namazının azanı oxunarkən bir yol başında yolun hər iki tərəfinə daş atır və namaza gələnlərin danışdığı süzlərdən asılı olaraq

tutduğu niyyətin yaxşı və ya pis olacağına inanırdı. Bu, "cümə daşı atmaq" adlanırdı.

Əskidən bir ailə başzısının başqa bir məmləkətə səyahətə getməsi, ev sahibi üzün büyük bir üzüntü qaynağıydı. Bu səbəbdən, səfərə zıxmış kimsənin dünüşü gecikdikcə arxasınca qara tüklü toyuq uzurmaqla  niyyət tutulardı. Toyuq evin damından uzurularkən evin həyətinə və ya lap yaxınına düşərsə qürbətdə olan şəxsin yaxın zamanda evinə dünəcəyinə inanırlar. Bu inam xoyratlarda da üz əksini tapmışdır.

Uzurtdum qara tavuq ,
Qondu Ərbilə yavuq,
Hamı gedənlər dündü,
Dünmədi başı savuq.

Ziyarətdən dünən bir nəfər yeni doğulmuş uşağın üstünə girərsə "uşaq basıldı" deyər və uşağa bir fənalıq baş verəcəyinə inanırlar. Odur ki, uşağı əvvəlcədən dama zıxarırdılar. Uşaq basılmasın deyə, dışarıdan gətirilən hər şeyin üstündən uşağı kezirirdilər.

İlanın dişisini üldürəni erkək ilanın izlədiyinə və zalmağa zalışdığına inanırlar.

İnanırlarmış ki, nigah mərasimi vaxtı kimsə düşmənziliklə bızaq, qaşıq və ya qayzı sındırsa, toy gecəsi bəy hərəkətdən düşə bilər, yəni bəy bağlana bilər. Odur ki, zoxları kəbinkəsməni gizli kezirərmiş.

İnanırlarmış ki, kəbin kəsilərkən kiminsə barmaqları zarpazlaşmış olsa, toy gecəsi bəy bağlana bilər. Odur ki, hamının barmaqlarının, qollarının yanında olmağı güzlənilirmiş.

İnanırlarmış ki, düşmənləri üstələmək üzün nigah vaxtı hər ehtimala qarşı bəyin qohumlarından biri sap və ya ipdən düyün

salsa, toy gecəsində həmin düyün azılsa bəy hərəkətdən düşməz və bununla da sehr batil olar.

Yarasa qanadını suda saxlayıb, sonra həmin sudan kürpəyə izirdəndə onun gələcəkdə zox ağıllı olacağına inanırdılar.

Yastığın üzərinə ayaq basılsa sahibinin başının ağrıyacağına inanırlar.

Yeddi yaşında olan uşağın ilk dişi düşərkən iki canlı qadın olan evin damına atılarsa, oğlan uşağı doğulacağına inanırlar.

Yola zıxanın dalınca su atanda yolunun aydın olacağına inanırlar.

Küpək dişləyən adam qudurarsa, üləcəyinə inanır və başına kül tükülərmiş.

Kərkükdə Baba Gurgur adlı məşhur yer vardır. Buradan daimi olaraq alov zıxdığına gürə müqəddəs hesab edir və buraya murad diləməyə, niyyət tutmağa gəlirlər. Bir azdan alov buraya gəlib zıxsa niyyətlərinin yerinə yetiriləcəyinə inanırlar. Baba Gurgurun “Neft dərəsi”ndə qaşıntısı, qoturu, kezəlliyi olan adamlar zimir. Baba Gurgurun müqəddəsliyinə büyük inamın bir sirri də “Neft dərəsi” ilə bağlıdır.

Kəsilən saz və dırnaqlar gümülməsə günah hesab olunur və qiyamətdə cavab verməli olacaqlarına inanırlar.

Gecə vaxtı güzgüyə baxmaq, salı /şənbə/ günü təraş olmaq, gün sarıda /qürub zağı/ işləmək, uşağın beşigini boş bulamaq, şər vaxtı ev süpürmək, yerə qaynar su tükmək, qırxlı uşaq olan evə boyaq gətirmək, yeni doğulmuş uşağın yanında ağlamaq, yumurta, soğan və sarımsaq qabuğunu basmaq, birinin libasının dügmələrini üstündə tikmək və s. uğursuzluq hesab olunurmuş.

Gec danışmağa başlayan uşaqların dili tez azılmaq üzün əlinə bir parza zürək verirlər, başqa uşaq zorla gəlib əlindən alır ki, uşaq acıqlanıb danışsın. Bundan başqa uşağa sərzə əti, kişmiş, güyərzin yumurtası yedizdirirlər. Uşağa qəfəsdə olan bülbülün izdiyi qabdan su verirlər.

Gecələr güzgüyə baxılarsa qəribliyə düşəcəklərinə inanırlar.

Güz qapağı səyriyəndə fənalıq baş verəcəyinə inanırlar.

Güzdə itdirsəyi zıxanda bir az aralı qonşunun qapısının düyüldüyünə inanırlar.

Güzgünün qırılması fəna hesab olunur, evdəkilərin başına bir iş gələcəyinə inanırlar.

Gün və ay tutularsa fəlakət olacağına, müharibə baş verəcəyinə, bahalıq və aclıq olacağına inanırlar. Odur ki, güllə atır, baraban zalır və başqa səs-küy salırlar.

Gün sarıda xoruz banlarsa "o, baş yeyər" deyir və xoruzun başını kəsirlər.

Məğribdən sonra qonşudan qazan gətirmək uğursuz hesab olunur. Qədimdən bəri qazanı qonşudan məğribdən sonra ülü yumaq üzün su qızdırmağa gətirərmişlər.

Məhərrəm və Səfər aylarında evlənmək büyük günah hesab olunur və bu aylarda evlənmirlər. Bu aylarda toy, sünnət və şadyanalıq etmirlər.

Obadan küzmək istəyəndə arpa əkərmişlər. Arpa güyərəndə küzərmişlər.

Ocağı ağacla eşələyib yandıran qızın təmizkarlığını yoxlayarlarmış. Ağacın hər iki ucu qaralmışsa, qızın pinti olduğuna, yalnız bir ucu qaralmışsa təmizkar olduğuna inanırlar.

Ülüsü düşən evdə qırx gün kəllə-paza yeyilməzmiş, yeyilsə, o evdə bir nəfərin də üləcəyinə inanılırdı.

Sağ ovuc qaşınırsa para gələcəyinə, sol ovuc qaşınırsa para gedəcəyinə inanırlar.

Sevmədikləri bir adam yola zıxarkən arxasınca daş atarlarmış. Belə olan halda onun bir daha dünməməsinə inanırdılar. Sevdikləri adam yola düşəndə isə arxasınca su atardılar. Yolunun aydın olacağına, səfərinin uğurlu olacağına inanırdılar.

Səfərə zıxılarkən və ya yapılması düşünülən bir iş barədə qonuşarkən birisi bir kərə axsırırsa, səbir gəldi, bəklənilsin, səbr edilsin, iki kərə axsırılırsa, cağat gəldi, xeyirlidir deyə yola zıxırlar.

Səfərdən dünən adam evinə və uşağına zərər verməmək üzün ayağı ilə gələn xəstəlik və fənalığı atmaq üzün evə girərkən oturur və hər iki ayağını uzadır, uşağı üz dəfə onun ayaqlarını uzadır, uşağı üz dəfə onun ayaqları üstündən atlandırırlar.

Sucaq suyu yerə tükməzdən əvvəl "bismillah" deyirlər ki, cinlər qazsınlar. Əks təqdirdə cinlərin də ev sahibinin üvladlarını incidəcəyinə inanılardı.

Sünnət edərkən artıq dərini suda saxlayır, sonra suyu uşağı olmayan qadının başına tükürlərmiş ki, uşağı olsun.

Tavuq xoruz kimi bannasa və ya xoruz axşam zağı bannasa "bu şumdar baş yeyər" deyir və başını kəsirlər.

Uşağı süddən kəsmək üzün bir yumurta qaynadılır, uşağın yastığı altına qoyulur. Yumurta soyuduqca uşağın da süddən soyuduğuna inanılarmış.

Uşağın boğazı ağrıyanda bir ağac qaşığını qazan qarasına sürtür, sonra da uşağın boğazına sürtərlərmiş.

Uşağı süddən kəsən ana südünü qurturmaq üzün, toplanan südü ocağın külü üzərinə sağır, külü yoğurub divara yaparmış. Kül quruduqca ananın südünün də quruduğuna inanarmışlar.

Uşağı olmayan bir qadının sonralar uşağı olanda uşağı ülməsin deyə bir qara tavuq kəsərək kəfinə /kəfənə/ sarıyıb məzarlıqda gümərlərdi.

Uşağın ilk dişinin yuxarıdan zıxması uğursuz hesab olunarmış. Belə olduqda uşağı dam başından havuşa /həyət/ atarlarmış. Havuşda isə dürd kişi, hərəsi cecimin bir yanından yapışıb uşağı tutarlarmış.

Uşağa güz dəyməsin deyə boğazına güzmuncuğu asarlardı.

Hamilə qadın kükəlməyə başlasa qız, arıqlamağa başlasa oğlan olacağına inanırlarmış.

Hamilə qadının bədəninin rəngi ağarmağa başlasa oğlan, qaralmağa başlasa qız olacağına inanırlarmış.

Hamilə qadın balıq ilə yoğurd yeyərsə, dünyaya gələn uşağı alaca tutacağına inanırlarmış.

Hamilə qadının gübəyi yuxarı qalxsa oğlan, aşağı düşsə qız olacağına inanırdılar.

Hamilə qadının düşlərinin kənarı qızarsa oğlan, qaralsa qız olacağına inanırdılar.

Hamilə qadının bətnində uşaq sağ tərəfə meyl etsə oğlan, sol tərəfə meyl etsə qız olacağına inanırdılar.

Hamilə qadının əri qadının bətninə əl vuranda bətndə uşaq tərpənərsə oğlan, tərpənməzsə qız olacağına inanırdılar.

Hamilə qadının xəbəri olmadan başına bir zimdik un səpəndə əlini sazına zəksə, üzünə uzatsa qız, uzatmasa oğlan olacağına inanırlarmış.

Hamilə qadın kürəyində ağrı hiss etsə oğlan, büyründə ağrı hiss etsə qız olacağına inanırlarmış.

Hamilə qadın günəş və ya ay tutulanda bədənini qaşımazmış, əks təqdirdə uşağın sifətində və bədənində ləkə olacağına inanırlarmış.

Hamilə qadının qarnı yuvarlaq isə oğlan, yastı və geniş isə qız olacağına inanırdılar.

Hamiləlik düvrünün 2-ci ayında qadın ləzzətli yeməklər istərsə oğlu, turş yeməklər istərsə qızı olacağına inanırdılar.

Hamilə qadın kükələrsə oğlan, zəiflərsə qız olacağına inanırdılar.

Hamilə qadın güzəlləşirsə oğlan, zirkinləşirsə qız olacağına inanırdılar.

Həyətdə soğan və samırsaq əkmək fəna hesab olunurmuş. Evdən küzüləcəyinə və evin dağılacağına inanırlarmış.

Hər kim gündüz matal /nağıl/ danışarsa parasının pul /qəpik-quruş/ olacağına inanırlarmış. Inanırlarmış ki, həmin adam kasıblayacaq.

Cümə günü yağış yağsa, şənbə günü havanın acılacağına inanırlar.

Zərşənbə günü yağış yağsa, bütün həftənin yağmurlu kezəcəyinə inanırlar.

## DUALAR

Allah səni zox gürməsin!

Allah qazancıva bərəkət versin!

Bərxudar ol! —Ümrün uzun olsun, xoşbəxt ol!

Boyuva dünüm! —Başına dünüm!

Boyuva qurban!

Qadanı alım!

Qadası canıma gəlsin!

Quvatu olsun! —Yaxşı yol!

Qurbanuv olum!

Darı başımıza! —Bizim də işlərimiz belə eyi və qolay olsun.

Dırnağıva daş dəyməsin!

Dünya durduqca durasan!

Düşmənivə də nəsib olmasın.

Düşmənin də gürməsin!

Evin avadan olsun —Evinə bərəkət düşsün.

Evindən ev türəsin! —Oğul-qız toyu gürəsən!

Əlin var olsun!

Əl vurduğun torpaq altun olsun!

Əssük olma! —Əskik olma!

İrağ olsun!

İraq canuvdan!

İşiy avand olsun!

İşiy asand olsun!

Yeddi oğlan babası olasan!

Yolun azıq olsun! —Uğurun xeyirli olsun!

Kissəvə bərəkət —Kisənə bərəkət!

Güzün aydın olsun!

Güzünü sevim, afərin!

Ümründən doyasan! —Ürəyincə, doyunca yaşayasan!

Ümründən xeyir gürəsən!

Ümrüvə bərəkət! —Ümrün uzun olsun!

Oğlan, qız toyu gürəsən!

Sənə fəda olum!

Süzüvü şəkərlə kəsim!

Uğur olsun!

Uğrun xeyirli olsun!

Xeyrini gürəsən! —Təzə şey alanda deyirlər.

Cigərin yanmasın! —Üvlad dağı gürməyəsən!

**Analar qızlarına dua, arzu və diləklərini**

**aşağıdakı süzlərlə bildirirlər:**

Ağ baxt,
Altun taxt,
Qara xəlayiq,
Bəyaz əkməkzi,
Siyah külə
Dilərəm qızıma.

**Yaxud oğlan uşaqlarına aşağıdakılar dilənir:**

Şəri şeytannan,
Quru bühtannan,
Həyasız arvaddan,
At şərinnən,
Od şərinnən,
Ərz və asiman şərinnən,
Yıxılmış divardan,
Qudurmuş küpəkdən,
Bəkliyəsən, saxlıyasan,
Oğlumu, Ey Allahım!

# XEYİR-DUA XOYRAT VƏ MANİLƏRİ

Aydın olsun,
Ay zıxsın, aydın olsun.
Güzü yara düşənin
Güzləri aydın olsun!

Ayı mən,
Hez gürmədim ayı mən.
Gülüzlü yara qarşı
Dedim qurban ayı mən.

Ay zıxdı bədir, Allah!
Can dosta nəzir, Allah!
Ya canım cana yetir
Ya cana səbir, Allah.

Ay zıxdı bədir-bədir,
Canım o dosta nəzir.
Səsləşirəm süzləşməz
Bunun səbəbi nədir.

Ay zıxdı minaradan,
Nə kezibdi aradan.
Məni sənə yetirsin
Ərşi-fərşi yaradan.

Al alma dürd olaydı,
Rəqibə dərd olaydı.
Bu almanın sahibi
Kaş ki, bir mərd olaydı.

Aldı əqlim, getdi yar,
Güzlərimdən itdi yar,
Tanrı günah saymasın
Zox zülümlər etdi yar.

Almaya al olaydım,
Minaya dal olaydım.
Ala güzlü yarımın
Küksünə xal olaydım.

Altunu puzduraydım,
Gərdənə düzdürəydim.
Səni avzı tutmasın
Qoynumda gəzdirəydim.

Altun üzüm şinəvə,
Nə dedim mən binəvə /sənə/
Olaydım süt quzusu
Saralaydım sinəvə.

Bağ izində adalar,
Dostum doludur badalar.
Gəlsin mənim canıma
Sənə gələn qadalar.

Baxtı mənə,
Yan güzdən baxtı mənə.
Xudam bu gün yazılsın,
Bu qızın baxtı mənə.

Başım üstə,
Əlin qoy başım üstə.
Canım uğruna qurban,
Istirsən başım istə.
Birdə nələr,

Mən gürdüm birdə nələr.
Zoxları haqq saxlasın
Ülməsin bir dənələr.

Bir telinə,
Zal sazın bir telinə,
Üzüm, düvlətim qurban
Zülfünün bir telinə.

Qurbanam qaşına, yar,
Qoy dünüm başına, yar.
Məni bu qəmnən qurtar
Dolandır başına, yar.

Ocağın,
Daim yansın ocağın.
Üvladın qeydinə qal
Kor olmasın ocağın.

Səda gəlir,
Zox zülmlər yada gəlir.
Gəlsin mənim canıma
Dosta nə qada gəlir.

Üzərliksən, havasan,
Yeddi dərdə davasan.
Allahdan istəmişəm,
Bu dərdi sən qovasan

Üzü gülə,
Baxıram üzü gülə.
Xudam qismət edəydi,
Məni bir üzü gülə.

Həsəni,
Haqq saxlasın Həsəni.
Xəstə künlü nar istər
Mənim künlüm hə səni.

## BƏDDUALAR /QARĞIŞLAR/

Adı batsın!
Adı batmış!
Al-qana batasan!
Allah əkməyin kəssin!
Altunuvuz yez olsun, kətanuvuz bez olsun!
Arxan quyuya gəlsin!
Ardıyca sapan daşı!
Ax deyəsən, qan tifirəsən!
Başını yesin!
Belsarma olasan! —Belin sınsın!
Beşingin boş bələnsin!
Bir dərdə düşəsən dərmanın tapılmasın!
Boğazın kiriklənsin! —Boğazın kilidlənsin!
Boğazına yarma bağlansın!
Boyaxana küpünə düşəsən!
Boyu yerə girsin!
Boynu qırılsın!
Boynu qırılmış!
Vayına qalasan!
Qazının eşşəyi üləydi, nənənin kəbinini babana yazmayaydı. Sənin kimisi dünyaya gəlmiyəydi!
Qan qusasan!
Qanına boyanasan!
Qarnına qazandələn girsin!
Qara qan qusasan!
Qazasan, qovasan, əkmək tapmayasan!
Qiyamətdə mənim əlim, sənin yaxan olsun!
Qıllı-qıfıldan üləsən! —Kükünüz kəsilsin, Taun tutsun!
Qırran qırmış! —Kükü kəsilmiş!
Dabbanuv yansın!
Daş yağsın başıva!
Dilin-damağın yansın!
Dilin-damağın şişsin!

Dilin lal olsun!
Dilindən ilan zalsın!
Dilin pəltək olsun!
Dul avad toruna düşəsən!
Evi yıxılsın!
Evi dağılsın!
Etdiyim güzündə dursun! —Elədiyim güzünü tutsun!
Əzizinin salasını / fatehin/ eşitsin!
Əzizivün qara leşi üstünə gəlsin!
Əkməgin atlı olsun, üzün yayan!
Əllərin ayaq olsun, küksünə dayaq olsun!
Əlin quru yerə düşsün!
Əlini ac ayı zignəsin!
Ələt sipirsin! —taun aparsın!
İki güzü kor olsun!
İmansız olsun!
İnşallah ha xaxın yelinə baxasan! —Geri qalasan, camaatla ayaqlaşmayasan!
Yağlı gülləyə rast gələsən!
Yaman sancı tutasan!
Yaman dərdə düşəsən!
Yanıv yerdə, güzüv qapıda qassın!
Yaxasının yırtığını tiksinlər! —Ülsün, kəfən tiksinlər.
Yel günü yanasan, yağış günü sünəsən!
Yeridiyin yolu itirəsən!
Yüz dəgirmanda bir ovuc unu qalmasın!
Yüksək yerdə gürünəsən! Salacada gedəsən!
Yuvası dağılsın!
Yuxun oxa rast gəlsin! Yuxun ərşə zəkilsin!
Küküvüz kəsilsin!
Küküvüzə süpürgə vurulsun!
Kül başına!
Get Allahdan bul! —Allah cəzanı versin!
Get Allaha həvalət olasan!

Gora imansız enəsən!
Güzün zıxsın!
Güzünə qara su ensin!
Güzünə mil zəkilsin!
Güzündə dursun! —haram olsun!
Güzünün yeri qalsın!
Gürüm onu dilindən asılsın!
Muraduva ulaşmayasan!
Nənəsi bürkünü qoxlasın! —Ülsün anası, iyisini papağından alsın!
Nilə boyanasan! —Əzizin ülsün, qara geyəsən!
Nüzül endirəsən! —Yas tutasan!
Ovucunda qaldırdığın altun torpaq olsun!
Onu verən Tanrı alsın!
Ocağın sünsün!
Üz ipinlə boğulasan!
Ümründən xeyir gürmüyəsən!
Ümründə oxqay etməsin! —Xoş gün gürməsin! Rahatlıq gürməsin! Sevinc duymasın!
Ümrüvün dəftəri bükülsün!
Ümrüvü yerə verəsən!
Pərkəm/ pirkəm/ tutasan! —Partlamaya düşəsən!
Sazın biləginə bağlansın! —Əzizin ülsün, sazını kəsib biləginə bağlayasan!
Sazın kəsilsin!
Sazın ələk olsun!
Səni Soğanzı Əhməd tükanı ünündə gürrəm, inşallah!"[11]
Təppən üstünə düşəsən!
Tifaqı dağılsın!
Üzün qara olsun!
Fələyin xişmi-qəzəbinə uğrayasan!
Hara əl atsan, boş dünsün!
Hər tikən bir xəncər başında qalsın!

---

11. Kərkükün bu yerində günahı olanları dar ağacına çəkərlərmiş.

Zamur başuva! —Əzizin ülsün, başına zamur zək, kül tük, yaslı ol!
Zamura batasan!
Zənəsi zıxmış!
Zənəsinin zivisi zıxsın! —zənəsinin züyü zıxsın!
Canı cəhənnəm olsun!
Cibiy dəllük ossun!
Cigərinin qırzıltısı qulağuva gəlsin!
Cigərin yansın —dağılsın! —Üvladın ülsün. Üvlad dağı acısı gürəsən!
Cigəri yanmış!
Cəhənnəm atəşinə yanasan!

## BƏDDUA XOYRAT VƏ MAANİLƏR

Avzılar av tutmasın,
Zaxmağı qav tutmasın.
Səni vuran avzının
Qolları tav tutmasın.

Ağacdakı bar iysə,
Heyva iysə, nar iysə,
İki güzüm kor olsun,
Başqa yarım var iysə.

Adam sən,
Nədən qırdın badam sən.
Dostuna xain zıxdın
Hə alasan qadam sən.

Ay batanda,
Gedəydin ay batanda.
Zalım düşmən gəmisin
Gürəydim, ay batanda.
Al, zax fələk,
Silahın al, zax fələk.
Namərdə meydan verdin,
Namərddən alzax fələk.

Bağdatda beş minara,
Elzi gündərdim yara.
Elzim gileyli dündü,
Lənət bedasıl yara.

Bağın ərənə qalsın,
Gülün dərənə qalsın.
Mən zıxdım bağbanlıqdan
İstər veranə qalsın.

Bağlardan dərdim qora,
Kimsəm yox dərdim sora.
Səni məndən edəni
İmansız ensin gora.
Bağzada sərdim kilim,
Gəl əylən mənim gülüm
Nə dedim küsdün yenə

Lal olsun mənim dilim.

Bax səmaya,
Baş qaldır, bax səmaya.
Zərrəcə hüsnün gürsəm
Namərdəm baxsam aya.

Belə bağlar,
Dost başın belə bağlar,
Bülbül ağlar, gül azmaz
Verandı belə bağlar
Can, zıxma dost gəlincə,
Gürək nə deyib ağlar
Kül o adam başına,
Bedasıla bel bağlar.
Zək ayrılıq dərdini,
Gür ürək necə dağlar.

Beş-on gün,
Beş-on həftə, beş-on gün.
Mən sevdim dərd qazandım,
Gəl sən də sev, beş-on gün.
Şum gün, şum saat olaydı,
Güzüm sənə düşən gün.

Bu sular asta gedər,
Dolanar dosta gedər.
Veran olsun qəriblik,
Hər gələn xəstə gedər.

Vay sinəmə,
Ülürəm, vay sinəmə.
Bağban dilin qurusun
Deyibsən vay, Sənəmə.

Qalasan,
Zırpınasan, qalasan,
Dürd yanın düşmən alsın
Orta yerdə qalasan.

Damnan dama damımız,
Yaxındı xırmanımız.
Sən ordan zıx, mən burdan
Kor olsun düşmanımız.

Düşən ağlar,
Yıxılıb, düşən ağlar.
Düşsün rəqib güzünə,
Zülfünə düşən ağlar.

Əziz səni,
Sevərəm əziz səni.
Sevməsəm canım zıxsın,
Canımnan əziz səni.

Yad dağlar,
Mən ağlaram, yad ağlar,
Sifləyə künül vermə,
Ya yandırar, ya dağlar.
Torpaq onun başına
Türbəsində yad ağlar.

Yad ayağın,
Suzu var, yad ayağın.
Bir ülkə məzar olsun,
Basmasın yad ayağın,
Kor olsun o güzləri
Yedirdir yada yağın.

Yad əlində,
Qalmışıq yad əlində,
Kərkükü kavul olsun
Qalmasın yad əlində.

Yaman yara,
Yaman dərd, yaman
yara.
Yamanlar yaxşı oldu,
Biz olduq yaman yara
Məni yardan edəni
Zıxartsın yaman yara.

Yarasız,
Xəstə olmaz yarasız.
Kor olsun güzün fələk
Haram qaldı yarasız?

Yarı yardan.
Doldur ver yarı yardan
Ax desin, qan tifirsin
Edəni yarı yardan.

Yarı mənnən,
Doldur iz yarı mənnən,
Kül olsun ağ ciyəri
Kim etdi yarı mənnən.

Yar güzündən,
Al sürmə yar güzündən,
Adam düvlətdən düşsün
Düşməsin yar güzündən.

Yer üzünə,
Su zıxar, yer üzünə.
Xudam, namərd bəşəri
Gətirmə yer üzünə.

Kabab küziylə ağlar,
Sürmə güziylə ağlar.
Zamur onun başına,
Xırxız üziylə ağlar.

Rəqib dərdin beş olsun,
Beşikdən on beş olsun.
Düşəsən uca dağdan,
Boynun xurdaxaş olsun
Yorğanın zaqır tikən
Düşəyin zim daş olsun.

Süzlərim,
Yara neynər süzlərim.
Fələyin dağı yansın,
Yuxu bilməz güzlərim.

Üzüm qara,
Mey gügdü, üzüm qara.
Mən sənə xain baxsam,
Qoy olsun üzüm qara.

Fələyin işi düşsün,
Yaydan girişi düşsün.
Fələyin də bizim tək
Namərdə işi düşsün.

Ha zağırdım xan dursun,
Xan əylənsin, xan dursun.
Zülfünə tənbeh eylə
Al yanaxdan yan dursun,
Sən məni yandırıbsan,
Xudam səni yandırsın.

Haşa dünüm,
Dünərsəm, daşa dünüm,
Yar bizə qonaq gəlsin,
Dolanım, başa dünüm.

## YEMİNDLƏR /ANDLAR/

Adına qəsəm olsun!
Bu günəşə kor baxım! Bu günəş həqqiyzi!
Dizivizin günahi boynumda qalsın!
Dizivizin günahi sahibi olum!
Duz-əkmək haqqıyzi!
Əsgər qazağı olum!
İki güzüm kor olsun!
Gavur türbəsində yatım!
Gavurlardan həşr olum!
Güzüm təppəmə zıxsın!
Mərd başıyzin!
Namusum haqqıyzi!
Ülümüm gürəsən!
Peyğəmbərin başıyzi!
Sən üləsən!
Toppuğum yerə dəymiş olsun!
Həpi dərdlər başıyzi!
Canıva yemind olsun!
Şərəfimdə!
Şəhidlər goruyzı!

## SALAMLAR VƏ SALAMATLAŞMAQ

Səbbəh xer!
Səbbəhin xerli olsun!
Günortau /və ya günortay/ xeerli olsun!
Günortavuz /və ya günortayız/ xeerli olsun!
Axşam xeer!
Axşamıvız /və ya axşamıyız/ xeerli olsun!
Qal sağlıxtan! Qalın sağlıxnan!
Xoş gəlduu /və ya xoş gəldiy/
Xoş gəldivüz! /Xoş gəldiyiz/.
Biri zıxıb gedəndə deyir: Ey vallah!
Qalanlar deyirlər: Allaha amanat olasan! /olasız/
Yeni gələn adam deyir: Camaatuvuza bərəkət!
Cavab: Ümrüvə /ümrüvüzə/ bərəkət!
Zeşt vaxtı /səhərlə günorta arası/ gələn deyir:
Vaxtuu /vaxtuvuz/ xeerli olsun!
Səfərə zıxana deyirlər: Quvatuu /quvatuvuz/ olsun!
Cavab: Sağ olasan — Sağ olasız!

## SÜYÜŞLƏR

Axırışər! —Utanmaz, həyasız, bühtanzı
Başına /kəlləsinə/ dəysin!
Qulağı sarı! —Qeyrətsiz, namussuz, alzaq!
Küpək oğlu, düşgün!
Yetimzə!
Kərət oğlu, kərətə —mənliyi olmayan, düşük, alzaq!
Küpək oğlu!
Üyündə tox olmamış!
Saxtazısan sən!
Sazı bucuq, sazı kəsilmiş! —Toy gecəsinin səhəri sazı kəsilərək ata evinə qaytarılan gəlin!
Sığır əti yeyən yetimzələr!
Türpisiz! —Ədəbsiz, əxlaqsız!
Üzü qərə!
Üz həyası yoxdu!
Cin oğlu, cin!
Cimilətinə lənət! —Nəsillikcə hamısına lənət!

Xasa zayı Kərkük şəhərini iki yerə bülür. Bir yaxada yaşayanlar qalalılar. /Kərkük qalası bu yaxadadır/, o biri yaxada yaşayanlar qoryalılardır. Hər iki yaxa camaatı arasında son vaxtlara qədər yarı zarafat, yarı ciddi süz-sühbət gedərmiş. Qoryalılar, hətta qalalılar vəznli-qafiyəli şer də düzəldiblərmiş:

Sığır əti yeyən, atlası bez qalalılar. Quyu suyu izən, altunu yez qalalılar.

# LİRİK NÜV

## XOYRATLAR

Ağasızlar,
Kimsəsiz ağasızlar.
Düvran tərsinə döndü
Şah, gəda, ağa sızlar.

Ağlaram ağlar kimin,
Dərdim var dağlar kimin.
Yüz yerdən yaralıyam,
Gəzərəm sağlar kimin.
İstəmirəm bir də gülüm.
Əvvəlki zağlar kimin.

Ağla dayım,
Gəl əmim, ağla dayım.
Buraxın dərdim deyim
Cahanı ağladayım.

Ağız dadı.
Pozulub ağız dadı.
Zamanın pozuqluğu
Hər yerdə ağızdadı.

Ağı sən,
Qaranı sən, ağı sən
İncəltdin qılca qoydun
Mənim kimin dağı sən.

Ağzın azma,
Yaramın ağzın azma.
Üzün bilməz kimsənin
Hər yerdə ağzın azma.

Ağ sadalar,
Ağ sədəf, ağ sadalar.
Miskinin güz yaşısı
Mərmərə axsa, dələr.

Adamlar,
İş bitirir adamlar.
Dünyanı namərd aldı,
Hanı əsil adamlar?

Az-az əsəsən künül,
Xəyal kəsəsən künül.
Yad ha yaddığın edər
Kimnən küsəsən künül?!

Ayağına,
Ulaşmam ayağına.
Qorxum var yaşkən yanam
Qurunun ayağına.

Ayağını,
Doğru at ayağını.
Yorğannan fəzlə zıxsa
Kəsillər ayağını.

Ay demərəm,
Can versəm, ay demərəm.
Hüsnün durarkən güzəl
Aya mən, ay demərəm!

Ay güzəl,

Güydə ulduz, ay güzəl.
Gəl can-cana qatağın,
Həyat budu ay güzəl.

Aylar mənə,
İl oldu aylar mənə.
Mən ləbin susuzuyam
Neyləsin zaylar mənə.

Aynamaz baş ağrıdar,
Can zıxar, baş ağrıdar.
Dəgirman işin gürər
Zaq-zaqa baş ağrıdar.

Ayrılmaz,
Can cigərdən ayrılmaz.
İnanma yad süzünə
Ət dırnağdan ayrılmaz.

Ay zıxar, uzaq düşər,
Mum yanar, zıraq düşər.
Yar güzündən düşənlər
Künüldən iraq düşər.

Ay zıxdı, qoyun batsın,
Üz yarım oxun atsın.
Nə Leyli xəstə düşsün
Nə Məcnun canın satsın.

Ala güzdə qara var,
Cigərimdə yara var.
Nə mən üldüm qurtardım,
Nə dərdimə zara var
Aldatdın tutdun məni,
Oyunda uddun məni.
Uydun ellər süzünə
Nə tez unutdun məni.

Al yanaq al istəməz,
Şirin dil bal istəməz.
Uca hümmət ərbabı
Dünyada var istəməz.

Allam səni,
Al girmə, allam səni.
Yeddi əşrət bir olsa
Sevmişəm allam səni.

Alma yanı,
Al olur alma yanı.
Necə qəbrə qoyarlar
Muradın almayanı.

Al mənnən,
Yaşıl sənnən, al mənnən.
Sinəm əttar tükanı,
Nə istəsən al mənnən.

Al zağında,
Hər şeyi al zağında.
Fəqana düşər bülbül
Qünzənin al zağında.

Altunda mən,
Zəncirəm altunda mən.
Qəm gəldi qəm üstünə
Qaldım qəm altında mən.
Aman dal,
Aman bidad, aman dad.
Sən hakim ol, hükm eylə

Nə sən zülm et, nə mən dada.

Apardılar gülümü,
Eylədilər zülümü.
Nə qoydular şad olum
Nə kəsdilər dilimi.

Apardı tatar məni,
Qul kimi satar məni.
Yarım vəfalı olsa
Axtarıb tapar məni.

Apardı Xasa məni,
Sel gəlir, basa məni.
Sızlamaq gerzək oldu
Batırdı yasa məni.

Ara yeri,
Düşməni ara yeri.
Rəqib güzü kor olsun
Pozubdu ara geri.

Ara zəmən,
Güy zəmən, ara zəmən.
Zülfün üzə dəyəndə
Olaydım arazı mən.

Armudum bağ izində,
Qovruldum yağ izində.
Aləm toyda, seyranda
Mən qaldım dağ izində.

Atəşdən,
Xudam, qurtar atəşdən.
Fəqirlik bir küynəkdi
Yoxsul üstə atəşdən.

Atəş düşdü kəlləmə,
Üzü yanar, yelləmə.
Yaram eşq yarasıdı,
Naşı təbib, əlləmə.

Axşam arada qaldı,
Xəncər yarada qaldı.
Mənim bədəsil yarım
Bilməm harada qaldı.

Ah etməkdən,
Ahım yox, ah etməkdən.
Dərdin məni üldürdü
Utan günah etməkdən.

Azın yaramın bağın,
Bir gürün sinəm dağın.
Mən yara qurban getdim
İstərsiz süzün sağın.

Azıx qoy pəncərəni,
Güzüm gürsün gələni.
Necə qəbrə qoyarlar
Yar dərdindən üləni.

Aşina fələk,
Didəm yaşına fələk,
Aqibət quş qondurdu
Qəbrim daşına fələk.

Bağa divar,
Zəkiblər bağa divar.
Bağ var bir gülə həsrət
Onun da bağ adı var.

Bağbanzı xiyar kəsər,
Malını qıyar kəsər.
Bir dəm səni gürməsəm
Künlüm min xəyal kəsər.

Bağdad ara,
Şam, Hələb, Bağdad ara.
Bülbülü güldən ütrü
Zəkiblər bağda dara.

Bağdadı,
Mən sevirəm Bağdadı.
Zox bağ var izi veran,
Dillərdə bağdı adı.

Bağda nə var,
Quşenməz bağda nə var?
Əsli bağban olmayan
Nə bilir, bağda nə var?

Bağ divarı,
Bağbandı bağ divarı.
Bağban bağban olursa
Neyləyir bağ divarı?

Bağ işlər,
Bağda bağban, bağ işlər.
Boynum cəllad əlində
Nə kəsər, nə bağışlar.

Bağı sən,
Bağbanı sən, bağı sən.
Uzurtdun bülbülləri
Veran qoydun bağı sən.

Bağbanzı bağı kezdi,
Ovzular dağı kezdi.
Bağrımdakı yaranın
Bağlanma zağı kezdi.

Bağdad yolu gəncədi,
Gülü pəncə-pəncədi,
Demə sizdən irağam,
Bu sevda ülüncədi.

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Mən yarımı sevirəm
Məhəbbət ülüncədi.

Bağdadda nar şirindi,
Girməyə şal şirindi.
Yeddi qardaş, bir bacı
Hamısınnan yar şirindi.

Bağdadda xurmalıxlar,
Şatda oynar balıxlar.
Nə büylə sevda olsun
Nə büylə ayrılıxlar.

Bağ sahibi,
Bağbandı bağ sahibi,
Kim əkdi, kim becərdi
Kim oldu bağ sahibi.

Bağza bar ayağına,
Heyva, nar ayağına.
Arına gəlir künlüm
Gedə yar ayağına.

Bağza bar verəndə gəl,
Heyva-nar verəndə gəl.
Bir gəldin xəstə gürdün
Bir də can verəndə gəl.

Bağzayam baram sənə,
Heyvayam, naram sənə.
Künlün fikir zəkməsin
Ülüncə yaram sənə.

Bağzan bağzama qarşı,
Atma bağzama daşı.
Gəl güzəl barışağın
Dosta, düşmənə qarşı.

Bağ zəpəri,
Bağ pəri, bağ zəpəri,
Qaşın bağ, güzün bağban,
Kirpiyin bağ zəpəri.

Bala dərdi.
Bal dərdi, bala dərdi.
Bütün dərdlər sağalar
Sağalmaz bala dərdi.

Bala dərdim,
Qarışıb bala dərdim.
Qoşdum qəm cütlərini
Dərd əkdim, bəla dərdim.

Bala şirin,
Kim qatıb bala şirin.
Can hər şeydən şirindi
Candan da bala şirin.

Balıq suda yan verdi,
Yaram coşdu, qan verdi.
Dost məni yoxsul gürdü
Üz zevirdi, yan verdi.

Balıq suda yan gedər,
Azma yaram qan gedər.
Fəqir təbib neyləsin
Əcəl gələr, can gedər.

Barsız künlüm,
Meyvəsiz, barsız künlüm.
Yüz yerdən yaralıyam
Ha gülər arsız künlüm.

Baxtı kəm,
Kamalı kəm, baxtı kəm.
Mən fələyə neylədim
Fələk mənə baxtı kəm.

Başına necə dünüm,
El yatsın, gecə dünüm.
Gavur dininnən dünməz
Mən sənnən necə dünüm.

Başında yazma yarım,
Gəl sidqin pozma, yarım!
Qorxuram güz-nəfəsdən,
Zadrasız gəzmə, yarım!

Başında sarı sancaq,
Yar miskin, mən utancaq.
Xeyrin, barın gürmədim
Oduna yandım ancaq.

Başında zarı, neynim,
Kənarı sarı neynim.
Mən sevdim bir ümürlük
Üz günlük yarı neynim.

Başında zit hazarı,
Küksün cənnət bazarı.
Bilsəydim ayrılıq var
Qurmazdım bu bazarı.

Belin qırıb,
Baltası belin qırıb.
Gənclər var dağ əridər
Yoxsulluq belin qırıb.

Bəzən yeri,
Az buxzan, bəzən yeri.
Güzlərim qan ağlayır
Gürdü yar gəzən yeri.

Bilmirəm nə dəmdəyəm,
Bir talesiz bəndəyəm.
Yuvasız bayquş kimi
Gündə bir vətəndəyəm.

Bilmirəm kimdi mənim,
Yediyim qəmdi mənim.
Yan məhəbbət şirindi
Yan ağlım kəmdi mənim.[12]
Bilmirəm mənim nəmdi,
Ürəgim dolu qəmdi.

12. Ya ... ya ...

Yoldaşın nasıl olsa
Cənnətdi-cəhənnəmdi.

Binə bağlar,
Bəndələr binə bağlar.
Bu düvran belə getsə
Dərd məndə binə bağlar.

Bir daş atar,
Bir kirəc, bir daş atar.
Tərəzin əyiləndə
Hər gələn bir daş atar.

Bir də mən,
Doldur izim, bir də mən.
Gün kezdi, ümr azaldı
Gənc olmaram bir də mən.

Bir də mən,
Bir sən zağır, bir də mən.
Şahsənəm zobanıyam,
Qoyun vermək qurda mən.

Bir dənədən,
Dərs aldım bir dənədən.
Mən dərtdən qurtulmuşdum
Dərd dündü bir də nədən?

Bir dənədi,
Bir sünbül bir dənədi.
Cumdum dəryah dibinə
Tapdığım bir dənədi.
Biri sin,
Biri əlif, biri sin,
Kezdi güzəl karvanı

Sezdi künlüm birisin.

Bir gündə,
Bir külgədə, bir gündə.
İllərcə bir dam yapdım
Fələk yıxdı bir gündə.

Bitəndi,
Əsgi yaram bitəndi.
Qara günlər il olsa
Başa sürməz, bitəndi.

Bizarəni vurdu qəm,
Qol qanadın qırdı qəm.
Mən miskin olduğumzün
Üstümə qudurdu qəm.

Bu dağda maral gəzər,
Zülfünü darar gəzər,
Bağ bizim, maral bizim
Ovzu nə arar, gəzər?

Bu dağlar,
Yaşıl olub budağlar.
Bülbül gülün itirib
Gah zağırar, gah ağlar.

Bu dağları alaydım,
Zağıraydım zalaydım.
Girəydim yar qoynuna
Qəmli künlün alaydım.
Bu dağlar qoşa dağlar,
Zatıb baş-başa dağlar.
Ovzusu bəg olubdu
Ceyranı paşa dağlar.

Bu dağlar, ulu dağlar,
Ətrafı sulu dağlar.
Mən üz dərdimi azsam,
Ay, günəş, bulud ağlar.

Bu dağlar uca dağlar,
Başını duman bağlar.
Bir dərdə mən düşmüşəm
Halımı gürən ağlar.

Bu dağ titrər,
Yel əsər, budağ titrər,
Güzüm yarı gürəndə
Dil tutmaz, dodağ titrər.

Bu yola xanım gedər,
Xanımnan canım gedər.
Cigərdən yaralıyam
Güzümnən qanım gedər.

Bu sənin hindi zülfün,
Cigninə mindi zülfün
Zuroxla qoy qoynuna,
Qan edər indi zülfün.

Bu sular axtı, neynim,
Sədəsi qalxdı, neynim.
Mən sənnən ayrılmazdım
Ulduzum axdı, neynim.
Bülbül kişidi gəldi,
Dərdə tuş idi, gəldi.
Bülül yaz havasına
Hələ qış idi gəldi.

Bülbüləm bağ gəzirəm,
Məcnunam dağ gəzirəm.
Cigərdən yaralıyam
El bilir sağ gəzirəm.

Bülbül hanı,
Gül hanı, bülbül hanı.
Yarı yalqız gürəndə
Qonuşmağa dil hanı?

Vaya dərdim,
Vay dərmanım, vay dərdim,
El vay əkdi, gül dərdi
Mən gül əkdim, vay dərdim.

Vay vaydan,
Kim gürüb saya vaydan.
Əkdim qəm, bizdim hicran
Vurdum yüz taya vaydan.

Vəfa sizə,
Şərəfdi vəfa sizə.
Əsil əsilə uyar
Vəfasız vəfasıza.

Qazan ağlar,
Od yanar, qazan ağlar.
Burda bir qərib ülüb,
Qəbrini qazan ağlar.

Qazan düşər,
Qoy daşı, qazan düşər.
Aləmzin quyu qazma
Quyunu qazan düşər.

Qara baxtım,
Ağ olmaz qara baxtım
Sinəm yadıma düşdü
Dağlarda qara baxdım.

Qara gün,
Ərir vursa qara, gün.
Dağlar yanar, kül olar
Bir dəm zəksə qara gün.

Qaranı yaz,
Ağı yaz, qaranı yaz.
Əlin qələm tutanda
Mən bəxti qaranı yaz.

Qaşın, güzün zil kimin,
Titrər qızıl gül kimin.
Qapında abdal oldum,
Alıb-satma qul kimin.

Qarşıda qara dağlar,
Boyanıb qara dağlar.
Zək ayrılıq dərdini
Gür səni necə dağlar.

Qəm dağıdır,
Güzəllər qəm dağıdır.
Enişim dərd dərəsi
Zıxışım qəm dağıdır.

Qurbanam üzüm sənə
Həkətim, süzüm sənə.
İşıqlı yulduz kimin
Dikmişəm güzüm sənə.

Qurut güz yaşın,
Kərkük,
Altundu daşın, Kərkük.
Birləş qardaşlarınla
Yüksələr başın Kərkük.

Dağ bəzədi,
Qar yağdı, dağ bəzədi.
Mən bəzəgi neynirəm
Sinəmi dağ bəzədi.

Dağda var,
Siyah torpaq, dağda var.
Dağ var baş alıb kezər,
Ülüncəyə dağ da var.

Dağda qəm var,
Fikir var, dağda qəm var.
Gürdüm dağ boynun
əyib
Bildim o dağda qəm var.

Dağda duman yeri var,
İqrar, iman yeri var.
Ətəgin əldən salmam
Səndə güman yeri var.

Dağı-dağdan,
Sel azar dağı dağdan.
Qəlbim elə virandı
Ayırmaz dağı dağdan.
Dağ yerinə,
Təppədi, dağ yerinə.
Fələyin adı batsın
Dağ vurar, dağ yerinə.

Dağlar dağımdı mənim,
Qəm ortağımdı mənim.
Dindirsən qan ağlaram
Yaman zağımdı mənim.

Dağlar duman oldu, gəl,
Halım yaman oldu, gəl.
Aylara vədə verdin
İllər tamam oldu, gəl.

Dağlar dağladı məni,
Gürən ağladı məni.
Mən yara nə demişəm
Zarpaz dağladı məni.

Dağlara toz ələnsin,
Kababa küz ələnsin.
Nə güzüm yarı gürsün
Nə yaram təzələnsin.

Dağ üstünə,
Qar yağar dağ üstünə.
Nədən fələk dağlasa
Duz qoyar dağ üstünə.

Dad fələk,
Bidad fələk, dad fələk.
İzirtdiyin şərbətdən
Bir üzün də dad, fələk.
Dayım gül,
Əmim ağla, dayım gül.
Dostuna üz turş baxma
Düşməninə daim gül.

Daldalansın,
Bülbüllər daldalansın.
Qoymayır alzaq fələk
Daldasız daldalansın.

Daş altda qaldı,
Qələm-qaş altda qaldı.
Zox sevimli güzəllər,
Torpaq-daş altda qaldı.

Daş atdım nara dəydi,
Nardan divara dəydi.
Dilimnən xəta zıxdı
Süz getdi yara dəydi.

Dərd birkən həzər oldu,
Can düzməz bezar oldu.
Bir yaradı, min yerdən
Al qanım sızar oldu.

Dəgənə künül,
Dəgməz dəgənə künül.
Nə qardaş ol, nə sirdaş
Üzün ügənə, künül.

Dərdə kərəm
Dərdim zox, dərdə kərəm.
Qoşmuşam qəm cütünü
Sürdükcəm dərd əkərəm.
Dərdin məni məl175dir,
Üstümə kül ələdir.
Bir gün səni gürməsəm
Şivəndi, vəlvələdir.

Dərd məni aldı neynim,
Yatağa saldı neynim.
Sinəmdəki həsrətlər
Künlümdə qaldı neynim.

Dəryaya dalan bilər,
Dalmayan yalan bilər.
Cəvahirin qədrini
Can verib alan bilər.

Divara daş qoymuşam,
Uğruna baş qoymuşam.
Güzlərimdən qan gəlir
Adını yaş qoymuşam.

Dilə dəyər,
Yaban süz dilə dəyər.
Leylanın şirin dadı
Beş min yad dilə dəyər.

Dilim var,
Qovun üstə dilim var.
Əslində kərküklüyəm
Gür nə şirin dilim var.

Dilimdi,
Alma dilim-dilimdi.
Məni xoşbəxt eyləyən
Üz sevimli dilimdi.
Dilim-dilim,
Kəs qovun dilim-dilim.
Mən dilimnən vaz kezməm
Olursam dilim-dilim.

Dilim-dilim,
Portağal dilim-dilim.
Nə dedim küsdün mənnən
Qurusun ağzım-dilim.

Dilimnən,
Kəsdim qovun dilimnən.
Üzüm, astarım bəlli
Danışıram dilimnən.

Dolandı gün,
Dündü gün, dolandı gün.
Mən sənə daldalandım
Sənə də dolandı gün.

Dolu düşər,
Qar yağar dolu düşər.
Qəbrim yol üstdə qazın,
Bəlkə yar yolu düşər.

Dürr ordan,
Yaqut ordan, dürr ordan.
Məclisdə yerini bil
Deməsinlər dur ordan.

Düşənnən al,
Yıxılıb düşənnən al.
Bir dərdin dərmanın
O dərdə düşənnən al.
Edərəm havar-havar,
Havara gəlsən nə var.
Gəldi qurban bayramı,
Qurbanın olsam nə var.

Eşqə zarə.
Düşmüşəm eşqə, zarə.
Dünyanı zərx eylədim
Bulmadım eşqə zarə.

Əkini əkən bilər,
Belini bükən bilər.
Ayrılıq yaman şeydi
Güz yaşı tükən bilər.

Əkinim əkiliri,
Sünbülüm tükülürü.
Zülfündən bir tel gündər
Kəfənim tikiliri.

Əkmə bitmiyən yerə,
Can ver, itmiyən yerə.
Ayaqlar necə varsın
Künül getmiyən yerə.

Əldə fincan gəzdirir,
Qolda mərcan gəzdirir.
Güzəl yardan ayrılan
Quru bir can gəzdirir.

Əlində var bardağı,
Doldurubdu gül yağı.
Kimsənin başa qədər
Yanmayıbdı zırağı.
Əlində var, tir-kaman,
Qəlbimə saldın güman.
Bu qaş, bu güz səndə var
Nə din qoyar, nə iman.

Əski sini,
Yengi qab, əski sini.
Babanın yolunu tut
Sev dostun əsgisini.

Əslim qarabağlıdı,
Sinəm zarpaz dağlıdı.
Kəsilib gəlib-gedən
Demə yollar bağlıdı.

Zaman qalar,
Gün gedər, zaman qalar.
Yıxılar uca dağlar
Tozu bir zaman qalar.

İzi var,
Karvan kezib, izi var.
Rəqib yara baxıbdı
Üzündə güz izi var.

İndi gəldim Lasınnan,
Zıxdım qəm yuvasınnan.
Bülbülü gül zıxardıb
On bir ayın yasınnan.

İstər gül,
Bülbül ağlar —istər gül.
Həyatın sonu ülüm,
İstər ağla, istər gül.

İnci baba,
Dürr, sədəf, inci, baba.
Bu günün adamınnan
Nə küs, nə inci baba.

İnci mənəm,
Sən sədəf, inci mənəm,
Baş qoyub dizin üstə
Can versəm incimənəm.

İş qalmadı,
Qış gəldi, iş qalmadı.
Qəm məni büylə bükdü
Ağzımda diş qalmadı.

İşdən gəlir,
Can, sağlıq işdən gəlir.
Yemək, izmək ləzzəti
Doğrusu dişdən gəlir.

Yağış yağar, gül olar,
Karvan kezər, yol olar.
Güzüm yarı gürəndə
Dilim tutmaz, lal olar.

Yad edər,
Künlüm səni yad edər.
İnanma yad süzünə
Hər nə etsə yad edər.

Yad əlində,
Qalmışıq yad əlində.
Bir ülkə viran olsun,
Qalmasın yad əlində.

Yaz gələr tez sovuşar,
Yarım güllə qovuşar.
Yar yanağın güstərsə
Bülbül güldən sovuşar.

Yayanam,
Atım yoxdu, yayanam.

Düşmüşəm qəm oduna
Ya qurtulam, ya yanam.

Yana-yana kül oldum,
Bir əsmərə qul oldum.
Quş dili bilməz idim
Bağında bülbül oldum.

Yandı Kərkük,
Ataşa yandı Kərkük.
Onunzin mən ağlıram
Dostlardan yandı Kərkük.

Yara bağlar,
Məskənim yara, bağlar.
Təbib getsin, yar gəlsin,
Yar yaxşı yara bağlar.

Yara qaldı,
Dərd bitdi, yara qaldı.
Ağlamaq payım oldu
Kef, səfa yara qaldı.

Yaradan,
Yuxum gəlməz yaradan.
Ya məni yara yetir
Yan, al canım yaradan.
Yara sızlar,
Od yanar, yara sızlar.
Mən gülməm yaralıyam
Qoy gülsün yarasızlar.

Yara sızlar,
Ox dəyər, yara sızlar.
Bir yaralı əzabın
Nə bilir yarasızlar.

Yar dağıdı,
Sinəmdə yar dağıdı.
Başımda qəm ləşgəri
Dağıtsa, yar dağıdı.

Yaramı sən,
Oyubsan yaramı sən.
Var günü yanım aldın,
Dar günü yaramısan.

Yara məndə,
Dərd məndə, yara məndə.
Ağıl-fikir qoymadı
Qaş-güzü qara məndə.
Başım alıb gedərəm.
Qalmadı zara məndə.

Ya sinnən,
Mif əlifdən, ya sinnən.
Dünya mənim deyənin
İndi gəldim yasınnan.

Yaralarım oyuldu,
Qabıq tutdu soyuldu.
Mən səni xəlvət sevdim
Bilməm necə duyuldu.

Yarı tər,
Yarı qünzə, yarı tər.
Kirpik zalma güzlərim
Güz ünündən yar itər.

Yaşıldı başın, sona,

Qələmdi qaşın, sona.
Gülə yalqız gəlibsən
Hanı yoldaşın, sona?

Yeri sən,
Deməm belə yeri sən.
Hər yeriş yeriş deyil
Yeri titrət, yeri sən.

Yoldaşım qərib,
Eyşim, yoldaşım qərib.
Bilmirəm haralıyam
Torpağım, daşım qərib.

Yoxa zar,
Kimsə bulmaz yoxa zar.
Kimin eybin var ürtüb
Kimin eybin yox azar.

Yüz aya dəyər,
Hüsnün yüz aya dəyər.
Ay var bir günə dəyməz,
Gün var yüz aya dəyər.

Yüz davar,
Zoban birdi, yüz davar.
Ayaq var üpülməyə
Tifirməyə yüz də var.

Yüzdə bir,
Künüldə bir, yüzdə bir.
Vəfalı dost bulunmaz
Bulunsa da —yüzdə bir.

Yüz il yaz,
Yüz il bahar, yüz il yaz.
Hüsnün kimin gül azmaz
Düvran getsə yüz il yaz.

Yüz yara,
Sinəmdə var yüz yara.
Leylanın bir zülfünü
Məcnun verməz yüz yara.

Yüz yerdən,
Yaralıyam yüz yerdən.
Sənsiz yaram sağalmaz
Təbib gəlsə yüz yerdən.

Yüz yol var,
Yüz təpə var, yüz yol var.
Xudam bildiyin eylər
Sən fələyə yüz yalvar.

Kaman sındı,
Ox sındı, kaman sındı,
Hüsnün zamandarıyam
Üstümə zaman sındı.

Kar xoşdu,
Sənət xoşdu, kar xoşdu.
Mən cigərdən yanmışam
Aləm deyər sərxoşdu.

Kasad olmaz,
Zülf uzun, kasad olmaz.
Namərdin min loxmasın
Qoysan bir kasa dolmaz.

Yüz istə məni,

Gəlməm yüz istə məni.
Mən o yar qurbanıyam
Üpər, qoxlar, qucaqlar,
Qoyar diz üstə məni.[13]

Gedirsən yara sələ,
Zək bir kənara sələ,
Zi bir üzün bilməzə,
Zi bir divara sələ.[14]

Kezdi mənnən,
Bu illər kezdi mənnən.
Oldum xublara kürpü,
Hər gələn kezdi mənnən.

Yüz oxu,
Bir yayı var, yüz oxu.
Bilənə bir süz yetər,
Bilməyənə yüz oxu.

Kababı küz üldürər,
Sürməni güz üldürər.
İgid var qılınc kəsməz,
Bir tənə süz üldürər.

Kabab küz etdiyimdi,
Sürmə güz etdiyimdi.
Qoy belə canım zıxsın,
Hamsı üz etdiyimdi.

Kamana dündü,
Qaşın kamana dündü
Yar bizdən üz dündərdi
Məgər zamana dündü.

Kaman sızlar,
Ox sızlar, kaman sızlar.
Kamallı dost qədrini
Nə bilir kamalsızlar.

Kərkükün altı bağlar,
Qar yağar, səki bağlar.
Muradlı murad alıb,
Muradsız hər gün ağlar.

Kərkükdə dağlar gürdüm,
Meyvəsiz bağlar gürdüm.
Gəldim bağı dolaşdım,
Bağbanı ağlar gürdüm.

Kəsər ayı,
Ay zıxar, kəsər ayı,
Al girmə, güz edəllər,
Yaşıl gir, kəsər ayı.
Dedim zoxalt sevgini
Demədim kəs arayı.

Kimi güzlər,
Ah zəkib kimi güzlər
Qaşın kimi qaş olmaz
Güzlərin kimi güzlər?

---

13. Beş misralıq xoyratlara az da olsa təsadüf edilir.
14. Ya... ya...

Kim sədat,
Kim talibdi, kim sədat.
Olan mənə olubdu
Qoy etməsin kimsə dad.

Kim sənəmdi,
Kim şahdı, kim
sənəmdi.
Gizli ağla güzlərim
Bilməsin kimsə nəmdi.

Gecələr zar ağlaram,
Hez bilməz, yar ağlaram.
Şahsənəm bağzasında,
Zaldı bir Mar, ağlaram.

Gənc Əlidi,
Bir qolu qünzəlidi.
Harda bir qərib gürsən
Elə bil gəncəlidi.

Girmişəm allarımı,
Azmışam qollarımı.
Sənə doğru gəlirəm
Bağlama qollarımı.

Güz də var,
Sürmə də var, güz də var.
Güz var ziyarət olur
Kor olmalı güz də var.

Güzdən qara,
Sürmədi güzdən qara.
Bir sürməsiz güz gürdüm
Sürməli güzdən qara.

Güz dərdini,
Sürmə, zək güz dərdini.
Gedin kababdan sorun
O bilir küz dərdini.

Güzəl alma,
Güzəl gül, güzəl alma.
Alırsan bir nəsil al
Bedasıl güzəl alma.

Güzələ güzgü neylər,
Baş bağlar, güzgü neylər,
Qəm yemə, iki güzüm
Qəm səni üzgün eylər.

Güz yuvası,
Sürmədi güz yuvası.
Hər kim yuva dağıdır.
Dağılır üz yuvası.

Güzləməkdən,
Kim bilir güzləməkdən.
Güzümdə nur qalmadı
Yar yolun güzləməkdən.

Güzlərim nə dəmdəsən?
Azıl, künül qəmdəsən.
Mən sənin aləmində
Sən üzgə aləmdəsən.

Güzlərim nəm olubdu,
Kirpigim zəm olubdu.

Mən səndən ayrılanı
Yedigim qəm olubdu.

Güzüm dolusu,
Sürmə güzüm dolusu.
Ülməyəydim gürəydim
Bir də güzüm dolusu.

Küylüyəm xərmanım yox,
Dərdliyəm dərmanım yox.
Gedirəm yar yanına
Əlimdə fərmanım yox.

Küylü xərmanı neylər,
Dərdli dərmanı neylər.
İki künül bir olsa
Əldə fərmanı neylər.

Gügdə ulduz əllidi,
Hər əllisi bəllidi.
Gizli sevda zəkənin
Güzlərinnən bəllidi.
Gür dügünü,
Az sinəm, gür dügünü.
Namərddə süz əglənməz
Mərd deməz gürdügünü.

Gül dərdi,
Bağzadan yar gül dərdi.
Bir igid yoxsul olsa
Süylədəllər, güləllər.

Gülə naz,
Bülbül eylər gülə naz.
Girdim dost bağzasına,
Ağlayan zox, gülən az.

Gül yarası,
Bülbüldə gül yarası.
Xəncər yeri sağalar,
Sağalmaz dil yarası.

Gül onun,
Bülbül onun, gül onun.
Bağda bir bülbül ülüb,
Qanlısıdı gül onun.

Gül tikənə,
Sarmaşıb gül tikənə.
Aləm güzün tikibdir
Mən güzümü tikənə.
Mən sənnən vaz kezmərəm
Məgər ümrüm tükənə.

Gülüm mən,
Bağbanınam, gülüm, mən.
Ağlamağı bilirəm
Üyrət məni, gülüm mən.

Gülümnən,
Bülbülümnən, gülümnən.
Küsdürdüm yola saldım
Bu lal olmuş dilimnən.

Günahı var,
Suzu var, günahı var.
Yar onunzün incəlib

Ardınca günahı var.

Günahımı,
Bağışla günahımı.
Deyillər gün tutulub
Eşidib gün ahımı.

Günahımnan,
Xudam kez günahımnan.
Cigərdən bir ah zəksəm
Tutular gün ahımnan.

Gündə mən,
Külgədə sən, gündə mən.
İldə qurban bir olar
Qurbanınam gündə mən.

Günə baxdım,
Güz tikdim, günə baxdım.
Qara günlər silindi
Zıxdı ağ günə baxtım.

Günə düşdüm,
Külgədən günə düşdüm.
Xəbər ver zalım yara,
Dediki günə düşdüm.

Gün əridər,
Qar yağar, gün əridər.
Qılınc kəsməyən əri
Bir qara gün əridər.

Günü dağlar,
Ay zıxar günü dağlar.
Anadan ayrı qalan
Yetimi günü ağlar.

Meylim sənə,
Düşübdü meylim sənə.
Mən dünsəm, künlüm dünməz
Sən dünsən, neylim sənə?

Mən dayanım,
Az hüsnün, mən dayanım.
Kərəm eşqindən yandı
Qorxuram mən də yanım.

Məndəlidən,
Gül gələr Məndəlidən.
Bu vəfasız yara bax
Küsübdü mən dəlidən.

Məndilimnən,
Sil güzün, məndilimnən.
Əslimi inkar etməm
Güvənnəm mən dilimnən.

Mənim bu varsız künlüm,
Bağzasız, barsız künlüm.
Gür kimlərdən ayrılıb
Gülər bu arsız künlüm.

Mənim bu vərdi künlüm,
Elə bil qordu künlüm.
Qəribələr əgləncəsi
Miskinlər yurdu künlüm.

Mərdə nədi,
Qəm, cəfa, mərdə nədi?
Asimandan daş yağsa
Mərdanə mərdanədi.

Mərdə tası,
Doldur ver, mərdə tası.
Bir oğul igid olmaz
Olmasa mərd atası.

Min oxu,
At kamannan min oxu.
Bilənə bir pərdə zal
Bilməyənə min oxu.

Nar kimi oydun məni,
Yaralı qoydun məni.
Qaş qəssab, kirpik pızaq
Güz gürə soydun məni.

Nazara,
Təbib neylər nazara.
Bir dərdə mən düşmüşəm
Nə dərman var, nə zarə.

Necə doyar,
Qar dağdan necə doyar.
Leyliyzin Məcnun olan,
Eşqindən necə doyar.
Necə sayım,
Dərdim zox, necə sayım.
Sənsiz kezən günləri
Ümürdən necə sayım?

Ovzu maralı olum,
Ox vur, yaralı olum.
Biləydim haralısan
Mən də oralı olum.

Oda yandı,
Ürəgim oda yandı.
Ahım dəryaya düşdü,
Balıqlar suda yandı.
Su səpdim oda, sünsün,
Səpdiyim su da yandı.

O da giryan,
Mən giryan, o da giryan.
Mən dedim bir güzəl sev
Demədim oda gir, yan.

Oy ağam,
Oda düşdüm, oy ağam!
Aləm qəmsiz yatıbdı,
Mən qəmliyəm, oyağam.

Oyana bilməm,
Yatıb oyana bilməm.
Min dərdin dərmanıyam,
Yarsız dayana bilməm.

Oyanmaz,
Oyadıram, oyanmaz.
Ürəgim qəm yuvası
Bayquş girsə dayanmaz.
Oyan yeri,
Qalx, silkin, oyan yeri,
Yüz il sel gəlsə oymaz
Bir gün qəm oyan yeri.

O yar güzün,
Kim gürüb o yar güzün.
Aslan gücünnən düşsə,
Qarınca oyar güzün.

Oxu yara,

Az kitab oxu yara.
Sinəmdə yer qalmadı
Məgər ox-oxu yara?

Ox dayandı,
Sinəmə ox dayandı.
Bağrımın alovundan
Atılan ox da yandı.

Oxu tər,
Kamanı tər, oxu tər.
Atma künlüm evinə,
Qəm tünlükdü, ox itər.

Üzü düşər,
Tut bişər, üzü düşər.
Gəl dəymə sərxoşa sən,
Yıxılar, üzü düşər.

Üzüm neynim,
Bu dərdə düzüm neynim.
Od sənnən, odun mənnən,
Yanıram üzüm neynim?

Üzü kezər,
Hər yerdə süzü kezər.
Kezməz fəqir altunu,
Zənginin yezi kezər.

Ülən dəm,
Ülən saat, ülən dəm,
Güzlərim bağlamayın,
Yarı gürüm ülən dəm.

Pəncərədən daş gələr,
Xumar güzdən yaş gələr.
Sevəni sevənə ver,
Allaha da xoş gələr.

Razı can,
Razı təbib, razı can.
Bu dərdi yar veribdi,
Necə olmaz, razı can?!

Sənəm, sənsiz,
Gəzərəm, Sənəm, sənsiz,
Harda bir qərib gürsən
Belə bil mənəm sənsiz.

Sən mənim mürşüdüm yar!
Az qoynun üşüdüm yar!
Dərd süylə, mən can deyim,
Bir səsin eşidim, yar!

Səhərin vaxtı keşti,
Bir ulduz axtı keşti.
Dünya bir pəncərədi,
Hər gələn baxtı keşti.

Sona güldə bir üzdü,
Bir zalxandı, bir üzdü.
Üzün qoy üzüm üstə,
Gürən desin bir üzdü.

Su başında nanəyəm,
Əl vurma pərvanəyəm.
Bir gün yarı gürməsəm,
Dəliyəm, divanəyəm.

Su zağladı,

Sel gəldi su zağladı,
Həqiqət hakim oldu,
Ah zəkdi suz ağladı.

Sürmədanın miliyəm,
Azılmış nar gülüyəm.
Bir yannan qapı qonşu,
Bir yannan sevgiliyəm.

Süsənim qardan doymaz,
Yaram tumardan doymaz.
Mənim bu ac güzlərim
Baxdıqca yardan doymaz.

Süsəni,
Su gügərtmiş süsəni.
Kezmə namərd
kürpüsünnən
Qoy aparsın su səni.

Taxtı yarım,
Gülümnən taxtı yarım.
Üzündə güz izi var,
Kim sənə baxtı, yarım?
Tikan gülə,
Sarmaşıb tikan gülə.
Aləm güzün tikibdi
Mən güzüm tikən gülə.

Xurmatının bağı var,
Bağında zardağı var.
Sənin hüsnün qədəri
Məndə hicran dağı var.

Havadan olar,
Bulud havadan olar.
Gəlsən, qonağım olsan
Evim avadan olar.

Havaydan gedər,
Bulud havaydan gedər.
Baxtı qara olanın
Ümrü ha vaydan gedər.

Hez bilməm hayandayam,
Bir talesiz bəndəyəm.
Yuvasız bayquş kimi
Gündə bir vətəndəyəm.

Həmədanda talan var,
Qəmzəsi can alan var.
Mən burda zox əgləndim,
Güzü yolda qalan var.

Hər ayınnan,
Hər həftə, hər ayınnan,
Gündə bir kərpic qopar
Ümrümün sarayınnan.
Zaldı yar,
Əqlim başdan zaldı yar,
Ürəyimin telində
Qəm sazını zaldı yar.

Zırağımsan, zırağım,
Həm fitilim, həm yağım.
Güzümdə yer edərəm
Bir gün olsan qonağım.

Cala sən,
Dərdə dərman cala sən.

Gedən gün geri dünməz
Günü günə calasan.

Canım gedər,
Gün gələr, canım gedər
Mən qəlbdən yaralıyam,
Güzümnən qanım gedər.

Coşğunum coşdu gənə,
Qəm həddin aşdı gənə
Eşitdi bülbül ülüb,
Qünzə saz aşdı gənə.

Şərabın əzələnsin,
Yel vursun təzələnsin.
Nə güzüm yarı gürsün,
Nə dərman təzələnsin.

Şirin dil,
Ana dili —şirin dil.
Həm təbibdi, həm məlhəm,
Şirin əhbab, şirin dil.

Şirin dil,
Al bağrımı, şirin dil.
Nə deyirsə yad desin,
Üz dilimdi, şirin dil.

Şirin düşər,
Zülf üzə şirin düşər.
Fərhad qaya zapanda
Yadına Şirin düşər.

Şirin kimin,
Güzəl sev, Şirin kimin.
Sevər gənclər istərəm
Fərhadnan Şirin kimin.

# XALQ MAHNILARI

## O YANA DÜNDƏR MƏNİ

**Dündərmə:**

O yana dündər məni,
Bu yana dündər məni.

Sağ yanım yaralıdı
Sol yana dündər məni.
Ürəgimdə yara var,
Təbibə gündər məni.

Zayır qısa bizilməz,
Su dərindi kezilməz.
Mənə derlər: yardan kez
Yar şirindi kezilməz.

**Dündərmə:**

Məni gürdü, güldü yar,
Dərdlisiydim, bildi yar.
Azdı qulac qolların
Güz yaşımı sildi yar.

**Dündərmə:**

Hər güzəldən yar olmaz,
Sevən bəxtiyar olmaz.
Yarı güzəl olanın
Künlü ixtiyar olmaz.

**Dündərmə:**

## HƏLHƏLƏ VERİN GƏLİNƏ

**Dündərmə:**

Həlhələ verin gəlinə,
Dəstə gül verin əlinə.
Altun kəmər bağlasın
Gəlin incə belinə,
Güzəl, həlhələ verin gəlinə.

Qənəfilin bəyazı,
Yarım, etmə bu nazı.
O günnən səni sevdim
Nə qış bildim, nə yazı.

**Dündərmə:**

Əlində tərəzi var,
Cibində zərəzi var.
Aləmnən oynar-gülər,
Mənimnən qərəzi var,
Baba, həlhələ verin gəlinə.

**Dündərmə:**

Yeri, yeri, yeri küsmüşəm sənnən.
Ayrılıq badəsin izmişəm sənnən.
Sən bir sərv ağacı, mən bir güyərzin,
Labud qonub-qonub uzmuşam sənnən.

**Dündərmə:**

## ATMA BU DAŞLARI, MƏN YARALIYAM

Qalanın dibində əkərlər darı,
Əkərlər, bizərlər, yarıbayarı.
Yar mənə göndərmiş heyvaynan, narı,
Atma bu daşları, mən yaralıyam,
El-aləm al geyib, mən qaralıyam.

Qalanın dibində bir daş olaydım,
Gələnə-gedənə yoldaş olaydım.
Bacısı güzələ qardaş olaydım,
Qax gedəğ zayxana, meyxanaya,
Baba, künül əglənsin,
Yarın haqqın divanında
Doğru süz süyləsin.
Atma bu daşları, mən yaralıyam,
El-aləm al geyib, mən qaralıyam.

Qalanın dibində üz ağa incir.
Əlimdə biləkcə, qolumda zincir.
Zinciri loş bağla, hər yanım incir:
Atma bu daşları, mən yaralıyam,
El-aləm al geyib, mən qaralıyam.

## YERİ, YERİ, YERİ KÜSMÜŞƏM SƏNNƏN

Yeri, yeri, yeri küsmüşəm sənnən,
Ayrılıq badəsin izmişəm sənnən.
Sən bir sərv ağacı, mən bir gügərzin,
Labüd qonub, qonub uzmuşam sənnən.
Mənim yarım incələrdən incədi,
Küksündəki turuncları xünzədi,
Evlərinin dürd ətrafı yoncadı,
/Və ya: Sazı uzun topuğunnan ucadı/.
Yeri, yeri, yeri küsmüşəm sənnən,
Ayrılıq badəsin izmişəm sənnən.

Dərya kənarında yandırdım hamam,
Oxudum kitabı, eylədim tamam.
Sənin təkin zalım yara inanmam.
/Və ya: Sənin təkin insafsıza inanmam/
Yeri, yeri, yeri küsmüşəm sənnən,
Ayrılıq badəsin izmişəm, sənnən.
Sən bir sərv ağacı, mən bir gügərzin,
Labüd qonub, qopub uzmuşam sənnən.

## AY QIZ MƏNƏ BAX, BAX!

**Dündərmə:**

Yar bizə qonaq gələcək
Bilmirəm nə vaxt gələcək.
Süz verib sabah gələcək.

Getdim gürdüm bulaqdadı —Ay qız, mənə bax, bax.
Əl-üzünü yumaxdadı —Ceyran mənə bax, bax.
Məni gürüb qaş-güz atır —Maral mənə bax, bax.[15]

**Dündərmə:**

---

15. Kərkük dolaylarında geniş yayılan bu mahnının Gözəçi oğlunun "Xoritay və bəstələri" /Kərkük, 1965, səh.45/ kitabında Azərbaycan xalq türküsü olduğu göstərilir.

## BU GƏLƏN YAR OLAYDI

**Dündərmə:**

Bu gələn yar olaydı,
Qoynunda nar olaydı.
İkimiz bir küynəkdə
Yaxası dar olaydı.

Bu gələn yar üzüdü,
Güzü ceyran güzüdü.
Bir kezdi-tanımadım
Bir baxdım, yar üzüdü.

**Dündərmə:**

Bu gələn yara bənzər,
Boyu zinara bənzər,
Qoynundakı şamama
Soyulmuş nara bənzər.

**Dündərmə:**

Bu gələn əbalıdı,
Ağzı mərhəbalıdı.
Aləmnən oynar-gülər,
Bizimnən tobalıdı.

**Dündərmə:**

## SAMAVAR ALMIŞAM SİLƏNİM YOXDU

**Dündərmə:**

Ay baba, bu ceyran nişin gəlməz oldu,
Qazdı yuca dağlara, gürünməz oldu.

Samavar almışam silənim yoxdu,
Bir dərdə düşmüşəm bilənim yoxdu,
Ağlaram, güz yaşım silənim yoxdu.

**Dündərmə:**

Samavar almışam bayazdı rəngi,
Gürüncə düşmüşəm mən dərdə yengi,
Uşaq zağdan oldum eşqinin dəngi.

**Dündərmə:**

Samavar almışam rəngi sarıdı,
Sorun, baxın bu qız kimin yarıdı.
Məni yara qovuşduran tarıdı.

**Dündərmə:**

Ceyranı soruram, bilənim yoxdu,
O yarın yanınnan gələnim yoxdu,
Divanə olmuşam soranım yoxdu.[16]

**Dündərmə:**

---

16. Kərküklər arasında məşhur olan Gözəçi oğlunun "Xoriyat və bəstələri" kitabında yer olan /səh.98/ bu mahnı Kərkük dolaylarında Azərbaycan xalq mahnısı kimi tanınır.

## EVLƏRİNİN ÜNÜ YONCA

Evlərinin ünü yonca,
Yonca qalxıb dam boyunca.
Boyu uzun, beli incə
Ninnə, yavrum ninnə,
Əsmər yavrum ninnə, ninnə, ninnə.

Evlərinin ünü lalə,
Saqi, doldur, ver piyalə.
Sərxoş olaq düşək yola
Ninnə, yavrum ninnə, ninnə, ninnə.

Evlərinin ünü darzın,
Fələk qoymaz qəddim azım /güzüm azım/
Səni alıb hara qazım.
Ninnə, yavrum ninnə, ninnə, ninnə.

Evlərinin ünü süsəm,
Sıyrılıb qoynuna düşəm.
Hər gün sabah boyun gürsəm...
Ninnə, yavrum ninnə,
Əsmər yavrum ninnə, ninnə, ninnə.

Evlərinin ünü paxla,
Gügərzinlər vurar taxla.
Al məni qoynunda saxla,
Ninnə, yavrum ninnə,
Əsmər yavrum ninnə, ninnə, ninnə.

## BU XALXAL, NƏ XALDI

**Dündərmə:**

Bu xal nə xaldı, güzəl, nə xaldı, yanağda dügdürübsən,
Canım, nə xaldı, güzüm nə xaldı aləmi yandırıbsan.

Bu xalı xurda məni,
Salıbdır dərdə məni.
Rəqiblər yığnağ edib
İstər gedir də məni.

**Dündərmə:**

Evlərində xalı var,
Dodağında balı var.
Mən üz yarım tanıram
Yanağında xalı var.

**Dündərmə:**

Bu dağlar xalı qaldı,
Quş uzdu yavru qaldı.
Anaxdar yar qoynunda
Künlüm buxavlı qaldı.

**Dündərmə:**

Bu dağlar uca dağlar,
Bülbüllər yuva bağlar,
Güzlərində cadu var
Baxdıqca dilim bağlar.

**Dündərmə:**

## AY DOLANAYDI

**Dündərmə:**

Ay dolanaydı, gün dolanaydı,
Yarın tək-tək yerişi məndə olaydı.

Ay zıxdı daha batmaz —Ay dolanaydı,
Hüsnünü gürən yatmaz —Gün dolanaydı.
Hüsnün kimi bir hüsnü —Ay dolanaydı.
Bir də Tanrı yaratmaz —Gün dolanaydı.

Ay zıxdı, batar indi —Ay dolanaydı,
Yar oxun atar indi —Gün dolanaydı.
Leyli xəstə düşübdü —Ay dolanaydı.
Məcnun can satar indi —Gün dolanaydı.

Ay zıxdı, dalda durdu —Ay dolanaydı,
Gür nə xəyalda durdu —Gün dolanaydı.
Yazmavın sazaqları —Ay dolanaydı
Güzüvə dalda durdu —Gün dolanaydı.

**Dündərmə:**

## DİLBƏR

**Dündərmə:**

O dağ, bu dağ üstünə, Dilbər,
Xizmən dodağ üstünə, Dilbər.
Bülbüllər yığnağ edər, Dilbər.
Qonar zardağ üstünə, Dilbər.

Yağış yağar güllərə,
Bülbül qonaq güllərə —Aman.

Mənim vəfasız yarım,
Salıb məni dillərə —Aman.

**Dündərmə:**

Yağış yağar, gül olar.
Karvan kezər, yol olar —Aman.
Güzüm yarı gürəndə,
Dilim tutmaz lal olar —Aman.

**Dündərmə:**

## ALA GÜZÜNƏ QURBAN

**Dündərmə:**

Güzüm tütünzü Əzət,
Doldur bizimzü Əzət.
Alma yanaqlı Əzət
Qeytan dodaqlı Əzət.

O yarın üzünə qurban,
Şirin süzünə qurban.
Boyaqzıda boyanıb
Ala güzünə qurban.

**Dündərmə:**

O yarın ala güzləri
Başa bəla güzləri.
Qorxum var düşəm üləm,
Yada qala güzləri.

**Dündərmə:**
Bax güzünə, bax üzünə,
Sürmə zəkibdi güzünə.

Qurbanam nazlı yarın
Hərəkətinə, süzünə.

**Dündərmə:**

## LEYLA BALAM, AY LEYLA[17]

**Dündərmə:**

Leyla balam, a Leyla.
Şirin dilim, a Leyla.

Sən ümrümün gülüsən,
Bağzamın sünbülüsən.
Gül dodağın güləndə
Neyləyirsən gülü sən?!

**Dündərmə:**

Günəşli gündüz sənin,
Dərə sənin, düz sənin.
Elə sevinc gətirən
Bu xoş günümüz sənin.

**Dündərmə:**

Sən doğuldun bəxtiyar,
Beşiginə gün doğar.
Büyü, hələ, bol yaşa
Nurlu gələcəyin var.

**Dündərmə:**

Bir sevinc var səsində,

17. Kərkük dolaylarında geniş yayılmış bu mahnı da "Gözəçi oğlunun Xoriyat və bəstələri" kitabında yer alır /səh.45/. Azərbaycan xalq mahnısı olduğu göstərilir. Əslində şeir xalq şairi Rəsul Rzanındır. Şeir 1938-ci ildə yazılmışdır.

Səsində, nəfəsində
Nə dadlıdı yaşamaq
Azadlıq ülkəsində.

## QOCALDIM GÜNDƏN-GÜNƏ

**Dündərmə:**

Yazıq-yazıq külgədən düşdüm günə,
Yazıq-yazıq qocaldım gündən-günə.
Rəhm eylə mənə, yarı əlimdən əcəl aldı,
Cananım ilə vəslətimiz məhşərə qaldı,
Yarın firqəti yaxdı məni, dərdlərə saldı.

**Dündərmə:**

Yumdu ol ala güzlərini yar oyanırmı?
Cananım gedirkən firqətinə can dayanırmı?
Rüyamı, əcəba hez buna insan inanırmı?

**Dündərmə:**

Dərdlisi oldum mən, fələk halımnan bilməz.
Ağlar məni, gecə-gündüz, üzümə gülməz.
Sel kimi axar güz yaşım hez kimsə silməz.

**Dündərmə:**

## BAĞZAYAM, BARAM SƏNƏ

Gənə bağzayam, baram sənə,
Mina boylum, heyvayam, naram sənə.
Evi yanmış, künlün fikir etməsin,
Üz ağam oğlu, ülüncə yaram sənə.
Ha neynim, güzüm,
Can, zıxma dost gəlincə,

Gürək nə deyər ağlar.
Bülbül ağlar, gül azmaz,
Verandı belə bağlar.
Torpaq onun başına
Bedasıla bel bağlar.
Gəl, gəl gənə, ay gülüm!
Mənə zülm edən üz bəgim!

## SƏN BİR YANA, BİR YANA

**Dündərmə:**

Sən bir yana, bir yana,
Mən bir yana, bir yana.
Qaşın qaradı, güzün aladı,
Bənzəyirsən ceyrana.

Qaşın güzün arası — Sən bir yana, bir yana,
Üzün bir ceyran balası — Mən bir yana, bir yana.
Soyunum bax canıma — Sən bir yana, bir yana,
Hamısı sevda yarası — Mən bir yana, bir yana.

Qaşın-güzün zarpara — Sən bir yana, bir yana,
Sevmişəm olmaz zara — Mən bir yana, bir yana.
Bu qaş, bu güz səndədi — Sən bir yana, bir yana.
Əlim varmaz iş kara — Mən bir yana, sən bir yana.

**Dündərmə:**

Qaşın-güzün qara qız — Sən bir yana, bir yana,
Zülfün batıb tərə qız — Mən bir yana, bir yana.
Al məni bağvuan eylə — Sən bir yana, bir yana,
Qoynundakı nara qız — Mən bir yana, bir yana.

## PƏNCƏRƏDƏN DAŞ GƏLƏR

Pəncərədən daş gələr,

Xumar güzdən yaş gələr,
Səni mənə versələr,
Allaha da xoş gələr.

**Dündərmə:**

Evləri su başında,
Güzüm qaldı qaşında.
Sevdim bir pezətərsə
On üz, on dürd yaşında.

**Dündərmə:**

Evləri arx boyunda,
İpək yaylıq qoynunda.
Mənnən sənin günahın
Qalsın nənən boynunda.

**Dündərmə:**

Evlərində süsəni,
Barışdırın küsəni.
Güz azdım səni gürdüm
Mən istəməm kimsəni.

**Dündərmə:**

Su saldım bağa neynim,
Dəgməz yarpağa neynim.
Yarım ceyran olubdu
Gəlməz yatağa neynim.

**Dündərmə:**

## ÜLLƏM, ÜLLƏM

Damımız ardı zülə —Ülləm, ülləm, mən ülləm, necə,

Sonalar əndi gülə —Başuva dolanım mən bu gecə.
Ayağıma qan əndi —Ülləm, ülləm, mən ülləm, necə,
Yanuva gələ-gələ —Başuva dolannam mən bu gecə.
Başuva dolannam bu gecə, mən bu gecə.

Dama zıxdın, güründün —Ülləm, ülləm, mən ülləm, necə,
Peştəmala büründün —Başuva dolannam mən bu gecə.
Aləmə zirkin ikən —Ülləm, ülləm, mən ülləm, necə,
Mənə şirin güründün —Başuva dolannam mən bu gecə.
Başuva dolannam bu gecə, yar bu gecə.
Dama zıxsan dam titrər —Ülləm, ülləm, mən ülləm, necə,

Neylon küynək yan titrər —Başuva dolannam mən bu gecə.
Güzüm səni gürəndə —Ülləm, ülləm, mən ülləm, necə,
Dilim tutmaz, can titrər —Başuva dolannam mən bu gecə.
Başuva dolannam bu gecə, yar bu gecə.
Dama zıxsan dam titrər —Ülləm, ülləm, mən ülləm, necə,

Qara zadır xaraldan —Babam, ülləm, mən ülləm necə,
Boyun sezdim maraldan —Başuva dolannam mən bu gecə.
Nə dərdim var, nə bəlam —Ülləm, ülləm, mən ülləm, necə,
Sənsən məni saraldan —Başuva dolannam mən bu gecə.
Başuva dolannam bu gecə, yar bu gecə.

## KƏTAN KÜYNƏK DİZDƏN, YAR

**Dündərmə:**

Al ipək, yaşıl ipək, qaytan edəllər,
Vay nənə, namərd ülüm, bühtan edəllər.

Kətan küynək dizdən yar,
Həyam aldın üzdən yar.
Şah damarını kəsmək- böyük fəlakətə uğratmaq.

Şeytana lənət eylə- bu yaxşı iş deyil. Bunu etmə, mənasında işlənir.

Şeytannan əvvəl nənədən olub- biclikdə şeytanı keçib.

Şeytan hambalı- faydasız, boş işlərlə vaxtını keçirən.

Şeşi beş görmək- zəif görmək, pis görmək, aldanmaq.

# LƏTİFƏLƏR

## *MOLLA NƏSRƏDDİNDƏN TÖHFƏLƏR*

### HA ZAMANA QƏDƏR SİZƏ YOL GÖSTƏRİM?

Mollanın qonşuları pək saf, dünyagörməmiş kimsələrdi. Bir gün sığırları su içmək üçün başını küpə soxmuş, bir daha da çıxara bilməmiş.

- Molla, sığırın başı küpdə ası qalıb, nə edək?

Molla:- gedin sığırın başın kəsin.

Nişin belə dedi Molla?- könlünə ət düşmüşdü.

- Sığırın başı kəsilmiş, gənə də küpdən çıxmamış.

Bu səfər Molla:

- Ha zamana qədər sizə yol göstərim. Gedin küpü qırın demiş.

### EVDƏKİ PARTILTI

Bir gün molla evdən çıxarkən qonşusu:

- Molla, dün axşam sizin evdə söz- söhbət, gurultu vardı.

- Bizim «Koroğlu» ilə bir ağız qovğası etdik. Arvad darıladı, kürkümə bir təpmə atdı. O da nərdivannan düşdü, səs saldı.

- Amma dedin ha! Kürk də bu qədər səs salar?

Molla:

- Sus canım. Niyə bu qədər adamı zora salırsan. Ola bili kürkün içində mən də olmuşam.

### AĞLI BAŞINDA OLAN EVLƏNƏR?

Bir gün molla diyər:

- Oğlumu evləndirirəm. Kim bilir yarın olur. Ölümlü- itimli dünyadı.

Arxadaşları:

- Molla, oğlun hələ uşaqdır. Qoy bir az böyüsün. Əyini-kötüdən seçsin. Ağlı başına gəlsin.

Molla:

- Susun. Ağlınız çatmadığı şeyə qarışmayın.
-Ağlı başında olan evlənər?

## SOR NƏNƏÜDƏN, O BİLİ ŞEY- MEYLƏRİ HARA QOYUB

Bir gün Mollanın oğlu kitab oxurı.

Yəni baxar bəşər nanca yaranıb. Qulaq hardadı, baş hardadı, qaş hardadı, burun hardadı, göz hardadı.

Bəs bilməz qəlb harda olı? Babasından sorar.

Molla:

- Oğlum, bilməm. Sor nənəüdən, o, bili şey-meyləri hara qoyub.

## BAHARA BIR SÜZ DEYƏN YOX

Bir gün Mollanın dostlarınnan biri:

—İnsannarı annamıram. Saux olunca qışdan, sıcaq olunca yazdan şikayət edillər —deyir.

Molla:

—Qardaşım, amma bahara bir süz deyən yox.

## QÜRBƏT BELİMİ QIRDI

Son vaxtlar arvadı Mollaya heç baxmırdı. Molla düşünüb-daşındı. Mahnı deyə- deyə evə gəldi:

Kişi dövlətdən düşsün.

Düşməsin yar gözünnən.

- Molla, xeer olsın. Şair olubsan?!

- Arvad, hamısı sənə görədi. Xəbər olsun bəyiizə. Qürbətə gedəcəm. Ya sağlıq nə vaxt qayıdam. Bir plov bişir, bir tox yeyəx.

Dedi: Əyidi. Uğur olsun, Molla!

## SƏNIN KİMİ UĞURSUZ QALIB

Bir gün Mollanın arvadı qaynar şorbanı süfrəyə qoyar. Üfləmədən bir qaşıq ağzına alar. Dərhal güzlərindan yaş axmağa başlar.

Molla:

—Arvad niyə ağlayırsan?

—Rəhmətlik anam yadıma düşüb.

Sıcaq şorbadan bir qaşıq ağzına alan kimi Mollanın da güzündən yaş axmağa başlar.

—Arvadı Mollanı aldatdığına fəzlə sevinər. Mollanı daha da qəzəbləndirmək üzün.

Molla, bəs sən niyə ağlayırsan? —deyə, sorar.

Molla:

—Ona gürə ağlayıram ki, anan ülüb. Sənin kimi uğursuz qalıb.

## ƏCABA, BAŞINDAN GEDƏN NƏ İMİŞ?

Bir gün adaməkənin biri Mollaya dedi:

—Molla, bazar yolunda arvadın düşdü pək əzildi. Ağlı başından getdi. Apardılar üzünü yevə. Bir həkim tapıb yevə gedin.

Molla bir süz deməmiş. Düşüncəyə dalmış.

Adaməkə:

—Molla, nə düşünürsən?

Molla:

—Arvadımın əslində əvvəldən ağlı yoxdu. Düşünürəm, əcaba onun başından gedən nə imiş?

## SƏN BİR AZ ÜZƏ BİLİSƏN

Bir gün mollanın hər iki arvadı Mollanın yanına gəlib.

- Hansımızı daha çox sevirsən?- deyə sormuşlar.

Molla müşkül vəziyyətdə qalmış.

İkinizi də sevirəm- deyərək sözlərini kəsmək istəmişsə də bir şey çıxmamış. Kiçik arvadı:

Molla, əgər dənizdə qayıqla üzsək, qayıq çevrilsə, suya düşsək hansımızı daha əvvəl xilas edərsən?

Molla əski arvadına:

- Zənn edirəm sən bir az üzə bilisən, deyilmi?

## HANI ARVADIM?

Bir gün Mollanın qonşusu bir dəvət yapar. Hamını dəvət edər. Bir tək Mollanı dəvət etməz. Biliri Molla bir şey edirdi. Molla da oturup evdə arvadıynan.

Dedi: Necə biz bulara gedəğin, necə dəvətlərini yəğin?

Arvad dedi: sən bilisən Molla, mən bilməm,

Molla dedi: Dur indi mən səni qularam. Sən qaç buların evinə girginən. Mən də ardıycan gəlim. Biz dögüşdüğümüz halda oturdullar bizi. O halda biz də yimağ yəərix.

Molla arvadına bir- iki zillə çalar. Arvadı fizzəh edər, qaçar girər olara. Molla da ardıyca hanı arvadım?

... Bilməm Tutullar özünü. Otu, Molla!

Yox oturmam, arvadımı verin.

Yox oturusan. Olar... Olmaz. Hər nəysə oturdullar özünü.

Gəldi yeməğ. Bir qab ətdi. Mollanın əli yetişmir. Nə hilliynən yesin o əti.

Molla əlini qauzadı. Qoyuz arvadımın qulağın bir burum, deməğiynən sinnini burdu. Ət gəldi qənşərinə. Başladı yemağa.

## MOLLA ÖLÜM AYAĞINDA OLARKƏN

Molla bir gün xəstələndi. Döşəgindən günnərnən qalxa bilmədi. Arvadına dedi: Ən gözəl əlbəsəni gir, özünə sığal ver və yanımda otur, heç ayrılma.

Arvadı:

- Bu necə olur. Sən ölüm döşəgində qıvrılarkən mən toy bayram əlbəsəsi girim.

- Görürsən ki, xəstəyəm, bəlkə də ölürəm. Son dəmimdə səni mələk kimi görüm, həm də Əzrail canımı almağa gələndə bəlkə səni bəyənər və mənim yerimə səni alıb gedər.

## MOLLANIN KƏDƏRİ

Bir gün Mollanın arvadı rəhməti- rəhmana qovuşar. Molla çox kədərləndi.

Lakin bir müddət sonra unudar.

Gənə əvvəlki kimi arxadaşları işə şən, dadlı söhbətlər edər.

Fəlakət gəlincə bir- birini təqib edər- demişlər. Bir neçə gün sonra da Mollanın eşşəyi ölür. Molla bu səfər başlar yas tutmağa. Dostları:

- Molla, sormaq eyb olmasın, arvadın öləndə bu qədər kədərlənmədi?

Molla:

- Arvadım öləndə hamınız «Sənə bunnan əlasını bularıq»- deyə təsəlli verdiniz. Eşşək ölən zaman bir kimsə gəlib iki kəlmə söz demədi.

## EYİBSİZ GÖZƏL OLMAZ

Günnərin birində Mollanın arvadı oğulları üçün varlı ailədən bir qız tapır. Hətta evləndirsinnər özün. Molla biliri oğlu bəyənməyəcək qızı. Arvadı başa salır, oğlu bir şey sorsa nə desin.

Oğlan qızı görüncə beyni qızar. Nişi?

Qız dedikcə kifir olı. Oğlan gələr evə nənəsini məzəmmət edər.

- Oğlum qızın eybi nədir?

- Dili laldır.

Eyidi. Evdə baş beynimizi ağrıtmaz.

- Bəs gözlərinə nə deyirsən? Biri kor, biridə çaşdır.

- Eybimizi görməz, oğlum!

- Topallığına nə deyirsən?

- Qapı- qapı gəzməz.

Oğlan fəzlə darıxar. Bəs keçəlligi? Buna nə bəhanə tapacaqsan?

Arvad bilməz nə desin. Molla bunu deməmişdi. O biri hücrədən söhbətə qulaq asan Molla:

- Gözəl eyibsiz olmaz, oğlum. Hər gözəldə bir eyb olu- demiş.

## MOLLANIN SINAĞI

Bir axşam Molla əllərini qaldırıb ucadan deyər:

- Ya rəbbi, həyatımızda sənnən bir şey istəməmişəm. İstəyirəm səni bir sınaqdan çıxarım. Mənə yüz lirə göndər, bu arvadın tənəsinnən qurtarım.

Arvadı:

- Ay Molla, bəlkə doxsan doqquz altun göndərdi. Qəbul edərsən.

- Yox, etməm.

Dövlətli qonşu bu həkatı eşidib Mollanı yoxlamaq üzün doxsan doqquz altunu bir kisəyə qoyub bacadan içəri atmış.

Molla baxır doxsan doqquz altundu. Doxsan doqquzu verən biri də verər deyərək paranı götürmüş.

Səhəri Mollanın qonşusu:

- Molla bizim paranı ver- demiş.

- Nə para?

- Gecədən bacadan atdığım doxsan doqquz altunu deyirəm. Mən səninlə şaqa etdim.

- Mən şaqa- maqa anlamam. Sənə bir para da verməm.

Qonşu baxar Molla Paranı qaytarmır.

Gedək qazıya demiş.

Bu sauxda gedəməm. Arvad kürkümü yexiyib. Həm də mən qoca adam yayan nanca gedə billəm qazıya.

Qonşu əlacsız qalıb bir qatır və kürk gətirir, ta ki, molla getsin özüynən qazıya. Varıllar qazıya. Qonşu davasının səbəbini anlatmış.

Molla:

Qazı əfəndi, bu adam dəli olmup. Sor gör bunın ağlı başındadı.

Qonşu:

- Əlbəttə başımdadı.

Molla:

- Ağlı başında olan başqasının bacasınnan doxsan doqquz altun atar?

Qazı əfəndi, altunlar arvadımın babasınnan qalıb. Yəqin sayanda eşidib. Dövlətlilər belə acgöz olullar. Bu gəzzabdır. İndi deyər giydiyim kürk də onundur.

Qonşunun kəlləsi qızar:

- Bəli kürk də mənimdir.

Qazı əfəndi, indi bu adaməkə diyər bu qatır da onundur.

- Bu mənim dögü kimindir- deyə dövlətli qışqırar.

Qazı qoşunun ağlı başında olmadığını zənn edib Mollaya haqq vermiş.

## ON BİR TOYUĞUN BİR XORUZU

Bir gün Molla arxadaşları ilə gedər hamama. Yoldaşları hər birisi birər yumurta qoyar cibinə. Bular ara yerlərində deyəllər bir şey edəğin, hamam parasını Molla versin.

Deyəllər:

- Molla, mərc edəğin, hər kim yumurta doğduysa para verməz, hər kim doğmadiysə o qaxar paranı verər. Hər kəş qaxar yumurtanı götürər. On biri də yumurtanı göstərəllər Mollaya.

- Molla da qaxar baynar. Diyəllər:

- Bu nədi, Molla?

- Diyər:

- Bəs olmaz ki, on bir tauğın bir xoruzu olmasın?

## EŞŞƏKLƏ MƏSLƏHƏTLƏŞİM

Bir gün qonşusu bazara getmək üçün Mollanını eşşəgini istəmiş.

- Bir az dur, eşşəklə məsləhətləşim. Könlü olsa verrəm. Molla içəri girmiş, az sonra yazıya çıxıb demiş:

- Eşşəgi razı sala bilmədim. Məlum oldu ki, onu əllərə verdigim zaman həm eşşəgimin qulağına vurur, həm də arvadıma söyürlər.

## MÜJDƏ

Biri qaça- qaça gəlib:
- Molla, müjdə ver, oğlun olub.
Molla:
- Oğlum olmuşsa minnət xudaya. Sənə nə demiş.

## MƏSƏLƏ HAÇALANDI

Molla qazı olarkən bir nəfər içəri girərək davasını anlatmağa başlamışdı.

- Qazı əfəndi, bir əlac qıl. İnək, hər halda sizin olacaq, inəyimizin qarnını buynuzlayaraq öldürmüş. Buna cəza lazım gəlirmi?
- Nə cəza. Heyvana qarşı qan davası açacaq deyilik ki?
- Qazı əfəndi, yanlış anlatdım. Bizim inək sizinkini öldürmüş.
- Necə? Qazının inəyini sizin inək nə cürətlə öldürə bilər?
- Molla katibinə:

Məsələ haçalandı. O rəfdəki qara qapaqlı kitabı ver. Bir baxım, nə cəza verməliyik

## ONU HEYBƏ YAPACAQDIM

Molla bir köyə müsafir gedər. Necə olursa heybəsini qeyb edər.
-Ya heybəmi tapın, ya da mən billəm nə yapacam.
Köylülər o yan-bu yanı axtarırlar. Nəhayət, heybəni tapıllar.
Heybəni Mollaya verərkən köylülər:
-Molla heybəni tapmasaq nə yapaçaqdın?
Evdə əski bir kilim var, onu heybə yapacaqdım- deyir.

## TURŞUYU SƏNMİ SATACAQSAN?

Molla bir arada turşuçuluğa meyl salmış, turşuçunun birinnən turşu alıb məhəllə- məhəllə dolaşmış «Turşu var», «Turşu var» deyincə eşşəyi anqırmağa başlamış. Molla qızmış, dəyənəklə eşşəyi döyərək:

- Ədəbsiz turşuyu sənmi satacaqsan?- demiş.

## SƏSİ YARIN ÇIXACAQ

Bir gecə Molla oğlu ilə gedərkən xerxızların bir məhəlin (mağazanın) kilikini xırxıladıqlarını görüllər.

-Oğlu:

- Baba, bular nə yapıllar?

Molla:

-Rübab çalıllar.

Oğlu:

- Heç səsi çıxmayır- deyincə.

Molla:

- Oğlum, onun səsi yarın çıxacaq- deyir.

## MƏKTUBUUZ GƏLDİ

Birt gün Mollagilin məhəlləsində toydu. Toy sahibi aləmi dəvət edərək, bir tək Mollanı dəvət etməz. Elə belə, şakayçin. Sevərlərdi Mollanı.

Gün günortadı. Hər kəs dəvətə girir çıxır, dişini pəklir, yemək yiyənnən sora. Molla da nezə saatdı evdə əzilirdi. Molla düşünər-daşınar, bir kərə qaçar bazara. Bir zərf alar. Zərfin içində bir şey qoymaz, üstündə toy sahibinin adını yazar

- Məktubuuz gəldi.

Olar da məktubu alallar, ciblərinə qoyallar. Molla, otu, yeməğ ye. Yox yeməm.

- Otumam- oturusan, bilməm nə...

Hər nə isə Molla oturur yeməğin başında. Yəməği yənnən sora çıxar. Bu vaxt ev sahibi zərfi açar, görər bir şey yoxdu içində. Bəs ünvanları və adı var üstündə- deyər: Molla, bir şey yoxdu içində?

Molla deyər: oğərtə əcələydi, oğərtə əcələydi, az qalıb hətta ünvanda da yazılmasın zərfə

## DOĞMAĞA RAZISIZ, ÖLMƏYƏ RAZI DÖYÜLSÜZ?

Molla bir gün xəsis qonşularınnan bir qazan alar. Sora içinə kiçik bir qazan da qoyar, aparar verər qonşusuna.

Qonşuları diyər: Bu nədi?

Molla diyər: İştə qazanıyız doğdu. Bir şey deməzlər, sevinə-sevinə alallar qazannarı. Bir müddət keçər. Molla bir də bir qazan istər. Bu kərə böyük bir qazan istər. Gətirər daha verməz özün. Aradan bir-iki ay keçər. Bir gün qonşu gəliri qazanı istər.

Molla deyər nə qazan?

Diyər: Bildir qazan vermədik?

Molla diyər: Qazannız öldü.

Diyər: Qazan nə cür ölü, dəllidi?

Molla diyər: Qazan doğuru, ölümürü? Doğmağa razısın, ölməyə razı döyülsüz?

## ALLAHIN İŞİ NƏDİR?

Bir gün Teymurləng taxtda oturub, kefi asimandadı. Şakayçün Molladan sorar:

- Molla, Allahın işi nədi?

Molla deyər:

—Ən aşağıya.

O da ənər.

Molla çıxar yerinə-deyər:

Allahın işi iştə budı. Sənin təki bir məliki əndirir, mənim kimi bir adamı çıxarır taxta.

## NEYZƏNBİLLAH

Günnərin birində Teymurləng molladan sorar.

- Abbasi hökmdarlarının hər birisi bir ləqəb almışdı. Kimi Əl - Mütasami Billah, kimi Əl-Mütəvəkkili Allah. Görəsən sən mən onların vaxtında hökmdar olsaydım mənə nə ləqəb qoyardılar?

- Neyzənbillah.

## TEYMURLƏNGİN QİYMƏTİ

Teymurləng bir gün hamamda çimərkən Molla Nəsrəddindən sorar:

- Mən qul olsaydım, necə ağça edərdim?
- Əlli ağça!
- İnsafsız, yalnız belimdəki peştəmal əlli ağça edər.
Molla:
- Hökmudarım, mən də o fikirdəyəm- deyir.

## MİLLƏTİN RİCASI

Bir gün Molla oturmuşdu çayxanada. Hamı Teymurləngin felindən danışırdı. Qəfəsdə bağlanmayan bu fil bir bəla olub keçmişdi xalqın boynuna. Tükannarı dağıdar, zəmiləri xarabazara döndərirdi. Uşaq- böyük görsə əvkələrdi. Teymurləngə şikayət eyləyən olsa boynunu vurdurardı. Belə oldu ki, məmləkətdə qorxudan çıxa bilmədilər yazıya. Çayxanada oturanlar hərə bir şey deyir. Vallah bu gün gedərix Teymurləngin yanına. Rica edərix o fili bağlatsınlar. Padşah hamı getsə nə edər. Hamının başını vurdurmayacaq ki? rəiyyəti kim olar?

Molla qax sən də biznən gedəğin. Çayxana çox qalabalıxdı. Molla da durar tüşər ögcə. Padşahın qapısı ögünə olaşanda baxar görər kimsə qalmayıb. Daa çarəsi qalmaz, girər içəriyə. Nişin? Teymurləng görmüşdü özüni. Diyər:
- Ha Molla nədi?
Diyər:
- Vallah millətin bir ricası var sənnən.
Diyər nədi:
- Diyillər o fili iki eləginən. Tək darıxır.

## KİMİ YANDIRAR, ALLAH BİLİR

Dostlarından biri Mollanın evinə dəvət etmişdi. Bir vaxt ortaya balla qaymaq gəldi. Molla əkməkdən balla qaymağı yedikdən sonra bal kassanı barmağilə sıyırmağa başladı.
Ev sahibi:
- Molla bal səni yandırar.
Molla:
- Qoy mən tox yeyim, kimi yandırar Allah bilir

## TANRI MÜSAFİRİ

Bir gün adəməkənin biri Mollanın qapısını döymüş və tanrı müsafiriyəm demiş.

Molla:

- Yanlış gəlibsən, oğlum. Onun evi bu deyil, odur deyərək, Molla məscidi göstərmiş.

## AZACIQ AŞAĞIYA GƏLİZ

Bir gün Molla evinin damında istirahət edirdi. Bu vaxt qapıya bir dilənçi gəlir.

Molla bilməz bu dilənçidi.

- Azacıq aşağıya gəliz, sizə bir söz söyləyəcəyəm.

Molla damnan enər və qapıda duran adamın nə istədiyini sorar.

- Lütfən mənə bir sədəqə verin.

Mollanın beyni qızar. Lakin bir şey deməz. Adəməkəni evin damına dəvət edər. Adaməkə evin damına çıxar- çıxmaz Molla:

- Allah versin!- deyərək qovar özün.

## KİMƏ MAVİ MUNCUQ VERMİŞƏMSƏ, ONU ÇOX SEVİRƏM

Mollanın iki arvadı vardı. Tez- tez Molla məni daha çox istəyir- deyə dava edirdilər. Molla düşünür. Nə etsin?

Bazara gedər İki mavi muncuq alar. Evə gəlib hər birinə:

- Al bunu saxla. Ortağına bir şey söyləmə- demiş. Bir müddət sonra qadınlar yenə qovğa saldılar.

- Hansımızı daha çox sevirsən. Molla?

- Bir şərtlə deyirəm. Bir daha qavğa etməyəsiz. Kimə mavi muncuq vermişəmsə onu çox sevirəm.

## SÖZÜMÜ TUTMAZ

Bir gün Mollanın neçə il öncə qovğa etdiyi biri ölürdü.
- gəl bunu sən götür- deyillər.
Molla:
- Başqa bir molla tapın. O, mənimlə qovğalıdır. Sözümü tutmaz- demiş.

## YUXUDA QAÇIRILAN FÜRSƏT

Molla yuxusunda birinin ona doqquz ağca verdiyini görür. Molla yalvarır ki, on ağca verin. Bu arada yuxudan oyanır. Əlində bir şey görməyincə gözlərini təkrar yumaraq.
- Ziyanı yox, doqquz olsun, mən razıyam-deyər.

## DƏLİDOLU AXDIĞIN ÜÇÜN

Molla bir yaz günü yoldan keçirmiş. Hava sıcaq olduğundan fəna halda susmamış, ağzına ağac çalınmış su borusu görür. Ağacı çıxarınca üstü tamam ibinir.
Ay səni- İştə belə dəlidolu axdığın üçün ağzına taxta soxmuşlar- deyir.

## İÇİNDƏ GETMƏYİN

- Molla cənazənin önündə, yoxsa arxasında getmək daha savabdır?
- Tabutun içində getməyin, harada gedirsiniz gedin- fərq etməz- demiş.

## YENİ EVLƏNMİŞLƏRSƏ POZULUR

Bir gün Molladan sorurlar:
-Orucluqda bir adam arvadını öpərsə oruc pozulmurmu?
Molla:
- Yeni evlənmişlərsə pozulur. İkinci sənələri isə bilməm.

## GÖZ AĞRISINA ƏLAC

Bir gün gözü ağrıyan qonşusu:
- Molla, nə əlac edim, ağrıdan ölürəm?
Molla:
- Keçənlərdə mənim dişim ağrıyırdı. Çəkdirdim, qurtuldum, ayrı əlacə yox.

## BAŞ SÜFRƏDƏ ƏVVƏLCƏ YER ALARDIM

Molla bir ziyafətə əski əlbəsəsi ilə gedər. Kimsə deməz:
- Molla buyur otu, bu yeməgi ye. Hər gələn keçər onnan başa. Molla bir darılar. Gizlincə gedər evdə təzə əlbəsəsini və kürkünü geyər, bir daha dəvətə dönər.
Molla buyur. Molla buyur. Mollanı kamal təzimlə baş süfrəyə oturdullar.
Buyur Molla, süfrəyə əl uzat. O ətdən ye. Bilməm nə...
Molla yeməz. Kürkünün ətəgini yeməgə uzadıb.
- Buyur ye. Hörmət sənədi. Mənə olsa idi baş süfrədə əvvəlcə yer alardım demiş.

## SABAH OLDUĞUNU BİLİRSƏN...

Bir gün molla tavuqlarını bir qəfə doldurub bazara aparır. Fəzlə sıcaq olduğunnan heyvancıqların bir- biri üstündə həlak olacaqlarından qorxan Molla onnarı açar buraxar.
Tavuqların həmən hər biri bir yana qaçır. Molla əlinə bir dəyənək alıb xoruzu qovar və deyər:
Gecəninin qaranlığında sabah olduğunu bilirsən də bazarın yolunu bilmirsən. Vallahi sağ buraxmam səni.

## DƏYƏNƏK ATA-ATA HALVA YEDİRDİRLƏR

Molla gəncliyində bir şəhərə getmiş. Halvaçı dükanının önündən keçərkən halvaya baxmış, halvaçı da onu müştəri zənn edərək buyurun- demiş.

Bu sözü eşidən Molla tez halva yeməyə başlamış. Bunu gürən halvacı Mollanı dəyənəkləmiş. Molla köyünə dönəndə köylülərin sorğusuna:

- Qadaşlarım, bu getdiyim yer xoş şəhərdi. Adama dəyənək ata-ata halva yedirdirlər.

## BİR ŞEY YEMƏDİM

Səyahət vaxtı bir göyün imamına müsafir olan Mollaya ev sahibi:

- Əfəndim, yuxusuzmusan, susuzmusan?

Molla:

- Bura gəlməzdən əvvəl bulaq başında su içdim, uyudum. Amma bir şey yemədim. Sizin bulağın suyu pəkeyi sudur. Adamı acdırar.

## QIZIM HAMİLƏDİ

Bir gün Mollanın qızına diləxziliyə gəlillər. Ügdən bir inəkləri varıydı. Inəgin qarnı var deyə satanda bazarda tez aldılar. Zünki qarnı olduğuyzi, qarnında balası olduğuyzin.

Qızının diləxziliyinə gələnlərə Molla deyir: Qızımın qarnında balası var.

Olar da zıxallar yazıya, gedəllər yevlərinə. Sora arvadı üzüydən dava edər.

Molla deyər: Mən nə bilim. Dedim inəgin qarnı var, tez aldılar. Dedim bəlkə bunu da tez aldılar.

## ƏŞŞƏGİN ANQIRMASINA İNANIRSAN

Bir gün Mollanın qonşusu gələr, deyər:

—Molla, o əşşəgi ver aparax dəgirmana.

Molla diyər —əşşəg yoxdu evdə.

O halda əşşəg anqırar.

Qonşusu diyər —Molla, bə bu eşşəg dəgi, nədi evində?

Molla: Sən mənim kimin bir ixtiyara, saqqalı bayaza inanmırsan, bir əşşəgin anqırmasına inanırsan?

## SƏNİ DÜRD AYAQLI EDƏ BİLLƏM

Bir nəfər eşşəyə minib gedirdi. Mollaya zatıb salam verdi. Molla, eşitmişəm hər şey əlindən gəlir. Eşşəyin ayaqlarını üflə, bir şey oxu. Qoy o da sənin kimi iki ayaqlı olsun.

Altındakı eşşəyi iki ayaqlı etmək mənim əlimdə deyil. Lakin kəramətindən gürürəm ki, səni dürd ayaqlı edə billəm —demiş.

## BOL VƏDƏ

Dostlarınnan biri:

—Molla, mənə altı ay vədə ilə bir az para verərsənmi?

Molla boş ciblərini güstərib:

—Param yoxdu. Get paranı başqasınnan al. Mən sənə bol-bol vədə verə billəm —demiş.

## GƏL, YA MÜBARƏK

Bir gün Molla üzünü üyürdü:

—Hansı daşı, hansı ağacı zağıram gəlir.

Arxadaşları:

—Elə isə bu qarşıdakı palıd ağacını zağır.

Molla qəribə bir səslə üz dəfə:

—Gəl, ya mübarək —demişsə də ağac yarpağını belə qımıldatmamış.

Molla, kefini pozmadan:

—Bizim tayfada adətdir. Dağ gəlməzsə əbdəl onun ayağına gedər —demiş.

## İSTƏDİYİM OLDU

Mollanın qüvvətli, buynuzlarının arası geniş bir sığırı vardı. Bir gün sığır yatdığı zaman Molla onun buynuzları arasında oturar. Mollanın oturmağı ilə sığırın qalxmağı bir olar. Molla yıxılar və tox zədələnər. Mavılan kimi olar. Üzünə gəlincə baş ucunda arvadının ağladığını gürər.

Molla:

—Ağlama. Zəhmət zəksəm də istədiyim oldu —deyər.

## MÜTLƏQ ERKƏK

Molla, Həzrət Nuhun gəmisinə alma dalını gətirən gügərzin erkək, ya dişi olmuş?

Molla:

—Mütləq erkək. Dişi olsaydı uzun müddət mümkün deyil ağzını qapalı saxlaya bilsin —demiş.

## İŞTƏ İNDİ QUŞA BƏNZİR

Molla bir gün bir leylək tutur.

Evə gəlincə oğlu:

—Baba bu nədir?

—Nə olacaq. Oğlum, bu quşdur.

—Baba, belə də quş olar? Bu hez quşa bənzəmir?

— Səbr et, oğlum — deyərək Molla leyləyin başını və ayaqlarını kəsmiş.

—İştə indi quşa bənzir —demiş.

## HƏR KƏŞİN MALI BAŞI ALTINDA GƏRƏK

Bir gün Molla yengi qondara alıp. Zola uşaxları istəllər aldatsınnar Mollanı, əglənsinnər həm də qondarının başını yaxsınnar. Nə etsinnər?

Diyəllər. Molla filan yerdə güzəl bir tut ağacı var. bizi qoymullar. Sən ixtiyarsan, səni xax istiri. Gedək sən sirkələ, biz yığağın, yəəğin. Nə istəsən verrix.

Molla bili, bu nədi. Diyər: Baxım, nə olu.
Diyər:
—Eyidi.
Gəlillər tut ağacının yanına. Molla qollarını, ətəgini zirmər, qondarasını da qoyar qoltuğuna.
Uşaqlar diyəllər:
—Molla hara? Qoy qondara qalsın biznən.
Molla:
—Bəkə ordan bir yol oldu getdim yevüə.
—Molla, belə şey olı?
Molla:
—Evladlarım, bilin, agah olun, hər kəşin malı başı altında gərək.

## İNANMIRSAY, GET OLZ

Bir gün də bir dənəsi Molla Nəsrəddinə diyər: Molla!
Diyər: ha!
Diyər: Dünyanın orta yeri hardadı?
Diyər: Durduğum yerdi.
Diyər: Necə bildi durduğun yerdi?
Dedi: baba, mən ölçmüşəm. İnanmırsay get, sən də ölç!

## AY ALIB SATMIRAM Kİ?

Bir gün bazarda Molla dalğın- dalğın gəzərkən bir dənə sorar:
- Molla, bu gün ayın dördümü, beşimi?
Molla başını belə qaldırmadan:
- Nə bilim, ay alıb satmıram ki?- deyə cavab vermiş.

## HANSI QİYAMƏT?

Günlərin birində Mollanın yanına gəlib sorallar:
- Molla dünyanın axırı nə vaxt olacaq? Yəni qiyamət nə vaxt qopacaq?
- Hansı qiyamət?

Molla, nezə qiyamət var ki?
- Molla:
- Təbii ki, iki. Qarım ölərsə kiçik qiyamət, mən ölərəmsə böyük qiyamət.

## SƏNƏ NƏ?

Gəvzənin biri Mollaya sataşmaq üçün deyir:
- Bir qazan dolma apardılar.
- Mənə nə?
Gəvəzə:
- Zənn etdim sizin evə apardılar.
Molla:
- Sənə nə?- deyə gəvəzəni susdurar.

## BATANİYYƏ GETDİ, İŞ BİTDİ

Molla oturub evdə, saux gecədi. Yağış yağırdı. Bu halda çoladan səs, havar gəldi. Molla bataniyyəyə çuğlanıb çıxdı yazıya. Çığmağiydən o yannan xerxızın birisi gəldi, bataniyyəni çəkdi, getdi. Bu səfər Molla havar qopardı. Amma çoladan bir bəşər səsi gəlmədi. Molla döndü yevüə.
Arvadı sordu:
- Kimdi, nədi, xeyirdi?
Molla:
Eşitməmisən vaxtsız gələn ya xerxaz olı, ya xersiz. Bu qəvad xerxız çıxdı.
Batiniyyə getdi, iş bitdi.

## ALLAH VAR Kİ?

Bir gün molla oturupdı yevində. Bele də yağışdı... bele də yağışdı, dünyanı duman qaldırıp. Mollanın yevi də yüz qamışdandı, damırdı. Bu da çarəsi qalmadı. Diyər: Gedim Allahın evində oturum. Gələr, baxar məsciddə də axırı. Biri də əlində bir təsbeh oturupdu. Zik edirdi. Molla bunı görər, çox əsəbi olar. Diyər:

- Sümügü ağır köpək oğlu, allah var ki, zik edirsən. Öz evində də qoymır otırasan.

## ƏŞŞƏGİN QAZI OLUP

Bir gün də Molla ükü üklər əşşəginə, gidər dəgirmana. Əşşəg yolda yükü atar qaçar. Əşşək qazar. Molla qaçar. Molla qaçar, eşşək qaçar. Olaşmaz əşşəgin ardıyca. Dönər məmləkətə. Diyər:- Əşşəgimi görmüyübsüz, camaat?

Diyillər vallah görməyibıx. Biri gülməx üçün diyər:

- Molla!

Molla diyər ha!

Diyər: əşəgin filan məmləkətdə qazı olup. Molla diyər: İnandım. Mən məsciddə dərs deyəndə eşşək hər vaxt qulaqlarını digər, dinlərdi.

## ƏNSƏMCƏ GƏ

Bir gün Mollanın evinə xerxız ənər. Mollanın xəbəri olar. Sükuta çəkər, sələşməz. Xerxızlar bütün işlərini gürənnən sora çıxallar yayıya. Molla baxar evdə bir şey qalmadı. Qalxar evin qapısın çıxardar, dalına alar. Deyər: arvad ənsəmcə gə. Başlallar xerxızların arxasınca yerimağa. Xerxızlar dönüllər geriyə, görüllər özlərini

- Molla, nə di bu?

Diyər, iştə evimiz eviyizə köçmüri? Mən də gəlləm siziydən. Mollanın gəlməsi xerxızların xoşlarına gedirdi. Qaytarıllar əşya-məşyanı geriyə.

## CİGƏR TƏRİFNAMƏSİ

Bir gün Molla qəssabdan cigər alır. Lakin onu necə bişirməyi bilmirdi. Yolda dostlarından birinə rast gəlir.

Dostu cigəri ləzzətli bişirmək üçün nə lazım olduğunu kağıza yazıb Mollaya verdiyi vaxt it cigəri Mollanın əlindən qapıb aparır.

Molla təlaş keçirmədən əlindəki kağızı göstərərək:
- Apar, ama ağız dadı ilə yeyə bilməzsən. Onun tərifnaməsi məndədir.- deyir.

## XÜLYADAN QOXU ALIRLAR

Mollanın ürəgi sıcaq bir şorba istər. Ah, indi önümə nanəli bir şorba gələ idi. Necə içərdim özünü- deyərək, xəyala dalır. Bu arada qapı çalınır. Molla baxır ki, qonşunun oğlu əlində bir qapalı kasa. Molla sevinər:
- Nə istəyirsən, üvladım, yoxsa bir şeymi gətiribsən?
—Əmmi, anam xəstədi. Bir az şorba istəyir —deyincə.
Molla:
- Bizim qonşulardan olmaz. Xülyadan da qoxu alırlar- demiş.

## ƏCƏMİ BÜLBÜL

Gəncliyində Molla qonşuların meyvə ağacına çıxıb rahat-rahat meyvə yeyər. Necə olursa bir az sonra bağça sahibi gələr baxırı Molladı, dalda oturub meyvə yiiri.
- Hey.. yuxarıdakı kimdir?
- Mənəm, bülbüləm. Buraya ötmək üçün gəldim deyərək oxumağa başlar.
Bağ sahibi:
- Bu nə oxumaqdır?
- Nə olacaq. Bağ sahibinin qorxusunnan ürəyi düşən Əcəmi bülbülü belə oxuyar- deyə Molla cavab verər.

## ÖZ AĞLI İLƏ BİLDİ

Mollanın beş- altı yaşlı bir oğlu vardı. Hər yanda Molla onun ağlından danışırdı.
Bir gün Mollanın dostlarından biri badımcanı göstərərək:
- Bu nədi- demiş.
- Nə olacaq. Gözü açılmamış sığırçın balası.
Molla:
Vallahi dostları, bunu mən deməmişdim. Oğlan ağıllıdır. Üz ağlı ilə bildi- demiş.

## İNSANLIQ

Bir gün Mollanın eşşəyini qurt yemiş. Mollanı görüncə yoxuş yuxarı dırmanmış. Bunu görən bir nəfər:

- Qurd, qurd —deyə qışqırmağa başlamış.

Molla:

- Nə qışqırırsan- demiş. Burax, tox qurt yoxuş yuxarı zəhmət çəkmədən çıxsın.

## ÇÖL QUŞLARI

Molla bir sıcaq gündə eşşəginə minib yol gedirdi. Bir gölə olaşanda fəna halda susmamış heyvan gölü görüncə qaçmağa başlamış. Molla az qala düşcəkdi. Bu vaxt göldən bir qurbağa görünmüş. Eşşək hürküb geri çəkilmiş.

Molla cibindən bir ovuc para çıxarmış və gölə səpmiş.

- Afərin, çöl quşları. Bu paraya halva alın yeyin- demiş.

## SIĞIRIN SUÇU

Bir gün Mollanın tarlasına bir sığır girər. Molla əlinə bir zor ağac alır. Amma sığır qaçır. Bir həftə keçəndən sora Molla bir köylüyün arabasında qoşulu sığırı görüb tanıyır. Əlinə bir dəyənək alıb onu döyməyə başlar. Sığırı nə haqla vurursan?- deyə sorunca, Molla:

- Sən ağlının çatmadığı şeyə qarışma. O, suçunu gözəl bilir demiş.

## ONUN ÜSTÜ BİZDƏN KİRLİDİ

Günün birində Molla arvadı ilə göl başına cəmaşirə gedər.

Qara bir quzğun sabunu qapıb gedər.

- Amma, yetiş. Sabunu quzğun apardı.

Molla:

- Ay arvad, nə qiyamət qoparırsan. Varsın alsın. Onun üstü bizdən kirlidi.

## SİZ MƏNİ NİŞİN KEÇİRƏ BİLMİRSİZ

Bir gün Molla özünü ölmüşlüyə vurar.

Diyər- baxım məni kim çox sevir. Kim ağlayacaq. Bilməm nə.

Səs yayılır. Molla öldü. Adamlar yığışdılar. Aparıllar özünü məscidə və oradan aparsınnar məzarlığa. Mollanı qaldırıllar arxalarına. Məscidin qapısı bir az dardı. Kesirə bilmillər. Fəzlə çalışıllar.

Molla dözməyib deyər:

- Baba, mən hər gün bura namaz qılmağa gəlirdim. Bu qapıdan keçirdim. Siz məni neçin keçirə bilmirsiz?

## GET HAQQIMI AL

Bir gün Molla bazarda yerirdi. Bir dənə itələr özünü. Molla da onu itələr. Belə olan halda Mollaya bir zillə çalar.

Qorxmurdı. Qazının qohumuydu. Molla çarəsiz qalır. Gedər qazı yanına. Diyər: sənin filan qohumun mənə bir zillə çaldı. Qazı aşağı baxır bığdı, yuxarı baxır saqqal. Diyər get sən də ona bir zillə çal. Molla razı olmaz. Qazı çağırar, diyər. Get mənim filan qohumum çağır. Onu zindana sallam.

Polis gedər daa gəlməz. Bilir qazı aldadır özünü.

Əlini qaldırmağı ilə qazının boynuna bir zillə çaldı.

Dedi:

- Get haqqımı alginən. O, mənə çaldı. Mən də sənə.

## BASGINAN HOVUZA

Bir gün mollanın arvadının könlü çüküntür aşı istər.

Diyər:

Molla mən əlbəsə yaxıram. Get bazardan çüküntür al.

Diyər:Zalım qızı, zalım, mən nə bilim çüküntür necədi?

Dedi: Altdan qırmızı, yuxarıdan yaşıldı. Molla gəldi bazara. Baxdı bir seyid əynən arvadı deyən kimi aşağıdan qırmızı, yuxarıdan yeşil geyib. Dedi:

-Vallah arvadım sizi istiri.

Gətirdi seyidi evə. Dedi: Arvad gətirdim istədiyini. Arvad da oturub hamamlıxda əlbəsə yaxırı.

Dedi: gətirdin, basginən havuza.

Molla seyidin iki ayağını qaldırmağıydan basdı hovuza.

Seyid bir fizzəh etdi.

Arvad çıxdı, baxdı baba, bu nə yapıb. Dedi: Köpəy oğlu, dedim seyidi gəti, ya çüküntür?

## YAXANDAM ÖLMƏDİ, SIXANDAM ÖLDÜ

Molla pisgini çox sevərdi. Pisigi bir gün kirri olar. Gətirər özünü bulaq başına. Əlində sabun başlar pisigi yaxamağa. Qış günüdü, sauxdı. Ordan bir dənə kiçər.

Diyər: Molla, nə edirsən?

Bu pisigi yaxıram.

Diyər: ölər, axı sauxdı.

Molla diyər: ölməz. O deyər ölər, Molla deyər ölməz. Ölər. Ölməz. Az qalır savaşsınnar.

Adam gidir öz işinə. Dönəndə görər pisig ölübdü.

Diyər: Nişin yaxadın pisigi, demədim ölür?

Molla diyər: Yaxandam ölmədi, sıxandam öldü.

## EŞŞƏYİN YEMİİNİ SƏN VERƏCƏKSƏN

Molla ilə arvadı arasında eşəgə yem vermək üstündə qavğa düşür.

- Eşşəgə sən yem verəcksən!

- Xeyr, sən verəcəksən!- Deyə arvad səs saldı.

Nəhayət Molla bu təklifi irəli atdı. Kim qonşsa eşşəyə yeməgi o verəcək.

Qadın bu təklifi qəbul etdi. Lakin sonra qonuşmadan dura bilməyəcəyini anlayınca qonşuya getdi. Evi səssiz görən bir xer-xız evə girib əşyaları çaldı.

Bir müddətdən sonra evə dönən arvad qışqırdı:

- Eyvay, evi Kim soydu?
Molla da yerində qışqırdı:
- Haydı, get eşşəgin yemini ver!

## PARIYI VERƏN DÜDÜGÜ ÇALAR

Molla bazara gedəndə məhəllə uşaqları düdük istəmişlər.
Molla:
Eyidi, olur, başım üstə, gözüm üstə- deyə onnarı başınnan savmış. Bir uşaq isə düdük almaq üsün para vermiş.
Molla bazara getmiş, işini görmüş, axamüstü məhəlləyə dönüncə ətrafını uşaqlar sarmış:
- Molla, hanı düdügüm?
Molla para verən uşağa bir düdük uzadarq deyir:
Evladlarım, parayı verən düdügü çalar.

## QIRX İLLİK SİRKƏ

Mollanın qonşusu:
- Molla sizdə qırx illik sirkə varmış. Arvadım xəstədir.
Bir az ondan ver.
Molla vermək istəməmiş. Qonşusu səbəbini soranda Molla demiş:
- Əgər o sirkəni ona-buna dağıtsaydım qırx ildən bəri sirkədən əsər- əlamət qalmazdı ki. ..

## KÜRKÜN İÇİNDƏ OLSAYDIM

Bir gecə Mollanın yuxusu qaçmışdı. Çubuğun doldurup açıq pəncərədən bağçasını seyr etməyə başlamış. Birdən ağacların arasında dev boyda bir adamın qollarını gərib durduğunu görmüş, qorxudan dizləri əsmiş, zənn etmişdir ki, bu adaməkə Mollanı öldürməyə gəlib. Yay və oxunu gətirməyiynən oxu adməkənin qarnından keçirirər. Qorxudan qaçıb girər yerinə. Bataniyyəni də çəkər başına. Molla gecəni yatmaz. Sübh çağı gözünə yuxu gedər.
Elə bu vaxt arvadı haray salar.

- Molla qalx. Dün kürkünü yəxəyib qurumaxçın bağçada asmışdı. Bax, gecə bağçada xorinin biri kürkü nə hala salıb.

Molla gözünü açıb şükr edər.

Molla, annat bizi. Biz də bu şükürün adını biləğ?

Axmaq arvad, oxun açdığı dəligi görmürsən? Kürkün içində olsaydım nə olurdu halım?

## MOLLANIN MÜKAFATI

Bir gün Molla təzə-təzə əriklərdən Teymurləngə pay aparır. Temurləng ərigi xoşlamırmış. Mollaya mükafat verir.

Bir neçə vaxt sonra Molla mükafat almaq üçün padşaha təzə çüküntir aparır. Yolda dostlarından biri qoymur mollanı getsin:

- Molla, çüküntir aparmaq ayıbdır. Bir üç-beş gün gözlə əncir bişsin əncir apar.

Molla həmən bir səbət dərib yola düşür. Düşünür ki, heç mən bilməm əncirin kalı nə, bişmişi nə. Temurləng nə annırı.

Teymurləng Mollanı ədəb- ərkanla qarşılar.

Əncirlərdən birin ağzına qoyar qoymaz halı dəyişir. Əmr edər bütün əncirləri Mollanın başına vursunnar. Molla hər zərbədən sonra başını-üzünü tutar. Tanrıya şükr edər. Temurləng şükr etdiyini sorunca:

- Bir xeyli çüküntir gətirirdim. Əgər inad edib gətirməkdən vaz kezməsəydim sənini səxavətinnən başımnan, gözümnən xer görməzdim-demiş.

## ALTI BARMAQLA YEYƏRDİM

Bir gün Molla bağçada oturub iştaha ilə plov yeyərmiş. Yoldan keçən birisi bunu görür. İstəyir ki, Molla onu da plova dəvət etsin. Nə etsin? Deyər:

Molla, plovu niyə beş barmaqla yeyirsən?

Molla:

- Qurtarıb. Yoxsa altı barmaqla yeyərdim- deyir.

## BAŞQALARININ EVİNİ NİYƏ YIXIRSAN?

Günlərin birində Mollanın parasını çalırlar.

- Ya rəbbim, sənin nəyə ehtiyacın var idi paranı çaldırdın- deyə fəryad edərək məsciddə gəlir. Sabaha qədər Paranı qaytarmasan evini başına uçurdacam. O günlərdə bir gəmi xilas olmuş məsciddə Mollaya para verəcəklərini vəd etmişlərdi. Onlar mollanın məscidə görüb ona para verdilər:

Molla:

Ya rəbbi, öz evinin dağılmağından qorxursan. Bəs başqalarının evini niyə yıxırsan?- deyir.

## AXIR ZAMANDI

Mollanın bir quzusu vardı. Arxadaşları yığışdılar. Necə etsinlər bu quzunun başına yatsınlar.

Gəlillər Mollanın yanına.

- Molla, bir quzu nədi? Yarın, bir gün axır zamandı, kəs özün boynuydan elə.

Diyər olmaz. Nəysə Mollanı dilə tutullar. O da razı olur.

Harda kəsək bu quzunı?

Baba, diyəllər: Güzəl hava, güy zəmənnik. Irmağın kənarında kəsək quzunı.

Molla, sən bişir, biz də bir az çimax. Əlbəsələrini də soyunub bir kənara qoydular. Kefləri asimandadı. Mollanı aldadıplar.

Molla əlbəsələri toplar, qoyar qazanın altına, hətta quzu bişsin.

Olar da gəlilər əlbəsələrini girsinnər, quzını yesinlər. Baxallar əlbəsələləri yoxdı.

Diyəllər, Molla hanı əlbəsələrimiz?

Deyər: Vallah, qoydum qazanın altına quzunu bişirdim.

Diyəllər: Molla, bu olan işdi? Bəs biz neləğin?

Diyər: Yarın axır zamandı neynisiz əlbəsəni?

## BU BİLƏR MƏN HA ZAMAN ÖLLƏM

Bir gün Mollanın arvadı diyər:

- Molla, əkmək yapıram, odunumuz yox. Bilmirəm nedəğin...

Molla da çıxar tut ağacına. Altdan kəsir də özü baltaynan, yuxarıda oturup. Oradan bir dənə keçiri. Diyər:

- Molla, axırı düşərsən sən.

Molla diyər:

Get yoluna. Ağlın çatmıyana qarışma.

Adəməkə gedər. Molla dalı kəsdiyiydən zırpıldar aşağıya. Leşi orda qalır, ağac orda qalır.

- Vay diyər, bu bilər mən ha zaman ölləm. Qaç, qaç, qaç, qaç ənsəsicə. Qaçar olaşar adaməkəyə.

Diyər: Madam bildiy mən düşərəm, bilisən də mən ha zaman ölləm.

Ey... Diyər adaməkə babam iştə məlum bir şeydi bu. Sən altdan kəsisən, üzərində də oturupsan, işti düşərsən..

Molla diyər: Olmaz. Bilisən mən ha zaman ölləm..

Adaməkə diyər:

İştə əşəgin hər zaman üç kərə anqırdiysə onda ölüsən.

Vaxt keçdi. Bir gün Molla əşşəgə buğda yükləyib dəgirmAna gedirdi. Əşşək bir-iki anqıranda Molla diyər: Göbəkdən gettim. Üçüncüdə özün salar yerə. Diyər: mən bittim. Ordan bir qurd gələr, əşşəgi parçalar.

Molla diyər: A qavvadın qurdı. Mollanın canı diri olaydı, sən də onun əşşəgini belə yiyəydin.

Qurd mollanın səsini eşidib qaçar:

Molla: Qaçma, parçala özünü. Məni bu günə qoyanda o bilmirdi aqibəti belə olar?- deyər

## İNANMIRSAN GET SAY?

Bir gün bir dənəsi Molla Nəsrəddini yolda tutar:

- Molla, asimanda neçə yıldız var?

Molla diyər:

- Vallah eşşəgimin canında nəğərə tük variysə oğarta yıldız var.

Diyər:

- Molla, bu necə olı?
Molla diyər:
İnanmırsan get say.

## DEMƏDİN QAPIYA MƏĞƏYƏT OL?

Bir gün Molla yevdəydi. Arvadı diyər:
- Gedirəm babamgilə, qapıya məğəyət ol.
Molla görü gəlmir. Axşam olı.
Qapını arxasınca alı, gidər arvadının ənsəsiycə. Arvadı Mollanı görüncə diyər:
- Noldu, hara gəlipsən qapı çiynində?
Molla diyər: Demədin qapiyə məğəyət ol?

## SƏN GECƏ NƏ TAPACAXSAN?

Molla Nəsrəddingilin yevinə xerxız ənər. Molla oyanı. Baxır bir dənə axtarır yevi. Ama bir şey də tapmaz. Çıxıb da getməz.
Molla:
Baba, mən gündüz- günorta yerində bir şey tapmıram. Sən gecə nə tapacaqsan?- deyər.

## BU İL ALTMIŞ OLDU

Ramazan ayında Molla gündə bir daş atarmış küp içinə. Hətta bilsin ay nə vaxt tamam olı. Oğlu görər babası gündə bir daş atırdı. O da daş atar o küp içinə.
Bir gün sorallar: Molla, ayın neçəsidi?
Gəlir sayar, sayar, sayar, baxar yüz iyirmi daş var.
Diyər həpsin desəm məni ələ salallar.
- Vallah, diyər bu gün Ramazanın altmışıydı.
E... diyəllər: Molla, Allah əhv etsin babayı, özü Ramazan otuz gündü. Necə oldı altmış?
Molla:
- İştə mən azaltdım günnərin sayını. Əgər küpdəki daşlara qalsaydı bu gün Ramazanın yüz iyirmisi olurdı.

## ÜLMÜŞ ADAMI NECƏ BİLİSƏN?

Molla bir gün arvad alar. Arvadının ağlını yoxlamaq üzün sorar:

—Ülmüş adamı necə bilisən?

—Üzünnən sorram —deyə arvad cavab verər.

## OD-ALOV ZIXARMAZDI

Molla bir gün bərbərdə təraş olunurdu. Ustra korza olduğunnan Mollanı incidir. Odur ki, Molla:

—Həcci, bu ustra poladdandı, ya dəmirdən?

Ustra da hez dəmirdən olur?

Molla:

—Mən də belə düşünürdüm. Həcci. Poladdan olmasaydı üzümdən belə od-alov zıxarmazdı.

## ƏT NƏ OLDU?

Molla işə getməzən əvvəl üz hoqqa ət alıb axşama yemək bişirmək üzün arvadına verər. Qonşular Molla gəlincə əti bişirib yeyəllər.

Axşam üstü arvad Mollanın qabağına bamiya aşı qoyar.

—Əti bişirməyə vaxt olmadı?

—Molla, əti pisik yedi.

Mollanın qafası qızar. Kirli-pasaxlı, pis-pinti arvad üz hoqqa əti pisik nanca yedi-deyib pisigi tutar və tərəzidə zəkər. Pisik üz hoqqa gələr.

Molla:

—İnsafsız qadın. Əgər bu ətdirsə bə pisik hanı, yo əgər pisikdirsə bə ət hanı? —demiş.

## KEZİNMƏYƏ KÜNLÜM YOX...

Molla arvadını boşamaq üzün məhkəməyə müraciət edər.

Hakim Molladan arvadının adını soranda “bilmirəm” cavabını alır və mat qalır.

— Hezə ildir evlisən?

— Qırx il evli olan arvadının adını bilməz?

— Nə edim üzüylə kezinməyə künlüm yox ki, adını da soram.

## YÜNG ƏKİM

Molla bir gün yol kənarındakı məzarlıqda dolaşarkən necə olmuşsa azıq bir qəbrin izinə düşmüş.

— Baxım hinkir-minkir gələcəklər! — deyə düşünərkən qulağına səs-küy gəlmiş. Bu səslərin o biri dünyadan gəldiyini zənn edən Molla qorxmuş, qəbirdən zıxıb qazmış. Yolda sıra ilə kezməkdə olan fincanzı qatırlarını hürkütmüş. Qatırlar bir-birinə qarışmış, fincanlar pul-pul olmuş.

Qatırzılar Mollanın üzərinə yeriyib:

— Xeersiz adam, sən kimsən? — Nərədən gəlisən?

Qorxudan dili tutulmuş Molla:

— Mən o dünyanı seyrə zıxmışdım.

— Sənə o dünyanı güzəlcə seyr etdirərik — deyib Mollanı tox zalmışlar. Zavallının başını yarmışlar. Üzünü zorla evə zatdıran Molladan sorurlar:

— Bu nə haldır, haradan gəlisən?

— O biri dünyadan — deyə Molla cavab vermiş.

— O biri dünyada nə var, nə yox?

– Fincanzı qatırlarını hürgüzməsən, bir şey yox — demiş.

## YAŞ MƏSƏLƏSİ DEYİL Kİ?

Bir qonşusu qaza-qaza Mollanın yanına gəlmiş.

— Aman, Molla əfəndi, bizim arvad ilə bacım fəna halda qovğaya tutuşublar, mən bir şey edə bilmədim. Yetiş!

Molla kefini pozmadan:

— Qovğanın səbəbi nədir? Yaş məsələsi deyil ki?

—Xeyr, başqa bir məsələdir.

—Elə isə təlaşa hacət yox, get evinə. Zənn edirəm indiyə kimi barışmış olullar.

## KÖNLÜMÜ İNCƏLDİB DƏ ÜZMƏYİN

Molla qazı olarkən iki gözəl xanım onun hüzuruna gəldi. «Aya deyir sən bat, mən çıxım, günə deyir sən çıxma, mən çıxım. Xanımlar bir- birindən şikayətə başladılar

Onlardan biri:

- Qazı əfəndi, mən bu xanıma bir cəmaşir ipi ismarladım. O isə bax, mənim bu saçdarım kimi incə bir ip göndərdi. İndi paramı qaytarmır.

- Xeyr, əfəndi. Doğrudur mənim göndərdiyim ip barmaq yoğunluğunda idi. Yoxsa, xanım mənim biləklərim yoğunda ip istəyir.

Xanım incə barmaqlarını və qar kimi ağ biləklərni Mollaya göstərdi.

Molla: yer-göy xatirinə xanımlar, bu ipin incəliyini, qalınlığını elə göstərin ki, mənim bu zəif könlümü incəldib də üzməyin.

## NAMUS MƏSƏLƏSİ

Molla bir gün əlinə bir iplik alıb əkdiyi bostanın ətrafına mıx çaxaraq hasar yapırdı. Oradan keçən birisi:

- Molla nə yapırsan? Belə kiçik hasar olar? Bu hasar xırxızları, ac yolçuları necə saxlaya bilər?

Molla:

- Əfəndim, iştə bu namus nişanəsidir. Namussuz olanlara nə təkin divar tiksəm də fayda verməz. Namuslu olana bu da çoxdur.

İştə bu namus məsələsidir.

## AYI DA QUYUDAN ÇIXARDIQ

Aylı bir axşam su çəkmək üçün Molla quyuya gedər. Quyunun qapağını açar. Bir də nə görsün? Ay quyunun dibində. Qarısını səslər. Çəngəli bura gəti.

Qarı gətirir zəngəli. Molla çəngəli quyuya atırı. Sallırı, sallırı ayı tuta bilmiri. Nəhayət, necə olusa çəngəl bir Daşa taxılır. Molla qüvvətlə çəkər özün. Çəngəl qopar. Molla arxası üstə yerə düşər. Zox əzilər. Səmada gözü aya toxunar. Ah, çox şükür deyər.

- Düşdük, əzildik, ama ayı quyudan çıxartdıq.

## DƏGİRMAN HEYVANNARI

Molla bir gün şəhərə gələr. Baxar büyük, gözəl bir binadır. Binanı seyrə dalar. Qapı ögündə dayanan gəncdən Molla sorar:

- Bu, möhtəşəm bina nədir?

Gənc bu adəməkənin qərib olduğunu bili. Əkləncə üçün diyər:

- Bu dəgirmandı, dəgirman.

Molla baxmaz bu gənc dəliqanlıdır.

- Əcaba, bu dəgirmanda çalışan heyvannar da bina kimi böyükmü?- deyər.

## ƏR KİŞİNİN SÖZÜ BİR OLAR

Bir gün Molladan sorallar:

- Molla, neçə yaşın var?

- Qırx- deyər.

Aradan bir neçə il keçər. Molladan bir daha yaşını sorallar:

Molla yenə də yaşının qırx olduğunu deyər.

- Bu necə olur, Molla? Aradan illər keçdi. Yenə də qırx yaşın oldu?

Molla:

—Ər kişinin sözü bir olar.

## KEÇ İGİDİM, KEÇ

Bir gün Molla məzarlıqda gəzərkən bir köpəgin qəbrin üstündə durub acıqlı- acıqlı ona bağdığını gördü.

- Zənn edirəm sən məzarlığın ağası deyilsən deyərək Molla ağcını götürüb köpəyə tərəf getdi.. Köpək qorxusundan arxay-arxay çəkilərək:

- Keç igidim, keç. Ağa olduğunu annadım- deyər.

## GÜNAH İŞİM YOX

Bir gün Molla Nəsrəddin əşəgə tərsinə minib məscidə dərsə gedərkən o birisi mollalar:

- Molla əfəndi, əşəgə niçün tərsinə minib rahatsız olursan?

- Molla:

- Əgər düz minsəm siz mənim arxamda qalacaqsınız. Siz ögdə gedəcək olsanız, mən arxada qallam.

Mən sizinlə üz- üzə gəlməkdən çəkinməm.

## KİMİ O YANA, KİMİ BU YANA GEDİR

Bir gün Molldan:

- Molla, dünya təməldən gedib.

- Sabah olunca gənclər, kimi o yana, kimi bu yana gedir.

Bunnar evdə oturmullar. Bir iş görmüllər.

Molla:

- Onnar sən deyən qədər də kötü döyüllər. Əgər hamısı bir tərəfə getsələr, dünyanın müvazinəti pozulardı, məhv olardı. Şükr elə ki, kimi o yana, kimi bu yana gedir.

## SƏNİN KİMİLƏRƏ MÖHTAC OLMAMAQ ÜÇÜN

Bir gün xəsis kimsələrdən bir deyər:

- Molla hamı məni xəsislikdə günahlandırır.

Paranı sən də sevirsən, fəqət nədən?

Molla:

- Ondan ki, para adamı sənin kimilərə möhtac olmaqdan xilas edir.

## SOL AYAĞIMIN ƏBDƏSTİ YOXDU

Bir gün Molla namaz qılmaq üçün əbdəst alır. Bir ayağına su çatışmamış. Odur ki, qaz ayağı kimi bir ayağı üstə namaza durmuş.

- Molla, nə yapırsan?- deyə soranlara:

- Sol ayağımın əbdəsti yoxdur —demiş.

## UTANDIĞIMDAN GİZLƏNDİM

Bir gün Mollanın evinə xırxız enər, Molla pərdənin arcxasında gizlənər. Xerxız evin içini, dişini aramış, işə yarar bir şey bulmamış.

Bir sırada əcaba, burada bir şey varmı deyərək pərdəni açmışam. Baxmışam ki, Molla dimdik durub. Birdən şaşırmış və ah, sən burda imişsən?

Molla:

Əvət- demiş. Çalacaq bir şey olmadığını bildigimdən, utandığımdan gizləndim.

## TUTSA MOLLANIN KEFİNƏ BAX

Bir gün Molla bir az yoğurd mayası almış, mayanı götürüb gölün kənarına getmiş. Mayayı gölə atmış.

- Adaməkənin birisi bunu görmüş və Molla, nə yapırsan demiş.

Molla:

- Gölə yoğurd çalıram.

Adəməkə:

- Molla, göldə yoğurd tutarmı.

Molla:

- Mən də billəm tutmaz. Amma tutsa gəl mollanın kefinə bax.

## MOLLANIN OVU

Günnərin birində Molla bir av quşu ala və bəslər özüzün. Vaxt keçər, gedər ava. Qapıdan çıxar- çıxmaz quş uçar əlinnən. Quş gedər bir inəgin başında qonar. Molla gidər inəgi sürməğə yegvüə. İnəgi hara aparısan. Axı inək mənimdi.

Molla diyər:

- Yeri işəvüzə, yevü xarab. Mən bu qışı iki ildi bəslirəm, mənimçün bir av edib. Paxıl olma, qoy aparım özün.

## EŞƏLƏMƏ QOXUSI ÇIXAR

Bir gün Mollanın parası yoxdu. Gələr arvadına diyər:

-Bir çini yoğurd elə aparım satım özün.

Diyər:

- Molla, süd azdır. Bir çini yoğurd nanca olsun?

Molla diyər:

- Altını zibil elə. Bəs üzərinə bir parça yoğurd elə.

Arvadı diyər:

-Molla, bu heç olan işdi?

Molla:

- Arvad , sən əlinin xəmri ilə kişi işinə qarışma. Mən billəm nə edirəm.

Sabah molla çinnini alı, əlinə, oturu bazarda. O gəli, diyər Molla bu nədi? Bu gəli, deyər Molla bu nədi?

Diyər:

-Görmürsüz yoğurtdu satıram özün.

Bir dənə istər əlin vursun. Molla diyər:

- Eşələmə qoxusı çıxır... Adəməkə annamaz.

Bu çinin yoğurdı alı, aparır yevüə.

Arvadı istər boşaltsın. Baxar altı hamısı zibil çıxdı.

Diyər:

- Sən nə alıpsan? Para xəsirə getdi. Get paravu al Molldan.

Bu da gəlir Mollanın yevünə.

Diyər: Molla, Paranı ver.

Diyər: Nə para?

Diyər: sən mənə nə veripsən həpsi zibil çıxdı.

Molla diyər:

- Səniy ağlıy var? bə mən demədim eşələmə, qoxusu çıxar?

## MUTLU GÜNÜN UNUDULMAZ XATİRƏSİ

Günnərin birində Molla qərib bir göyə gedirdi. Yolda iki adaməkəyə təsadüf etdi. Mollanın qarşısında dikilərək onu soyub soğana çevirdilər. Molla səsini belə çıxarmadı. Yalnız isimlərini sordu:

İsmimizi nə yapacaqsan?- dedilər.

Bu mutlu günün unudulmaz xatirəsi kimi zehnimdə saxlayacağam.

- Səncə bu mutlu bir işmidir?

Bəlkə xoşlarına getdi. Əlbəsəmi qaytardılar deyə düşünən Molla fəlsəfəsini işə saldı.

- Bəli, siz məni işə salmaqla məni ağır bir yükdən qurtardınız.

- İsmimiz Ramazan və Bayramdır.

- İsmimiz zehnində əbədi qalsın dedilər və Mollanı tox döğdülər. Molla göyə çatanda qürub çağı idi. Xax məsciddə idi. Molla da ora getdi. Təsadüf elə gətirmişdi ki, Ramazan başlamışdı. Biri minbərdə durub Ramazan və Bayramın fəzilətlərindən qonuşurdu.

Molla: Buraxın canım. Ömrümdə onlardan kötü kimsə görmədim. Əlbəsələrimi soyub apardılar. Üstəlik məni tox çaldılar.

## MƏNDƏ ŞƏKƏR YEYƏCƏK DİŞMİ QALIB?

Dəliqanlı gənc:

- Nənə, qoşumuz ismarlayıb. O da kimsəsiz qalıb yevdə. Səni istiri. Necə bilirsəy, elə də et. Əgər getməsən, gəlin səni gözü üstə saxlar. Mən isəm səni şəkər-noğul içində bəslərəm:

- Ah oğlum! Məndə şəkər yeyəcək dişmi qalıb?

## CƏSUR ADAM

Birisi arvadı ilə həkimin otağına girdi və sordu:

- Dişi neçəyə çəkirsiniz?
- İynə vursaq bir dinara, iynə vurmacaq yarım dinara.
- İynə istəməz.
- Afərin, cəsur adamsınız.
- Ona şübhə yox- deyib adaməkə üzünü arvadına tutdu:
- Otur kürsüyə və ağzını geniş aç.

## AYDINDIR

Gənc və təcrübəsiz doktor çox çalışdı, xəstənin dərdini anlamadı. Bir qərar verə bilməyəcəyini anlayınca xəstədən sordu:

- Siz əvvəllər xəstəliyə tutulmuşdunuzmu?
- Bəli.

Gənc doktor dərin bir nəfəs alıb:

- Aydındır, o xəstəliyə bir daha tutulmuşsunuz. Əvvəl içdiyiniz dərmanlardan için- demiş.

## QƏSSABLAR HEYVANI ÖLDÜRMƏDƏN DƏRİSİNİ SOYMAZLAR

Cərrah xəstə üzərində ağır əməliyyatı başa çatdırıb üzünü təcrübəyə gələn tələbələrə tutdu:

- Məni qəssaba bənzədirsiniz, eləmi?

Tələbələrdən biri:

- Xeyr, doktor əfəndi. Qəssablar heyvanı öldürmədən dərsini soymazlar.

## BİR ŞİKAYƏTİM YOXDUR

Kiçik bir şəhərə işə göndərilən gənc doktor axşamçağı məsləhətxanasında oturub müştəri gözləyirdi. Bu vaxt qapı çalınır.

Doktor:

- Giriniz deyər və o saat telefon turubkasını götürər. Siz əyləşin əfəndim, xəstələrimdən biri ilə qonuşuram. Amma, əfəndim, bilirdim yazdığım əlac sizi bir gündə dipdiri edəcəkdir. Bundan sonra bir də xəstələnməyəcəksiniz və s. sözlə dedi.

Nəhayət telefonu qoyub yeni gələnə üzünü çevirdi:

- Buyurun əfəndim. Şikayətiniz nədi?

Adam çaşqın- çaşqın bir doktora, bir də xəttə qoşulmamış telefona baxıb:

Mən telefon idarəsindən sizin şikayətinizlə telefonunuzu xəttə qoşmaq üsün gəlmişəm. Ayrı bir şikayətim yoxdur- dedi.

## XƏSTƏ NƏ İLƏ TƏRLƏDİLİR

Tibb fakültəsində imtahan zamanı müəllim tələbədən sorar:

- Tələbə xəstəni tərlətmək üçün tibbin tövsiyə etdiyi tədbirləri sayıb dayananda:

Daha nə, başqa nə- deyərək hər dəfə tələbə dayananda müəllim eyni sualı təkrar etmiş.

Nəhayət tələbə o qədər darılmış ki, əfəndim- demiş, şayət dediklərimlə tərləməsə xəstəni imtahana gətirərəm. İmtahanda bir tox tərlər- demiş.

## RƏHMƏTLİK NƏ VAXT ÖLDÜ?

Bu qız qalxdı onki əkməg yapdı. Otuz yumurta bişirdi. Bunu bir yağlığa qoydu. Babasın əlinə verdi üzün. Baba taptı bu oğlanı. Buları verdi. Yolda bir əkmək, yumurtalardan üş dənə yiyipti. Bu aztı, baxtı, gürdü ombir əgməgti, girmi yeddi yumurtadı. Dedi, - Əmmi, iliiz onbir aydı, ayıız girmi yeddi gündü?

Qız dedi: baba, bir əkmək, üş yumurta yeyipsən.

Dedi: - hə.

Qız fəzlə sevdi oğlanı, istədi gürsün üzün. Babasın gündərdi, oğlan dalınca. Oğlanı getti baba buldu. Oydu, gəldi oğlan. Qız - xalza saldı oğlanzın. İstiri oğlanı. Ama qızın güzündə zarpazlıx var. Qaxtı manı gəlməsinnən sorsun oğlannan qızı istiri, yox? Dedi, Cisirə bax, cisirə. Üzün gürpüyə bənzətti. Oğlan baxtı gürdü qızın bir güzü yatıxdı. Dedi: Zisir iyi zisirdi. Ama nərdivanı nüqsandı.

Qız dedi: - Əgər cisir iyi cisir olsa, nərdivanın nüqsan olmağının qiyməti yoxtı.

Orda qaxtılar igisi biri-birini sevsin. Gettilər molla yanına, hətta gəbin gəssin. Sora oğlan bir dairədə işlədi. Katib kimi bir şey oldı. Bu oğlana hər gün arvadı iyi baxır. Oğlan dairədə həppidən iyi işliri. Rəyis dairə bunun səbəbin bildi. Sordu ordan-burdan dedilər arvadı fəzlə iyidi.

Dedi: - gedər yoxlaram.

Bir gün rəyis dairə oğlanı ğeir bir dairəyə gündərdi. Dedi; saat munca gələrsən. Sonra rəis dairə oğlanın üyünə gəldi. Arvad baxtı, gürdü kişisinin rəyisidir. Müsafir qurfasında oturtdu. Rəis dairə üzüydən həgət etməğ istədi. Ama arvad düşdü başa ki, onun başqa fikrəsi var. Bu arvad getti dürt yumurta bişirdi. Lüün - lüün etti. Boyadı üzlərin. Birsin bayaz qoydı, birsin qara, birsin qırmızı, birsin sarı.

Bu adam qırdı buları, həpsi yumurta zıxdı. Rəyis dairə arvadın əql olduğunu annadı. Rəyis dairənin iki arvadı vardı. Annadı ki, bu arvad nəyə işarə ediri.

***/Səməd Dav ud yetim, 52 yaşında,***
***savadsız, Əmirli kəndi/***

# GÜGƏRZİNİN OTLUĞU /OTU/

Varıydı, yoxuydu, bir gişiynən bir arvat varıydı. Adamın bir ixtiyar babası, bir inəgi və bir gügərzini varıydı. Babası zox ixtiyarıydı, yəni zox yaşlıydı. Arvat bu qəyinbabasına xizmət edərdi. İnəglərin sağardı. Sütünü həm izərdilər, həm də satardılar. Gügərzin də hər gün sübh bir nezə dəfə uzardı. Dimdigindən ot gətirərdi. İnəgə verərdilər, inək yediğcə, sütü zoxalırdı.

Bir gün gügərzinləri bir zəngə ot gətirdi, inəgin yanına qoydu. İnəg otdan yeyinzə şişti, qarnı zatladı, üldü. Adam inəginin ülumünə zox qızdı, sıxıldı. Tutdu gügərzinin başını qopartdı, atdı, arvat da qalan otu saxladı.

Bir gün adam yaxın bir güyə getmək istədi. Dedi arvad: babama müğəyyət ol. Babama bir şey olsa, səni boşaram. Adam zıxdı gətdi. Adam zıxannan sonra arvad getdi saxladığı otdan gətirdi, bir az dorğaladı, bir qazana qoydu, qaynatdı, şorba kimin etdi, qaşşıqdan adama izirtdi. Adam bu şorbadan izincə on dürd yaşında bir oğlan oldu.

- Arvad bu yapdığı işə zaş qaldı, dedi:

- Mən nə etdim. İxtiyar qəyin babam on dürd yaşında bir gənc oğlan oturub.

Arvadın kişisi güydən dünəndə babasının yerində gənc gürdü. Dedi:

- Babam hanı?

Oğlan dedi:

- Mən səniy babayam!

Arvadını zağırdı, dedi: hanı babam?

Arvad dedi:

- İştə, bu səniy babaydır.

Adam arvadının süzünə qızdı, dedi:

- Mənim babam ixtiyar idi, necə belə gənc oldu?

Arvad qorxusundan bir cavab verə bilmədi. Adam istədi arvadını üldürsün, arvad qazdı qonşuya getdi. Adam qapını kiriklədi, gənc babasını evdə həbs etdi. Getdi arvadının qardaşlarına xəbər verdi.

Arvadın qardaşları gəldi. Bacılarını gətirdilər, istillər bacılarını üldürsünlər.

Bacı dedi:

- Məni nişi üldürürsüz? Mən bu otdan qəyinbabama izirtdim, on dürd yaşında bir oğlan oldu. İstisiz gedin başqa bir ixtiyar gətirin, əgər o da gənc olmazsa, o zaman məni üldürün. Adamla arvadın qardaşları gətdilər tanıdıqları ixtiyar bir arvadı gətirdilər. Arvat da qaynatdığı otun şorbasın bu ixtiyar avada izirtdi. İxtiyar arvad on dürd yaşında gənc bir qız oldu. Onda adam barmağını dişlədi, dedi:

- Gügərzin mənimzün bu otluğu gətirmişdi, inək otluqdan yəyincə zatladı, mən də gügərzinin başını qopartdım. İştə olan oldu, gezən gezdi.

Qondular bir yerə yığışdılar. Gənc adam ixtiyar adamzın gənc olan arvadı aldılar. Mən getdim , bir şey vermədilər.

***Anlatan: Məhəmməd Əli Bayatlı.***
***Yaş: 60. Yıl: 1970.***
***Ağız: Tuzxurmatu ləhcəsi.***

## İLAN ŞAHI

Varıydı, yoxuydu, yalan gerzəkdən zoxuydu. Bir padşahın bir oğlu variydi.

Padşah oğluna deyir:

- Oğlum, mən ülürəm. Sənə vəsiyyət edirəm: malıva məqəyyat ol, zox xərcləmə.

Padşah üldükdən sonra oğlan babasının bütün malını xərclədi. Oğlannan nənəsi ac qalırlar.

Oğlan bir gün nənəsinə diyər:

- Nənə, bir şey varsa, ver satım.

Nənənin də evdə qalan bir zırağı vardı.

- Al, oğlum, get bu zırağı sat, parasına əkmək al gəti.

Oğlan da zırağı satar, əkmək alı, qalan parasına da bazardan bir sanduq alır, evə gəli. Nənəynən oğlan əkməki yeəllər, deəllər, yarın Allah kərimdi.

Gecə vaxtı sandıq dilə gəli, diyər:

- Azın məni, baxın izimdə nə var? Oğlan yerinnən tələsig qalxar sanduğu azar, baxar. Sanduğ izində büyük bir ilan yatıpdı. İlan dilə gəli deyər:

- Qoruxma, mən sənə əziyyət verməröm. Amma mənim dediğlərimi gərək yapasan.

Oğlan deyər:

- Sən bizə toxunma, nə istəsəv yaparam. İlan deyər:

- Qax gəl mənimlə, mən səni aparım babamın məmləgətinə. Oğlan qalxar ilanı qucağına alı, belinə sarar, yola düşər.

Az getdilər, üz getdilər, dərə, təpə düz getdilər, bir nezə gün durmadan yeridilər.

Oğlan bu təppələrdən qorxar. İlan deyər:

- Qorxuma bulara mən baxsam qazallar, bular həpsi büyük ilanlardı, məni axtarıllar, yeridilər, ilanın babasının məmləkətinə ulaşdılar.

Oğlan baxdı, bir adam oturub, yarısı adamdı, yarısı ilan...

Dedi:

- Bu nədi?

İlan dedi:

- Bu ilanların şahıdı, babamdı. Məni apar yanına, sənə hər nə versə istəmə, sən o boynundagı qutunu istərəm sələ.

Oğlan ilanı gətirdi ilan şahının yanına.

İlan şahı dedi:

- Bu ilan mənim qızımdı. Mən munu doqquz ildi axtarıram. Qızımı tapdıqıvzın sənə nə istəsəv muştuluq verrəm.

Oğlan bir nezə gün buların yanında qaldı.

İlan şahına dedi:

- Mən üz məmləkətimə dünmək istirəm. İlan şahı: Oğlanzın qırx yük altun yükləvün -dedi. Oğlan dedi:

- Mən altun istəmirəm, boynuvdagı qutunu istirəm.

İlan şahı naəlac qaldı, qutunu oğlana verdi. İlanlar oğlanı yola saldılar.

Oğlan az getdi, üz getdi, dərə, təpə düz getdi, bir yolun başında yoruldu, durdu üz-üzünə dedi.

- Mən nə əqildən qırx yüg altunu almadım, bu qutunu aldım.

Acuğunnan qutunu zaldı yerə... Qutunun izində yeddi qərə adam zıxdı, dedilər:

- Əmr et, paşam!

Oğlan dedi:

- Acam...

Yeddi adam türlü-türlü yeməğ gətirdilər, oğlan doyunca yedi, tox oldu, adamlara əmr etdi:

- Girin qutuya.

Adamlar girdi qutuya. Oğlan qutunu qapattı qoydu cibinə, başladı yeriməğə, ulaşdı üz evinə, baxtı nənəsi xəstədi, acdı.

Ginə qutunu zaldı yerə, qutudan yeddi qərə adam zıxdı.

Dedilər:

- Əmr et, paşam!

Dedi: mənə gətirdığınız yeməğdən gətirin nənəm də yesin.

Yeməğlər gəldi. Oğlannan nənə yedilər. Tox oldular. Oğlan bir də qutunu qapattı, qoydu cibinə.

Oğlan qutunun tilsimli, sehrli olduğunu annayınca nənəsinə dedi:

- Nənə, get mənimci o qanşar şəhərdəki padşahın qızını adaxla.

Nənə getdi padşahın sarayı yanında durdu. Padşah arvadı gürünzə dedi: bu fəğir arvada bir az para verin.

Arvad dedi:

- Mən fəqir dəgiləm, mən sənin qızıvı oğlumzun adaxlamağa gəlmişəm.

Padşah arvadın bu süzünə qızar, deyər:

- Sən kimsən, mənim qızımı oğlunzun istirsən?

Arvad diyər:

- Vaxtında mən də bir padşahın arvadıydım. Sən qızıvı oğluma versən, hər nə istəsən sənə vərərig. Padşah dedi:

- Mən oğlundan istərəm mənim sarayımın qanşarında bir saray yapsın. Bu sarayın izinnən bir xalı da salsın, bir ucu mənim sarayımda, bir uzu da yanki yapıdan sarayın izində olsun. Bir də qızımın yoluyzun qırx yük altun istirəm.

Arvad padşahın istədiklərini gəldi oğluna dedi. Oğlan qutunu yerə zaldı. Yeddi qara adam birdən:

- Əmr et! - dedilər.

- Oğlan padşahın istədiklərini deyincə əmri yerinə gəldi. Padşah yuxudan qalxdı, baxdı, gün zıxıb. Dedi: Cəlladına.

- Zağır mənimzin mollanı, məni neyzün yuxudan oyatmadı? Molla gəli padşahın yanına diyər:

- Padşahım sağ olsun, gün bu taydan zıxar, yoxsa o taydan? Sən gürdüyün gündəki, altundu, parlırı. Mola padşahla qonuşqurgən qapı zalındı. Qırx yüg altunun gəldiğini xəbər verdilər. Padşah baxdı, sarayının qanşarında bir saray yapıblar. Sarayın daşları biri altundu, biri də gümüş.

Padşah o zaman bildi, oğlan şərtini qəbul edibti. İkinci gün padşahın qızını oğlana verdilər. Oğlan qızı aldı, üz sarayına apardı.

Padşahın yanında bir qurnaz tacir vardı. Üz-üzünə deyər. "Belə bir sarayı yapdıqlarında bir sirr var. Mən bu sirri taparam"

Bu tacir satdığı əşyalardan alı, oğlanın sarayı ünündə durar. Oğlanın arvadı tacirdən ənlik-kirşan almaq istər. Zıxardı bir miqdar altun veri. Tacir altunu almaz, deyər:

- Gişivün sirrini süylə mənə, sənənzün zin ipəginnən yapılmış kümnək gətirrəm. Qız da üzünü yalan yerdə xəstə edər. Üzünə sarıkük sürtər. Oğlan evə gəli, baxar arvadı xəstədi, deyər:

- Hə arvad, nəyüvdi?

- Diyər:

- Mən düşünməğdən xəstə oldum. Mən bilməm bu altunnar sənə hardan? Oğlan deyər:

- Arvad, qoy bu sirr aramızda qalsın, nə varsa bu qutuda var, amma bu sirri hez bir gimsəyə demə.

İkinci gun tacir gəli, arvad, qutunu evdən zalar, tacirə veri, diyər:

- Bütün sirr bu qutudadı.

Tacir qutunu alı, yerə zalar, izinnən yeddi qərə adam zıxar, diyəllər: Əmr et, paşam! Tacir diyər:

- Bu sarayı burdan qaldırın, yeddi dəryanın dibinə atın.

Sarayı qaldırıllar, yeddi dəryanın dibinə atıllar.

Oğlan gəli, baxar, nə saray var, nə də arvadı.

Padşah oğlanı zağırı, diyər:

- Sən qızımı istədiv, sarayıv harda qaldı?

Oğlan deyər:

- Padşahım sağ olsun, sən mənə qırx gün mühlət ver, qırx gün izində tapmadımsa, mənim başımı vur. Padşah oğlana qırx gün mühlət veri.

Oğlanın bir pisiklə bir güpəgi vardı. Bular oğlana deyəllər:

- Sən qəhr etmə, biz səniv arvadıvı tapırığ?

Güpəkdən pisik gedəllər, yeddi dəryanın dibinə enəllər. Baxallar saray izində tacirlə padşahın qazı yatıbdır. Pisig husgut-husgut qutunu zalar, güpəgə veri, oğlanzın gətirəllər.

Oğlan qutunu yerə zalar, yeddi qərə adam zıxar, oğlan deyər:

- Sarayımı eyni yerinə gətirin.

Yeddi qərə adam sarayı eyni yerinə gətirillər. Tacirlə qızı tutallar. Padşahın əmri ilə igisini də üldürüllər. Padşah qaxar o biri qızını oğlana veri, diyər:

- Oğlum, erkək olan üz sirrini satmaz, hez kimsəyə də deməz. Mən də getdim, mənə bir şey vermədilər.

***Anlatan: Səmirə xanım.***
***Yaş: 45. Yil: 1970.***
***Ağız: Kərkük ləhcəsi.***

## HƏYASIZ ARVAD

Matal, matal mat atar, bir gişi xurma satar. Arvad deyər: gəti, mən yeyim, baxaq kim borca batar.

Varıydı yoxuydu, yalan gerzəkdən zoxuydu. Bir arvatnan bir kişi varıydı. Arvad zox həyasız idi. Hər vaxt kişisiynən səbəbsiz yerə düyüşürdü. Bir gün kişinin canı yandı, düşündü, duşündü, dedi.

- Mən bu arvada nə edim? Ən əyisi onu dirri-dirri gümüm.

Dirri-dirri gümsəm, gənə zıxar, gəli yanıma.

Bir gün arvadıyla üzü zülə zıxdılar. Züldə bir quyunun başında oturdular, həkat etdilər, arvad gənə gişisiylə dügüşməgə başladı.

Adamın canı yandı, arvadını təklədi, arvad quyuya düşdü. Adam dedi:

- İşdə indi rəhət etdim. Arvadı quyuda qoydu, evə dündü. Üz gün sonra dedi: gedim baxım bu arvad üldü, qaldı.

- Adam getdi quyunun başında durdu, dedi:

- Arvad, arvad, nədisən? Quyudan bir şahmaran cavab verdi, dedi:

- Sən nezə ildi bu arvadnan yaşisən? Gişi dedi:

- Yeddi ildi.

Şahmaran yığləyə-yığləyə:

-Allah səniv yardımzıv olsun, mən üz gün izində səniy arvadıyın əlində zəgdiğimi bəs üzüm billəm. Allah xatirizin məni arvadıydan qurtar elə, şərt olsun, səninzin güzəl bir qız allam.

Adam şahmaranın bu süzünə zox sevindi. Belbağını azdı, bağladı, şahmaranzın uzatdı. Şahmaranı quyudan zıxartdı.

- Şahmarannan sordu, dedi:

-Nə var, nə yox, bu üz günüv nezə gezdi? Şahməran dedi:

- Sorma, mənim bu arvad əlivdən zəgdiğimi hez gimsə gürməsin.

Nə isə ikimiz də bu zalım həyasız arvattan qurtar olduq. Sən məni munnan qurtardığıyzın, səniyzin güzəl bir qız allam.

—Adam dedi:

—Necə?

Şəhmaran dedi:

—Mən bu güydə güzəl bir qız tanıram. Indi gedərəm qızın boynuna sarıllam. Sən də gəlisən qızın babasına deyəsən ki, mən qızıyı şəhmərannan qurtarsam, qızıyı mənə verisən?

Qızın babası razı olduysa, sən mənə diyərsən:

—Ay şəhməran, qızı sal, salmazsay üldürrəm səni. Mən də qızın boynunu sallam, qazaram. Sən də qızı alısan. Adam şəhməranın dediğini etdi. Güzəl qızı da babasınnan aldı.

Yeddi gün sonra adam şəhmaranın yanına getdi, dedi:

—Sən mənimzin bu qızı aldıy. Mən necə yaşayım, mənim hez bir şeyim yoxdu?

Şəhməran dedi:

—İndi mən gedərəm, evləri arx başında olan qızın boynuna sarıllam. Qızın babası zox zəngindi. Sən də gəlisən bu dəfə qızı istəməssən, qızın babasınnan əyyi miqdar para istərsən.

Adam genə şahməranın dediğini yapdı, qızın babasınnan əyyi miqdar para aldı.

Şəhməran dedi:

Mənim işim səndən burda bitdi. Mən hər kimin boynuna sarılsam, sən mənə yaxın gəlmiyəsən, yaxın gəlsəy, səni də zallam, üldürrəm.

O məmləkətin zalım bir padşahı vardı. Aləmə zülm edərdi. Həbsxanaları gənclərlə doldurmuşdu. Hez bir kimsə səsini zıxara bilməzdi. Şəhməran da getdi, o zalım padşahın boynuna sarıldı.

Adam bunu xəbər alınca padşahın vəzirləri yanına getdi, dedi:

—Əgər mən padşahı Şəhmərannan qurtarsam, mənə nə verərsiz?

Vəzirlər dedilər:

—İstədiğin qədər sənə mülkdən para verrix.

Adam dedi:

—Daha bir şərtim var: bütün həbsxanalarda olanları azad edin, kimsəyə zülm etməyin.

Vəzirləri dedi:

—Qəbul etdiğ.

Həbsxanalardakını zıxartdılar, dəllalı zağırtdılar. Zülmün yox olduğunu dəllal yoluyla xaxa bildirdilər.

Adam Şəhməranın yanına gəldi. Şahməran dedi:

—Mən demədim sənə gəlmə, əgər gəlsəy səni də zallam, üldürrəm.

Adam yavaş-yavaş Şəhmərana yaxınlaşdı, qulağına dedi:

—Lə axir şər. Səniy xəbəriy yoxdu. Arvadım quyudan zıxdı, səni axtarrı.

Şəhməran arvadın adını eşidincə padşahın boynunu saldı… Allah xatiriyzin sən tut arvadı, mən qazım, —dedi.

Adam: —duruxma qaz, dedi: hələ arvadım bura ulaşmayıbdır.

Şəhməran qoydu, qazdı. Adam da padşahın yanında ən güzəl bir həyat yaşamağa başladı.

Mən də getdim, bir şey verəcəkdilər.

***Anlatan: Səbriyyə Bayatlı.***
***Yaş: 44 Yıl: 1973.***
***Ağız: Tuzxurtmatu ləhcəsi.***

## FATMA XAN

Varıydı, yoxuydu, yalan gerzəkdən zoxuydu, bir məmləkətdə bir karvanzı varıydı. Bu adam zox talehsiziydi. Nanca arvad alırdı, üzü karvanzılığa getdikdən sonra arvadı yalquz qalırdı, qorxusunnan ürəgi zatlardı, ülürdü. Bu karvanzı bir nezə arvad aldı, ha belə üldülər. Bir gün oturub düşünürü üz-üzünə diyiri:

—Ha zamana qədər mənim halım belə olacaq? Bir gün bir arxadaşı ona dedi:

—Gə mən səni bir yerə aparım, orda qızlar yığışıllar, sən hüsküt bax üzlərinə, naxsını bəgəndivsə, gə mənə sələ, mən onu səninzin allam.

Adam da getdi baxdı, bir taxım qızlar oturuplar, saqqız zeynillər, nanqış tikillər, əba şiraz edillər, sələşillər, gülüllər, oynullar, hər biri bir iş ediri. Bu qızların izində bir qız varıydı, zox güzəliydi, adı da Fatma xanıydı, zox əqilliydi. Həm işlirdi, həm də qızların hekayətlarını, qonuşmalarını dinnirdi. Fatma xan zox üzirəgiydi.

Karvanzı bu qıza baxırı, üz-üzünə deyir:

—Bu qız belə gürükürü zox əqillidi. Əgər mənə qızı versələr, zox şad ollam.

Karvanzı arxadaşına dedi: Fatma xanı istirəm.

Arxadaşıynan getdilər, qızı adaxladılar.

Karvanzı əlli lirə yol verdi, Fatmaxanı aldı. Fatmaxanı gəlin apardılar karvanzının evinə. Karvanzının evi bir züllüğdəydi, orda kimsə yaşamırdı, hez bir ev yoxuydu yanında.

Fatmaxan o gecə gəlin oldu. Fatmaxan kişisinnən bir nezə qoyun, quzu, inək, tavuğ, xoruz, quş istədi. Kişisi də Fatmaxanın istədiğı heyvanları aldı gətirdi.

Bir nezə gün sora kişisi qoydu getdi işinə. Fatmaxan evdə yalğuz qaldı. Evin qapısını kiriklədi, sora bildi kicannıdı. Başladı evin izini dolanmağa. Baxdı evdə bir qazan bal mumu var. Düşündü, düşündü, bu bal mumnu bir ixtiyar arvad etdi, ona əsbab giriti, əlinə bir təsbih verdi, bir namazlığ da altına saldı, dürün dibində oturtu üzünü. Bal mumunnan yapdığı ixtiyar arvada dedi:

—Sən mənim nənəmsən, mən hez bir iş yapmam sənə danışmasan.

Bu kərə Fatmaxan getti hücrələri bir-bir dolandı. Baxtı evdəki, hücrələrin birində bir arvad ülüb düşübtü. Gəldi, bal mumunnan yapdığı ixtiyar arvada danışdı, dedi:

—Nənə, o hücrədə bir arvad leşi var, mən munu nedim?

Üzü ixtiyar arvad yerinə, üz-üzünə dedi:

—Qızım, qoruxma, sən hez ülü gürməyibsən? O da bizim kimin bir bəşərdi, ülübtü... Get ülünü yaxa, gəl burdan bir parza bayaz qumaş apar, onu kefinlə, onnan sora həviştə güm üzünü.

Fatmaxan da bu işləri etti, ülünü yaxadı, kefinə qoydu, onnan sora həviştə gümdü üzünü.

Bikəz sora getti o biri hücrələri yoxlamağa. Sora getti evin küşkünü yığıştırsın, baxtı bir şey quzu kimin gəlib gediri. Gəldi dedi:

—Nənə, küşktə bir şey quzu kimin gəlib gediri, məni gürürü, qazırı.

—Dedi:

—Qızım sən olardan qoruxmadın, munnan qoruxusan? Hər nə isə onu tut endir aşağıya.

Fatmaxan getti küşkə, baxtı bu quzu kimin gəlib-gedən güzəl bir uşaxtı, tuttu uşağı aldı qucağına, yaxadı, zimdirdi, pəklədi, əsbab kiritti üzünə. Başladı munu bəsləməğə.

Bir gün Fatmaxan evin bir hücrəsinə girdi. Gürdü əcinnələr halay qurub oynullar. Geriyə dündü, dedi:

—Nənə, əcinnələr hücrədə halay qurub oynullar. Mən neyləyim?

Dedi:

—Get üz dəfə "Bismillah" sülə, indi əcinnələr qazallar.

Getti əcinnələrin yanında durdu. Üz dəfə "Bismillah" dedi, əcinnələr qazdı.

Doqquz ay sora Fatmaxanın bir oğlu oldu.

Bir gün Fatmaxan zıxar dam başına. Baxar yoldan bir yolzu keziri, bir qız da var üzüynən, yolzuya deyər:

—Əmmi, əmmi, bu qızı mənə ver, mən sənə yüz lirə verrəm. Mən yalquzam, kimsəm yoxtu. Fatmaxan yolzuyzin yüz lirə atar, yolzu deyər:

—Gəl, qızı apar.

Fatmaxan deyər:

—Əmmi, dur bir ip uzadım, qızı yuxarıya zəkim.

İpi uzattı, yolzu da ipi qızın belinə bağladı. Fatmaxan qızı dama zəkti.

Bir nezə gün sora kişisi-karvənzi gəldi, eşitti evinnən səs gəlir. Üz-üzünə dedi:

—Mənim arvadım, ülübtü, qapını azdı, izəri girdi. İzəri girincə arvad, "xoş gəldin", adam" - dedi.

Karvanzı arvadına dedi:

—Nə var nə yox?

Arvad dedi:

Nənəm bizə gəlibti, ona xoş gəldiv sələ...

Karvanzı getti qeyinənəsinin yanına, dedi:

—Xoş gəldiv.

Qayinnənəsi cavab vermədi.

Dedi:

—Arvad, nənəv cavab vermədi. Amma nənəvin əli zox imşaqdı.

Arvad dündü kişisinə, dedi:

—Gəl, mən səni nənəm yanına aparım, bəkə nənəm sələşi.

Arvad kişisinin əlinnən tutdu, gəldi nənəsi yanına. Başladı nənəsinin əsbəbini soymağa. Adam baxtı, bu arvad bal mumunnan yapılıb.

Dedi:

—Qız, gə mənə sələ bu nədi?

Dedi:

—Adam, mən hücrədə bal mumu tapdım. Bu bal mumunnan bir arvad ettim. Dedim, qoy bu arvad mənim evimin büyügü olsun. Mən də hər bir işə başlamadan gəlirdim muna danışırdım. Qoyun sağsaydım, tavuğun altına yumurta qoysaydım, yoğurt etsəydim, hər şeyi muna danışırdım, üzüm munun yerinə cavab verirdim, işimi yapırdım. İştə bu məni bu hala yetirdi. Əgər işi belə etməsəydim, o biri arvatların gimin mənim də qorxumnan ürəyim zatlardı, ülürdüm. Kişisi zox sevindi, dedi:

—Arvad, hər kimin əqli olduysa, qorxusuz yaşar. Əqli olmayanın da əqli hezti.

***Anlatan: Əhməd Həsən .***
***Yaş: 65. Yıl: 1970.***
***Aqız: Kərkük ləhzəsi.***

## PALANZI QIZ

Varıydı, yoxuydu, məmləkətimizin birində bir palanzı varıydı. Bu palanzının üz qızı, bir dükanı, bir də bir evi varıydı. Bu palanzı kərvənzilərzin yapdığı palanların əl haqqısıylə yaşamağını kezirirdi. Bu palanzı edə bildi, işlədiği iştən yüz lirə yığsın. Yığdığı yüz lirəni yapdığı yengi bir palanın izinə qoydu. Günnərin bir günündə bir karvanzı gəldi munnan bir yengi palan aldı. Palanı satannan sora hiss

etdi ki, yüz lirə qoyduğu palanı satıbtı. Mununzun zox qəhirləndi, hez bir kimsəyə də sirrini azmadı. Yalnız səbbəhtən axşama dəkin:

"Ketti də deməğ olmaz" diyərdi. İştə bu süzü gündə bir nezə kərə təkrar edən palanzıdan munun mənasını soranda palanzı: "deməğ olmaz"dan başqa hez bir cavab verməzdi.

Bir il kezdiğdən sora eyni palanı alan kərvənzi palanı gətirdi. Palan bir-iki yerdən yırtılıb sükülmüştü. Dedi:

—Ala, bu palanı, tik, doğurla.

Palanzı palanı sevinə-sevinə aldı, dedi:

—Get, yarın gə, palanıy hazırdı. Karvanzı gedəndən sora palanzı palanı yırttı. İzinnən yüz liləni zıxarttı. Bir məni kimin başladı deməğə:

Getti də deməğ olmaz,
İdti də deməğ olmaz.

Bir gün padşah palanzının dükanı yannan kezirkən palanzının mənisini eşitti. İkinci gün genə kezti. Genə palanzının dediği süzləri annamadı. Patşah palanzıdan bu məninin mənasını sordu. Palanzı "deməğ olmaz" dedi. Patşah hər nağarta sorduysa "deməğ olmaz" süzünnən başqa bir cavab vermədi. Patşah palanzıya qızdı. Palanzını saraya zağırdı. Eyni sualları sordu, genə "deməğ olmaz" süzünnən başqa bir cavab almadı. Patşah daha fazla qızdı. Patşah palanzıdan sordu, dedi:

—Nezə qızıy var?

Palanzı dedi:

—Üz qızım var.

Patşah dedi:

—Yarın istərəm qızlarıy sarayım ügünnən kezsinnər. Üzünü də ki cannı gürüm.

Palanzı patşaha dedi:

—Patşahım sağ olsun, olar qızdılar, necə olu iki cannı ossunlar?

Patşah dedi:

—Yarın oları iki cannı gürməsəm, səniy boynuyu vurram.

Palanzı qəhrli-qəhrli saraydan zıxdı, evinə getti. Küzük qızı onu qəhrli gürüncə dedi: —Baba, nezi qəhrlisən?

Baba dedi:

—Yarın patşah sizi ki cannı gürməğ istiri.

Qız babasına dedi:

—Bu zox asanttı, sən üz paqranc vedrə al bizimzin, mən padşahı annadıram. Qızlər necə ikicannı olu.

Baba bazara getti, üz paqranc aldı, qızına verdi.

Küzük qız da hər bacısına bir paqranc verdi, dedi üzlərinə?

—Hər biriyiz kümnək altınnan qarnıiza bir paqranc bağlayın, sora bir yerdə patşahın qapısınnan kezəriğ. Patşah sorduysa nezə aydı ikicannısız büyük qıza işarət etti, dedi, sən sələ: üz aydı. Ortancı qıza işarət etti, dedi: sən sələ altı aydı. Mən də deyərəm doqquz aydı kicannıyam.

Hər biri qarınnarına bir paqranc bağladılar. Patşahın sarayı yanına gettilər. Büyük qız, ortancıl qız ortada, küzük qız da arxada.

Qızlar saray ügünnən kezərkən patşah sordu:

—Palanzı qızı nezə aydan bəri kicannısan?

Büyük qız dedi:

—Üz aydı.

Patşah dedi:

—Küvliy nə istiri?

Qız dedi:

—Xiyar turşusu

Patşah ortancı qızdan sordu, qız dedi:

—Altı aydan bəri. Küvlim də badımcan turşusu istiri.

Patşah kizik qızdan sordu, qız dedi:

—Doquz aydan bəri. Küvlim də yeddi dənizin ortasında balığ qızartması istiri.

Patşah dedi:

—Yeddi dənizin ortasında necə balıq qızartması olu?

Küzük qız dedi:

—Patşahım sağ olsun, bə qız necə kicannı olu?

Patşah üsküt oldu, qızlar də evlərinə dündülər.

Yarısı patşah yüz lirə bir kisəyə qoydu, bir elziydən palanzının evinə yolladı. Palanzının küzük qızını istiri.

Elzi yüz lirədən iki lirə zaldıqdan sora qapını zaldı. Küzük qız qapıya zıxtı.

Elzi dedi:

—Nənəyi istirəm.

Qız dedi:

—Nənəm gedib biri gi etməğə.

—Büyük bacıyı istirəm.

—Büyük bacım qərəni bayaz etməğə gedip.

—Ortancı bacıyı istirəm.

—Ortancı bacım getti gül yığməğə.

Kişi dedi:

—Ala bu kissəni patşah gündərdi.

Qız kissəni aldı, dedi:

—Padşaha sələ, adam adamzın qoz gündərsə, qozu quyruğuydan yoxsa quyruğsuz gündəri?

Kişi qızın süzünnən bir şey annamadı. Dündü getdi patşaha bütün dinnədiğini dedi.

Padşah dedi:

—Biri iki etməğ, yəni əbəliğə gedib, pul qazanırıq.

Qərəni bəyaz etməğ, yəni üz almağa gedib. Gül yığməğə, yəni naqqış tikməğə gedib. Amma quyruğun kəsilməsiylə, yəni lirələrdə əssigliğ var.

Bir nezə gün sora patşah palanzının küzük qızını aldı. Amma qızla evlənmədi. Qız pərdədəykən bir nezə gün sora patşah gəldi. Qıza dedi:

—Mən "Zin" şəhərinə gedirəm. Dündüğüm zaman evlənniğ. Padşah bir taxım əsgərlərini topladı, Zinə getdi. Padşah gedənnən sora qız da bir taxım əsgərlə və bir taxım arvad topladı. Padşahın arxasınca getdi. Padşahın qonduğu yerin qarşığındakı zayın ətrafında zadırlarını qurdu. Əlbəsəsini dəgişti. Erkək əlbəsəsi girdi. Bir gün patşah munu şətrənc oynamağa zağırdı. Nə patşah munu tanırdı, nə də padşaha kim olduğunu diyirdi. Şətrənc oynadılar. Padşahı utdu, xəncərini aldı. Ikinci oyunda

padşah onu utdu, xəncərini geri almağ istədi. Arvad xəncəri verмədi, dedi:

— Mənim bir gürcü qızım var, mən munuydan evlənməmişəm. Yarın gecə səniyzin bu qızı gündərrəm. Patşah onun dediğinə razı oldu. Arvad zadırına dündü, əlbəsəsini dəgişdi. Arvad əlbəsəsi girdi, bəzəndi, gecə patşahın yanına getti. Padşahla yattı. Səbbəh olurkən zadırına gəldi. Bir nezə gün sora əsgərləriydən birliğdə üz məmləkətinə dündü. Patşahdan kicannı oldu. Doqquz ay sora bir oğlu oldu. Adını qoydu Zin. Uşağı dayaya verdi. Iki il sora patşah məmləkətə dündü. Bir nezə gün qaldıqdan sora genə gəzməyə zıxmağa qərar verdi. Pərdənin qapısında durdu, palanzı qızına dedi: —Mən Mazin şəhərinə gedirəm. Dünüştə evləniriğ.

Patşah getdi. Getdiğdən sora arvat ta bir taxım əsgər topladı, "Mazın" şəhərinə doğru üzləşdi. Erkək əlbəsəsi girdi. Padşahın zadırı qanşarında zadırını qurdu. Bu dəfə də şətrənc oynadılar, patşahı utdu, təsbihini aldı. Ikinci oyunda padşaha utuzdu. Padşah təsbihini geri dündərməğ istədi. Arvad vermədi, dedi:

—Bir gürcü qazıynən siğə etmişəm. Bəs bircə gecə onuydan yatmışam. O qızı səniyzin gündərrəm. Padşah razı oldu. Arvat getti, əlbəsəsini girdi. Bəzəndi, gəldi patşahın yanına. O gecə patşahnan yattı. Səbbəh oldu, üz zadırına dündü. Əsgərlərini topladı, məmləkətinə getti.

Patşahdan ki cannı oldu. Doqquz ay sora bir oğlu oldu. Adını "Mazin" qoydu. Uşağı dayaya verdi. Iki ildən sora, padşah gəldi. Bir nezə gün qaldı "Gül" şəhərinə gəzməğə qərar verdi, dedi:

—Mən "Gül" şəhərinə gedirəm, dünərkən evləniriğ...

Bir nezə gün sora arvad eyni əvvəlki kimi etdiği işləri etti. Patşahı utarkən yaylığını aldı və eyni işləri yapdı. Üz məmləkətinə dündü. Doqquz ay sora bir qızı oldu. Adını Gül qoydu. Gülü dayaya verdi. Üz il sora padşah geri dündü. Pərdədə güzləyən gəlinini gürdü. Onunla evlənmədi, əmisi qızı ilə evlənməğə qərar verdi. Palanzı qızını aldatdı.

Patşah toyun yapılmasını istədi. Davul, zurna zalındı. Hər kəs sevindi. Palanzı qızı daha munnan fazla dayana bilmədi. Üz uşağını gətirdi. Büyügün əlinə xəncər verdi, ortancının əlinə təsbeh, qızın əlinə yağlığ verdi, dedi:

—Padşah babayızın ügünnən kezin: nələyin:

—Zin, Mazin tutağın Gül bacımızın əlinnən, gedəğin bək babamızın toyuna.

Uşaqlar bir-birlərinin əlini tuttular, padşahın ügünnən keztilər, bu süzləri deməğə başladılar.

Padşah bunları eşidincə, xəncərini, təsbehini, yaylığını da gürüncə dedi:

—Hanı nənəyiz?

—Ordadı nənəmiz.

Padşah uşağları aldı, nənələrinin olduğu hücrəyə getti. Iştə padşah o zaman bildi, üzüydən şətrənc oynuyan, bu uzun müddətə üzüydən üz kərə yatan palanzı qızıydı. Padşah palanzı qızına dedi:

Yeyib izənənnən sora,
Qonub kezənnən sora.
Qəlyanı qoy güzüyə,
Bəxti kezənnən sora.

Padşah toyu dağıtdı. Üz uşağı olduqdan sora palanzı qızıydən evləndi.

***Anlatdı: Heybət xanım.***
***Yaş: 60, Tuzxurmatu.***

# DASTANLAR

## ARZU-QƏMBƏR MATALI

Variydi, yoxuydu, bir-birinnən hez ayrılmıyan, bir-birini zox sevən ki qardaş variydi. Bu ki qardaşın hər birinin bir arvadı varıydı. Arvatları kicannıydı. Bular hər gecə otururdular, həkat edərdilər, matal diyərdilər. Bir gecə büyük qardaş küzük qardaş dedi:

—Kimizin də arvadlarımız kicannıdı. Mənim arvadım qız doğsa, səniyki oğlan doğsa, kisi bir-birinin adaxlısı ossun. Əgər səniyki qız doğsa, mənimki də oğlan doğsa, gənə bir-birinin adaxlısı ossunnar.

Ki qardaş əl-ələ zaldı, bir-birlərini üptülər, bir-birlərinə süz verdilər.

Gün, günnən, ay, aydan, büyük qardaşın arvadı bir oğlan doğdu. Küzükünküysə bir qız doğdu. Oğlanın adını qoydular Qənbər, qızın da adını Arzı.

Bular ev qonşusuydular. Hər zaman bir yerdə yaşardılar. Bular doqquz yaşlarına ulaştılar. Qəmbərin həm babası üldü, həm də nənəsi. Qəmbər yetim qaldı. Əmisi gəldi Qəmbəri üz evinə gətirdi. Dedi:

—Arvat, qardaşım vəsiyyət edib, gərək biz munu bəsləyəğin.

Qəmbər əmisi gildə qaldı.

Bir gün əmisi Qənbərnən Arzınun əllərinnən tutdu, apardı, üzlərini molla məktəbinə. Mollaya dedi:

—Molla, bu qız mənimdi, oğlan da qardaşımın oğludu. Qızın adı Arzıdı, oğlanın da adı Qəmbər. Bular sənə amanattı, istirəm oxumaq, yazmağı ügrədəsən üzlərinə.

Molla dedi:

—Baş üstə.

Bir ki il Arzıynan Qənbər molla məktəbində oxudular. Oxumaq yazmağı ügrəndilər. Üzüncü il bunların kisinin də havasları oxumağdan savudu.

Molla Arzının babasının arxasınca adam gündərdi. Arzının babası Mollanın yanına getdi.

—Əmr et, Molla —dedi.

Molla dedi:

—Bax sənə bir süz deməğ istirəm. Mən belə gürürəm, bular bir-birlərinə aşiq oluplar. Dünən Qənbər Arzıyzin bir şer oxurdu. Dedim: oğlum, bu şer kimindi. Qənbər mənə cavab vermədi. Qənbər Arzıya belə deyirdi:

Kəsmə güzləriy mənnən,
Ayrılmaz ruhum sənnən.

Arzı da Qənbərə belə cavab verirdi:

Güzlərim ha səndədi,
Səniy eşqiy məndədi

Arzınının babası dedi:

—Molla, zarə nədi?

Dedi:

—Oğlum, mənim yanımda buların yeri yoxtu. Qorxuram bular mənim başıma oyun azallar.

Baba da Arzıydan Qənbəri evə gətirdi. Kinci gün Qənbərə dedi:

—Sən bu quzuları apar züldə yaymağa.

Arzıya da dedi:

—Sən də nənəydən evdə işlə.

Hər gün Qənbər səbbəh erkənnən qaxar, quzuları zülə aparı, axşam evə dünər, yorğun gəli, yatağına girər. Arzıydan qonuşa bilməz.

Bu ki aşiq kisi da ataş izində yanıllar. Bir-birlərini yalqız gürmüllər.

Bir gün Arzı istədi getsin Qəmbəri züldə gürsün:

—Nənə, tuluğu ver mənə gedim doldurum. Nənəsi tuluğu verdi Arzıya dedi:

—Tez gə, yubanma.

Arzı tuluğu aldı, getti. Baxtı Qəmbər quzuları yayırı. Arzı da zaya endi. Əlində saz zalırı.

Qənbər aldı sazını, dedi:

Endi Arzıbulağa
Gəldi səsi qulağa
Arzıya ərmağandı
Şirvan, Təbriz, Marağa.

Arzı Qənbərə cavab vermədi.

Arzı tuluğunu doldurdu, biləzigini soydu, əl-üzünü yaxadı.

Qənbər də gəldi Arzının başı yanında durdu, dedi:

—Molllanı kor ossun, bizi ayırdı bir-birimizdən.

Arzı dedi:

Ayrılıq uzun sürməz,
Mollamıza xeyr verməz.

Arzı tuluğunu aldı ziyninə dedi:

—Qənbərim, indi nənəm məni güzlürü. Xəbəri ossa səni gürdüm, babama diyər: daha qoymazlar məni ussu aparmağa gəlim.

Arzı evə dündü, axtı biləzigi yadınnan zıxıb. Nənəsi dedi:

—Sazı kəsilmiş, baxım yubandıy. Həlbət Qəmbərdəniydiy.

Arzı dedi:

—Yo vallah yubanmadım, belə tələsirdim, biləzigim də yadımnan zıxdı arx başında qaldı.

—Nənəsi Arzının sazınnan zəkələdi, birbaqqa qopartdı, təhqir-təhqir hekatlar dedi üzünə.

Arzı dedi:

—Gedim biləzigimi gətirim. Tez qaza-qaza getti arx başına, biləzigin tapmadı. Baxtı Qənbər quzuları yayırı.

Arzı dedi:

Tuluğumu doldurdum.
Zignim üstə qaldırdım.
Qənbər səniy eşqiydən
Biləzigim unutdum.

Qənbər aldı sazını dedi:

Ha gülşəni, gülşəni,
Güllər yerə düşəni
Biləzigiy üstündə

Nə varıydı nişanı.

Arzı dedi:

Ha gülşəni-gülşəni
Güllər yerə düşəni,
Biləzigim üstiündə
Arzı-Qənbər nişanı.

Qənbər aldı sazını dedi:

Ussular uyuq-uyuq,
Qızlar dolduru tuluq.
Biləzigiy tapanı,
Nə verisən muştuluq.

Arzı dedi:

Ussular uluğ-uluğ,
Qızlar dolduru tuluğ.
Biləzigim tapanı,
Şirin canım muştuluq.

Qənbər Arzını tutdu qucağına sıxdı, dedi:

—Nənəy, nə dedi?

Arzı dedi:

Nənəm zalım nənədi,
Dərdim bin bir dənədi.

Qənbər biləzigi taxtı Arzının qoluna. Arzı evə getti. Genə nənəsi başladı Arzıya təhqir-təhqir süz saymağa, pis-pis həkat deməğə. Dedi:

—Qoy babay kəssin, mən səniy haqqıydan gəlləm.

Axşam oldu. Arzının babası evə gəldi. Arvad dedi:

—Kişi, mən bu qızıy əlində zaş qaldım. Bu kərə Qənbər yanına, zülə gediri. Kişi də düşündü, dedi:

—Hedağ, buları bir-birinnən ayırağın.

Arvad dedi:

—İndi mən sütümnən bir az sağaram, evdəki sütə qataram, bir qab dələmə edərəm, Qənbər dələməni yediğdən sora ona diyərəm: bu dələmədə mənim sütüm də vardı. Sən munu yediğinzin Arzının qardaşı olduy.

Kişi dedi:

—Hay eşq ossun sənə, arvad, sən munu necə düşündüy?

Arvad qaxdı əmcəkindəki sütünnən bir bağa sağdı, onu dələmə etti, bir qırtabağın altına qoydu, üstünü ürttü.

Axşam oldu Qənbər züldən dündü. Acıydı.

Arvad dedi:

—Əmiarvadı qurbanıy ossun, dələmə var, get yeginən.

Qəmbər sevinə-sevinə gəldi dələminin üstünü azdı. Arzı da baxdı Qənbər dələmini yiəcəğdi. Izinə ataş düşdü, bilmiri netsin. Belə dedi:

Arzı oxun atıbdı,
Qoyun, quzu yatıbdı,
Ağzıya bir şey qoyma,
Nənəm sütün qatıbdı.

Qənbər hez bir şey yemədi dedi:

Həvişimdə izin daş,
Güzlərimnən axar yaş,
Bir əmcəkdən əmmədiğ,
Olmarığ bacı-qardaş.

Qənbər getti, səbəttən bir kəllə soğan aldı, surfadan da bir əkmək zıxarttı, yedi, başını zaldı, yattı.

Arzının nənəsi gəldi, Arzının sazınnan tuttu, zəkələdi, dedi:

—Sazı kəsilmiş, Qənbərə nə xəbər verdiy? Ürəgiy zatlasa da, üssəy də səni Qənbərə qismət etmərəm.

Arzının babası bir az sora evə gəldi. Baxtı, qızı yığlırı nəydi? —dedi. Arzı cavab vermədi.

Arzının nənəsi dedi:

—Sazı kəsilsin, qızıy eşqə düşüb, hər şeyi Qənbərə aydırı.

Səbbəh oldu. Qənbər quzuları zülə aparmaq istədi. Arzının nənəsi dedi:

—Qənbər qoy quzunun biri qassın, ətimiz yoxdu, istiriğ bir quzu kəsəğin.

Qənbər o biri quzuları apardı zülə, getti.

Arzının babası quzunu kəsti, nənəsi də bişirdi. Bir qab qızartma etti, izinə zəhir qattı, təşt altında qoydu. Axşam Qənbər gələndə dedi:

—Acam, əmiarvadı.

Arvad dedi:

—Qavurma etmişəm, payıy teşt altındadı.

Arzı yandı, halava düştü, dedi:

—İndi Qənbər bu qovurmadan yesə, ülü.

Arzı dedi:

Dalma Qənbərim, ğəmə
Aclığıy bizə demə,
Ügüydəki yeməğə,
Zəhir qatılıb, yemə.

Qənbər qovurmadan yemədi. Qəhrinnən ac yattı.

Səbbəh oldu, gənə quzuları apardı, getdi, zülə.

Arzıgilin bir qonşuları varıydı. Bu qonşusu tatıydı. Tat da yəni bizim millətnən dügüldü. Bunun yeddi oğlu varıydı. Bu qaxdı Arzını oğluyzun istədi. Arzının babasıynan nənəsi qəbul ettilər.

Axşam Qənbər evə dündü. Arzı yığlıya-yığlıya işi Qənbərə annatta.

Qənbər dedi:

Qalmadı zarəm mənim,
Qan axar yaram mənim.
Səni tata versələr,
Cigərim yanar mənim.

Arzı dedi:

—Qənbər, sən get şaha şikat elə, bəkə şah sənə kümək edər.

Kinci gün Qənbər getti şaha şikat etməğə. Bir nezə gün yeriyənnən sora Qənbər şahın yanına ulaştı. Dərdini şaha aynatmağa başladı. Şah munun aşiq olduğunu saz zalmağınnan bildi.

Qənbər sazını aldı, dedi:

Şah oğlu şahim zadə,
Gəldim, mən sənə dadə,

Daəlacsız qalmışam,
Xan Arzım getti yada.

Şah sağ vəzirinə əmr etti, dedi:

—Bir tapxur əsgər verin Qənbərə getsin, sevdiği qızı assın. Əgə qızın babası qəbul etməzsə, zorla assınnar babasını da mənimzin əssir gətirsinnər. Qənbərlə bir tapxur əsgər yola düştülər. Əsgər hələ Arzunun məmləkətinə yetişmədən əvvəl Arzunun nənəsi bir zağırdı, dedi:

—Qərri nənə, Qənbər şaha gedib şikata. Qorxuram gəssin qızımızı zornan assın. Ala mən sənə buğarta altın verim, sən bir oyun elə, bəkə əsgərlər, geri dünəllər.

Qərri dedi:

—Sən bir qazan həlvə, bir təndir əkmək hazırla mənimzin hez işiy olmasın.

Arzının nənəsi bir qazan həlvə, bir təndir əkmək yapdı, Qəriyyə verdi.

Qərri hər bir əkməgin izinə bir az həlvə qoydu. Qoyannan sora əkməkləri bir qırtabağın izinə düzdü, başına aldı, getti türbəliğə. Yengi ülən birisinin türbəsi başında oturdu. Bir-ki gün güzlədi. Baxtı, qanşardan bir tapxur əsgər gəliri. Dedi:

—Vallahi, bular Qənbərin camaatıdı. Bir az sora əsgərlər Qənbərnən bərabər gəldilər qərrini yanına ulaşdılar. Baxtılar qərri, yığlırı, başına zalırı, sazını yonuru, fəz ediri.

Qənbər sordu, dedi:

—Qərri, nolubtu, kim ülübtü?

Aldı sazını qərridən sordu:

Başa neyzin zalısan?
Hay-havarlar salısan?
Ülən kimdi? —De, sələ.
Yavaş, ruhum alısan.

Qərri dedi:

Ülüm yazıdı, oğlum,
Kəmən razıdı, oğlum.
Nənəsinin tək qızı

Ülən Arzıdı, oğlum.

Qənbər bir ah zəkdi, vayınnan qurt-quşlar da fəğan etdilər. Əsgərlər titrədilər, daşlar da zatladılar. Əlini üz-üzə qoydu Qənbər. Arzının türbəsi üzərinə güzünnən qan yaşları axıttı. Bir az sora Qənbər dündü, əsgərlərə dedi:

—Siz geri dünün, daha bir zaram qalmadı. Arzım ülübtü. Əsgərlər qəmli-qəhirli geri dündülər. Qənbər də oturdu türbənin başında yığlamağa başladı:

Qərri nənə Qənbəri hüskut ettirdi. Qənbər dedi:

—Qərri nənə, hazaman üldü Arzı?

Dedi:

—Oğlum, sən gettiğdən üz gün sora. Indi mən gəlmişəm Arzının xeyrinə həlvə paylıram.

Qənbər dedi:

—Qərri nənə, mən gettim şahdan əsgər gətirdim, gəldim Arzını alım.

Qərri nənə Qənbəri türbə başında qoydu, getti. Axşam vaxtı ordan kezən kərvanzilərdən biri Qənbəri gürdü, dedi:

—Oğlum, ülüm Allahın əmridir. Sən nəzi üz-üzüyü zalısan, yığlısən? Munu Allah da qəbul etməz. Qax, get, qax, sən erkəksəy.

Qənbər qaxdı, əmisigilə getti. Qapıya yetişti. Qapının yanında durdu. Arzı Qənbəri gürdü, dedi:

Qapıda duran Qənbər,
Boynunu buran Qənbər.
Getmişdi şah yanına,
Hanı baş vuran, Qənbər?

Qənbər sazını aldı, dedi:

Noldu qərridən oldu,
Sümük dərridən oldu.
Əsgərlər geri dündü,
Hepsi qərridən oldu.

Qənbər evə girdi, qəhrinnən şamsız yattı. Səbbəh oldu, tatgili-gəldilər, alver etdilər, yol gətirdilər, cahaz aldılar, cahaz

biztilər. Bir həftənin izində toyu da hazırladılar. Əli günü günortadan sonra gəldilər Arzunu bəzətməğə, gəlin aparmağa, ki aşiq, bir-birindən ayrılmaq istəmillər. Kisi də yığlıllar.

Qənbər getti qapıda durdu, arvatlardan birisi gəldi. Arzını bəzətməğə.

Qənbər sazını aldı, dedi:

Zalım beli bükülsün,
Ev eşiyi yıxılsın,
Arzını bəzədəni,
On barmağı tükülsün.

Birdən-birə sağ aşiqin duası kezti. Arvadın on barmağı mum kimi əridi, düşdü. Arzını gəlin aparmağa gələnlər zaştılar, qaldılar. Kimsə Arzını bəzətməğə, ona əsbab giritməğə casərət etmiri.

Həyasız arvatlardan bir arvat dedi:

—Mən Arzını bəzədirəm. Qoy mənim barmaqlarım tüküssün.

Bu arvad qaxtı Arzını bəzətməğə başladı.

Qənbər sazını aldı, dedi:

Mən Qənbərəm dağ kimin,
Titrərəm yarpaq kimin.
Arzını bəzədəni
Qərə girsin zağ kimin.

Arzının bəzəgi bitməmişti, bir uşağ havar edə-edə gəldi, dedi:

—Dayza, eviyiz yıxıldı, kişiydən oğlannarıy torpaq altında qaldılar. Arvad Arzını yerində qoydu, başına zala-zala qazdı.

Arvatlar bir-birlərinə baxıllar. Hər kəş qorxuru. Arzını bəzətsin hər kimə deyirlər. Kimsə yaxın düşmürü.

Qənbər gəldi əmisi arvadının yanına dedi:

—Əmiarvadı mən Arzını bəzədirəm. Mənnən qeyri hər kim Arzını bəzətsə, barmaqları tükülü, ülü.

Arvatlar dedilər:

—Qoy bəzətsin nə var, munda. Qənbər əmisi oğludu.

Arzının nənəsi dedi:

—Hə Qənbər burda da bizi utantırma.

Qənbər dedi:

—Mən bir şərttən bəzədirəm bəzəttiğcə bir üpüş allam.

Dedilər:

—Qeydi yoxdu.

Qənbər başladı Arzını bəzətməğə, üst əsbabını kiritməğə, sonra əlinnən, güzünnən, başınnan üptü, toxtaşdı. Arzının bəzəgini bitirdi.

Gəlini aparmağa gələnlər gəlinin qolunnan tutdular, qapıya apardılar. Qənbər də zıxdı, qapıda durdu. Aldı sazını dedi:

Yıxılsın evi tatın,
Dərtləri mənə satın.
Arzı minən atları,
Üldürün zülə atın.

Gəlini ata mindirməğ istədilər. At düştü, üldü. Yeddi at gətirdilər. Yeddisi də yerində düştü üldü.

Qənbərin əmisi gəldi, dedi: - Ala, nanca para istəsəy verim, bəs bizdən vaz kez.

Qənbər dedi:

—Əmi, mənim eşqim parayla alınmaz. Mən Arzını hez bir şeyə dəgişməm. Istəsəy mən Arzını üz tayıma mindirrəm, reşməsin də zəkirəm. Əmisi qəbul etti. Qənbər də getti tayını gətirdi. Arzunu tayına mindirdi, reşməsini də üzü zəkməğə başladı.

Qənbər dedi:

Gediriğ kəsilməğə,
Yel kimi əsilməğə.
Qaldır duvağıy, Arzı,
Vaxt yoxtu yaş silməğə.

Arzı dedi:

Dayan, Qənbərim, dayan,
Həsrətiy zıxmaz cannan.
Taylyın dizginin tut,
Güzlərim doldu qannan.

Bir az sora gəlin ulaşdı, kürəkənin evinə. Gəlin girdi izəriyə. Qənbər də durdu kürəkən-gəlin qapısında. Tatın yeddi oğlu varıydı. Gəldilər Qənbəri qapıdan qavmağa. Qorxullar Qənbərə yaxnaşsınnar. Qənbərin güzlərini qan tutub, aşiqdi, aşiq də igid oldu. Tatın oğlannarı bir-bir gəldilər Qənbərin üstünə. Qənbər bir-bir oğlannarı qavaladı. Sora tatla yeddi oğlu xisimləri gəldilər, Qənbərin üzərinə hücum ettilər. Qənbəri tutdular ülüncə Qənbəri ağacla taptadılar. Qənbərin başınnan, güzünnən qan axmağa başladı.

Qənbər dedi:

Tat oğlu küləcə boy
Etdiy Arzıma toy,
Kərəsin mən almışam,
Ayranın başıya qoy.

Arzı evdən səsləndi:

Sən məni xan eylədiy,
Güz yaşım qan eylədiy.
Hez mənə dəgməmişdiy.
Nişin bühtan eylədiy?

Qənbər dedi:

Mən səni xan eylədim,
Güz yaşıy qan eylədim,
Həpsi ağac zorunnan,
Sənə bühtan eylədim.

Qənbəri beş-altı adam tuttu. Tatın damının arxasınca attılar. Qənbər ac-susuz orda düştü qaldı, əlini yuxarı qaldırdı, dedi:

—Allahım məni bu dərttən sən qurtar. Arzım mənə qismət olmalıdı. Mənnən başqa hez kimsəyə də qismət olmasın.

Yassı vaxtı kürəkən gəldi, gəlinin pərdəsinə girdi. Pərdə namazı qılmağ istədi. Namaza başlamadan namazlığın üstündə düştü üldü.

Güzlədilər, güzlədilər, kürəkən zıxmədi. Izəri girdilər. Baxtılar pərdə ürtülü, gəlin pərdədə yığlırı, kürəkən də namazlıq üstündə ülüptü.

Kürəkənin babası getti bir şeyx gətirdi. Kürəkəni qaldırdılar ayrı ordada uzattılar.

Şeyxə dedi:

—Mənim yeddi oğlum var, Arzının kəbinini ülən oğlumnan küzük oğlan oğlumzin kəs. Şeyx də kəbini küzük oğlanzın kəsti. Bu da pərdəyə girdi, genə güzlədilər zıxmədi. Baxdılar bu da ülüptü.

Kürəkənin babası yeddi oğluyzin Arzının kəbinini kəsdirdi. Yeddisi də üldü —Səbbəh oldu, məmləkətə xəbər yayıldı: aşiq Qənbərin ahınnan tatın yeddi oğlu ülüptü.

Məmləkətin gəncləri, ixtiyarları gəldilər. Yeddi tabut gətirdilər, yeddi oğlanı gütdülər.

Tat bir də şeyxi zaxırdı. Dedi:

—Gə Arzının kəbinini mənimzin kəs. Şeyx Arzının kəbinini qəyinbabasıyzin kəsti. Qayinbabası pərdə arxasından Arzıya dedi:

—Arzı, sən yeddi oğlumzın yeddi gün yas tut. Mən də yeddi gün sora yas bitənnən sora sənə yaxın gəlləm.

Arzı bəs Qənbərzin yığlırı. Qəyinbabasına cavab vermiri.

Arzı da bir-ki gün sora dam başına zıxdı, baxtı zayın kinarında Qənbər düşübtü. Arzı havar edə-edə dedi:

Qənbər, Qənbər hardasan?
Nezə gündü dardasan.
Üzüm damnan atardım,
Bilsəydim sən burdasan.

Qənbər dedi:

Atma damnan üzüyü,
Unutma hez süzüyü.
Gəl yanıma bir gürüm,
O qan axan güzüyü.

Arzı dedi:

—Mən qorxuram gəlim, tat məni gürsə üldürü. Qənbər nağarta yalvardı, Arzı gəlmədi. Dedi:

—Əgə gəlməsəy, üzümü ataram zaya. Qənbər üzünü attı Araz zayına, az qaldı boğulsun. Arzı dedi:

Quruyasan ey Araz
Əlimizdən tüştü saz,

Qənbəri zay apardı,
Yetiş ey Xızır İlyaz!

Xızır İlyaz Qənbəri zıxarttı zaydan. Arzı dedi:

—Dur gəlirəm.

Qız qaza-qaza damnan endi. Getti Qənbərin yanına. Kisi qol-boyun oldular. Arzı baxtı, Qənbərlə eşq zəkməğdən taqət qalmayıb, rəngi saralıb, güzləri zuxura girib, burnun tutsay ruhu zıxar. Qənbər dündü Arzıya dedi:

Arzım Arzıda qaldı,
Zalım Arzımı zaldı,
Fələgin evi yansın,
Məni bu günə saldı.

Arzı dedi:

Üzüm ələ vermədim.
Duvaq soydum girmədim.
Tatın yeddi oğlunu,
Hez yanıma gürmədim.

Qənbər dedi:

Gecələr kezti, Arzı,
Qovuşmaq kezti, Arzı
Sənnən sora yaşamağ
Mənə də hezti, Arzı.

Arzı dedi:

Mən Arzıyam, Nərgizəm,
Qənbərimzin bir izəm,
Allaha and edirəm
Indi də hələ qızam.

Qənbər dündü, Arzıya dedi:

—Arzı, mən səniyzin ruhumu qoydum, yoruldum. Indi sənə qavuşdum. Allahtan belə istirəm səniy diziy üstündə belə can verim. Üz eşqimlə ülüm.

Arzı Araz zayının kənarında oturdu. Qənbər də başını Arzının dizi üstünə qoydu. Bir nezə saat kezdi. Qənbər qaxmadı.

Arzı əlini uzattı, bir daş qaldırdı. Qənbərin başını daş üstünə qoydu. Dedi:

—Mən gedim qorxuram, tat gəli məni gürər. Evə getti, baxdı tat evdə dügü. Genə dam başına zıxdı, baxtı Qənbər yatıbdı. Dam başınnan havar edə-edə dedi:

Vaxt kezti gecə qaldığ
Eşq yolun sezə qaldığ
Ah zəkdiğ, ğəmlər əktiğ
Biz dirri, necə qaldığ?

Arzı Qənbərdən cavab almadı, dedi:

—Belə gürünürü Qənbərin dediği oldu, dizim üstə həsrət zəkə-zəkə can verdi.

Əlinə bir pızaq aldı, getti Qənbərin yanına. Baxtı Qənbər ülübtü. Arzı da dedi:

—Qənbər ülənnən sora mənim də yaşamağım hezti. Bızağı üz ürəginin başına soxtu, düştü. Qənbərin üstünə üldü. Arzının qanı Qənbərin güzünnən axan yaşa qarıştı.

Gələğ o qərri oyunbaza... Dedi gedim baxım Qənbərsiz Arzı nediri?

Gəldi, tatın evinə, dedi:

—Arzı hanı?

Tat dedi:

Arzı pərdədədi.

Qərri oyunbaz getti, baxtı, Arzı yoxtu. Tat dedi:

—Bəkə dama zıxıptı.

Qərri dama zıxtı, Arzını gürmədi. Araza baxtı, gürdü, Arzıyla Qənbər bir-biri üstünə düşüblər. Dedi:

—Gə, gə bax. Arzı zayın kənarında kimiylə yatıptı. Üstlərinə də qırmızı bir tül zəkiblər.

Tat dama zıxdı, baxtı, Arzıla Qənbər Araz kənarında ülüblər.

Tat dedi:

—Suzun həpsi sənnəndi. Sən bu oyunu qurmasaydıy, nə mənim yeddi oğlum ülürdü, nə də belə rüsvay olurdum. Tat qılıncını zəkti, oyunbaz qərrini üldürdü. Qərrinin qanınnan bir damcı Ar-

zıyla Qənbərin üstünə atlandı. Qənbərlə Arzını gümdülər. Qərrini də ayrı bir yerdə gümdülər.

Qərrini bir damcı qanı QənbərləArzunun türbələri arasında bir zaqır tikan gügərdi. Hər il bu zaqır tikanı kəsəllər, gənə gügəri. Bu oyunbaz qərri o iki aşiqi o dünyada da qoymadı qovuşsunnar.

***Heybət xanım.***
***60 yaşında, savadsız,***
***Tuzxurmatu ləhcəsi.***

# UŞAQ FOLKLORU

## *MATALLAR*

### QURTTAN QOYUN MATALI

Var iydi, yox iydi, darın dünyasında bir keziynən bir qoyun vardı. Ikisi zıxdılar zülə. Zülü gəz, gəz, acdılar. Yayılılar ot yeməğə. Bir də baxdılar bir qurt. Qorxdular, durdular.

Qurt dedi:

—Qoyun qardaş, yəəcəğəm səni.

Qoyun dedi:

—Vallah qardaş, ünündə hazır durmuşam, ye məni. Fəqət sənnən rica edirəm, indi yemə məni. Gedim oynuyum bikəz ünündə, onnan sora ye məni.

Qurt dedi:

—Di, yallah.

Qoyun o yana tünqüldü, bu yana tünqüldü düşdü. O yana qaşdı, bu yana qaşdı. Sağdan sola, soldan sağa qaşdı. Elə etdi, belə etdi. Qoyun qaşdı.

Qurt bəklədi, bəklədi... Qoyun dünmədi.

Qurt qoyunu axtardı, axtardı, tapmadı. Gəldi dedi:

Kezi qardaş, yəəcəğəm səni.

Kezi dedi:

—Necə yəəsən məni? Bir məni yesəv nolusan? Mənim iki balam var. Odu ordadı. Qoy gedim əmcəklərim doludu, onnara yedirdim. Balalarımı da üzümnən gətirim. Üzümüzü birdən ye. Məni yəərsən balam qalar, balamı yəərsən mən qalaram. Istirəm üzümüzü birdən yəəsən.

Qurt dedi:

—Eyidi.

Kezi getdi dağa girdi, iki balasını da ordan apardı, getdi.

Qurt bəklədi, bəklədi, kezini. Bu dağ mənim, o dağ sənin, o təpə mənim. Axtardı kezini tapmadı.

Ikisi də getdi əlimnən-dedi. Getdi girdi bir mağaraya. Baxtı bir at. Dedi:

—At qardaş, yəəcəğəm səni.

At dedi:

—Nanca yəə bilisən məni. Sən bir cəngə qurt, mənim kimin yekkə bir atı necə yəərsən? Mən də istirəm yəəsən məni.

Məni nanca yeməğ baratım nalımın izində yazılıb. Buyur, oxu, onnan sora ye məni.

—Naluv, hardadı?

—Ayağımın altındadı.

—Qaldır, baxım —dedi.

At ayağını qaldırdı, qurt əgildi baxmağa.

At allına bir təpə vurmağıydan qurdun beynini yerə tükdü. Qurt düşdü. Hətta can verincə qurt dedi:

Gettiv gürdüv bir qoyun,
Ye qassın quru boyun.
Neynirdiv oyun-moyun,
Peyləvannığ edəcəksən?

Gettiv gürdüv bir kezi,
Ye qassın quru qızı.
Neynirdiv ikiyi-üzü,
Zobanqaralıq edəcəksən?

Gəldiv gürdüv bir at,
Ye yanaşasında yat.
Neynirdiv barat-marat,
Istanbula gedəcəksən?

Qurt gəbərdi. Qoyun xilas oldu, kezi xials oldu, at da xilas oldu.

Mən də getdim, üz alma verdilər. Biri mənə, biri matal deyənə, biri də Qədriyyəyə düşdü.

## INAD XORUZ

Var idi, yox idi. Yalan gerzəkdən zox idi. Yalanı doldurdular zuvala, dayadılar divara. Aman-zaman izində, qərbil saman

izində. Dəvə bərbərliğ edir, əsgi hamam izində. Darın dünyasında bir xoruz vardı. Günnərin bir günü paşanın küllügündə dolaşırkən bir manqır tapar. Manqırı tapınca baynamağa başlar:

—Üüülə, üüü, paşanın küllügündə bir manqır tapdım.

Xoruzun baynamasına qızan paşa adamlarına əmr edir.

—Həmən gedin, xoruzun əlinnən manqırı alın —deyər.

Adamlar gedər, manqırı xoruzun əlinnən alıllar.

Inad xoruz bannamağa başlar:

—Üüülə, üüü, paşa mənə mühtacdı!

Paşa xoruzun baynamasına zox sıxılı, paşa deyər:

—Aparın manqırı üzünə verin, bəlkə üsküt ola.

Manqırı aparıllar xoruza verillər. Xoruz manqırı gürər, daha da azar. Üskək səsdən baynar:

—Üüülə, üüü, paşa məndən qorxdu. Xoruzun baynamasına paşanın canı zox sıxıldı. Deyər:

Bu yetimzə xoruz nəyiydən atlannı, mənim kimi yekə bir paşaya süz deməgə cəsarət ediri?

Həmən adamlarına əmr verir, getsinnər xoruzu tutsunnar, başını kəssinnər.

Xoruzu tutub başını kəsillər. Xoruz zəif səsdən bannar:

—Üüülə, üüü, bu nə iti bızaxdı?

Xoruzu kəsənnər sora ütləllər, bişirəllər. Bir ləngəri pilov üstünə qoyallar. Paşanın ügünə gətirəllər. Paşa bismilla edib, əl uzadanda xoruz gənə boyanar:

—Üüülə, üüü, bu nə bəyaz kümbətti?

Zox hiddətlənən paşa diyər:

—Canıv zıxsın hə belə bayna. Əlimnən hiz qurtulmazsan. Səni təpətək yəəcəğəm.

Inad xoruz paşanın dişləri arasında gənə baynamağa başlar:

—Üüülə, üüü bu nə iti dəgirmandı.

Paşanın boğazınnan kezəndə:

—Üüülə, üüü bu nə dar suqaqdı.

Paşanın bağırsağına kezəndə:

—Üüülə, üüü bu nə sıcaq hamamdı? —deyir.

Paşa xoruzu yəənnən sora zox sıxışı. Üzünü tez əbdəstxanaya atar.

Xoruz paşanın qarnınnan zıxıb bannar:

—Üüülə üüü...

Paşanın qarnı cırıldı, mənim canım qurtuldu.

## TITLƏ-BITLƏ

Var iydi, yox iydi, darın dünyasında bir keziynən bir qurt varıydı. Kezinin iki balası varıydı. Birisi Titlə, birisi də Bitlə. Kezi balalarına dedi:

—Kimsəyzi qapını azmayın. Gedirəm yeməğ gətirim.

Dedilər: —Əyidi, hez kimə qapı azmarıx.

Kezi getdi işinin dalısıyca.

Bir az sora qurt gəldi qapıya dedi:

— Titlə, Bitlə azın qapını. Əmcəgimdə süt gətirmişəm, buynuzumda ot gətirmişəm.

Titləylə Bitlə dedilər:

—Bizim nənəmiz sarıdı.

Qurt gürdü aldada bilmir üzlərin. Neetdi? Getdi sarı boyandı. Gəldi, dedi:

—Titlə, Bitlə azın qapını.

Əmcəgimdə süt gətirmişəm, buynuzumda ot gətirmişəm.

Titləydən Bitlə dedilər:

—Bizim nənəmiz qırmızıdı.

Qurt neetsin. Getti qırmızı boyandı. Gəldi dedi:

— Titlə, Bitlə azın qapını. Əmcəgimdə süt gətirmişəm, buynuzumda ot gətirmişəm.

Titləydən Bitlə dedilər:

—Bizim nənəmiz qaradı.

Qurt gürdü aldada bilmiri üzlərini, hiddətləndi. Belə zərb ilə qapıya bir təpmə zaldı. Həmən qapını qırdı. Ttiləydən Bitləni yedi, getdi.

Kezi gəldi, gürdü qapı qırılıb, Titləynən Bitlə yoxdu. Bildi ki, qurt yeyibdi üzlərini. Getdi qurta dedi:

—Yarın dəvəyə gəl.

Sora kezi əmcəgin sağdı, bir zinni yoğurt, etdi, apardı dəmirziyə. Onunzu iti buynuz düzəltsin. Qurt bunu gürdü. O da bir dağarcuğu havaydan doldurdu, izinə də bir noxud attı. Dəmirziyə apardı, hətta dəmirzi dağarcuğu azanda həmin part etsin, dəmirzinin güzün kor etsin.

Dəmirzi bilir, qurt hizdi. Dağarcuğu ehtiyatla azırı. Dəmirzi dedi:

—Qurbanım olasan, qurt. Noxudu tox yedi, onnan sora kezinin buynuzunu belə ititdi. Qurdun da dişlərini zəkdi, yerinə samırsağ qoydu. Səbbəh qurtnan kezi meydana zıxdılar.

Qurt dedi:

—İlk ükcə sıra məndə.

Kezi dedi:

—Eyidi.

Qurt həmən dişlədi kezini. Bütün dişləri yerə tüküldü.

Sıra gəldi keziyə. Həmən buynuz vurmağıydan qurtun qarnın yırtdı. Titləydən Bitlə zıxdı. Balalarını gürüncə dedi:

—Demədim mən gəlməsəm kimsəyzi qapı azmıyasız?

Titləydən Bitlə dedilər:

—Biz azmadıq, dediğ nənəmiz sarıdı. Getdi sarı boyandı, gəldi. Dediğ nənəmiz qırmızıdı, getdi qırmızı boyandı gəldi. Dediğ nənəmiz qaradı. Hiddətləndi, qapını qırdı, girdi bizləri uddu.

—Hiz kimin qisası qalmaz, balalarım, o üz qanına girdi —kezi dedi.

## KEZƏL OĞLAN MATALI

Var iydi, yoxuydu, darın dünyasında bir kezəl oğlan varıydı. Bu kezəl bir gün yerirkən ayağına bir tikan batar. Baxar bir arvad oturup əkmək yapırı. Diyər:

—Etə, etə, bu tikəni zıxart ayağımnan.

Etə qaxar tikəni kezəlin ayağınnan zıxardı, atar təndirə.

Kezəl diyər:
—Etə!
Diyər:
—Nə?
Diyər:
—Hanı tikənim, ver tikənmi.
Diyər:
—Oğlum atdım təndirə, needim mən?
Kezəl diyər:
—Tikənim istərəm, yoxsa əkmək istərəm.
Qaxar etədən bir təndir əkməgi alar, gedər. Gedər, gedər, zıxar zülə. Baxar zobannar süt sağıblar. Hə belə izillər əkməksiz .
Kezəl diyər:
—Alavın əkmək verim —doğravın izinə.
Əkməgi veri, zobannar yığışı. Tox doyunca yeəllər o sıcağ əkməgi. Yəənnən sora kezəl diyər:
—Mən əkməgim istərəm.
Zobannar diyəllər:
—E... ülə vermiyəydin, gürürsən yedıx.
Yox, illə istərəm, olu olmaz. Ya budu əkməgim istərəm, yoxsa bir qoyun istərəm.
Gedəllər bir quyruğu büyük qoyun sezəllər.
Kezəl diyər:
—Yo, mən belə qoyun istəməm. Belə qoyun ossun, yağı budunnan axsın.
—E... diyəllər, get üzün sez.
Gidər, bir zəif, bir ülü, bir xinniqi burunnan axmış qoyun sezər.
Diyər:
—İştə bu iyidi.
Diyəllər:
—Di apar.
Aparı qoyun. Gəli baxar bir yerdə qalabalıxdı. Sorar:
—Bu nədi?

Diyəllər:
—Toydu.
Diyər:
—Alavun qoyunu kəsin. Qoyunu veri. Olar da kəsillər, yeəllər.
Kezəl diyər:
—Gətirin, qoyunumu verin.
—E... gürürsən kəsdix, bişirdix, yedix. Vermiyəydin.
Kezəl diyər:
—Yo, ya qoyunumu istirəm, ya tamburacının tamburunun istirəm.
Olu, olmaz. Zordan tamburanı alı əllərinnən. Zıxar gidər. Tamburanı zalırı, maanı deer:
—Tamburam zındı, zındı. Tikən verdim, əkmək aldım. Tamburam zındı, zındı. Əkmək verdim, qoyun aldım. Tamburam zındı, zındı. Qoyun verdim, səni aldım, tamburam zındı, zındı, tamburam zındı, zındı.

## KEZƏL OĞLAN

Var idi, yox idi, darın dünyasında bir kezəl oğlan var idi. Bu kezəlin bir manqırı var idi. Bilməz üzünə nə alsın. Zaş qalıb əlində. Diyər:
Manqırı qoza verim, qabığı var, üzümə verim, pülüşü var, badama verim, qabığı var.
Gidər bazarda dolanı, bu manqırı nəyə versin, bir şeyi xəsər yolmasın.
—Nə alsın?
Diyər:
—Vallah noxuda versəm daha əyi olı, bir şeyi yoxtu, hamısı yeyimdi.
Gidər bir manqırlıq noxud alı. Gidər bir nəccar tükənində oturu, başlar munu yeməgə. Yəər, yəər biri qalanda bilməz salar havcar arasına. Kezəl nəccara diyər:
—Noxudum düşdü havcarın arasına. O havcarıı qırgınan, noxudum verginən.

Nəccar diyər:

—Küppək oğlu, mənim səbbəhdən munu yapınca canım zıxıb. Indi bir noxudzü qırım üzünü. Babam da gəlsə qırmam.

Kezəl gedər ağanın arvadı yanına.

Diyər:

—Xatun, ağaya sələginən nəccarı vursun, nəccar havcarı qırsın, havcar noxudum versin.

O da diyər:

—Yəni bir noxudzü qaxsın havcarı qırsın, havcar noxudum versin.

Kezəl gidər diyər:

—Sızan!

Diyər:

—Nə?

Diyər:

—Xatunun buxzasın dəlginən.

Xatun ağaya demiri, ağa nəccarı vurmurı, nəccar havcarı qırmırı, havcar noxudum vermiri.

Sızan da etməz dedigin.

Kezəl gidər pisigə diyər:

—Sızanı yeginən. Xatunun buxzasın dəlmiri. Bilməm nə...

Pisik də etməz.

Gidər diyər:

—Küpək!

Diyər:

—Nə?

Diyər:

—Pisigi üldürginən. Pisig sızanı yemiri, sızan xatunun buxzasın dəlmiri, xatun ağaya demiri, ağa nəccarı vurmuru, nəccar havcarı qırmırı, havcar noxudum vermiri.

Küpək də etməz. Gidər diyər:

—Qapı.

Diyər:

—Nə?

Diyər:

—Ağa gələndə ürtülgünən. Xatun ağaya demiri, ağa nəccarı vurmurı, nəccar havcarı qırmırı, havcar noxudum vermiri.

Qapı da diyər:

—Nişi ağamın boyuna heyran olmuram? Nişi ürtülürəm?

Gidər diyər:

—Nə?

Diyər:

—Qapını yandırgınan. Qapı ürtülmürü, ağa girməsin. Xatun ağaya demiri, ağa nəccarı vurmurı, nəccar havcarı qırmırı, havcar noxudum vermiri.

Ataş da etməz.

Gidər yağışa diyər. Vallah bir yağış olu, bor yel, bir tufan olı. Ataşı sündürü, qapını qırar, xatun ağaya diyər. Ağa naccarı vurar, naccar havcarı qırar, havcar noxudu verər.

## DAVZANQURTAĞI

Var iydi, yox iydi, darın dünyasında bir davzanqurtağı var iydi. Bu davzanqurtağının kişisi yoxdu. Bir gün odanı sipirirkən bir manqır tapar, eşigi sipirirkən də bir manqır tapar. Gidər bazara. Birini veri əvliğə, birini veri kirşana, üzünə sürtər. Zıxar yazıya, gidər ərə varmağa. Baxar yolda bir bağban. Bağban diyər üzünə:

—Hara belə davzanqurtağı?

Davzanqurtağı hiddətlənər:

—Ağzına qızılqurt, nə deməğ davzanqurtağı?

Diyər:

—Sənin adın nə qoyağın?

Diyər:

—Mənim adım qoyun davzanxatun, sazbağı burxan xatun.

Bağban diyər:

—Davzan xatun, sazbağı burğan xatun, hara gediri?

Diyər:

—Gediri ərə varmağa.

Diyər:

—Gə, mənə var.

Diyər:

—Varsam sənə, acığın kəssə, məni neynən vurarsan?

Diər:

—Əlimdəki bu bel sapıynan.

Diyər:

—O ağacdan bir dənə vursan, mənə, mən ülləm.

Varmaz üzünə. Gidər baxar o yanda bir cüt sürən. Cüt sürən diyər:

—Ha davzanqurtağı, hara gedisən?

Diyər:

—Ağzıva qızılqurt, nə deməğ davzanqurtağı?

Cüt sürən diyər:

—Bə səniy adıy nə qoyaq?

—Mənim adım qoyun davzanxatun, xan xatun, sazbağı burxan xatun.

—Bu xatun hara gediri? —cüt sürən sorar üzünə.

Gediri ərə varmağa.

Diyər:

—Var mənə.

Diyər:

—Varsam sənə, acığın kəssə, neynən vurarsan məni?

Diyər:

—Səni bu cüt ağacıynan vurram.

Diyər:

—Onnan bir dənə vursan mənə, mən ülləm.

Cüt sürənə də varmaz. Gidər baxar o yanda bir sizan küllükdə oynuru.

Sizan sorar:

—Hara belə davzanqurtağı?

Diyər:

—Mənim adım qoyun davzan xatun, xan xatun, sazbağı burxan xatun.

—Bu xatun hara gediri?

—Əri ülüp, gediri ərə varmağa.
Diyər:
—Gə var mənə.
—Varsam sənə, acığın kəssə, nəynən vurarsan məni?
Diyər:
—Quyruğumun bir tayın yağa batırram, bir tayın bal küpəsinə batırram. Gətirrəm o şirin güzlərinə sürtərəm.
Diyər:
—Beləysə mən varram sənə.
Davzanqurtağı bir gün sızana diyər:
—Gəti əsnabın ver, aparım yəxiyim.
Davzanqurtağı baxar o yanda bir bütün qabıqlı, bir qoz qabığı, bir badam qabığı. Bunları qaldırı aparı su başına. Oturu, istər əspabları yəxəsin. Badam qabığını fincana edər, qoz qabığını qazan edər, bütün qabığı tas edər. İstər bulara su qoysun, yəxəsin. Düşər zuxurun izinə. Ha əl-ayaq atar, hiz zıxa bilməz. Baxar o yannan iki-üz atlı kezirdi. Diyər.
Atlılar, atlılar, yəxəsi baratlılar, sələvin Əli bəgə, yəxəsi telli bəgə, düşsün əsgərdən ügə, dumbulbasın dügə. Minsin altun atına, kəssin davzan xatunu dəryahdan zıxartsın.
Əli bəy, yəni sızan həmən olaşı yanına, diyər:
- Ver əlivi zezimə, səni dəryahdan zıxardım.
Davzanqurtağı diyər:
- Əlimi verməm. Mən sənnən küsmüşəm.
Sizan bir daha diyər:
- Ver əlivü.
Davzanqurtağı zuğabın verməz. Sizan tox darılar, davzanqurtağına bir təpmə zalar, tumduru üzün, gidər-üzüyzün bir qeyri arvad alı.
Mən də getdim. Mənə bir şey vermədilər. Güydən üz alma düşdü. Birin matalzıya, birin mənə, birin də Əliyə verdilər.

## İKİ KEZƏL

Qamzıya qüvvət, Məhəmmədə salavat. Var iydi, yox iydi, darın dünyasında iki kezəl varıydı. Bu iki kezəl hər nə sənətə qoyuldu, başa aparmadılar. Ha belə xoru —xoru gəzdilər.

Bir gün onnardan biri gəldi dedi: Nənə bu xoruzu kəsim, qay-nat, qovurgınan, aparım padşahzı. Bəkə mənə bir hədiyyə verdi. Nənəsi dedi: İyidi.

Xoruzu kəsdi, verdi nənəsinə. Nənə qalxdı, ütlədi, bişirdi, qovurdı. Bir qonşudan bir bala sinni gətirdi, bir peştəmal üstünə zəkdi, verdi kezəlin başına, kezəl getdi, getdi, yetişdi qəsrə. Baba yol verin, gedirəm padşah yanına. İşim var.

Pis kezəl, get ül o tərəfdə.

Padşah səni neynəsin?

Dedi: - Gedin üzünə sələvin. Sələvin bir kezəl gəlip, səninzü hədiyyə gətirip, baxın nə diyər. Qavdı məni, gidərəm, ya qavmadı, gəlləm, girrəm izəriyə.

Dedilər: - Eyidi.

Getdilər padşaha dedilər:

- Padşahım, bir kezəl gəlib, inad olup, bunca edirıx getmiri, diyiri olur, olmaz girrəm, padşahı gürrəm.

Padşah dedi:

Kezəllər kef olullar, gedin salın izəriyə, kəssin kərəğin nə istiri.

Nə başuvuzu ağrıdım. Kezəl gəldi izəriyə. Baxdı padşah otu-rupdu, yanaşasında da sağ vəzir, sol vəzir. Apardı xoruzu sinniy-dən, peştəmalıydan qoydu padşahın ügünə.

—Kezəl, bu nədi?

Dedi: - Padşahım, Allah ümürlər versin səyə, gügdə imanım, yerdə gümanım bu xoruzdu. Munu qavırdım sənüvzi hədiyyə gətirdim.

Padşah dedi: Eyidi. İndi üz biziğ, bir də sən. Bunu dürt təqsim elə yəəğin.

Kezəl xoruzun başın padşaha, sağ qanadını sağ vəzirə, sol qanadını sol vəzirə verdi. Güvdəni də zəkdi üzü yeməğa.

Padşah dedi:

- Kezəl, bu necə hədiyyədi bizimzi gətiribsən? Bu necə bülüşdü?

- Padşahım, Allah ümürlər versin. Qılıncın kəsərli ossun. Sən başsan, baş ye. O da sağ vəzirdi, sağ qanadı yesin. Bu da sol vəzirdi sol qanadı yesin. Mən də yetimzəyəm güvdəni yəərəm.

- Hamısı başladılar gülməğə. Kezələ yüz altun verdilər, yola saldılar.

- Qaza-qaza gəldi nənə yanına. Kefi asimandaydı. Dedi:

- Nənə, xarabmı etdim, bir xoruz apardım, padşah yanına. Yüz altuna verdim padşaha.

O biri kezəl eşitdi. Canına ataş düşdü. Gəldi evdə cüngələri vardı. Dedi —Nənə. Dedi: ha! Dedi: bu cüngəni kəsim, dərisini soyum, munu əyi qaynat, iyi bişir, belə güzəl qızart, qavır, qoy bir sinniyə. Bir peştəmal zək üstünə. Aparım padşahzi.

O bir xoruza yüz altun aldı, mən bir cüngəyə indi iki yüz altun allam. Nə başuvızı ağradım. Bu kezəl də gəldi yetişdi padşahın qəsri yanına. Quran hərraslar qoymuru, üzünü izəriyə.

Dedi:

- Babam, gedin sələvin padşaha bir kezəl gəlib sənüv yanıva.

Getdilər, dedilər. Padşah dedi:

- Kezəllər kef olur, nə var, salın üzünü izəryə.

Kezəl gəldi girdi izəriyə. Baxdı, sağ vəzir, sol vəzir, padşah oturuplar.

Padşah dedi:

- Hə, Kezəl nişin gəldüv.

Dedi:

—Padşahım gügdə imanım, yerdə gümanım bir cəngəm var iydi. Bir şey tapmadım sənə layiq gətirim. Bunu kəsdim, qavırdım, sənə hədiyyə izin.

Padşah dedi:

Əyidi kezəl. Munu təqsim edə dürdümüzə. Biz üz, sən də bir olduq dürt.

Kezəl bir büyük kümə etti qoydu padşahın ügünə. Onnan bir küzik kümə etti, qoydu sağ vəzirin ügünə, onnanda bir küzik kümə etti, qoydu sol vəzirin ügünə.

Dedilər: bəs sən?

Dedi: Mən istəmirəm.

Zağırdı: - Kavvaş, gə muna yüz şaq zək.

Yüz şaq zaldılar üzünə, atdılar yazıya. Yığıla-yığıla sinnidən peştəmalı aldı qoltuğuna, gəldi evə.

Niş yığılsan, oğlum?

Dedi:

- Dur oğlum, indi gedərəm arvadının yanına.

Qarı abanı ürtdü, getdi xanımın yanına. Dedi:

-Allah qəbul etməsin, peyğəmbər qəbul etməsin.

Qonşu kezəl bir xoruz apardı, yüz altun aldı. Mənim oğlum bir cüngə qovurdu, apardı yüz şaq yedi. Munu Allah necə qəbul edər?

Nə başuvuzu ağrıdım. Axşam xanım padşahnan hərəkət etdi.

Dedi:

-Allah bunu qəbul edər? Sən padşahsan ədalət iş tutmamısan. Allah səni taxtundan-tacundan edər.

Padşah dedi:

- Hiddətlənmə xanım, yollarıx o iki kezəl kəssin sənün ünündə buları sınaram. Bax, sən də mən verdiğimə yüz altun verməsən, yüz şaq zaldığıma, sən də yüz şaq zalmasan, sən deyəndi.

Dedi: Şərt.

Dedi: Şərt.

Yolladılar. Hər iki kezəl gəldi. Əvvələn padşah zağırdı xoruz kezəlini.

Padşah beş yumurta qoydu ügünə.

Dedi —Kezəl, mənəm sənsən, arvadımdı. Munu üzümüzə təqsim edə. Bir-birimizdən zidd - əssük olmasın.

Dedi: Əyidi!

Bir dənə qoydu padşahın ügünə. Bir dənə qoydu üz ügünə, üz dənə qoydu xanımın ügünə.

Padşah zıxartdı yüz altun verdi xoruz kezəlinə. Dedi sən get. Zağırdılar cüngə kezəlini. Nə başuvuzu ağrıdım. Züngə kezəli yımırtanın üzün qoydu padşahın ügünə, ikisini qoydu xanımın ügünə. Üzü qaldı azıxda. Dedilər: Bə sən?

Dedi: - Mən istəmirəm.

Xanım bir tox darıldı. Dedi: Qalxın muna yüz şaq zalın. Əgə sən bir şey istəmisən, padşahın yanına nişi gəlisən?

Mən də getdim, mənə bir şey vermədilər.

## TÜLKÜNÜN HİYLƏBAZLIĞI

Biri varıydı, biri yoxuydu, bir ormannıxda aslan, qaplan, qurd, tülkü, zaqqal, tıspağa yaşardılar. Bir gün olur ormannıxda usu qurur. Bular da susuz dolanıllar. Axtarıllar, axtarıllar, baxallar bir yerdə bir sazğuntu bulaq axırı. Yığışdılar munın ətrafına qazıllar, büyük bir gül edillər. Bir tək tülkü gəlməz, yardım etməz üzlərinə.

Bular da ara yerlərində ittifaq edillər, bir dənə qoysunnar bəkləsin. Tülkü sudan izməsin. Əvvəlcə qoyallar zül dauşanın məqayət olsun, tülkü gəlib su izməsin. Dağılıb hərəsi bir yana gedir. Tülkü gürür yalnız dauşan suya məqayət oluru.

Istərsən su izsin. Dauşanı necə aldatsın? Diyər dauşan, niyə durupsan. Odur orda kük, ləhanə tükülüb qalıb —Dauşan gələr baxsın. Tülkü su izib qazar.

Səbbəhi gün tıspağanı qoyallar. Tülkü gəlib deyər. Təpənin o tayında arpa gügərib. Mən yeyə bilməm. Get yeginən. Tıspağa gedər, gürər aldadıb üzünü tülkü. Tülkü su izib yenə gedər. Axşam arxadaşlar yığışallar. Şərtləşərlər, səbbəh hamı gülün yanında olsun. Tülkünü tutub cəzalandırsınlar. Belə də edillər. Tıspağanı gülün sahilində qoyub zəkillər. Tıspağa tülkünü gürən kimi başını qatar.

- Baba, bu kərə qoymam, su izəsən, nə bilim nə ...

Arxadan tülkünü tutdular.

Aslan deyər:

- Tülkünün cəzası nə?

Deyəllər —Üldürəğ üzünü.

- Baba, nə yolla üldürəğ tülkünü?

İttifaq edəllər qurt tülkünü yırğalasın, yırğalasın, əzabla üldürsün.

- Tülkü, ülümqabağı arzuy nədi? —sorallar.

Tülkü deyər: Mən razıyam, günahım var. Əzabla üldürün mə-ni. Ama bir az quyruğuma və bədənimə yağ sürtün. Iştə yırğa-lamaq müşgülə olmasın.

Deyillər : Əyidi.

Yağ sürtəllər tülküyə. Qurd tülkünün quyruğundan tutduğuy-dan dolandırmağı bir oldu. Istədi qüvvətli dolandırsın, əli sürüşdü, tülkü qurdun əlindən zıxıb iraqda yerə düşdü və qazıb getdi. Hiyləbaz tülkü bu dəfə də heyvanları aldatdı.

# UŞAQ OYUNLARI

## MUNCUQ KÜMMƏ OYUNU

Iki qız bir muncuğu torpağa soxar, sonra torpağı iki qismə bülər. Muncuğun torpağın hansı qismində olduğunu o biri qızdan sorar. Tapdıysə üzünün olur. Birisi digərinə hiylə qurarsa, o birisi deyər: Tanrı zağala verməz.

## GÜZ YUMMA

Evin izində kizik uşaqlar oynarlar. Birisi güzünü yumar, digərləri gizlənərlər. Sonra güzünü yuman o biriləri axtarar.

## HAVADA NƏ VAR OYUNU

Iki oğlan uşağı oynayır. Biri o birisini arxası üstə arxasına alır. Oyun belə başlanır. Yerdəki deyir:

Piştim tağı, sabunum raqi.
Havada nə var?
Cavab —Güg muncuq.
Sonra havadakı deyir: Yerdə nə var?
Cavab: Tağalıq.
Nənən nə doğdu: Bir oğlan.
Adı nədi?
—Məhəmməd.
Məhəmmədə salavat.

Sonra yerdəki arxası üstə o birinin arxasına minir. Oyun beləcə davam edir. Kim tez yorulsa uduzur.

## GÜZBAĞLAMA

Kizik uşaqlar birisin güzün bağlarlar, ətrafında dolaşaraq səs sala-sala üzünü xəfifcə vurarlar. O, səs gedən tərəfə əl atar. Əli kimə toxunsa onun güzünü bağlayarlar. Beləcə oyun davam edər.

## CIZIĞA ATMA

Biri-biri izində üz düvrə cizgi olur. Uzaqdan dəgirmi daş atılar. Ortaya düşərsə, yaxud da digər iki cizgidən hansına düşərsə ona münasib /şərtə gürə/ kizik uşaqlar qoz və ya başqa meyvə, büyük uşaqlar para alırlar.

## QARA QAZ

On yaşına qədər oğlan uşaqları oynayırlar. Oyuna başlamazdan əvvəl: "Bizdən olan gəlsin bəriyə, zəkilməsin geriyə" deyir, iki qismə bülünürlər. Bir qism gizlənir, ikinci qism qara qaz, qara gəldi —deyərək onları axtarırlar.

## TƏPMƏ OYUNU

Oğlanlar oynayırlar. Birisi birtək ayaq üzərində dolaşır, digərlərini havadakı ayağı ilə vurmağa zalışır. Onlar da bunu xəfifcə dügməyə zalışırlar. Bir ayağı üstündə dolaşanın o biri ayağı yerə dəydiysə uduzur və yenə oyun davam edir. Havadakı ayağı ilə vurdiysə o biri ayaq üstündə dolaşmağa başlayır. Oyun beləcə davam edir.

## ƏVƏLƏMƏ, DƏVƏLƏMƏ

Bir oyun bir nezə cocuq tərəfindən oynanılır. Cocuğun biri:

Əvələmə, Dəvələmə,
Ignə, ignə, ucu dügmə
Qoz ağacı, qotur kezi
Yürülə, yırtıla
Su izə, qurtula.

—süzlərini süylər. Süylədikcə əlini yanındakı cocuqların küksünə vurar. Son misra /su izə qurtula/ hər kimin üzərində bitdiysə, o oyunu qazanır /udur/.

## UZDU, UZDU

Üz-dürd cocuq bir araya toplanaraq biri bir tağım süzlər qonuşar. Misal, "Evimizə bir qondu, su izdi, sonra uzdu" —deyər. Digər cocuqlar da "uzdu, uzdu" —deyərlər. Sonra cocuqları şaşırmaq üzün sürətlə "Bir adam uşdu, bir dağ uşdu" —deyərkən hər kimsə təkrar etsə uduzar. Zünki adam ilə dağ uzmaz.

## TƏKMƏLƏ CÜT

Iki ovuc yumulur. Birinə tək, o birinə isə cift /cüt/ muncuq daş, üzük, para və s. buraxılır. Digər cocuqdan hansı əldə cüt və ya tək olduğu sorulur. Tapsa udur.

## SAXLANBAC /GIZLƏNPAZ/

Üz, yaxud beş nəfər güllə-güllə oynar. Hər kəs birər güllə qoyar. Sora bu güllələri gətirəllər atallar. Hətta kim ügdə atsın. Hansı ügdəysə ona deyəllər bəg. Onnan sorakı olı bəgərdi. Onnan sora deyəllər qax. Onnan sora qax buğaz. Onnan sora gəli büyük qax. Gəlillər oynamağa. Oyun da hə belədi. Orta yerdə bir şey olur yeməgəkə, alma, armud, xurma, biskit, halva və bu kim şeylər.

Ügdən bəg atar. Ikinci bəgərdi atar. Üzüncü qax atar. Əgə gəldiysə qax vurdiysə o güllələrdən birinə şərtləri variysə ügdənki başlanır. Deyillər o hez, qax onda bəgin düvrün alır. Bu şərt yoxiysə orta yerlərində deyəllər "dırr" oldu. Bir də başdan dünəllər. Əgər şərt varsa orta yerlərində qax da atdı vurmadı. Ügdə kim gəlir?

—Bəg.

Bəg başlar o şeyləri yeməgə.

Əgə gəldisə, bi tək dənə qaldıysa, atar bir dənəyə. Dəgdiysə, şərikdilər. Dəgmədisə, olar atallar, əgə dəydiysə qazar yeməgi bə-

gin əlinnən alallar. Əgə dəymədiysə iştə belə gedipdi. Bəg təkinə yeyir.

# UŞAQ OYUN MAHNILARI VƏ S.

## DÜZGÜLƏR

Aldan yeşil, xub yaraşır,
Aldan sarı, qoxmuş qarı.
Aldan mavi, bəklər avı,
Aldan bəyaz, kezəl Niyaz.

Buzu-buzu buzaxdı,
Şorba yedim, sızaxdı.
Iynə yığdım bulandım,
Dam-divarı dolandım,
Bilsəydim getməziydim,
Alverə girməziydim.

Mollam məni oxutdu.
Sarı sazım zoxaltdı.
Əmmim qızı Xədicə,
Dündərdi məni saca.

Zinzini tavıq yağda bişər,
Bala seyran qalxar-düşər.
Abla-abla yerim düşə,
Odu gəldi İhsan Paşa.

Devə-devə həntişə,
Qulağına qurd düşə.
Saqqız verrəm zeynəməz,
Qızına vurram oynamaz.

Aman, aman Şıx Bəhri,
Kimsə zəkməz bu qəhri.

Bazara hindi gəldi,
Al ata mindi gəldi.

Günəş zıxdı, həlvə bişdi,
Yəhudulara qırran düşdü,
Bir təpmə zaldım,
xəndəyə düşdü.

Həcci ləqləq havada,
Yımırtası tavada.
Qara qızın suzu yox,
Yımırtanın izi yox.

Etə, etə,
Sarı səbətə,
Yımırta qoydum,
Hanı cücə?

Mirzalığ,
Həsən zalığ,
Yeddi balığ,
Günortalığ.

Haxla, haxla, buxava.
Atlandım getdim ava.
Avda bulamac yedim,
Mollamdan ağac yedim.

Mollam yoğurd gətirdi,
Pişik burnun batırdı.
Pişik burnun kəsilsin,
Qanaraya asılsın.
Qanaranın kilidi,
Odu kakam belində,
Kakam Hillə yolunda,
Hillə ahu gəzər,
Ahuların balası,
Məni gürdü kiklədi,
Ocağa zırikllədi
Ocaqdan yumaq zıxdı,
Yumağı verdim Şata.
Şat mənə küpük verdi,
Küpüyü verdim quşa.
Quş mənə qanad verdi,
Qanadlandım uzmağa,
Haqq qapısın azmağa,
Qapısında bir xatın,
Məhəmmədi bələyir,
Əlini xınnalayır,
Güzünü sürmələyir.

* * *

Hə, boru, boru, boru,
Izində var iki koru.
Iki xoruzum salışdı
Birisi qana bulaşdı
Qan dilədim dilimzin,
Kəmər yoxdu belimzin.
Kəmər gedib oduna,
Qarğı dəyib buduna.
Qarğı dəgi qamışdı,
On barmağı gümüşdü.
On barmağı pük ossun,
Dəmir xana yük ossun.
Dəmir xanın nəsi var?
Top oynayan oğlu var.
Inci düzən oğlu var.
Əl atdım incisin qırdım,
Şaha xəbər verdilər.
Tut ağacın kəsdilər,
Şahdan xəbər gəlincə,
Kərkükə yüklədilər,
Kərkük sənə nə gəldi?
Bir xınnalı quş gəldi,
Xınnalı quşu uzurtdum,
Yeddi dağı kezirtdim.
Yeddi dağın zaqqalı,
Qıpqırmızı saqqalı.
Həsənivəm, Hüseyni,
Yezidə nələtim var.
Yezid gəldi yel kimin,
Hər yanı bir dev kimin.
Yetişsin İmam Əli,
Doğrasın pəncər kimin.
Həsəni damnan atdılar,
Qanlı qılıncın satdılar.
Qanlı qılınc pas tutar,
Fatma ana yas tutar.
Həsən dedi: —vay baba,
Cignimə verdilər aba
Fatma ana gir eyvana,
Hüseyn bulaşdı al-qana.

Hüseyn dedi, vay başım,
Hanı qavım-qardaşım?
Fatma ana təndir sala,
Kündəsi kəsili qala.

Yezidə lənətim var.
Yezidə lənətim var.

* * *

Top-top misri kətan,
Kimiydi kəssək atan?
Atanı, atmıyanı,
Miraza yetmiyəni.
Mənim adım Gül xatun
Boynumda var yüz altun.
Yüz atun bir quş oldu.
Bək oğlu gürmüş oldu,
Oxuydan vurmuş oldu.
Mən bəgimnən bezaram,
Kətan küynək mil-milə,
Gəl alış bizim dilə.
Bizim dil axzalıdı,
Dürd yanı baxzalıdı.
Ipək yağlıq su zəkər,
Dünər hovuza tükər.
Tosbağayadan, qolbağa
Get di kəbin kəsməğə.
Ilan belin bağladı,
Getdi yolun kəsməğə.

* * *

Tülkü, tülkü bilzəni,
Qoyma qapıdan kezəni.
Onki cücəm boğubsan,
Dağ başında durubsan,
Biğlərini burubsan.
Yağış yağırı,
Qurt doğuru.
Oğlan nənəsin boğuru
Kik, kik, kik.

—Yerivin qızlar,
– yeriməriğ
– babıc allam.
– Istəməriğ.
– Üzük allam.
– Istəməriğ.
– Hicil allam.
– Istəməriğ.
– Qolbağ allam,
– Istəməriğ.
– Qınqab allam.
– Istəməriğ.

Zara-zara zambura,
Haqq başında tambura.
Yel gələ yandıra,
Yağış gələ söndürə.

## QUŞ DİLİ

Orta yaşlı uşaqlar arasında başqası anlamasın deyə süzlər müəyyən hərflər artırmaqla süylənir. Kezmişdə yaşlılar arasında da tez-tez eşidilən bu danışığa "quş dili" deyirlər.* Süzlər

arasında q, b, z və s. hərflər artırılır. Bu hərflərin hər biri bəlli bir quşun səsinə dəlalət edir.

Q —qarğa, b —bayquş, z —zığırzın /sığırzın/ və s.

Hara gedirsən? —belə səslənir:

Qarğa dili, haqaraqa geqidiqisəsən?

Bayquş dili ilə, habaraba gebidibisəban?

Zığırzın dili ilə, hazaraza gezidisəzan?

## ACITMALAR

Acıtmalar Kərkük dolaylarında indinin üzündə belə uşaqlar arasında dəbdədir. Uşaqların zehnini inkişaf etdirmək, onları düşünməyə vadar etmək kimi bir amala xidmət edən bu süz oyunu iki uşaq arasında baş verir. Birinin ağlına gələrək tələffüz etdiyi süzə, digəri həmin süzün qafiyəsində elə süz və ya cümlə deməlidir ki, həm mənası olsun, həm də ünündəkini acıqlandıra bilsin. Məs:

Birinci uşaq: Süylə "yasın"
Ikinci uşaq: Başın yerdən qalxmasın!
Birinci uşaq: Süylə "acam".
Ikinci uşaq: Acsan acıq ye, dəgirmanda cocuq ye.
Birinci uşaq: Süylə qazan".
Ikinci uşaq: Ülülər yanında uzan.
Birinci uşaq: Süylə "zarxı".
Ikinci uşaq: "Boğazın dəgirman arxı".
Birinci uşaq: Süylə "evədi".
Ikinci uşaq: "Nənəv, babav dəvədi".
Birinci uşaq: Süylə "Həsən".
Ikinci uşaq: "Qolbağa yəəsən" və s.

* Azərbaycanda buna uşaqlar “qarğa dili” deyirlər.

## ZAŞIRTMALAR

Aşzı Həsən aş asdı,
Asanda ağlı zaşdı.

Usta Həsən aş asmış,
Yaxşı asmış, xoş asmış.

Bağ başqa, bağza başqa
Başqa bağ, başqa bağza.

Bizim soqaqın düngəsi,
Alaca inəgin cüngəsi.

Bu təpəcədə dürd güg bürk,
O təpəcədə dürd güg bürk,
Bu təpəcədəki dürd güg bürk,
O təpəcədəki dürd bürkə dedi:
Nedisiz o təpəcədə dürd güg bürk?

Qırx qırğılıq, qırxının da qızı qırığ qırğılıq.
Qırx güp, qırxının da qulpu qırıx küp.

Qırx küp, qırx qulp,
Qırx qulpu qırıx küp.

Dağdan endi on beş boz eşşək,
Beşi bez yüklü boz eşşək,
Beşi düz yüklü boz eşşək,
Beşi qoz yüklü boz eşşək.

Dəgirmanda kürkli qoca,
Kürkün silkər ora qoyar.
Səni silkər bura qoyar.

Dəgirmana girdim
Sildim, sipirdim.
Silkindim zıxdım
Ərkək sərzə şorbası,
Bildirki yumurtası.

Su basmış şoxum,
Su basmamış şoxum.

## SANAMALAR

Salı sallanır – (Zərşənbə axşamı)
Zərşənbə zullanır – (Zərşənbə)
Əli xanım – (Cümə axşamı)
Cümə canım – (Cümə)
Şənbə düşmənim – (Şənbə)
Əhət, canım rahat – (Bazar)
Peyğəmbərə aslavat – (Bazar ertəsi)

## BARMAQLARIN VƏSFİ

Şah barmaq
Şəhadət barmaq
Uzun hacı
Səlb ağacı
Küzik bacı.

# KƏRKÜK DÜNYASI

## ƏSKİ KƏRKÜK EVLƏRİ

Kərkükün əski bizim evləri. "Büyük ev" və ya "Üz güz dam" adlanırdı. Bu gün imkanı olan başqa bizim evlər qurur. Lakin əksər evlər qədimdə olduğu kimi qalır. Evlər daşla, kirəclə, palzıqla, əsasən "ayı balası" kimi tanıdığımız ziy kərpiclə tikilir. "Büyük ev" havuşun izində tikilir. Soqaq qapısına "havuş qapısı" deyirlər. Havuşdan "Büyük evə" girilən qapıya "Ev qapısı" deyilir. "Ev qapısı"ndan girincə uzun, enli "Ətibə" gəlir. Qarşı tərəfdə "Dür" durur. Dürün sağında və solunda yan güzlər durur. Yan güzlərin üstü küşkdür. Küşklərin nərdivanları ətibədəndir. Dürə bitişik sirxana və xəzinədir. Sirxana, xəzinə və küşk qapılarından başqa "Büyük ev"in izində qapı yoxdur. O biri bülmələr azıq kəmərlər Ətibədən ayrılır. Kəmərlərin və dürün dabanı Ətibədən bir-iki qarış yüksək olur. Pəncərələr qapının hər iki tərəfində və üstündədir. Evdə başqa pəncərə yoxdur. Bülmə kəmərinin alt yanında mərmərdən düzəldilmiş iki "dayanacaq" olur.

Büyük evlərin kimisi həqiqətən büyük, kimisi kizik olur. Lakin tikilmiş və bizimlərinə gürə hamısı bir-birinə bənzər. Hamısının da ocaqlığı, təndiri, hamamı, odunluğu havuşda. Qapıdan girər-girməz ailənin üzvləri havuşda və evdə güzünüz ünündə canlanır. Hər şeyə güz qoyan nənədir. Kərkükdə nənəyə "bibi" də deyirlər. Bibi işdən əl-ətək zəkmiş, başındakı qara boyamanın üstünə bir də namaz bezi ürtmüşdür. Altında düşək, dürdə dayanacaq dibində oturub qapıyı güzlər. Bibi evə hakimdir. Hər şey ondan sorulur. Sağa-sola güzlə, süzlə buyruq verir. Hər gələn müsafir üncə onu salamlayır. Qadınlar "zibin" küynək geyirlər. Küksünə "sıxma", başlarına "salta" və ya "fərmana" taxırlar. Küksləri̇ndə pul-pul altundan yeddi bağlı "Aşıq bənd" olur. Sazlarını hürük edib ipək qaytanlarla altun qozalı "Saz bağ" və ya şinşin "şinqir" bağlayırlardı.

Dürdə "şiqalat" deyilən səkinin üstündə üzləri allı-yaşıllı təmiz yataqlar, yorğanlar, üzlərinə rəngli yun ipdən toxunulmuş kənarları sürməli-sürməli zibinliklər ürtülür.

Divarda "lokuldan" adlanan rəflərdə evin tabağ-zanağı, qabları düzülür. Güründüyü kimi, nə varsa evin izində, hər şey dürdə, hər şey güz ünündə.

Ümürləri evdə kezən qadınlar, qızlar dürdə toplanır, əl işləri işlərlərmiş. Namazlıqlara, zibinliklərə, cecimlərə yun əyirirlərmiş. Başlarındakı saltalara "tel tirmə" düzəldər, kişilərin bürklərinə ipəkdən naxış işlərlərmiş.

Başarılması zor və zox əmək tələb olunan iş olduğu zaman məhəllənin bütün gənc qızları "iməci"yə gəlir, işi əlbir gürürlərmiş.* "İməci" nüvbə ilə bütün evlərdə olardı. Qızların arasında nişanlı olanı varsa, nişanlıları onlara zərəz və meyvə göndərərdi.

Qış hazırlıqlarını, bayram ərəfəsi işlərini, toy ərəfəsi cehiz işlərini "iməci" yolu ilə yoluna qoyarlarmış. Bir yandan iş gürülür, bir yandan mahnı deyilir, xoyrat deyilir, tapmacalar sorulur.

***/Danışdı, Şakir Sabir Zabit,***
***folklorşünas. Bağdad, 1974/***

## BAZAR-DÜKAN

Kərkükdə hər nəsnənin xas-bazarı olardı. Dəmirzi, halvazı, pızaqzı, nəccar, dərzi, palanzılar, bazarları, qatma və iplik bazarı. Bazarlar xasdı. Tozzular bazarında at, qatır, kezi, sığır, inək satardılar. Buğda, arpa və digərləri buğda meydanında satılardı. Dükanlar da bazara bənzirdi. Məs. qəssab, baqqal və əttar dükanları yan-yana düzülərdi. Bunlar indi də belədir.

Baqqal dükanları iki cürdür. Buna gürə də baqqallar da iki adla tanınır: quru baqqal, yaş baqqal.

Quru baqqallar yaz /yay/, güz, qış, bahar quru nəsnələr satarlar: quru üzüm, quru tut, patata, fasuliyə, xurma, badam, kişmiş, noxud, baqla, quru soğan, lobiya, qoz, doşab, yağ, bal və s.

---

*Buna eynilə Zaqatala-Şəki-Balakən rayonlarında da rast gəlinir. Birgə gürülən belə işə burada da "iməci" deyilir. Iməci avqust ayından sonra Katex kəndində indinin üzündə belə yer qalmaqdadır.

Yaş baqqal satar: yaş meyvə, yaş soğan, qeysi, badımcan, tamata, yaş fasuliyə, isbanağ, ləhanə (kələm) yerkükü və s. Əttar dükanında zox şeylər satılır, mərciməgi, qətir məgi, məstəki sənəmki, qardaşqanı, hel, darzın, sarıkük, zəncəfil, bibər, ənbər, zinalması, üzərlik, səlb qozu, alboyağ, hələb kirşanı, nabat, buruğ ağacı, güzdaşı, səndəl, acı saqqız, şirin saqqız, sürmə, sizan otu, tərə-türə toxumu, piyan kükü, zeytun yağı, hind yağı, xaşxaş, heyva toxumu, narınc qabuğı, nar kükü, qoxukəsən, əcəm zirəsi, bətrə, xınna, kibrit, sabun, ev sabunu, ignə, zualduz, dügmə, balıq zəhri və s.

Bazarla bağlı bir şey də var. Mal alıb-satana yardım güstərərək ondan para alan adamlar da var. Bunlara "dəllal" deyirix. At, qatır, əşək və s. satışında sahibinə yardım edən adama "canbas" deyərix.

Bazarda gürkəmli sima tacirdir. Baqqal, əttar, xurdavatcı, bəzzaz, allaf, zələbzi. Allaf —buğda taciridi, əttar yemək-izmək nəsnələri taciridi, bəzzaz —parza taciridi, zələbzi qoyun taciridi. Hə belə tacir mallarını bir yerdən hoqqa, batman, kivic, ərşun və s. ilə satarlar. Kərkük hoqqası 2566 qramdı. Batman 15.396 qramdı. Daş zəkisi 16 batmandı. Kivic buğda ülzüsüdü. Bir qutu ülzükdü. Bir kivic 65 Kərkük hoqqasıdı. Arşun, qumaş ülzüsüdü. Arşun iki zeşiddi. Hələb arşunu, şah arşunu. Hələb arşunu 69 santimdi. Müvcud olan ərəb yardı da belədir. Şah arşunu 91 santimdi. Ingilislərin yardı şah arşununa bərabərdi.

Bazarda ağız deyəni qulaq eşitmir.

Xiyər, təzə tər, qələmi xiyar. Bunnan yeyən oğlan doğar, yemiyən üzün boğar, qaz yumurtası üzüm, alma, yavan alma, yeyir-

sən bu almadan ye, yemirsən yemə alma. Altun qavunu, al qavunı, sat qavunı, inanmazsan dat qavunı- deyə qışqırırlar. Alver edənlərdən tez-tez naxsı /hansı/ nişin /nə üzün/, neerə /hara/, nə tühür /necə/, nanca /necə/, nə təhir /hansı/ rəng, noldı nəyşə kimi təəccüblə tələffüz edilən süzlər eşidilir.

Satılan malın təzəliyi, dadı, faydası da uca səslə süylənir:

Şəkərdən dadlı, baldan şirin.

Bızaq şərtiydən qarpız.

Satıcı süzlərini təsdiq etmək, daha zox müştəri toplamaq üzün pızaqla qarpızı kəsir, qırmızıdırsa, “Qan edibəm”, “Qan edən qarpız” deyə daha da ucadan qışqırır.

Bazarda günsarısınadək qalabalıq olur.

## KƏRKÜKDƏ SƏNƏT VƏ SƏNƏTKARLAR

Kərkükdə zeşidli sənətkarlar olmuşlar. Indi zoxu qeyb oldu. Dəmirzi, nəccar, culha, sabunzı, nalbənd, küzəzi, boyaqzı, zinizi, sibilzi, dabbağ, palanzı, qondarazı, saatzı, qazanzı, halvazı, pızaxzı, nəqqaş, kirşanzı, bərbər, dərzi, qaltaqzı, irğat, qayazı, qılzı, şişzi və bu kimi sənətkarlar olmuşlar. Onlar müxtəlif nəsnələr yapmışlar.

## DƏMİRZİLƏR:

Dəmirzilərin yapdıqları nəsnələr bunlardır: orağ, bel, kərki, cancar, balta, toxmaq, nal, mıx, zincir, şiş, cift dəmiri, dəmir qazux və s. Dəmirzi bu hacatları qullanır: kürə, ocaq, zəküc, zindan, yan zəküc, qabağ baş zəküc.

## NƏCCAR:

Bunları yapır, tarla üzün: yaba, bel, kərki və balta sapı. Ev üzün: qapı, isgəmli /stul/, taxt, pəncərə, nəqişli sanduq, havcar, cancar.

Nacar hacətləri: kərki, zəkuc, rəndə, bilay, kəlbətin, küniyə, qattuh, zarx, fut mastara və digərləridir.

**CULHA:**

Yunk corab, zarşəf, cecim, namazlıq və s. toxur, rəngarəng nəqişlərlə işlərlərdi.

**QONDARAZI:**

Geyilmiş ayaqqabıları təmir edən, yamaqzı.

**PIZAXZI:**

Xəncər, qılınc, pızax yapardı.

**QAZANZI:**

Qazan, tua, süzgəc, zümzə, qab-qaşux, gümgüm, kəfkir, səhəng, tas, hamam tası, ləgən, hamam ləgəni yapardı.

**SABUNZI:**

Sabun yapana deyəllər. Bu sənət Kərkükdə əski sənətlərdəndir.

**NALBƏND:**

At, qatır və əşşəgi nallayan sənətkara nalbənd deyilir. Nalbənd hacətləri, kəlbətin, nalalma-küzük zəküc, yonacaq-dırnaq yapan, qırağac —dırnağı kəsən, top-dırnaq altına buraxılan taxta mıx, zindandır.

**KUZƏZİ:**

Küzəzi dükənində bu nəsnələri gürmək olur: küp, nağara, /büyük qab/, su tası, yazı şərbəsi-mürəkkəb şüşəsi, incana

/balaca tüzt/, neft cürəsi, qazan papağı, dünbələk, boyaxana küpü, saxsı, badə və s. Göründüyü kimi küzəzi su qabı yapardı.

## BOYAQZI:

Boyaqzı nəsnələri küp, zümzə, dügəc idi.

## ZİNİZİ:

Zinizi dükanında zini küpü, rəngli gül saxsısı, yağ küpəsi, düşab küpəsi, turşı küpəsi, qavurma küpəsi və zinilər olardı.

## SİBİLZİ:

Kərkükdə sibilzilik sənəti tütünün /tüstü/ qullanması ilə bağlı yaranmışdır. Sibilzi bacaları təmizlərdi.

## SAATZI:

Saatları təmir edir.

## NƏQQAŞ:

Evlər, camelər və s. rəngarəng boya ilə suslanırdı. Bu işi görən sənətkara nəqqaş deyilir.

## BƏRBƏR:

Baş təraş edən və sünnət edən kimsəyə deyərlər. Bərbər bığ ünü alır, saqqalı qələm edir. Qullandıqları hacətlər: makinə, daraq, minqac, fırza, qayış və s.

## SƏRRACLIQ:

Sərraclıq Kərkükdə incəsənətlərdən olub. Sərrac aşağıdakıları düzəldirmiş: qobur qablığı, saat qablığı, qurşaq, fişənglik, durbin qablığı, siğara qutusu, boyuntırlıq, para zantası,

yartaxım və yartaxımın hissələri. Məs: qaltağ, üzəngi, sərzin, nərməzin, zulan, quşğun, üzəngi qayışı. Sərracın qullandığı hacətlər: pızaq, dəzgə, pərgal, biz, bilau, daş zəngəl, cüt ignə, zəküc, kəlbətin və s.

## İRĞAT:

İrğat işində işlənən hacətlər: mastara, şavul, tərəzi, küpiyə, xit, mıx, teşt, külüng, dəmir, kürək, qazma, balta, kərki, ülzü, malıncdır.

## QAYAZI:

İrqat işlərində qullanılan daşı qayadan partladıb daş qırana qayazı deyirlər. Qayazı üzün aşağıdakı nəsnələr vacibdir: top, meydan, kürə, küskü, qaşuğ, şiş, burğu, tel, barud, balta, toxmaq, külüng, xorda külüng qutu, şəltə.

## DABBAĞ:

Gün düzəldənə dabbağ deyilir. Gün necə düzəldilirdi? Deyək ki, dabbaqxanaya camus dərisi gətirilib. Camus dərisi bir gün suya buraxılırdı. İkinci gün hər tərəfdən dəmirlənir taxtaya bərkidilir və yenə suya buraxılırdı. Yumşalana qədər hər gün suyu dəyişdirilirdi. Dəri yumşalınca üzərində gürünən ət alınır və dəri taxtadan qoparılırdı. Sonra tağara adlı büyük bir qaba buraxılır. Əvvəlcə tağarada arpa unu su ilə qarışdırılır ki, həll olsun. Bu "aşlıq" adı alır. Dəri iyirmi gün bu "aşlıq"da qalır. Sonra zıxarılır və taxtaya dəmirlənir. Tük dəmiri deyilən alətlə təraşlanır, yaxanır və taxtadan zıxarılıb yeni aşlığa buraxılır. On gün sonra yenidən taxtaya dəmirlənir və qaşınır. Sonra ətrafı kəsilir və on gün yenə də suda saxlanılır. Dürd gün dəri üzərində gəzər və tapdarlar. Sonra dəri zıxarılır və əl ilə silinirdi. İki gün toz izində qalırdı. Üzüncü gün zıxarılıb sərilirdi. Beləliklə, gün hasil olurdu. Səxtiyən və meşin isə qoyun və kezi dərisindən yapılırdı.

## QILZI:

Qılzılar yaral, həgbə, zual, gəbə və s. üzün iplik yapırdılar.
**Palanzı:**
Palan və zul yapardı. Həcəti zualduz, pızaq və s. idi.
**Şişzi:**
Şişzi bunları yapardı: zaxmaq, mıx, nal, zualduz, şiş və s.
Şişzi hacətləri: zəküc, kəlbətin, kürə, zindandır.
/**Danışdı: Şakir Sabir, Baqdad, 1974**/

## OTRAXZILIQ

Mən, Kərxi Hacı Ümid Otraxzı qonuşuram sizlərzin otraxzılıqdan. Bu üzu bir sənətdi. Xalılar satarıx. Xalılar zoxdı. İtali xalısı. İran xalısı, kürd xalısı. Sora düşək satırıx. Yastux da satırıx, tük yastuğu da var. Sora cecimdi. Qoyun yüngündən olı. Sora kilimdi. Sora gecədi. Bizdə bunun üzərinə bir süz də var: «Gecə, əməgü getti hezə». Kezə kezi tükündən olı. Sora bataniyyə satarıx. Bataniyyə olı: fəttah paşa və Sin bataniyyəsi. Sora gəli zadır. Zadırda yaşallar, yazıda izində. Qoyunı olan adam alı üzüni. Züldə yev yapırdı. Hətta qoyunı otarsın, yaşasın izində. Bu da qildən olı. Sora xurcdı. İki güzi olı. Sora gəli zual. Arpa, buğda vaxtı yazıdan izində arpa, buğda qoyallar gətirəllər. Saydıxlarımızdan ən bahalısı İran xalısıdı.

**/Kərxi hacı, 46 yaşında, savadsız, Ərbil şəhəri/**

## GÜYDƏN ŞƏHƏRİN ARASINDAKI FƏRQLƏR

Mən üzüm güylüyəm. Şəhərdə də gəzmişəm. Güydə yediğimiz nədi? Günümüz nədi? Qonşuluğumuz nədi? Əkdiğimiz-bizdiğimiz nədi? Məişətimiz, yaşayışımız nə üzərindədi? Məmləkətin də buna qarşı. Biz yevdə oturux. Bizim damımız qamışdandı, həsirdəndi, camırdandı. Gəlisən məmləkətə. Baxırsan qəsirdi, hamısı kərpicdəndi, izində hamamı var. Biz nə giririğ. Qış günü farva giririx. Farva

nədi? Farva qoyun dərisinin olu, izi tüklü olur. Onu girrix. Nişin? Savux olur.

Gələrsən şəhrə, baxırıx yevdə picəmə giriblər, sazların darayıplar.

Baxağın biz nə yeyərix, olar nə yiyəllər? Biz geşgənək, burğul, məcmək, noxud, pirinc yiyərix. Üzümüz əkərix, üzümüz yiyərix. Olar da yiyər. Gürək nə yiyəllər? Şəhərdə səbbəh qalxallar gamış qaymağı yeyəllər mürəbbəydən, günorta pilaudan bamiyə yəəllər, axşam meyvə də yeyəllər. Biz güydə and izə billəm sizə meyvə nədi bilmərix. Şəhərə girənnən-girənə bir portaxal və yaxud bir alma alıx, yarsın üzümüz yeerix, yarsın aparrıx evdə uşaxlar yesin.

Gələk, baxaq biz güydən məmləkətə necə gedərix. Gürgükdən necə gəlillər güyə. Biz güydən gedərix şəhrə əşəgdən, qatırdan, bəkirdən, arabanaydan. Üzümüz və uşaxlarımız minirix arabanaya, yəni üz yanımızdan gedirıx şəhri ziyarət etməyə. Şəhrdə bir gecə oturmaxzin bir gün yol gedirix.

Qardaşa deyim, olar necə gəlillər bağımızı gürsünnər, bağzamızı gürsünnər. Qəmərəydən gəlillər. Bir günlük yolu beş dəqiqəyə gəlir və beş dəqiqəyə gedillər. Güylülər nə üzərinə yaşar? Güylülər üzüyüz bilirsiz bir az arpa, bir az buğda, bir az mərcimək, qışlıq səpəllər yerə.

Gəlipdisə yiyəcəklər, gəlməyibsə yeməyəcəklər. Şəhərdə bir qismi idarələrdə işləyir. Bir qisminin mağazası var. Bir qismi sinemada işləyir. Bir qisminin zayxanası var. Bir dənə gürmürüx əyi yaşamasın.

İştə Allax bizi belə yaradıb. Qışın üz ayını güydən zıxa bilmərix bir yana. Nüşün? Yağmur bir yannan, yel bir yannan, tufan bir yannan.

Qardaşa deyim, zamur izində boğullux. Damımız axar. Bir yer tapmarıx oturağın, yatağın. Dam axanda altına bir səhən buraxarıx.

Şəhərdə isə yağış olara kar etməz. Radioları var, televizionnarı var, musiqi dinnillər. Biz ax, of, vay-vay, ya Rəbb,

ay havar deməxdən dildən düşərix. Şəhərədə isə televiziona baxar, ay aba! Pəh-pəh-pəh deyəllər.

Qışda bizi yağış buraxmaz yatağın. Gələğin yaz /yay/ günü necə olur. Hələ qış bitməmiş yazı fikirləşirix. Bahar bitməmiş güzü fikirləşirix. Zənn et ki, hükümət kordu, kardı. Nə yaşayışımızı gürər, nə də ah-naləmizi eşidər. Bizmki həyat dükü. Yaz günü bir mizəklər olur, qardaş, yalan olmasın zalanda adamı yandırır. Bilmisən nədi. Nə gecə yatmağımız var, mizəkin əlindən, nə də gündüz işimizi işləyə bilik. Bir qism cibinnər də var ki, olara deyərik əşək zibini. O zibinlər də başlar bizi zalmağa. Yazda toz olur. Bəzən evimizdə yemək yeyə bilmənix. Axşamlar istərix bir az yemək yeyəğ, mizəkdən dollar. Əkin əkərix. Gəldi-gəlmədi fərq etməz. Vergi verrix. Dam vergisi, əkin vergisi, bostan vergisi, yer vergisi, daha bilməm nə. Ama işlərix. Buna gürə də baxarsax canımız sağlamıx, qüvvətliyix, işləyənix. Şəhərdə güyün fərqi hesaba gəlməz. Şəhərdə oğlan qızı gürün, üzün sevə bilər. Bizdə yox.

Qardaş, güydə nə oğlan qızı gürə bilir, nə qız oğlanı gürə bilir. Zünki qız evdən zıxa bilməz yazıya. Əgər qız oğlanla zıxarsa yazıya, qardaşı və yaxud xısımı qızın başın kəsər, üldürər üzünü. Oğlan da bunnan tərəfə qızı gürüb sələşmədiyindən bilməz necə qızdı. Bizdə güydə sevişmə haramdı. Güydə hez olmaz sevgidən alsın qızı. Amma oğlan qızı ala bilər. İndi səniyzin qonuşuram necə allıllar qızı. Oğlan əgə həddinə olaşıb. İstiri qız alsın, şərtdi xısımlarınnan alsın. Bizdə bu adət var. xısımmıza qız verib —qız allıx. Mən qızımı verrəm əmioğluna, əmim qızın verir mənə. Hə belə. Oğlan qızı gürmür. Yalnız nənəsi, bacısı gürə bilər qızı. Nənəsi gələr oğluna deyər. İqtə qız belə güzəldi, belə tərbiyəlidi. Oğlan da deyər —əyidi. Belə olan halətdə oğlanın babası gedər qız gilə. Qızın babasilə qonuşur. Qızın babasının əqli kəsdiysə başlar qızın vermağa —Süz verir, süz alıllar. Yol parası verilir. Sonra kəbinnərinin kəsəllər.

Kəbinnən sora oğlan istəsə qızı tez qaldırı, istəsə gec. Deyək, bir ay sonra oğlan istəyir bu qızı qaldırsın, başlar toy etməğə. Hə bizdə adət budu.

Qardaşa deyim, bir şey də qaldı. Əsgidə bizdə xan, bəg, ağa həl-hələ səyiz /mala baxan nükər/, xizməkar, xizmətzi də yesir də deerix, ona koxa, bəkzi yəni güzətzi, güy muxtarı, yəni güy ağası olardı. İndii həpsi qaxdı.

**/Danışdı, Məhəmməd Nuri Baqvan, 1965, 36 yaşında, Altun Küprü/.**

## ALTUN KÜPRÜDƏ EVLƏNMƏ

Mən Rəmzi Küprüli indiki Altun Küprüdə olan toylarımızdan qonuşacağam. Bir oğlan bir qızla məmləkətimizdə necə sevişillər? Məmləkətimiz ətrafı sulı bir yerdir. Orda bundan ügcə su zoxiydi. Qızlar şərbəni qaldırıb su başına gedillər. Orda da gənclərimiz olıllar. Gürincə bir-birlərini əgə güüli qızı tutdiysə və ya qızın gülü oğlanı tutdiysə və ya qızın gülü oğlanı tutdiysə ancax güzdən baxar. Bir iki gün belə kezər. Onnan sora qonuşmax olı ara yerlərində. O qonuşmağı da üzləri bilillər. Qonuşannan sora süzləşillər, filan dəqqə gəlləm mən su gətirmağa. Dama yorğan yaz günnəri filan zaman ataram. Ey ... iştə belə şeylərdən. Qız əlin başına vurar, oğlan bili qız istiri, üzüni. İştə oğlan istəsə evlənsin, necə evləniri. Qız əlin başına vurar, oğlan bili qız istiri, üzüni. Iştə oğlan istəsə evlənsin, necə evləniri. Iştə gəlir yevə dava ediri. ... filan ... bilməm nə. Nənəsiligi hiss edəllər bunın bir şeyi var. Utanırı desin. Xalası gəli, xalasına diyər. O da nənəsigilə qaxar gəli bir vasıtaydan nənəsigilə olaştırı, oğlanın arvad istəməğin. Gəlillər, oğlum, bir belə şey eşitmişiğ. Güzün yerə salar, sələşməz. Hey diyəllər dayın qızı var, əmin qızı var, diyər istəməm. Dayzay qızı həpsin sayallar. Hez birin istəməz oğlan. Bular da diyər bə kimi? Tez eləginən deginən. Əvəl deməz. Olu-olmaz. Diyər filanın qızın. Qalxallar, gidəllər dilaxzılığa. Əgə oğlan qohumlarının hez birin olmazsa. Diləxzilix

